ISSN: 2664-4975

# GEOSTRATEGİYA

2022
№4 (70)

BAKI-2022

**Baş redaktor:**
**Əli Həsənov**

**Redaktor:**
**İbrahim Əliyev**

**Məsul katib:**
**İsmayıl Qasımov**

**Redaksiya heyəti:**
**Prof.Dr. Александр Пухкал (Ukrayna)**
**Prof.Dr. Arif Quliyev (Ukrayna)**
**Prof.Dr. Aygün Attar (Türkiyə)**
**Prof.Dr. Babaxan Şərifov (Özbəkistan)**
**Prof.Dr. Cəfər Cəfərov (Azərbaycan)**
**Prof.Dr. Durxan Kıdırıli (Qazaxıstan)**
**Prof.Dr. Efim Pivovar (Rusiya)**
**Prof.Dr. Elçin Əhmədov (Azərbaycan)**
**Prof.Dr. Elman Nəsirov (Azərbaycan)**
**Prof.Dr. Ədalət Muradov (Azərbaycan)**
**Prof.Dr. Əli Həsənov (Azərbaycan)**
**Prof.Dr. Heydərbəy Bababekov (Özbəkistan)**
**Prof.Dr. Hikmət Məmmədov (Azərbaycan)**
**Prof.Dr. Xəqani Məmmədov (Azərbaycan)**
**Prof.Dr. İsa Həbibbəyli (Azərbaycan)**
**Prof.Dr. Kemal Çiçek (Türkiyə)**
**Prof.Dr. Quram Marxuliya (Gürcüstan)**
**Prof.Dr. Musa Qasımlı (Azərbaycan)**
**Prof.Dr. Sergey Pirojkov (Ukrayna)**
**Prof.Dr. Səlahəddin Xəlilov (Azərbaycan)**
**Prof.Dr. Şəfa Əliyev (Azərbaycan)**
**Prof.Dr. Ziyad Səmədzadə (Azərbaycan)**
**Dos.Dr. Akkan Suver (Türkiyə)**
**Dos.Dr. Aleksandr Quşşin (Rusiya)**
**Dos.Dr. Ərəstun Mehdiyev (Azərbaycan)**
**Dos.Dr. Firdovsiyyə Əhmədova (Azərbaycan)**
**Dos.Dr. İbrahim Əliyev (Azərbaycan)**
**Dos.Dr. Mübariz Qurbanlı (Azərbaycan)**
**Dos.Dr. Müslüm Nəzərov (Azərbaycan)**
**Dos.Dr. Oleq Kuznetsov (Rusiya)**

***“GEOSTRATEGİYA”*** jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında
Ali Attestasiya Komissiyası tərəfindən Azərbaycan Respublikasında dissertasiyaların
***Tarix, Antropologiya, Siyasi elmlər, Fəlsəfə, Sosiologiya və İqtisadi elmlər***
üzrə əsas nəticələrinin dərc olunması tövsiyə edilən dövri elmi nəşrlərin siyahısına salınmışdır.
Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnal ildə altı dəfə nəşr olunur.

ISSN: 2664-4975

# GEOSTRATEGY

2022
№4 (70)

BAKU-2022

**Editor-in-Chief:**
**Ali Hasanov**

**Editor:**
**Ibrahim Aliyev**

**Executive Secretary:**
**Ismayil Gasimov**

**Editorial Board:**
**Prof. Dr. Alexandr Pukhkal (Ukraine)**
**Prof. Dr. Arif Guliyev (Ukraine)**
**Prof. Dr. Aygun Attar (Turkey)**
**Prof. Dr. Babakhan Sharifov (Uzbekistan)**
**Prof. Dr. Jafar Jafarov (Azerbaijan)**
**Prof. Dr. Durkhan Kidirili (Kazakhstan)**
**Prof. Dr. Efim Pivovar (Russia)**
**Prof. Dr. Elchin Ahmadov (Azerbaijan)**
**Prof. Dr. Elman Nasirov (Azerbaijan)**
**Prof. Dr. Adalat Muradov (Azerbaijan)**
**Prof. Dr. Ali Hasanov (Azerbaijan)**
**Prof. Dr. Haydarbay Bababekov (Uzbekistan)**
**Prof. Dr. Hikmat Mammadov (Azerbaijan)**
**Prof. Dr. Khagani Mammadov (Azerbaijan)**
**Prof. Dr. Isa Habibbayli (Azerbaijan)**
**Prof. Dr. Kemal Chichek (Turkey)**
**Prof. Dr. Guram Markhulia (Georgia)**
**Prof. Dr. Musa Gasimli (Azerbaijan)**
**Prof. Dr. Sergei Pirozhkov (Ukraine)**
**Prof. Dr. Salahaddin Khalilov (Azerbaijan)**
**Prof. Dr. Shafa Aliyev (Azerbaijan)**
**Prof. Dr. Ziyad Samadzadah (Azerbaijan)**
**Assoc. Prof. Dr. Akkan Suver (Turkey)**
**Assoc. Prof. Dr. Alexandr Gushshin (Russia)**
**Assoc. Prof. Dr. Arastun Mehdiyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Firdovsiyya Ahmadova (Azerbaijan)**
**Assoc. Prof. Dr. Ibrahim Aliyev (Azerbaijan)**
**Assoc. Prof. Dr. Mubariz Gurbanli (Azerbaijan)**
**Assoc. Prof. Dr. Muslum Nazarov (Azerbaijan)**
**Assoc. Prof. Dr. Oleg Kuznetsov (Russia)**

***"GEOSTRATEGY"*** journal is included in the list of periodicals recommended by
the Supreme Attestation Commission under the President of the Republic of Azerbaijan
to publish the main results of the dissertations of the Republic of Azerbaijan on
***History, Anthropology, Political Science, Philosophy, Sociology and Economic Sciences.***
The international socio-political, scientific-theoretical journal is published six times a year.

# Siyasi elmlər

UOT 32(092)

## ADLARI TARİXƏ DÜŞMÜŞ AZƏRBAYCAN QADINLARININ UĞURLU DAVAMÇISI MEHRİBAN XANIM ƏLİYEVA

**İMDAD BAYRAMOV**
*Bakı Dövlət Universitetinin dosenti, psixologiya üzrə fəlsəfə doktoru*

*E-mail: imdad_bayramov@list.ru*

Mənbələrdən aldığımız məlumata əsasən deyə bilərik ki, hər bir dövrdə Azərbaycan qadınları cəmiyyətin idarə olunmasında, dövlətin formalaşmasında böyük xidmətlər göstərmişlər. Qədim mənbələrə diqqət etsək, antik dövrün ən böyük hökmdarlarından biri, Azərbaycanın ilk qadın tarixi şəxsiyyəti Tomrisin adına rast gələrik. Tomris həm dövlətçilik, həm də siyasi sahədə uzaqgörən bir rəhbər olmuşdur [Xəlilov 1998: 36]. Azərbaycan tarixində böyük siyasi nüfuza malik olmuş qadınlardan biri də Atabəy Şəmsəddin Eldəgizin xanımı, Məhəmməd Cahan Pəhləvan və Qızıl Arslanın anası Möminə xatun olmuşdur [İbrahimova 2009: 47] və vəfatından sonra onun şərəfinə türbə ucaldılmışdır. Orta əsrlər tariximizdə Azərbaycan hökmdarlarından Qızıl Arslanın arvadı Qətibə xanım, Uzun Həsənin anası Sara xatun, Şah İsmayıl Xətainin qızı Məhinbanu, Şah Abbasın anası Xeyransa bəyim və başqaları kimi görkəmli siyasi və dövlət xadimlərinin adları hörmətlə yad edilir [Haqverdiyeva 2009: 196-206]. Adları tarixə düşmüş cəsur, təşəbbüskar Azərbaycan qadınlarından Fatimə xanım, qubalı Fətəli xanın həyat yoldaşı Tuti Bikə, bacısı Xədicə Bikə və qızı Pəricahan xanım, gəncəli Cavad xanın övrətləri Şükufə xanım və Bəyim xanımı və başqalarını buna misal göstərmək olar.

Ədəbiyyatşünaslıq tariximizə də nəzər salsaq görərik ki, Nizamidən tutmuş bütün böyük sənətkarların yaradıcılığında qadına hörmət, qadın ülviyyəti, qəhrəmanlığı mühüm yerlərdən birini tutmuşdur. Müxtəlif dövrlərin məhsulu olan qadın obrazlarına-Nizaminin Şirininə, "Qaçaq Nəbi" dastanında Həcərə, H.Cavidin "Ana" əsərindəki Anaya diqqət yetirsək, Azərbaycanda qadınlıq şərəfi və ləyaqəti barədə ən yüksək fəlsəfi fikirləri ortaya gətirmək üçün bizə zəngin dəlillər verir. Ümumiyyətlə, Cavidin elə bir əsəri yoxdur ki, orada qadınla bağlı məsələyə toxunulmasın. Böyük mütəfəkkirin "Qadınla yüksələcək bəşəriyyət" kəlamı azərbaycanlıların qadına qarşı nəcib niyyətinin bariz təzahürü olmaqla qadının tərəqqi edən cəmiyyətə verdiyi töhfənin aydın və obrazlı təsviridir.

Göründüyü kimi, tarixin bütün dövrlərində örnək götürdüyümüz qadınlar olmuşdur. XIX əsrə aid qaynaqlara da nəzər yetirsək görərik ki, bu dövrdə də Azərbaycan qadınlarının mübarizə dairəsi çox geniş olmuş, iqtisadi, ictimai-siyasi və sosial-mədəni sahələri əhatə etmişdir. Həmin dövrdə Azərbaycan xalqının bir millət kimi formalaşmasında, milli-mənlik şüurunun inkişafında, maariflənməsində, sosial-mədəni tədbirlərin həyata keçirilməsində kişilərlə bərabər bir sıra Azərbaycan qadınlarının da böyük rolu olmuşdur. Hənifə Məlikova-Zərdabi, Şəfiqə Əfəndizadə, Həmidə Cavanşir, Nigar Şıxlinskaya, Xədicə Ağayeva, Linza Muxtarova, Zeynəb Zəlimxanova, Rübabə Qasımova, Sofiya Şahtaxtinskaya və onlarla başqaları xeyriyyə cəmiyyətləri təşkil etdilər, xeyriyyəçi müəllim, maarifçi, həkim, yazar, sahibkar, inqilabçı, habelə, gözəl qadın və cəfakeş ana oldular [İbrahimova 2009: 130-131]. Xalq Cümhuriyyəti dövründə də Zəhra Ağayeva, Qərib Sultan Məlikova, Zərri Şahtaxtinskaya, Sara Talışinskaya, Səriyyə Əhmədova, Məsmə Məmmədova, Fəridə Ağayeva, Şəfiqə Qaspralı və onlarca ziyalı qadınlarımız xalqın maariflənməsinə və təhsil tarixinə böyük töhfələr vermişlər [İbrahimova 2009: 190]. Sovet hakimiyyəti dövründə də bir sıra çətinliklərə baxmayaraq, Azərbaycan qadınları bütün sahələrdə: istər hərbdə, istərsə də sovet müəssisələrinin işində, ictimai-siyasi təşkilatlarda, səhiyyədə, xalq təhsili sahəsində, ədəbiyyat və incəsənətin inkişafında əvəzsiz xidmətləri olmuşdur. Bu mərd, cəsur, seçdikləri sənətləri ilə Azərbaycanda yeniliyin qələbəsini çalmış qadınlar sırasında Sona Vəlixanlı, Umnisə Musabəyova, Zərifə Əliyeva [Seyidbəyli 2020: 601], Leyla Məmmədova, Sona Nuriyeva, Hökümə Sultanova [İbrahimova 2009: 252] və b. vardı. Onu da qeyd etmək istərdik ki, XX əsrin görkəmli ziyalılarından olan Zərifə xanım Əliyevanın səyi və təşəbbüsü ilə ölkədə ilk dəfə peşəkar göz patologiyası laboratoriyaları yaradılmışdı. Zərifə xanım elmi uğurlarına görə SSRİ-də ilk qadın olaraq SSRİ Tibb Elmləri Akademiyasının akademiki M.İ.Averbax adına mükafata layiq görülmüşdür [Mirzəzadə 2010: 5]. Dövrün görkəmli ziyalılarından biri də Aida İmanquliyeva olmuşdur. O, 1967-ci ildə

Moskvada namizədlik dissertasiyasını uğurla müdafiə etmiş və ilk müsəlman, şərqşünas alim qadın kimi özünü təsdiq etmişdir [İbrahimova 2009: 277]. Azərbaycan elminin yeni dövründə mühüm izlər qoyan Aida İmanquliyeva kimi hörmətli qadınlar cəmiyyətin inkişafında aparıcı rol oynamış, gələcək nəsillər üçün Azərbaycan qadınına mükəmməl örnək olmuşlar.

Görkəmli dövlət xadimi Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illərdə də qadın şəxsiyyətinin önəmi qiymətləndirilmiş, yüzlərlə qadınlarımız onun yaratdığı əlverişli şərait hesabına fərdi bacarıqlarını nümayiş etdirmiş, müxtəlif idarəetmə orqanlarında rəhbər vəzifələrdə çalışmışlar. Eyni zamanda, xalqımızın adlı-sanlı görkəmli ziyalıları, tanınmış alimləri və yazıçıları geniş təbliğ olunmuş, təltif edilmiş və fəxri adlara layiq görülmüşdür [Həbibbəyli]. Bununla yanaşı həmin dövrdə bir sıra hökumət və qeyri-hökumət qadın təşkilatları və birlikləri yaranmışdır: “Sevil” Qadınlar Məclisi, “Şəhid Analar” Cəmiyyəti, “Universitet təhsilli qadınlar” Cəmiyyəti, “Qadın və İnkişaf” Mərkəzi, “Parlament Qadınları” İctimai Birliyi, “Əsgər Anaları” Cəmiyyəti və s. Hazırda bu cür təşkilat və cəmiyyətlərin sayı çoxdur. Razılıq hissi ilə qeyd etməliyik ki, istər hökumət, istərsə də qeyri-hökumət qadın təşkilatlarımız beynəlxalq aləmdə Azərbaycanı layiqincə təmsil edir.

Bu gün müstəqil Azərbaycanda qadının cəmiyyətdəki yeri və rolu həm xalqımızın öz mental ənənələrinə bəslədiyi hörmət, həm də dövlətimizin yeritdiyi siyasət sayəsində yüksək qiymətləndirilir. Çağdaş Azərbaycan qadını ana olmaqla yanaşı, həm də bacarıqlı siyasətçi, iş adamı, dövlət xadimi, xalqın etibar edib səs verdiyi deputatdır. Bu gün Azərbaycan qadınlarından danışarkən Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Mehriban Əliyevanın adını xüsusilə qeyd etmək istərdik. Mehriban Əliyeva ziyalı ailəsində anadan olub. Onun babaları ədəbiyyatımızı, ritorikamızı formalaşdıran, yüksək vətəndaşlıq nümunəsi ilə seçilən ziyalılar olub. Atası Arif Paşayev Azərbaycanın görkəmli alimi, pedaqoqu, ictimai xadimi, anası Aida İmanquliyeva görkəmli şərqşünas-alim, Azərbaycanda ərəb ədəbiyyatı üzrə ilk elmlər doktoru, ilk professor-qadındır. Mehriban xanım Əliyeva mənsub olduğu ailənin zəngin mənəviyyatından bəhrələnir, onların nəcib əməllərini istər şəxsi həyatında, istərsə də ictimai fəaliyyətində ləyaqətlə davam etdirir. Onun ölkənin ictimai-siyasi həyatındakı uğurlu fəaliyyəti, dövlətimiz, dövlətçiliyimiz naminə, xalqın rifahı üçün gördüyü işlər, xeyirxah əməllər hər bir Azərbaycan qadını üçün örnək sayılır.

Mehriban xanım Əliyeva öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadınının nüfuzunu daha da yüksəklərə qaldırır. Fəxrlə deyə bilərik ki, onun simasında dünya dövlətlərinə dərin bilik və intellekt sahibi olan gözəl ziyalı, peşəkar siyasətçi, humanist Azərbaycan qadını obrazı təqdim olunur. Daim yüksəlişə doğru can atan Mehriban xanımın gördüyü işlərin mühüm göstəricisi Heydər Əliyev Fondunun Ümummilli Liderin zəngin irsinin daha dərindən və hərtərəfli öyrənilməsi, onun yaratdığı milli dövlətçilik və Azərbaycançılıq ideyaları və ölkə mədəniyyətinin geniş təbliği Heydər Əliyev siyasətinə verilən önəmin göstəricisidir. Mehriban xanımın rəhbərlik etdiyi Fond fəaliyyətə başladığı gündən həm ölkə daxilində, həm də ölkəmizin hüdudlarından kənarda elm, təhsil, mədəniyyət, səhiyyə, ekologiya, idman və sosial sahələrdə bir sıra proqram və layihələri reallaşdırmışdır.

Mehriban xanımın rəhbərliyi ilə Heydər Əliyev Fondu təhsilin inkişafı sahəsində YUNESKO ilə əməkdaşlıq çərçivəsində bir sıra uğurlara imza atmışdır. Belə ki, 2005-ci il iyulun 6-da Fondun təşəbbüsü ilə YUNESKO-nun iqamətgahında “Davamlı inkişaf üçün Azərbaycanda təhsil islahatları” mövzusunda konfrans keçirilmişdir. Fond ilə BMT-nin İnkişaf Proqramı arasında imzalanmış sazişə əsasən kor və görmə qabiliyyəti zəif olan insanların İKT-yə çıxışını təmin edən layihələrin icrasına başlanmışdır. Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü və birbaşa rəhbərliyi altında uşaqlar və yeniyetmələr arasında diabet və talassemiya xəstəliklərinin müalicəsi məqsədilə “Diabetli uşaqlara ən yüksək qayğı” və “Talassemiyasız həyat” layihələri hazırlanmışdır. Bu sahədə mövcud problemlər həll olunmuşdur [İbrahimova 2009: 391].

Azərbaycanın birinci xanımının humanizmi onun bir sıra ölkələrə dəstəyində də özünü göstərir. ABŞ, Türkiyə, Rumıniya, Rusiya və başqa ölkələrdə Heydər Əliyev Fondu öz filialları vasitəsilə təbii fəlakətlərdən (zəlzələdən, torpaq sürüşmələrindən, yanğınlardan) ziyan çəkən insanlara yardımlar etmişdir. Məsələn, Beynəlxalq Donorlar Günündə Pakistanın Həmzə Xeyriyyə Foduna Heydər Əliyev Fondunun adından laboratoriya ilə təchiz olunmuş bir təcili tibbi yardım avtomobili verilib. Həmzə Xeyriyyə Fondu talassemiya, hemofiliya və qan xərçəngindən əziyyət çəkən xəstələrin müalicəsi ilə məşğul olan bir neçə xəstəxananı özündə birləşdirir. Bunlarla yanaşı, Mehriban xanım Pakistanda zəlzələ nəticəsində tamamilə dağılmış qızlar məktəbinin yenidən inşasına öz töhfə-

sini vermişdir. Təbii fəlakətlərdən əziyyət çəkmiş Rumıniyaya və Haitiyə Azərbaycanın birinci xanımının təşəbbüsü ilə yardımlar göstərilmişdir.

Sivilizasiyalararası dialoq daxil olmaqla, müxtəlif sahələrdə genişmiqyaslı və fədakar fəaliyyətinə, qayğıya ehtiyac duyan uşaqlara diqqətinə, onların yaşayış şəraitinin yaxşılaşmasına, təhsilə, həmçinin islam aləmində görülən işlərə böyük dəstəyinə görə Mehriban Əliyeva 2006-cı il noyabrın 24-də İSESKO-nun Xoşməramlı səfiri adına layiq görülmüşdür.

Azərbaycan Mədəniyyətinin Dostları və Heydər Əliyev fondlarının xətti ilə sənəti və mədəniyyəti himayə edən Mehriban xanım Əliyeva çağdaş Azərbaycandan əski çağlara cığır açdı. O, Respublika Prezidenti İlham Əliyevin və YUNESKO-nun baş katibi Koişiro Matsuuranın iştirakı ilə Dənizkənarı Milli Parkda Muğam Mərkəzinin təməlini qoydu. Muğamın inkişafı və təbliği istiqamətində atılan bu möhtəşəm addım Azərbaycan muğamları layihəsi çərçivəsində həyata keçirildi. Bu layihə əsasında işıq üzü görən Qarabağ xanəndələri albomu ölməz muğam ifaçılarını yenidən dünyanın musiqi ictimaiyyətinə təqdim edildi [İMAKOFSET matbaa 2008: 167-168].

Heydər Əliyev Fondunun mədəniyyət sahəsində həyata keçirdiyi çoxsaylı layihələrdən bir qismi də mövcud kitabxanaların yenidən qurulması ilə bağlıdır. "Öz mədəniyyət və tarixinə hörmət edən xalq digər xalqların da mədəniyyət və tarixinə hörmət edəcəkdir" fikrini əsas tutan Mehriban Əliyevanın rəhbərliyi ilə Fond bu sahədə ardıcıl fəaliyyət göstərir, qəsəbə və kənd kitabxanaları yenidən qurulur, müasir avadanlıqlarla təmin edilir, zənginləşdirilir. Heydər Əliyev Fondu dünyanın ən mötəbər mədəniyyət qurumları ilə əməkdaşlıq çərçivəsində ölkəmizdəki tarixi abidələrin qorunması üçün həyata keçirilən tədbirlərdə də fəal iştirak edir. Gəncədə Cavadxan türbəsinin, Comərd məqbərəsinin, Şüvələnda Pirhəsən ziyarətgahının bərpası buna parlaq nümunədir [İbrahimova 2009: 393].

Fond Azərbaycanla yanaşı, Rusiya Federasiyasında, Asiya ölkələrində, Avropada çox humanist mədəni layihələr həyata keçirməklə böyük rəğbət qazanıb. Bu kontekstdə Heydər Əliyev Fondunun Gürcüstandakı kilsələrə təmənnasız yardım etməsini vurğulamaq lazımdır. Qeyd edək ki, Fondun bilavasitə dəstəyi ilə Parisin Luvr muzeyində İslam incəsənəti şöbəsi yaradılıb. Versal sarayında Mehriban Əliyeva tarixi incəsənət abidələrinin bərpasını təşkil edib. Bundan əlavə, Azərbaycanın birinci xanımının rəhbərliyi ilə Fond İkinci Dünya Müharibəsində dağıdılmış Berlin qalasını və Vatikan arxivində qorunan nadir əlyazmaları bərpa edib. Vatikanda yerləşən qədim heykəllərin bərpası barədə italyanlar indi də razılıq hissi ilə danışırlar. Roma şəhərində yerləşən Kapitoli Muzeyində "Filosoflar zalı"nı bərpa edən Heydər Əliyev Fondu bu sahədə ən böyük nailiyyətlərə nail ola biləcəyini sübut etdi.

Göründüyü kimi, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun fəaliyyəti çoxşaxəlidir. Genişmiqyaslı xeyriyyəçilik fəaliyyətinin nəticəsi olaraq Mehriban xanım Əliyeva "2005-ci ilin adamı", 2007-ci il dekabrın 1-də "Gəncliyin inkişafı uğrunda qlobal səfir" adına, 2007-ci ildə bəşəriyyətin ali ideyalarına xidmətdə qazandığı görkəmli nailiyyətlərə görə "Qızıl ürək" beynəlxalq mükafatına, 2009-cu ildə Azərbaycanın ictimai-siyasi və mədəni həyatında səmərəli fəaliyyətinə görə "Heydər Əliyev Mükafatı"na, 2010-cu ildə isə iki mötəbər mükafata - Fransa dövlətinin "Şərəf Legionu" ordeninə və YUNESKO-nun "Qızıl Motsart" medalına layiq görülmüşdür [Hacıalıyev 2011: 4].

Bütün bu dediklərimizdən aydın olur ki, Mehriban Əliyevanın fəaliyyət sahəsi çoxşaxəlidir və həyatımızın bütün sahələrinə dərindən nüfuz edir. Pandemiya dövründə də Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi ilə infeksiyaya qarşı mübarizə və vətəndaşlarımızın sağlamlığının qorunması istiqamətində səmərəli tədbirlər həyata keçirilmişdir. Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu və "Regional İnkişaf" İctimai Birliyi genişmiqyaslı yardım layihələri hazırlamışdır. Bununla yanaşı, Mehriban Əliyeva ölkəmizdə koronavirus pandemiyasının yayılmasının qarşısının alınması, əhalinin sağlamlığının qorunması məqsədilə xalqa müraciət edərək bütün soydaşlarımızı vətəndaşlıq məsuliyyəti nümayiş etdirməyə, Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyə və tələblərinə ciddi əməl etməyinə çağırmışdı.

Mehriban Əliyevanın təşəbbüsü ilə Ermənistan-Azərbaycan münaqişəsi barədə həqiqətləri, mədəniyyətimizi, adət-ənənələrimizi, tariximizi dünyada təbliği sahəsində də qətiyyətli işlər aparılmışdır. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondu 2007-ci ildən başlayaraq hər il dünyanın bir sıra böyük şəhərlərində - Moskvada, Berlində, Strasburqda, Buxarestdə, Cenevrədə, Ankarada, İstanbulda, Parisdə, Vaşinqtonda, Nyu-Yorkda, Varşavada, Londonda, Dubayda, Haaqada, Kiyev və Tbilisidə Xocalı soyqırımının ildönümünə həsr olunmuş aksiyalar keçirmişdir. Xarici ölkələrdə təşkil olunan bu tədbirlərə müxtəlif qurumların, diplomatik missiyala-

rın nümayəndələri, şəhər sakinləri, eləcə də kütləvi informasiya vasitələrinin nümayəndələri dəvət olunmuşdur. Anma mərasimlərində fondun hazırladığı "Xocalı soyqırımı" filmi ilə yanaşı, insanlığa qarşı törədilən cinayəti əks etdirən müxtəlif ekspozisiyalar nümayiş olunmuşdur. 44 günlük müharibə zamanı da Azərbaycanın haqlı mövqeyinin nümayiş etdirilməsi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc əhaliyə hücumları barədə beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atılmışdır.

Beləliklə, bu gün biz fəxrlə deyə bilərik ki, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, planetar düşüncəli Mehriban xanım Əliyevanın bir vətəndaş kimi Azərbaycanın bu günü, gələcəyi üçün gördüyü, ölkəmizin tərəqqisinə verdiyi töhfələr dünya qadınları üçün nümunədir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycanın milli dövlətçilik tarixində görkəmli qadınlar, 2008, İMAKOFSET,Yenibosna-İstanbul, s.167-168; bax həmçinin: Материалы научного симпозиума. "Мир мугама» (18-20 марта 2009. B., "Şərq-Qərb" 2009. 472 c.)*

*2. E.Hacıalıyev. Heydər Əliyev Fondu ölkəmizin xaricdə daha yaxşı tanıdılması üçün böyük işlər həyata keçirir // Azərbaycan. 2011. 23 sentyabr.-S.4.*

*3. Gülzar İbrahimova. Azərbaycan qadını: Tarix və Gerçəklik. Bakı, "Elm", 2009. 500 s.*

*4. Herodot tarixi. (Doqquz kitabda) Birinci Hissə. əsəri tərcümə edən və çapa hazırlayan: Pənah Xəlilov; red. Azər Bağırov. Bakı, 1998, s.36*

*5. https://azertag.az/xeber/Musteqillik_dovrunde_Azerbaycan_elmi-1006268*

*6. Kəmalə Haqverdiyeva. Azərbaycanda gender bərabərliyinin təmin edilməsi və qadın hərəkatı. // Tarix və onun problemləri // jurnalı. №4, 2009. s.196-206*

*7. Məryəm Seyidbəyli, Dilarə Vahabova. Azərbaycan tibbinin korifeyləri. Bakı, "Elm və təhsil", 2020. 601 s*

*8. Reyhan Mirzəzadə. Oftalmologiyada mühüm elmi yeniliklərə imza atmış böyük alim // Xalq qəzeti. 2010. 26 yanvar. S. 5.*


## XÜLASƏ


Tarixin müxtəlif dövrlərinə nəzər salsaq görərik ki, Azərbaycanda qadına, anaya çox böyük önəm verilmişdir. Azərbaycan qadını istər əmək cəbhəsində, istər mədəniyyət, incəsənət və digər sahələrdə, eləcə də gənc nəslin tarixi ənənələr və müqəddəs amallar əsasında tərbiyəsində yüksək uğurlara və nailiyyətlərə imza atmışdır. Bu tarixi ənənə müasir zamanda birinci xanım Mehriban Əliyeva tərəfindən də uğurla davam etdirilir. Məqalədə Mehriban xanım Əliyevanın Azərbaycan xalqının tərəqqisi və rifahı naminə həyata keçirdiyi layihələr barədə ətraflı məlumat verilmişdir.



**Açar sözlər:** *təşəbbüskar, cəsur, tarixi şəxsiyyətlər, humanizm, dövlətçilik, siyasət, Mehriban xanım Əliyeva, Azərbaycan qadını, ziyalı, xeyriyyəçi.*


## РЕЗЮМЕ


Если мы посмотрим на разные периоды истории, то увидим, что в Азербайджане женщинам и матерям придается очень важное значение. Азербайджанские женщины добились больших успехов в области труда, культуры, искусства и других сферах, а также в воспитании подрастающего поколения на основе исторических традиций и священных деяний. Эту историческую традицию успешно продолжает в наше время первая леди госпожа Мехрибан Алиева. В статье представлена подробная информация о проектах, реализованных госпожой Мехрибан Алиевой для прогресса и благосостояния азербайджанского народа.



**Ключевые слова:** *предприниматель, смелый, исторические личности, гуманизм, государственность, политика, госпожа Мехрибан Алиева, азербайджанская женщина, интеллигент, меценат.*


## SUMARY


If we look at different periods of history, we will see that women and mothers are very important in Azerbaijan. Azerbaijani women have achieved great success in the field of labor, culture, art and other areas, as well as in educating the younger generation on the basis of historical traditions and sacred deeds. This historical tradition is successfully continued in our time by First Lady Mrs. Mehriban Aliyeva. The article provides detailed information about the projects implemented by Mrs. Mehriban Aliyeva for the progress and well-being of the Azerbaijani people.



**Keywords:** *initiative, brave, historical figures, humanism, statehood, politics, Mrs. Mehriban Aliyeva, Azerbaijani woman, intellectual, philanthropist*.

UOT 327; 930.22

# İRAN-RUSİYA MÜNASİBƏTLƏRİNƏ İRANIN NÜVƏ PROQRAMI ƏTRAFINDA BÖHRANIN TƏSİRİ

**ƏLİMUSA İBRAHİMOV**
*Bakı Dövlət Universitetinin*
*Beynəlxalq münasibətlər fakültəsinin müəllimi,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru,*

*E-mail: ialimusa@mail.ru*

Rusiya ilə İran arasındakı əməkdaşlığın əhəmiyyəti göz qabağındadır: qarşılıqlı faydalı münasibətlərin inkişafı, digər istiqamətlərlə yanaşı, İranın Rusiyanın yüksək texnoloji məhsullarının idxalçısı olması ilə müəyyən edilir. İranın nüvə probleminin həllində vasitəçi rolunu oynamağa çalışan Avropa Birliyi, yəni Fransa, Almaniya və Böyük Britaniya tərəfindən artan potensial rəqabət təhdidinə rəğmən, Rusiya İranın yüksək texnologiyalar və nüvə energetikası bazarında ən böyük iştirakçı kimi mövqeyini qoruyur.

İranın nüvə proqramı öz inkişafında iki böyük mərhələ keçmişdir. Birinci mərhələ İranın son şahının hakim olduğu dövrə, 1960-1979-cu illərə təsadüf edir. Bu mərhələdə İranın nüvə proqramının yaradılması və inkişafı Almaniya, Fransa və ABŞ tərəfindən dəstəklənirdi. İranın nüvə proqramı ABŞ-ın dəstəyi ilə başlanmışdı. İran rəhbərliyi 1970-ci ildə təsdiq edilmiş Nüvə Silahlarının Yayılmaması haqqında Müqaviləni imzaladı. Nüvə energetikası sahəsində Qərbin İranla əməkdaşlığı 1979-cu il inqilabına qədər davam etdi. İnqilabdan sonra şah devrildikdə ölkəni yalnız Qərb tədqiqatçıları və nüvə sahəsində mütəxəssisləri deyil, həm də nüvə layihəsində iştirak edən çoxsayda iranlı tərk etdi. Qərbin dəstəyini dayandırması nəticəsində İran həm nüvə proqramının dondurulduğunu, həm də AES inşasına son verildiyini bəyan etmək məcburiyyətində qaldı[1, s. 35].

İnqilabdan sonrakı ikinci mərhələ də iki dövrə bölünür. Birinci dövr nüvə proqramının və Buşəhr AES-in inşası prosesinin yeni İran hökuməti tərəfindən dayandırıldığı dövr hesab olunur. İranla İraq arasında hərbi əməliyyatlar bitdikdən sonra ikinci dövr başlandı. Ölkədəki vəziyyət nisbətən sabitləşdikdə, İran hökuməti atom-elektrik stansiyasının inşasına yenidən başlandığını elan etdi. Lakin hadisələr elə inkişaf etdi ki, Buşəhrdə nüvə reaktoru qurmağa başlayan Almaniya və bəzi digər Qərb ölkələri Vaşinqtonun təzyiqi altında İrana dəstəyi dayandırdı. Lakin Sovet İttifaqı bu sahədə İranla əməkdaşlığa hazır idi.

1989-cu ildən sonra iki ölkənin münasibətlərində müsbət dəyişikliklərin baş verdiyini və nüvə daxil olmaqla müxtəlif sahələrdə perspektivli və səmərəli əməkdaşlığın inkişaf etdirilməsi kursunun seçildiyini nəzərə alaraq, İran və SSRİ arasında əməkdaşlığın keyfiyyətcə yaxşılaşmasından danışmaq olar. 1989-cu ildə İran və Sovet İttifaqı arasında uzunmüddətli elmi-texniki ticarət və iqtisadi əməkdaşlıq proqramı hazırlanıb təsdiq edildi, bu sənəd M.S.Qorbaçov və Haşimi Rəfsəncani tərəfindən imzalandı. Proqram qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişafının başlanğıcı oldu. Digər istiqamətlərlə yanaşı, saziş iki ölkə arasında atom tədqiqatları sahəsində tərəfdaşlığın inkişafını nəzərdə tuturdu: müvafiq sovet qurumunun və İİR Atom Enerjisi Təşkilatının üzərinə ortaq strategiyanın müzakirəsi və müxtəlif fəaliyyət istiqamətlərində atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində ölkələr arasında səmərəli əməkdaşlığın həyata keçirilməsi üçün zəruri sənədlərin hazırlanması məqsədi ilə çoxşaxəli danışıqlar aparmaq vəzifəsi qoyulmuşdu[7, s. 222].

Buşəhr AES-in tikintisinin başa çatdırılmasına dair müqavilənin imzalanması ilə bağlı danışıqlar 1991-ci ildə başlandı. 1992-ci ilin avqustunda İran və Rusiya Federasiyası "Atom enerjisindən dinc məqsədlərlə istifadə haqqında" saziş imzaladılar. Bu sazişdə Rusiya Federasiyası ilə İran arasında nüvə enerjisindən dinc istifadə sahəsində əməkdaşlığı tənzimləyən ən mühüm müddəalar təsbitini tapmışdı. Həmin müddəalara görə:

- nüvə və qeyri-nüvə mənşəli bütün materiallar nüvə silahı, partlayıcı maddə istehsalı, hərbi məqsədlər üçün tətbiq edilməməli;
- bütün istismar müddətində Beynəlxalq Atom Enerjisi Agentliyinin (BAEA) təminatları onlara şamil olunmalı;
- obyektlərin fiziki müdafiəsi tədbirləri BAEA-nın müəyyən etdiyi səviyyədən aşağı olmamalı idi[5].

Atom enerjisindən dinc məqsədlə istifadə haqqında Saziş layihələrin yaradılmasını, icrasını və nüvə reaktorlarının istismara verilməsini; nüvə reaktorlarında istifadə üçün zəruri olan komponentlərin və materialların quraşdırılmasını, layihələndirmə və təlimi nəzərdə tuturdu. Son iki ildə daha iki əməkdaşlıq istiqaməti - enerji reaktorlarının inşası və istismarı və iranlı kadrların hazırlığı həyata keçirildi[4].

Rusiya 1995-ci ildə "Buşəhr şəhərində Atom

Elektrik Stansiyasının birinci blokunun layihəsinin tamamlanması haqqında" Saziş imzaladı. Əvvəlcə tikintinin 1999-cu ildə tamamlanması planlaşdırılırdı, lakin maliyyələşdirmə problemləri atom elektrik stansiyasının istismara verilməsinin Rusiya tərəfindən 2007-ci ilə qədər təxirə salınmasına səbəb oldu. İşlənmiş nüvə yanacağının (İNY) atılması ciddi çətinlik törədən faktora çevrildi. Lakin Rusiya və İran arasında davam edən danışıqlar tikintinin davam etdirilməsinə dair razılaşmalarla başa çatdı və faktiki olaraq inşaat 2010-cu ildə tamamlandı, stansiyanın şəbəkəyə qoşulması isə 2011-ci ilin sentyabrında baş verdi. Razılaşmalara uyğun olaraq, İran bütün işlənmiş nüvə yanacağını yenidən işlənməsi üçün Rusiyaya qaytarmaq məcburiyyətində qaldı.

BAEA göstərişlərinin icrasına dair təminatları, yəni işlənmiş nüvə yanacağının bu yanacağı göndərən ölkəyə qaytarılması 2002-ci ildə Rusiyanın atom energetikası nazirinin müavini Valeri Lebedev tərəfindən təsdiqləndi[6].Lakin 2003-cü ilin fevralında İran Prezidenti M. Xatəmi İİR rəhbərliyinin uranın hasilatından proses zamanı qalmış işlənmiş yanacağın İranın atom elektrik stansiyalarında saxlanmasına qədər tam iş tsiklini həyata keçirməyə hazır olduğunu bildirdi. Prezidentin bu açıqlamasından bunun Rusiya ilə əvvəllər əldə olunmuş razılaşmalara uyğun olmamasına baxmayaraq, İranın həqiqətən işlənmiş nüvə yanacağını öz ərazisində saxlamağa çalışdığı aydın oldu. Beləliklə, İran niyyətlərini elan edərək nüvə energetikasının inkişafında müəyyən müstəqillik əldə etməyə can atırdı.

Rusiya Atom Energetikası Nazirliyinin başçısı Aleksandr Rumyantsev 2003-cü ilin dekabrında İrana işlənmiş nüvə yanacağının göndərilməsi və onun geri qaytarılmasıilə bağlı daha konkret açıqlama verdikdə vəziyyət aydınlaşdı. O bildirdi ki, Buşəhr AES-dən işlənmiş nüvə yanacağının qaytarılmasına dair protokol ekspertizaya təqdim edilmişdir və yalnız bundan sonra dərhal imzalanacaq. A.Rumyantsevin fikrincə, bunun nəticəsində Rusiyadan Buşəhrə nüvə yanacağının göndərilməsi yolunda hər hansı bir maneə qalmayacaqdı. 2004-cü ilin fevralında A.Rumyantsevin İranın paytaxtına səfəri zamanı işlənmiş nüvə yanacağının qaytarılmasına dair protokolun imzalanması planlaşdırılırdı. Lakin nazirin səfəri "bəzi lazımi sənədlər hələ hazır olmadığı" üçün mart ayının sonuna təxirə salındı. İki ölkə arasında işlənmiş nüvə yanacağının Rusiyaya qaytarılması ilə bağlı məsələlərin yaratdığı anlaşılmazlıq artırdı. Öz atom elektrik stansiyaları olmayan İran işlənmiş nüvə yanacağını başqa ölkələrdə saxlanılma və emal üçün göndərən ölkələrə bunun əvəzində ödənişin həyata keçirilməsinə hazır deyildi.

BAEA hesabatlarına görə, İran 2005-ci ilə qədər təxminən 500 sentrifuqa quraşdırmağı planlaşdırırdı[10]. Lakin hətta İİR tərəfindən yeddi nüvə enerjisi blokunun inşası layihəsinin yerinə yetirməsi halında belə İran reaktorlarını lazımi miqdarda nüvə yanacağı ilə təmin etmək üçün bu kifayət deyildi. İAET uran yataqları ehtiyatlarının həcmi (təxminən 900 ton) nəzərə alınmaqla, mədənlərin 2005-ci ildə işə başlamasından etibarən 17 il ərzində tükənəcəyini proqnozlaşdırırdı. Uran filizinin süxurdan ayrılması üzrə zavod ildə U-235 təbii tərkibli 50 ton uran istehsal etmək üçün nəzərdə tutulmuşdu, lakin yanacaq istehsalı üçün bu güc kifayət deyildi, bir enerji bloku üçün bundan bir neçə dəfə çox uran tələb olunurdu.

İranın nüvə yanacağı istehsalı və urandan dinc məqsədlərlə istifadə üçün onun müstəqil zənginləşdirilməsi istiqamətində fəaliyyəti 2006-cı ildə Rusiya ilə İran arasındakı münasibətlərdə mühüm məqam təşkil etdi. Lakin bəzi ziddiyyətlər mövcud idi. Qeyd olunduğu kimi, İranın nüvə proqramı ilə əlaqədar Rusiya "ikili standartlar"ın tətbiqinə və İran böhranının hərbi yolla həllinə qarşı çıxırdı. Rusiya İrana qarşı hər hansı birtərəfli (iqtisadi və ya siyasi) sanksiyaların tətbiqini də məqbul hesab etmirdi. Eyni zamanda, Rusiya Federasiyası nüvə silahlarının yayılmamasının və İran tərəfindən yüksək dərəcədə zənginləşdirilmiş uran istehsalının məhdudlaşdırılmasının tərəfdarı idi. 2006-cı ildən etibarən Rusiya Federasiyasının İranın nüvə proqramı ilə bağlı mövqeyində bəzi dəyişikliklər baş verdi, nəticədə ABŞ, BMT və Avropa Birliyi sanksiyalar rejimini sərtləşdirdi.

Sonrakı illərdə ABŞ və müttəfiqləri İranın nüvə proqramına istinad edərək, Tehranın nüvə silahına yol axtardığını və beynəlxalq sistemin təhlükəsizliyi üçün ciddi təhdidə çevrildiyini elan etdilər. Amerika Birləşmiş Ştatları BAEA İdarə Heyətinin bütün üzv-ölkələrini öz tərəfinə çəkməyə nail oldu. 8 mart 2006-cı ildə İranın nüvə məsələsi ilə bağlı sənədlər BAEA İdarə Heyəti tərəfindən BMT Təhlükəsizlik Şurasına göndərildi. Təhlükəsizlik Şurası İranın nüvə məsələsi ilə bağlı sənədlərə dair altı qətnamə qəbul etdi, onlardan dördündə İrana qarşı ən sərt sanksiyalar yer aldı. Təhlükəsizlik Şurasının İranın nüvə proqramı ilə əlaqədar qəbul etdiyi qətnamələr Birləşmiş Millətlər Təşkilatı Nizamnaməsinin qlobal sülhün təhdidlər qarşısında Təşkilatın məsuliyyətindən bəhs edən 8-ci maddəsinə əsaslanırdı.

Bölgədəki sabitliyi qorumaq və müharibənin başlanmasının qarşısını almaq üçün Rusiya İranın nüvə

böhranının idarə olunmasında iştirak etməyə çalışdı. İranın AB ilə danışıqların dəstəklənməsi və Rusiyada İran üçün uranın zənginləşdirilməsi kimi bəzi layihələrin irəli sürülməsi Moskvanın strategiyalarından biri idi. Heç şübhəsiz, İranın nüvə məsələsi ilə bağlı sənədlərin BMT Təhlükəsizlik Şurasına göndərilməsi və İrana qarşı iqtisadi sanksiyaların tətbiqi Tehranla Moskva arasındakı ikitərəfli münasibətlərə ziyan vururdu. Lakin İranın nüvə fəaliyyəti Qərb mediasının geniş təbliğatı sayəsində beynəlxalq təhlükəsizlik üçün "təxirəsalınmaz vəzifə"yə çevrildikdə Rusiya İranın nüvə proqramına dəstəyini tədricən azaltdı və Təhlükəsizlik Şurasının İrana qarşı bütün qətnamələrinin lehinə səs verdi[2].

Əlbəttə, Rusiya əvvəlcə İranla imzalanan nüvə və hərbi əməkdaşlıq müqavilələrini nəzərə alaraq Təhlükəsizlik Şurasının İrana qarşı qətnaməsinin mətninə müdaxilə etməyə və sanksiyaları azaltmağa çalışdı. Təhlükəsizlik Şurasında Rusiya inşa etdikləri Buşəhr atom elektrik stansiyasını İranın digər nüvə layihələrindən kənarda saxlaya bildilər ki, Təhlükəsizlik Şurasının sanksiya qətnamələri bu elektrik stansiyasının tikintisini başa çatdırmaq üzrə əməkdaşlığın davam etdirilməsinə mane olmasın.

Nəhayət, 5 may 2008-ci ildə V.Putin Rusiyanın BMT Təhlükəsizlik Şurasının İrana qarşı sanksiyalara qoşulmasına dair fərman imzaladı. Fərmana uyğun olaraq, 3 mart 2008-ci ildən etibarən nüvə məqsədləri üçün istifadə olunan avadanlıq və materialların Rusiya Federasiyasının ərazisindən İrana tranziti, ixracı, habelə Rusiyadan kənarda İrana verilməsi qadağan olunurdu. Fərmana əsasən, eyni qadağan raket silahlarının yaradılmasında istifadə edilə biləcək bütün maddələrə aid idi.

Təhlükəsizlik Şurasının qətnamələrinə əlavə olaraq, ABŞ hökuməti İranın neft və qaz sənayesinin ölkə iqtisadiyyatının hərəkətverici qüvvəsi olduğunu əsas götürərək İranın nüvə proqramına qarşı birtərəfli sanksiyalar qəbul etdi. Prezident B.Obama ABŞ Konqresinin İran İslam Respublikası Mərkəzi Bankına qarşı sanksiyalara dair qəbul etdiyi qanunu da imzaladı, bu qanuna əsasən ABŞ İran Mərkəzi Bankı ilə maliyyə mübadiləsi aparacaq bütün xarici şirkətlərə və banklara sanksiya tətbiq etdi. Dünyanın müxtəlif ölkələri ilə geniş iqtisadi və ticarət əlaqələri sayəsində ABŞ praktik olaraq digər ölkələrə İrana qarşı birtərəfli sanksiyaları qəbul etdirə bildi. Əsas payı ABŞ investorlarına və təşkilatlarına məxsus olan ABŞ-dan kənar şirkətlər də praktik olaraq ABŞ sanksiyalarına riayət etmək məcburiyyətində qaldılar. Bir çox xarici ölkə və şirkət ABŞ-ın qorxusundan ABŞ-ın İrana qarşı birtərəfli sanksiyalarına riayət etdi. Bu baxımdan ABŞ-ın birtərəfli sanksiyaları və bu ölkənin Rusiya şirkətləri kimi İrana yatırım üçün müraciət edən ölkələrə göstərdiyi təzyiq onların İran bazarında iştirakla bağlı səylərini dayandırmalarına gətirib çıxardı. Keçmişdə Rusiya şirkətləri İranın neft-qaz və neft-kimya sektorlarında fəal iştirak etməyə çalışırdısa, artıq bu əməkdaşlıq bir çox beynəlxalq çətinliklərlə üzləşmişdi. Rusiyanın "Qazprom" şirkətinin İranla Türkmənistan arasında qaz mübadiləsi və İranın cənubundakı Pars əyalətində qaz yataqlarının işlənməsində iştirak etməsi nəzərdə tutulurdu. "Qazprom"un Xəzər dənizindən Oman körfəzinə enerji nəqli üçün Neka-Cask boru kəmərinin inşasında və Gülüstan əyalətində neft emalı zavodunun yaradılmasında iştirakı da planlaşdırılırdı. Lakin bu sazişlərin həyata keçirilməsi İrana qarşı beynəlxalq iqtisadi sanksiyalar üzündən bir çox maneələrlə qarşılaşdı və əksər hallarda dayandırıldı.

İranlılar, demək olar ki, bütün Rusiya banklarının ABŞ-ın qanunsuz tətbiq etdiyi birtərəfli sanksiyaların təsiri altına düşmək təhlükəsi altında İran qurumları ilə maliyyə əlaqələrini azaltmağa tələsdiklərinin şahidi oldular. Yaranmış vəziyyətdə İran Rusiya Federasiyası ilə dolğun əməkdaşlığa ümid edə bilməzdi. Bu səbəbdən İranın nüvə proqramı ilə bağlı böhran, ABŞ-ın İrana qarşı beynəlxalq və birtərəfli sanksiyaları Moskva ilə Tehran arasında iqtisadi, texnoloji və hərbi əməkdaşlıq potensialının mühüm bir hissəsinin dayandırılmasına səbəb oldu. Keçmişdə amerikalılar artıq bir neçə dəfə İranla texnoloji əməkdaşlıq edən Rusiya şirkətlərinə və təşkilatlarına qarşı sanksiyalar tətbiq etmişdilər. 1999-cu ildə ABŞ İrana mühüm texnologiyalar satmaqda ittiham olunan 10 Rusiya şirkətini hədəf almışdı. 2002-ci ildə digər üç Rusiya şirkəti eyni ittihamla sanksiyalara məruz qalmışdı. 2008-ci ildə bir Rusiya ixracat şirkəti ABŞ-ın sanksiyalarına məruz qaldı, bu da Rusiya hökumətinin sərt tənqidinə səbəb oldu. Lakin Moskva ilə Tehran arasında ikitərəfli əməkdaşlıqda başlanan müsbət proseslərə baxmayaraq, son onillikdə İranın nüvə proqramı ətrafında böhran iki ölkə arasında iqtisadiyyat və ticarət sahəsindəki geniş əməkdaşlığa böyük maneələr yaratdı. Sanksiyalar İran və Rusiya arasındakı iqtisadi və ticarət əlaqələrinə olduqca mənfi təsir göstərdi. Bu dövrdə iki ölkə arasındakı əməkdaşlığın ən aşağı səviyyəsi qeydə alındı.

Mərkəzi Asiya və Yaxın Şərqdəki nüfuzunu möhkəmləndirməyə çalışan Rusiyanın siyasətini təhlil edərkən İranın strateji əhəmiyyətini azaltmamalıyıq. Eyni zamanda, yuxarıda da qeyd etdiyimiz kimi,

Rusiya Federasiyası ilə İran arasındakı siyasi münasibətlərə müəyyən ziddiyyət xasdır. Bir tərəfdən, Rusiya üçün İran, Şimali Qafqaz və Mərkəzi Asiyadakı radikal vəhhabilərin fəaliyyətinə müqavimət göstərmək sahəsində əsas tərəfdaşıdır. İki ölkə güclərini birləşdirərək kənar qüvvələrin Mərkəzi Asiya və Xəzər regionuna müdaxiləsinə müqavimət göstərmək üçün mübarizə aparırlar, eyni zamanda bölgədəki gərgin vəziyyətin İranın anti-Qərb və anti-Amerika yönümlü xarici siyasəti üzündən kəskinləşməsi təhlükəsi mövcuddur. Rusiya üçün bu, öz sərhədləri yaxınlığında ehtimal olunan təhlükənin və hərbi qarşıdurma halında arzuolunmaz vəziyyətin yaranması perspektivi doğurur. Lakin İranın nüvə proqramı ilə bağlı razılaşma və Suriya münaqişəsinin həlli ilə bağlı danışıqlar bölgədə vəziyyəti qismən sabitləşdirməyə imkan vermişdir.

Rusiya Federasiyası daim İrana qarşı siyasi və iqtisadi sanksiyaların tətbiq olunmasına qarşı çıxır. 12 fevral 2013-cü il tarixli Rusiya Xarici Siyasət Konsepsiyası mərhələli yanaşmaya, qarşılıqlı əlaqəyə və nüvə silahının yayılmaması rejiminin tələblərinin yerinə yetirilməsinə əsaslanaraq, İranın nüvə proqramı ətrafında yaranmış vəziyyəti tənzimləmək üçün çoxvektorlu diplomatik fəaliyyətin qurulmasına təkan verəcək ardıcıl və balanslaşdırılmış siyasi strategiya qəbul etdi[3].

15 iyul 2015-ci ildə İran və "altılıq" ölkələri İranın nüvə proqramına dair razılığa gələ bildi. Bunun müqabilində "altılıq" ölkələri anti-İran sanksiyalarını ləğv edəcəklərinə söz verdilər. Razılaşma İranın BAEA müfəttişlərinin nüvə layihələrinə qeyd-şərtsiz buraxılması ilə bağlı öhdəliklərini tənzimləyirdi, bunun müqabilində Qərb ölkələri addım-addım İrana tətbiq olunan sanksiyaları ləğv etmək öhdəliyi götürdülər. Əldə olunan razılaşmanın əsas bəndləri aşağıdakıları nəzərdə tuturdu:

-İrandan zənginləşdirilmiş uranın əhəmiyyətli hissəsinin xaricə məcburi ixracı;

-İranın nüvə obyektlərinin sökülməsinin tam qadağan edilməsi;

-Fordo zavodunun elmi-tədqiqat nüvə fizikası mərkəzinə çevrilməsi və uran zənginləşdirmə qabiliyyətindən məhrum edilməsi;

-nüvə proqramının dinc məcrada inkişafını izləmək üçün 20 il ərzində BAEA-nın İranın nüvə obyektlərinə girişinin təmin edilməsi;

- bəzi məhdudiyyətlərin müəyyən müddət saxlanılması və sonradan tam ləğvi şərtilə ABŞ, AB və BMT Təhlükəsizlik Şurasının İrana qarşı sanksiyalarının ləğvi[9].

Rusiya İranla nüvə sahəsində əməkdaşlığı inkişaf etdirir. Rusiya Federasiyası hazırda dünyada İranla nüvə sahəsində əməkdaşlıq edən yeganə dövlətdir. Üstəlik, İran hazırda Avropa Birliyi və ABŞ tərəfindən güclü təzyiq altındadır, bu səbəbdən Qərb ölkələri ilə danışıqlarda əhəmiyyətli rol oynayan Rusiya Federasiyası ilə əməkdaşlığı qoruyub möhkəmləndirmək İran üçün hər zaman olduğundan daha vacibdir.

Həm xarici siyasətdə, həm də beynəlxalq münasibətlərdə İranın nüvə proqramı ən mühüm elementdir. İran dinc nüvə texnologiyalarının inkişafına, nüvə energetikasının inkişafına və ondan dinc məqsədlər üçün istifadə edilməsinə ölkənin siyasi arenadakı mövqeyini yaxşılaşdıracaq milli nüfuzun əhəmiyyətli hissəsi kimi baxır.

Qeyd etmək lazımdır ki, Donald Trampın ABŞ prezidenti kimi fəaliyyəti dövründə İran və "altılıq" ölkələri arasında razılaşma ciddi mübahisələrə səbəb oldu. Tramp bu razılaşmadan narazılığını dəfələrlə dilə gətirdi, eyni zamanda, ABŞ İrandakı fiziki və hüquqi şəxslərə qarşı yeni sanksiyalar tətbiq etdi. Bu vəziyyəti şərh edən İran xarici işlər naziri Məhəmməd Cavad Zərif qeyd etdi ki, ABŞ-ın "Altılıq" üzvü kimi qəbul etdiyi bu müqavilənin imzalanması Obama administrasiyasının müstəsna seçimi deyil, bütövlükdə Amerika Birləşmiş Ştatlarının mövqeyidir. Buna görə də Trampın həmin öhdəliyi pozmaq haqqı yoxdur[8]. ABŞ-ın bu razılaşmaya qeyri-konstruktiv yanaşması Rusiya və Avropa Birliyi tərəfindən tənqid edildi.

Ümumiyyətlə, İranın nüvə proqramının Rusiya-İran münasibətlərindəki ən vacib komponentlərdən biri olduğu qənaətinə gəlmək olar. Ölkələr arasında bu sahədə əməkdaşlıq Sovet İttifaqının dağılmasından əvvəl başlanmış və bundan sonra Buşəhr atom stansiyasının tikintisini başa çatdırmaq məqsədi ilə davam etdirilmişdir. Bu layihənin tamamlanması Qərbin və xüsusən də ABŞ-ın təzyiqləri səbəbindən çoxsaylı ləngimələrlə üzləşdi. 2003-2004-cü illərdə İranın məxfi uranın zənginləşdirilməsi proqramının mövcudluğuna dair materialların yayımlanması nəticəsində Tehrana təzyiqlər artırıldı. İranın BAEA ilə lazımi işbirliyinin olmaması İranın nüvə işinin 2006-cı ildə BMT Təhlükəsizlik Şurasına göndərilməsinə təkan verdi, bu da İrana qarşı bir sıra beynəlxalq sanksiyaların tətbiqi üçün başlanğıc nöqtəsi oldu. Sanksiyaların tətbiqi 2012-ci ilə qədər davam etdi. O dövrdə Rusiya Federasiyası, xüsusilə sanksiya rejiminin səbəb olduğu Buşəhr AES layihəsini başa çatdırmaq üçün öz öhdəliklərini yerinə yetirə bilmədi. Nəhayət, 2013-cü ildə Həsən Ruhaninin İran Pre-

zidenti seçilməsi ilə “altılıq ölkələri” ilə razılaşmanın imzalanması ilə nəticələnmiş nüvə probleminin həllinə dair danışıqlar başlandı və daha sonra BMT Təhlükəsizlik Şurasının 20 iyul 2015-ci il tarixli 2231 saylı qətnamə qəbul etməsi nəticəsində İrana qarşı əvvəllər qəbul edilmiş bütün qətnamələr və sanksiyalar ləğv olundu. Hal-hazırda İran və Rusiya arasında nüvə energetikası sahəsində əməkdaşlığın real perspektivləri mövcuddur.

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Арбатов А. У ядерного порога: уроки ядерных кризисов Северной Кореи и Ирана для режима нераспространения. Москва: Российская политическая энциклопедия, 2007. – С. 35.*

*2. Галами, Т. Ядерная проблема Ирана: Международная безопасность и сотрудничество крупных держав / Т. Галами // Тегеран: Международный Центр исследований мира. –2010. -Режим доступа: http://peace-ipsc.org/fa/%D9%85% (Сноска дана в переводе с фарси)*

*3. Концепция внешней политики Российской Федерации от 12.02.2013//http:// www. mid.ru/ foreign_policy/official_documents/-/asset_publisher/ CptICkB6BZ29/content/id/122186*

*4. Первая иранская АЭС «Бушер» подключена к электросети // РИА НОВОСТИ. // [электронный ресурс] URL: http://ria.ru/ world/20110904/429729035.html#13640451053713 &message=resize&relto=register&action=addClas s&val ue=registration*

*5. Постановление правительства РФ «О подписании соглашений между Правительством РФ и Правительством Исламской Республики Иран о сотрудничестве в области мирного использования атомной энергии и в сооружении в Иране атомной электростанции» от 17 августа 1992 г. N 592.//http://pravo.gov.ru/proxy/ ips/?docbody=&nd=102017974&rdk= &link_ id=19&intelsearch*

*6. Российско-иранское сотрудничество в области ядерной энергетики. // http://rusrand.ru/ analytics/ rossijsko-iranskoe-sotrudnichestvo-v-oblasti-jadernoj-energetiki*

*7. Хабиби Р.Р. Ядерная программа Ирана в контексте российско-иранских отношений // Теория и практика общественного развития. – 2013. – № 5. – С. 222.*

*8. Iran's foreign minister urges Europe to defy US if Trump sinks nuclear deal. //https: //www. theguardian. com/ world/ 2017/ sep/29/iran-foreign-minister-zarif-europe-trump-nuclear*

*9. Joint Comprehensive Plan of Action and restrictive measures, 2015.//http:// www. consilium. europa. eu/ en/ policies/sanctions/iran/jcpoa-restrictive-measures/*

*10. Implementation of the NPT Safeguards Agreement in Iran, 2 September 2005// https:// www. iaea. org/ sites/ default/files/gov2005-67.pdf*


### XÜLASƏ


Məqalədə müasir dövrdə İran-Rusiya münasibətləri nəzərdən keçirilir. Müəllif İran-Rusiya münasibətlərinə İranın nüvə proqramı ətrafında böhranın təsirinin təhlilini təqdim edir. İran-Rusiya münasibətlərində bu amilin təsiri altında son onilliklərdə baş verən dəyişikliklərə xüsusi diqqət yetirilir.



**Açar sözlər:** *İran, Rusiya, nüvə proqramı, münasibətlər, maraqlar*


### Влияние кризиса вокруг ядерной программы Ирана на ирано-российские отношения
### РЕЗЮМЕ


В статье рассматриваются современные ирано-российские отношения. Автор представляет анализ влияния кризиса вокруг ядерной программы Ирана на ирано-российские отношения. Особое внимание уделено изменениям ирано-российских отношений под влиянием этого фактора в последние десятилетия.



**Ключевые слова:** *Иран, Россия, ядерная программа, отношения, интересы*


### Impact of the Iranian Nuclear Crisis on Iranian-Russian relations
### SUMMARY


The article deals with modern Iranian-Russian relations. The author presents an analysis of the impact of the crisis around Iran's nuclear program on Iranian-Russian relations. Particular attention is paid to the changes in Iranian-Russian relations under the influence of this factor in recent decades.



**Keywords:** *Iran, Russia, nuclear program, relations, interests*

UOT 327: 140.8.

# ƏLİ ŞƏRİƏTİ (1933-1977) 1979-CU İL İRAN İSLAM İNQİLABININ İDEOLOQLARINDAN BİRİ KİMİ

**ELDAR ƏMİROV**
*Azərbaycan Dillər Universitetinin dosenti,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

*E-mail: eldar.ado.85@inbox.ru*

**Giriş: Əli Şəriətinin ömür yoluna qısa nəzər**

İran İslam inqilabının intellektual memarlarından danışarkən yada ilk düşən, ideyaları, şəxsiyyəti bu gün də qızğın şəkildə təhlil və tədqiq edilən mütəfəkkir heç şübhəsiz ki, Əli Şəriətidir (1933-1977). İran cəmiyyətində dini-mənəvi dirçəlişin baş verməsində, xalq kütlələrinin şah rejimilə mübarizəyə səfərbər olmasında Əli Şəriəti ideyalarının, yaradıcılığının təsiri o dərəcədə böyük olmuşdur ki, hətta bir çox əcnəbi tədqiqatçılar onu islamçı hərəkatın ən parlaq intellektualı hesab edir, Xomeyninin ictimai-siyasi baxışlarının formalaşmasında onun müstəsna təsirini vurğulayırlar. Tanınmış fransız şərqşünası J.Keppel onu şah rejiminə qarşı mübarizə aparan müsəlman gəncliyinin ən güclü intellektualı, nəzəriyyəçisi kimi səciyyələndirir. ***[Жиль Кепель. Джихад. Экспансия и закат исламизма. Перевод с французского В.Ф.Денисова. Москва, 2004, s.42].*** Y.Doroşenko isə onu "İran inqilabının Volteri" adlandırmışdır. ***[Дорошенко Е.А. Эволюция исламских концепций в официальной идеологии Ирана // Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока (Сборник статей). Ответственный редактор: Ю.В.Ганковский. Москва, 1986, s.183]***.

Əli Şəriəti 1933-cü ildə Məşhəd şəhərində ruhani təhsil almış Məhəmmədtəqi Şəriətinin ailəsində dünyaya göz açmışdır. Atası Rza şahın hakimiyyətini tənqid etdiyi üçün ruhanilikdən tamamən kənarlaşdırılmış və təhsil nazirliyinə təyinat almışdı. Bir müddət sonra Əli Şəriətinin atası kommunist hərəkatının bayraqdarı olan "Tudə" təşkilatına qoşulur və marksizm ideyalarının fəal təbliğatçılarından birinə çevrilir. Atası öz məktəbli oğlu, gələcək mütəfəkkir Əli Şəriətiyə həm sosialist ideyalarına rəğbət hissini, həm də müstəmləkəçiliyə güclü nifrət duyğuları aşılaya bilmişdi. Onların hər ikisi Milli Müqavimət Hərəkatının 1952-ci ildə Məşhəd şəhərində keçirilmiş izdihamlı nümayişində iştirak etdikləri üçün həbs edilmişdilər. Bu, Əli Şəriətinin dissidentliklə və həbslərlə zəngin ömründə zindanla ilk tanışlığı olmuşdu.

6 aylıq həbsdən sonra Şəriəti Məşhəddə fəaliyyətə başlamış Ədəbiyyat İnstitutuna qəbul olmuş, tələbəlik illərində öz intellektual və ictimai fəallığı ilə hər kəsin diqqətini özünə cəlb etməyi bacarır. 1960-cı ildə o öz təhsilini dövlət hesabına Fransanın məşhur Sarbonna Universitetində davam etdirmək hüququ qazanır. 5 illik təhsilinin yekununda Şəriəti doktorluq işini müvəffəqiyyətlə müdafiə edir. Parisdə yaşayıb təhsil aldığı dövrdə Şəriəti Jan Pol Sartr, Erix From, Frans Fanon kimi görkəmli filosoflarla tanış olur, onlarla yaradıcılıq əlaqəsi saxlayır. 1961 – ci ildə Şəriəti Parisdə kütləvi etiraz aksiyalarından birində polis tərəfindən döyülür, daha sonra isə həbsxanaya salınır. Ə.Şəriətini Fransadan deportasiya etmək istəsələr də, məhkəmə onun lehinə qərar verir. 1964-cü ildə Şəriəti təhsilini başa vurub İrana qayıdır. O, İrana daxil olan kimi bir daha həbs edilir, lakin bir müddət sonra azadlığa buraxılır. Vətənində elmi-pedaqoji, ictimai fəaliyyətini davam etdirən Şəriəti şah iqtidarına müxalif olan hərəkatın aparıcı simalarından birinə çevrilir. Onun ideyaları, kütləvi mühazirələri, nəşr olunan kitabları rejim üçün ciddi problemlər yaradırdı. Nəhayət, hazırladığı və rejimi ifşa edən teatr tamaşalarından sonra Şəriəti atası ilə birgə yenidən azadlıqdan məhrum olunur. 18 ay həbsdə qaldıqdan sonra Şəriəti beynəlxalq ictimaiyyətin və əhalinin etirazları nəticəsində həbsxanadan evə buraxılır. Ancaq azadlıqda olduğu zaman ona pedaqoji fəaliyyətlə məşğul olmağa, məqalə nəşr etdirməyə imkan vermirlər. Əli Şəriəti ölkəni tərk etmək qərarına gəlir və 1977 –ci ildə Londona yollanır. 19 iyun 1977-ci il tarixində isə onu evində ölü tapırlar. Şah rejimi bu qətllə əlaqəsinin olmadığını təkidlə təkrarlasa da, ictimaiyyət həyata keçirilmiş cinayətdə "SAVAK"ın əli olduğuna əsla şübhə etmirdi.

## 1. Əli Şəriətinin baxışlarında İslam dünyasının tənəzzülünün səbəbləri və müsəlman maarifçilərinin başlıca vəzifələri

Təzad ondan ibarətdir ki, Əli Şəriətinin yalnız şahla deyil, ruhanilərlə də münasibətləri olduqca gərgin idi. Məlumdur ki, Xomeyni istisna olmaqla

dövrün bir çox tanınmış şiə ruhanisi Şəriətinin fikirlərini bidət adlandırmış, onun əlehinə fətvalar verərək, yazdıqlarının mütaliəsini müsəlmanlar üçün arzuolunmaz adlandırmışdılar ***[Ali A.Allawi. İslam uygarlığının buhranı. Çeviren: Z.Yelçe. Ankara, 2010, s.78]***. Bəs görəsən, Şəriətini bir-birinə nifrət bəsləyən hər iki qrupa qarşı müxalif olmağa vadar edən nə idi? Ə.Şəriəti nəyin uğrunda mübarizə aparırdı, onun təklif etdiyi İslam modelinin mahiyyəti nədən ibarət idi? Ruhanilərin Şəriətiyə bəslədikləri nifrətin başlıca səbəbi haqqında yuxarıda söz açılıb. Söhbət onun din xadimlərinin missiyasına yanaşmasından, onları klassik İslamda mövcud olmayan, sonradan meydana gəlmiş istismarçı sosial sinif kimi görməsindən gedir. Ancaq yeganə səbəb bu deyildi və qoyulan suallara cavab tapmaq üçün mütəfəkkirin düşüncə dünyasının başlıca cəhətlərini anlamaq lazımdır. Öz intellektual fəaliyyətinin məqsədlərini, intellektual axtarışlarının məramını şərh edərkən, Ə.Şəriəti yazırdı: "Hazırda bizim üçün söhbət mövzusu olan məsələ, bir millətin min üç yüz illik keçmişidir, bir ümmətin düşüncə acizliyidir, xilasedici və maarifləndirici bir imanın təhrif olunub sıradan çıxmasıdır. Bir xalqın (İslam ümmətindən, müsəlman dünyasından gedir – E.Ə.) zülüm, cəhalət və yoxsulluq səbəbindən yolunu azması, boyun əyməsi, dərin yuxuya getməsidir, bizim mövzumuz". ***[Ali Şariati. Şia. Tercüme: Prof. Dr. H.Kırlangıç. Ankara, 2016, s. 16-17]***. J.Kepel Əli Şəriətinin baxışlarını təhlil edərək yazır ki, iranlı mütəfəkkiri narahat edən başlıca məsələ müsəlmanların süstlüyü, öz acınacaqlı vəziyyətinə və gələcək taleyinə münasibətdəki laqeydliyidir. Öz mahiyyəti etibarı ilə İslam ədalətli mübarizəyə meyilli, mütərəqqi və insan vicdanını silkələyən bir məfkurədir. Ancaq müsəlmanlar davranışları, həyat tərzləri etibarı ilə İslamdan çox uzaq düşmüş, əsrlərdir ki, özləri-özlərini mənəvi, siyasi, iqtisadi, intellektual böhranın içərisinə sürükləmişlər. Bir tərəfdən müsəlmanlar İslam peyğəmbəri Hz.Məhəmmədin və onun nəvəsi İmam Hüseynin bütpərəstliyə, zülmə, haqsızlığa qarşı şücaət dolu mübarizəsindən iftixarla söz açır, bu şəxsiyyətləri haqlı olaraq ibrət nümunəsi kimi dərin ehtiramla yada salır, digər tərəfdən isə onların izlədikləri yolla irəliləməkdən boyun qaçırırlar. Əli Şəriəti bildirir ki, müsəlmanlar da öz peyğəmbərləri və imamları kimi mübarizə yolunu seçməli, özlərini mənasız xülyalarla aldatmamalıdırlar. Yalnız bütün cəbhələrdə başlanacaq mübarizə İslam dünyasını düşdüyü ağır vəziyyətdən çıxarmağa qadirdir ***[Жиль Кепель. Джихад. Экспансия и закат исламизма. Перевод с французского В.Ф.Денисова. Москва, 2004, s.41-42]***.

Əli Şəriəti gercək İslamı dirçəltmək, onu yenidən sözün bütün mənalarında müsəlmanların həm ictimai-siyasi, həm də mənəvi həyatına geri qaytarmaq uğrunda çalışdığını heç zaman gizlətmir, bunu həyatının ən böyük arzularından biri kimi həmişə dilə gətirirdi. O, bildirirdi ki, İslam əsrlərdən bəri müsəlman xalqlarının həyatında ancaq keçmişin irsi, mədəniyyət, ənənə kimi mövcuddur. İslamın müsəlman xalqlarının həyatında bir həyat fəlsəfəsi, ictimai-siyasi doktrina, ideal və məqsəd kimi mövcudluğundan isə söhbət belə gedə bilməz: "Mən İslamı bir məfkurə kimi dirçəltmək arzusundayam. Hələlik isə İslam mədəniyyət çərçivələrindən kənara çıxa bilmir". ***[Лукоянов А.К. Али Шариати // Иранская революция 1978-1979 гг. Причины и уроки. Ответственный редактор: А.З.Арабаджян. Москва, 1989, s.87]***.

Müsəlman ümmətinin bu cür acınacaqlı vəziyyətə düşməsi prosesi birdən-birə deyil, tədricən baş vermiş prosesdir. Məhəmməd peyğəmbərin və onun ilk ardıcıllarının, o cümlədən Hz.Əlinin vəfatından sonra müsəlmanlara rəhbərlik etmiş şəxslər öz hakimiyyət hərislikləri, maddiyatçılığı, qəddarlığı ucbatından İslam dini ictimai-siyasi həyatdan sıxışdırılmış, onun kütləvi şüura təsirə məhdudlaşdırmış, əqidə ibadətlə, ritual və bayramlarla məhdudlaşdırılmışdır. Bu işə öz şəxsi maraqlarından çıxış edən İslam üləməsi də öz dağıdıcı töhfəsini vermiş, əhalinin kütləvi şəkildə manqurtlaşdırılması prosesində yaxından iştirak etmişdir. Nəticədə, din və onun qanunları ancaq hakim təbəqənin maraqlarına, iqtidarın qorunmasına xidmət etmiş, öz klassik missiyasından uzaqlaşmışdır. Əli Şəriəti din pərdəsi altında yaradılmış bu baxışlar və idarəçilik sistemini "şirk dini" adlandırır, onun əsaslarının ifşasını müsəlman maarifçilərinin ümdə vəzifələri sırasında görür. "Din xalq üçün tiryəkdir" ifadəsi də, Əli Şəriətinin fikrincə məhz bu cür sistemlərin, "şirk dinlərinin" ucbatından meydana gəlmişdir. Çünki, "şirk dininin" ruhaniləri hakim dairələrin, sonra isə müstəmləkəçilərin sifarişi ilə əsrlər boyunca xalqın beyninin yuyulması ilə məşğul olmuşlar ***[Əli Şəriəti. Dinə qarşı din. Tərcüməçi: Maqsud Sayıl. Bakı, 2020, s. 71-72]***. Məhəmməd peyğəmbərin (s) Mədinəyə hicrətindən sonra meydana çıxmış və onun vəfatına qədər 10 il

müddətində mövcud tarixin ilk müsəlman dövlətini iranlı filosof etalon adlandırır, zamanəmizin xüsusiyyətlərini nəzərə almaqla, sözügedən dövrün idarəçilik fəlsəfəsinin, sosial-iqtisadi modelinin dirçəlişi uğrunda mübarizəni ali məqsəd kimi tərənnüm edir.

İslamın dirçəlişi naminə mübarizə dedikdə Şəriəti qətiyyən zorakılıq, qarşıdurma yolunu nəzərdə tutmur. Onun fikrincə, mübarizəsinin başlıca hədəfi ilk növbədə ictimai şüurun dəyişdirilməsi, müsəlmanların intellektual baxımdan keyfiyyətcə yeni, fərqli inkişaf mərhələsinə istiqamətləndirilməsidir. Mübarizənin önündə isə cəmiyyətin ziyalıları, vicdanlı və intellektual insanları getməlidir. Əli Şəriəti mübarizənin önündə gedən şəxsiyyətlərin şəxsi keyfiyyətlərini olduqca mühüm amil qismində nəzərdən keçirir. Bu mənada filosof ziyalı anlayışının mahiyyətinə aydınlıq gətirməyi zəruri hesab edir. O, belə bir qənaətdədir ki, insanların bir çoxu ziyalı anlayışını alim, intellektual anlayışı ilə səhv salırlar. Ziyalı əslində, öz vicdanı, əqidəsi, mübarizə ruhu ilə xalqın işıqlı inkişaf yolunu açmağa çalışan şəxsdir. Çünki, intellekti olan, lakin mənsub olduğu xalqın, cəmiyyətin gələcəyinə laqeyd olan, mübarizə ruhundan məhrum insanlardan heç zaman ziyalı ola bilməz. Belə insanlar ən yaxşı halda gözəl şair, mütəfəkkir, alim ola bilərlər, ancaq heç zaman ziyalı zirəsinə yüksələ bilməzlər. Tarixi təcrübəni təhlil edən Əli Şəriəti bildirir ki, əksər hallarda tarixin axarını, xalqların taleyini dəyişdirən inqilablar, üsyanlar, islahatlar, çevrilişlər diplomu, ali təhsili olmayan, ancaq dərin zəkası, vicdanı və mübarizə ruhu ilə seçilən şəxsiyyətlər tərəfindən həyata keçirilmişdir: *"Ziyalı tarixi və ictimai zaman və məkan kəsiyində özünün insani durumunu dərk edib bu idrakın qaçılmaz və zəruri məsuliyyət hissi bəxş etdiyi kəsdir. Özünü dərk etmiş ziyalı məsuliyyət daşıyır və əgər o, ali təhsilli olsa, daha çox təsirə malik olacaq və əgər ali təhsili olmasa, bəlkə də təsiri nisbətən az olacaq. Əlbəttə, bu, ilk mərhələdə belədir və sonrakı mərhələlərdə bəzən ali təhsili olmayan şəxs ali təhsili olandan daha çox təsirli olur. Müstəmləkə mərhələsindən gözlənilmədən çox mütərəqqi, agah və coşqun bir mərhələyə sıçramış cəmiyyətlərdə aparılmış ümumi belə məlum olur ki, onların rəhbərlərinin, məsul şəxslərinin, elmi, ictimai və inqilabi rəhbərlik məsuliyyəti öhdəsində olan şəxslərin çoxu qeyri-intellektual simalar olublar.*

*...Ziyalı bu gün cəmiyyətin dəyişdiyi, insanın dalana dirəndiyi, ikinci dünya ölkələrində - məqsədim keçmiş üçüncü dünya ölkələridir – cəmiyyətin düçar olduğu çoxsaylı xoşagəlməz hallarda xalq kütləsinə məsuliyyət, agahlıq, ideoloji hərəkət və ictimai istiqamət bəxş edə bilən kəsdir.*

*...Ümumiyyətlə, bu gün dünyada ziyalıların məsuliyyət və rolu qədim cəmiyyətləri dəyişdirən rəhbərlərin, yeni peyğəmbərlərin və din banilərinin roluna bənzəyir. Peyğəmbərlər filosof, alim, texnik, incəsənət xadimi və yazıçı kimi hər hansı təbəqəyə mənsub olmayıblar. Peyğəmbərlər daha çox xalqın öz içindən çıxıblar və ya əgər xalqın içindən çıxmayıblarsa da, xalqın arasında gediblər və cəmiyyətin vicdanına və öz zamanələrində yeni şüar, baxış, hərəkət və enerji yaradıblar". **[Əli Şəriəti. Özünüdərk və eşşəkləşdirmə (və digər mülahizələr). Fars dilindən tərcümə edənlər: A.Mehdiyev, M.Sayıl. Bakı, 2018, s. 218-219]**.*

Əli Şəriətinin fikrincə, müsəlman ziyalılar cəmiyyəti zülmlə, haqsızlıqla, tərəqqi uğrunda mübarizəyə qaldırdığı zaman cəmiyyətin psixologiyasını, əsrlərlə insanların din vasitəsilə əsarət altında saxlayanların istismar alətlərinin mahiyyətini dərindən öyrənməlidirlər. Əks halda, onların təşəbbüsləri nəticə verməyəcək, yəni ümməti işığa çıxarmaq istəyən, onu zülmətə qərq edən səbəbləri yaxşı başa düşməlidir. Dini istismarın, xurafatın və cahilliyin qarşısını almaq üçün müsəlman ziyalıları İslam dininin əsaslarını, Hz.Məhəmmədin irsini incəliklərinə qədər araşdırıb, qavramalıdırlar: " Ziyalı təqliddən və məsələlərə səthi yanaşmaqdan uzaq olmalı və başa düşməlidir ki, hal-hazırda xalq kütləsinin arasında olan mənfi dini təsvirin onun cəmiyyətinin təməlini təşkil edən həqiqi İslam dini və mədəniyyətinə heç bir aidiyyatı yoxdur və orta əsrlərin anti-xristianlıq təcrübəsini İslamın nə keçmişinə, nə də indiki dövrünə tətbiq etmək olar.

İslam cəmiyyətinin ziyalısı din və iman baxımından hansı etiqadın sahibi olmasından asılı olmayaraq, mütləq və mütləq islamşünas olmalıdır. İslamla tanış olandan sonra birdən-birə ondan əvvəlcədən proqnozlaşdırılmayan heyrətamiz inqilabi bir hal yaranacaq və həmin vaxt o necə böyük faciə baş verdiyini, digər ziyalıların "pis başlanğıcla" həm özlərinin, həm də xalqın bütün vaxt, istedad və bacarığını necə zay etdiyini, yanlış izah, yanlış seçim, ağıl və məntiqə zidd münasibətlərlə necə böyük faciəyə səbəb olduqlarını başa düşəcək. Faciə bundan ibarətdir ki, son iki-üç əsrdə dinin ixtiyarı əlində olan kəslər onu indi gördüyümüz donmuş hala salıblar və bizim

zaman, yeni əsr və müasir nəslin ehtiyacları ilə tanış olan ziyalılarımız dinin nə olduğunu bilmirlər. Nəticədə yaşadığımız cəmiyyət onu xilas etmək imkanına malik İslam, mədəniyyət və tarixə sahib olsa da, onun qurtuluşuna səbəb olan dini agahlıq əldə edə bilməyib. Ziyalı İslamla mübarizə aparır, İslamın təfəkkür tarixini xalq kütləsi üçün uyuşdurucu vasitə hesab edir, ondan özü də qidalanırdı. Nəticədə həm İslam tarixin dərinliklərində həbs edildi, həm xalq kütləsi öz məhdud və donmuş ənənələrində dəfn edildi, həm də ziyalı xalqdan uzaqlaşdı, yadlaşdı və xalqın nifrətinə səbəb oldu". ***[Əli Şəriəti. Özünüdərk və eşşəkləşdirmə (və digər mülahizələr). Fars dilindən tərcümə edənlər: A.Mehdiyev, M.Sayıl. Bakı, 2018, s. 250-251]***.

Mürtəce din xadimləri səbəbindən zamanla İslam tarixinin böyük şəxsiyyətləri və ibrətamiz hadisələri kütləvi şüura mərasim, simvol, tarixi bir xatirə kimi həkk olunub, əksəriyyət tərəfindən məhz bu kontekstdə qəbul edilir. Məsələn, İmam Hüseynin Yezidə, Əməvilərin diktaturasına qarşı qiyamı və həmin vaxt Kərbəla çölündə baş vermiş faciə hər bir müsəlman, xüsusilə də şiələr tərəfindən hər il hüznlə yada salınır. Müsəlmanlar peyğəmbərin nəvəsinə və onun ailə üzvlərinə qarşı törədilmiş vəhşilikləri, cinayətləri kədərlə yada salır, onların sifarişçilərinə və icraçılarına lənət oxuyurlar. Ancaq çox az adam İmam Hüseyn qiyamının səbəbləri haqqında düşünməyə fürsət tapır. Din xadimləri maarifçilik edib, insanları Kərbəla hadisəsinin ictimai-siyasi və tarixi əhəmiyyəti barəsində məlumatlandırmaq əvəzinə, onları mərasimlərə, əzadarlıq məclislərinə istiqamətləndirməyə üstünlük verirlər. Hadisənin mahiyyəti unutdurulur, lakin əhalini nəzarət, təsir altında saxlamağa imkan verən mərasim komponenti isə qorunub saxlanılır: *"İnsanlar da bütün keçmiş etiqadlar arasından ancaq İmam Hüseynin qiyamı ilə tanışdır və həmişə onun barəsində fikirləşir, ona görə hisslərə qapılır, ağlayır, əzadarlıq edir, "qanı" etiqadlarının əsası hesab edir, onunla dinlərinin rəngini görürlər. Digər tərəfdən, hamı İslam peyğəmbərini və bizim din rəhbərlərimizi cihad və qılınc ilə tanıyır. Bu dinin şüarı "ədalət və rəhbərlikdir", bu dinin tarixi "qılınc və qandır". Bəs nə üçün bunların heç birinin təsiri yoxdur? Böyük faciə budur! Qara möcüzə budur: "eşşəkləşdirmə zavodunda" qanı tiryəkə, göz yaşlarına çevirdilər. Bizim Kərbəlanı yada salmağımıza ehtiyac qalmadı, onu unutmadılar, gündəmə gətirdilər, amma mənfi təsiri olan formada. Qılıncı İslam tarixinin simvolu kimi gündəmə gətirdilər, amma nadan müsəlmanın öz başına vuracağı şəkildə!"* ***[Əli Şəriəti. Özünüdərk və eşşəkləşdirmə (və digər mülahizələr). Fars dilindən tərcümə edənlər: A.Mehdiyev, M.Sayıl. Bakı, 2018, s. 252]***.

Cəmiyyətin dini təsir vasitəsilə zonbiləşdirilməməsi üçün həqiqi müsəlman ziyalıları İslam tarixinin axarını, dönüş nöqtələrini və hadisələrini insanlara doğru-dürüst, olduğu kimi çatdırmalıdırlar. İnsanlar hadisənin zahiri deyil, mahiyyətini, daxilini anlamalıdırlar. İnsanlara müxtəlif dövrlərdə meydana çıxmış, cəmiyyətin məişətində, təfəkküründə dərin kök salmış müxtəlif inanclarla, adətlərlə, təsəvvürlərlə həqiqi İslam arasındakı fərqlər aydınlaşdırılmalıdır. Çünki, bir çox hallarda insanlar din adı altında həmin adətləri icra edir, köhnəlikdən dinin vacib elementi kimi xilas olmağa cəhd göstərmirlər. Cəhalətlə, xurafatla mübarizənin ən qısa yolu ardıcıl və yaxşı təşkil edilmiş maarifçilikdən keçir. Filosof bu yenilənmə və dirçəliş uğrunda həyata keçirilən fəaliyyətin uğurunu onun çağdaş çağırışlara uyğun şəkildə təşkil edilməməsində, müasir inkişaf meyillərinin nəzərə alınmasında görürdü. Əks halda bu cür təşəbbüslərin heç birinin nəticə verməyəcəyi şübhəsizdir: *"İnsanlar anlamırlar ki, dəyişikliklərin qarşısını almaq mümkün deyil. Onsuz da bu yersiz tələblərə əhəmiyyət verən yoxdur. Bəli, dövr dəyişir, cəmiyyət yeniləşir, adət-ənənələr, qayda-qanunlar yeni forma alırlar, həqiqət isə sabitdir. Dövrün karvanı bütün maneələri ayaqları altında əzəcək. Bəzən köhnəliyi qoruyub saxlamaq üçün dindən istifadə edirlər, halbuki ölmüş və çürümüş köhnəliyi dinin köməyilə yaşatmaq mümkün deyil. Köhnə adətlərlə nadancasına yüklənmiş dinin özü haldan düşür və hətta elə olur ki, din köhnəliyin ağırlığına tab gətirmir. Dinin adət-ənənə ilə bir tutulmasının nəticəsində qəlbi yenilik eşqi ilə dolu olan hərəkatlar dini də köhnəliyə qatıb səhnədən çıxarmaq istəyirlər. Diqqətli olun və dini, İslamı köhnəliklərlə qarışdırmayın. Məsələn, qaynatası ilə qəfil rastlaşan gəlin guya hörmət əlaməti olaraq qucağındakı körpəni daş döşəməyə atırsa, bu, din yox, köhnəlikdir"* ***[Əli Şəriəti. Fatimə Fatimədir. Tərcüməçi: M.Azəri. Bakı, 2020, s. 28-29]***.

İslam maarifçiliyinin başlıca məqsədlərindən birini də Əli Şəriəti müsəlman qadınlarının təhsilə, elmə, ictimai həyata fəal şəkildə cəlb edilməsində görür. Qadının tərbiyəçi missiyasını xatırladan, onun İslam cəmiyyətinin gələcək tərəqqisi baxımından

əhəmiyyətini vurğulayan Əli Şəriəti zərif cinsin təhsil almasına mane olanları müsəlmanların başlıca düşmənlərindən biri kimi xarakterizə edir. O, haqlı olaraq bildirir ki, öz davranışları və bəsit təfəkkürlərilə həmin şəxslər ya qəsdən, ya da bilməyərəkdən müsəlman cəmiyyətinin gələcəyini baltalayır, tərəqqinin, sağlam cəmiyyətin formalaşmasının qarşısını alırlar: *"Deyirlər ki, qadın evdə oturub uşaq tərbiyə etməlidir. Maraqlıdır, elm və maarifdən xəbərsiz bir insan övlad tərbiyə edə bilərmi? Bir millətin gələcəyi olan nəsli savadsız qadına etibar etmək olarmı? Axı o, uşaq əmizdirməkdən və əski yumaqdan başqa bir şey bacarmır? O, uşağı necə tərbiyə edə və körpənin şıltaqlığının qarşısını necə ala bilər? Təbii ki, əvvəlcə körpənin başına çımxıracaq, sonra kötəkləyəcək, daha sonra isə atasını köməyə çağıracaq və nəhayət körpəni cin-şeytanla qorxutmağa başlayacaq. Axı onun əlindən başqa bir iş gəlmir!*

*... Xüsusilə imkanlı ataların və ərlərin dindarlıq bəhanəsilə qadını savadsız saxlamaları böyük qəbahətdir. İslam tarixini yaxşı oxuyun. İslamda qadınlar ictihada çatmış, təhsillə məşğul olmuş və qiymətli əsərlər yazmışlar".* ***[Əli Şəriəti. Fatimə Fatimədir. Tərcüməçi: M.Azəri. Bakı, 2020, s. 56-57]***. Əli Şəriəti müsəlman qadınının həm savadlı olmasını, həm də öz dininin incəliklərini bilməsini zəruri hesab edir. Filosof əmindir ki, ananın keyfiyyətləri və tərbiyə üsulu gələcək şəxsiyyətlərin formalaşmasına əhəmiyyətli dərəcədə sirayət edəcəkdir. Bu mənada o, İslam peyğəmbəri Hz.Məhəmmədin qızı Fatiməni nümunə göstərir və müsəlmanları bu örnəkdən bəhrələnməyə çağırır. Fatimə öz əqidəsi və mənəviyyatı ilə Hz.Məhəmmədin yolunu davam etdirmiş, İmam Əli ilə birgə İslam tarixinin iki parlaq şəxsiyyətini İmam Həsən və İmam Hüseyni tərbiyə etmiş, kamil müsəlman kimi yetişdirməyə nail olmuşdur. Həmin şəxsiyyətlər də öz növbəsində İslam tarixindəki parlaq və təkrarsız missiyalarını icra edərək, gələcək nəsillərə dinin həqiqi mahiyyətini ötürməyi bacarmışlar. Bu nəcib xanım dərin imanı, əqidəsi və qətiyyəti hesabına İslam tarixi nöqteyi-nəzərindən həm övlad, həm həyat yoldaşı, həm də ana kimi öz missiyasının öhdəsindən layiqincə gəlmiş, gercək müsəlman qadınının necə olması haqqındakı suala şəxsi nümunəsilə tutarlı bir cavab vermişdir: *"Mən də Fatiməni bir neçə kəlmə ilə təqdim etmək istədim: "Fatimə böyük Xədicənin qızıdır – dedim, kifayət etmədi. "Fatimə Muhəmmədin qızıdır" – dedim, kifayət etmədi. "Fatimə Əlinin xanımıdır" – dedim, kifayət etmədi. "Fatimə Həsən və Hüseynin anasıdır – dedim, kifayət etmədi. Bütün deyilənlər az oldu və qərara gəldim ki, Fatimə Fatimədir!"* ***[Əli Şəriəti. Fatimə Fatimədir. Tərcüməçi: M.Azəri. Bakı, 2020, s. 114]***.

Əli Şəriəti mədəniyyətlər mübadiləsini, digər sivilizasiyaların nailiyyətlərinin öyrənilməsinə və əxz olunmasına nəinki müsbət yanaşır, həmçinin də bunu inkişaf baxımından qaçılmaz sayır. Ancaq mübadilənin mənası doğru anlaşılmalı, öyrənmək təqlidçiliklə, yamsılama ilə nəticələnməməlidir. Yamsılama, kor-koranə təqlid son nəticədə özünəməxsusluğu və yaradıcılıq qabiliyyətini sıradan çıxarır, xalqı, yaxud cəmiyyəti daha zəngin, güclü, inkişaf etmiş şəxslərin, cəmiyyətlərin sönük bir surətinə çevirir: *"Amma yalançı və nökər xarakterli yamsılama, Frants Fanonun dili ilə desək, "meymuncasına və ürəkbulandırıcıdır" və biz Qərbi həmin formada nə qədər çox yamsılasaq, bir o qədər Qərbin istehlakçısı olaraq qalacaq, onun təsiri altında olacaq, daim Qərbə möhtac ikinci dərəcəli Şərq irqi sayılacağıq. Sonra elə bir həddə çatacağıq ki, ümumiyyətlə, onları üstün irq, onların mədəniyyətini üstün mədəniyyət, qərarını, baxışını, həyatını, əxlaqını özümüzünkündən üstün qərar, baxış, həyat və əxlaq kimi qəbul edəcəyik. Müsəlman, buddist, hindli və iranlı olmasından asılı olmayaraq, şərqli qərblinin üstün irq olduğunu, daha yaxşı düşünmək qabiliyyətinə malik olduğunu qəbul etməklə özünün əbədi xarlığını təsbit edir. Çünki, o, üstün irqin gördüyü bütün işləri qeyd-şərtsiz, birmənalı şəkildə üstün və yamsılanmağa layiq sayır. Burada dəyərləndirmə meyarı ağıl, haqq, ehtiyaca cavab verib-verməmək, işə yarayıb-yaramamaq deyil, üstün irqə mənsub olmaqdır. Buna görə də kor təəssübkeşlik və kor yamsılama deyil, faydalı və şüurlu seçimə əsaslanan yamsılama – müridin mürşidi yamsılaması deyil, şagirdin öz müəllimini yamsılaması bəyənilləndir".* ***[Əli Şəriəti. Özünüdərk və eşşəkləşdirmə (və digər mülahizələr). Fars dilindən tərcümə edənlər: A.Mehdiyev, M.Sayıl. Bakı, 2018, s. 86-87]***.

Diktatura və zülmün bütün mümkün təzahür formaları ilə mübarizəni İslamın ana qayəsi, gercək müsəlman ziyalılarının isə həm Allah, həm də ümmət qarşısında başlıca mənəvi öhdəliyi hesab edən Əli Şəriəti sonadək öz yaradıcılığı, keçdiyi ömür yolu ilə səsləndirdiyi fikirlərə əməli sadiqliyini sübut etmişdir. Y.Doroşenko yazır ki, İranda hətta sərt senzuranın hakim kəsildiyi və açıq tənqidin qadağan edildiyi çətin dövrdə belə Ə.Şəriəti rejimə hücum

etməkdən çəkinmir, müxtəlif bənzətmələr, alleqoriyalar yolu ilə Məhəmməd Rza şahı hədəfə alırdı. O, Quran və ilahiyyat anlayışlarından istifadə edir, Misir fironlarının zülmlərindən, İmam Hüseynin Yezidə qarşı apardığı qeyri-bərabər mübarizədən danışaraq əslində, başlıca günahkar kimi Pəhləvi rejimini göstərirdi. Əli Şəriətinin barəsində danışdığı firon, Yezid məhz Məhəmməd Rza şah Pəhləvi idi. Vəsf etdiyi Kərbəla isə rejiminlə mübarizə meydanıdır. ***[Дорошенко Е.А. Эволюция исламских концепций в официальной идеологии Ирана // Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока (Сборник статей). Ответственный редактор: Ю.В.Ганковский. Москва, 1986, s.184-185]***.

**2. Əli Şəriəti şiəliyin gercək mahiyyəti və tarixi missiyası haqqında**

Əli Şəriəti məzhəbçi deyil, o, İslam ümmətinin bütünlüyünü, vəhdətini arzulayır. Ancaq bütün bunlarla yanaşı, filosof şiəliyə xüsusi bir missiyaya malik məfkurə, yol, dünyagörüşü kimi baxır. O, şiəliyin zülmə, haqsızlığa qarşı qiyam bayrağı olduğunu, ədalətsizliyə, siyasi istismarçılığa qarşı güzəştsiz mövqe tutduğunu xüsusilə qeyd edir. Əli Şəriəti bildirir ki, şiəlik də İslam dininin özü kimi etiraz mədəniyyətinin, üsyan fəlsəfəsinin üzərində qurulub, bu zəmində intişar tapıb. Əgər İslam dini Ərəbistanda əsrlər boyunca bərqərar olmuş bütpərəstliklə, amansız qanunlarla, sərt və ədalətsiz təbəqələşmə ilə mübarizəyə başlamışdısa, bütün bunlara "yox" deyib, etiraz səsini qaldırmışdısa, şiəlik də Əməvi diktaturasına qarşı inadlı müqavimət göstərməklə, istibdadı rədd etməklə tarix səhnəsinə çıxmışdı: *"Şiəliyin bütün əsasları və təfərrüatı bu əsas üzərində dayanmasa ayaqları havada qalar, o, mənasız və hədəfsiz olar. Onun əsaslarının əsası "xeyrdir"*. ***[Ali Şariati. Şia. Tercüme: Prof. Dr. H.Kırlangıç. Ankara, 2016, s. 211]***. Həmçinin, şiəliyin siyasi proseslərə laqeyd yanaşmaması, daim ictimai-siyasi dəyişikliklərə həssas münasibəti, tarixən dini siyasətdən ayırmaq cəhdlərinə inadla müqavimət göstərməsi Ə.Şəriətinin fikrincə, onun fəallığını, hərəkət enerjisini təmin edən müstəsna amildir. Filosof belə hesab edir ki, ümumiyyətlə, hər hansı bir cərəyan, qrup, yaxud məfkurə özünü siyasətdən kənar elan edirsə, onun gələcəyi yoxdur. O cümlədən də əgər müsəlman xalqları İslamın yanaşdığı bir şəkildə siyasətdən uzaqlaşsalar, özlərini məhvə məhkum etmiş olarlar. ***[Ali Şariati. Şia. Tercüme: Prof. Dr. H.Kırlangıç. Ankara, 2016, s. 121]***. Tanınmış İraqlı alim Ə.Əlləvi Əli Şəriəti barəsindəki mülahizələrində onun şiəliyin şəhadətə, əzabkeşliyə və mübarizəyə verdiyi əhəmiyyəti qabardaraq, bu əqidəni müasir dünyada müstəmləkəçilikdən, əsarətdən əziyyət çəkən müsəlman xalqlarının mübarizə ideyasına çevirməyə çalışdığını xüsusilə yada salır. Onun fikrincə, müsəlman xalqları məhz onları mübarizəyə qaldıra biləcək güclü ictimai-siyasi ideologiyanın yoxluğundan əziyyət çəkir, çox zaman öz talelərilə barışmalı olurlar. Əli Şəriəti həqiqi şiəliyin əsrlər keçməsinə baxmayaraq bu gün də öz ana missiyasının, yəni zülmlə mübarizənin öhdəsindən gəlmək iqtidarında olduğu fikrini, demək olar ki, bütün əsərlərində təkidlə müdafiə edir. ***[Ali A.Allawi. İslam uygarlığının buhranı. Çeviren: Z.Yelçe. Ankara, 2010, s.77]***.

Şiəlikdən danışarkən, Ə.Şəriəti onun müasir formasının tarixi əslindən, yəni orijinal şəklindən uzaqlaşdığından narahatlıqla söz açır. O, bu işdə, yəni şiəliyin təhrifində Səfəvilərin böyük rol oynadıqlarını vurğulayaraq, sözügedən sülalənin şiəliyi faktiki olaraq mənəvi, ictimai-siyasi müqavimət məfkurəsindən çıxararaq onu konkret dövlətin, xanədanın maraqlarına xidmət edən, aqressiv ideologiyaya çevirdiyi qənaətinə gəlir. Ə.Şəriətinin şiəliyin təhrifinə dair fikirlərini təhlil edən türkiyəli tədqiqatçı Orxan Türkdoğan yazır ki, iranlı filosof bu mənada şiəliyi tarixi inkişaf yolu baxımından iki mərhələyə ayırmışdır: 1. Hz.Əli dövründə formalaşmış, onun mübarizə yolunu, siyasi fəlsəfəsini, dünyagörüşünü müdafiə və təbliğ edən şiəlik, yəni Əli şiəliyi. 2. Səfəvilər dövründə formalaşaraq, dövlət ideologiyası səviyyəsinə yüksəlmiş, aqressiv, məzhəbçi, İslam dünyasından təcrid olunmuş, ifrat formada siyasiləşmiş şiəlik, yəni Səfəvi şiəliyi. O.Türkdoğanın fikrincə, Əli Şərəiəti Səfəvi şiəliyini əsas iki məsələdə sərt şəkildə tənqid etmişdir: 1. Səfəvi şiəliyi, sünnilərlə, yəni müsəlman aləminin böyük bir qismilə siyasi münasibətlərini kəsərək, onun açıq-aşkar münaqişə ideyasını təbliğ edir. 2. Səfəvi şiəliyi şiəlik əqidəsini imperiyanın sərhədlərilə, daha dəqiq desək, İranla məhdudlaşdırır, lokallaşdırır. Halbuki, şiəlik bütün İslam aləmi miqyasında mübarizə aparan, bütün dünya müsəlmanlarına xitab edən məfkurədir, yoldur. Səfəvi şiəsindəki hərbi-siyasi komponentin aqressivlik dərəcəsi ancaq Əməvi sünniliyilə müqayisə oluna bilər. Halbuki, Əli şiəliyi öz mahiyyəti,

məqsədləri və mübarizə üsulları nöqteyi-nəzərindən Məhəmməd peyğəmbər dövründəki sünniliyin davamıdır. ***[O.Türkdoğan. Safevi şiasından Ali şiasına mı? //Türk dünyası araştırmaları. Mart-Nisan 2003, №143. İstanbul, 2003, s. 28]***.

**Nəticə**

Təbii ki, bir məqalə çərçivəsində Əli Şəriətinin dünyagörüşünü, təlimini və uğrunda mübarizə apardığı idealları bütövlükdə əhatə etmək, onları müfəssəl şəkildə təhlil etmək mümkünsüz vəzifədir. Əli Şəriəti yaradıcılığının təhlili və qiymətləndirilməsi ayrıca bir dissertasiya, monoqrafiya mövzusudur. Əminliklə demək mümkündür ki, İslam inqilabının intellektual baxımdan hazırlanmasında, dini dünyagörüşünün dirçəlməsində Əli Şəriətinin rolu müstəsnadır. Bu mənada onun mübarizəsi və əsərləri dövrün əksər nüfuzlu din xadimlərinin fəaliyyətini kölgədə qoymağı bacarmışdır.

**Açar sözlər:** *Əli Şəriəti, İslam inqilabı, şiəlik, ideoloq, Pəhləvilər rejimi.*

**ƏDƏBİYYAT SİYAHISI:**

*1. Şəriəti Ə. Özünüdərk və eşşəkləşdirmə (və digər mülahizələr). Fars dilindən tərcümə edənlər: A.Mehdiyev, M.Sayıl. Bakı: Parlaq imzalar, - 2018, - 312 s.*

*2. Şəriəti Ə. Dinə qarşı din. Tərcüməçi: Maqsud Sayıl. Bakı: Parlaq imzalar, -2020, - 96 s.*

*3. Şəriəti Ə. Fatimə Fatimədir. Tərcüməçi: M.Azəri. Bakı: Parlaq imzalar, - 2020, - 296. s.*

*4. Ali A.Allawi. İslam uygarlığının buhranı. Çeviren: Z.Yelçe. Ankara, 2010.*

*5. Şariati A. Şia. Tercüme: Prof. Dr. H.Kırlangıç. Ankara, 2016.*

*6. Дорошенко Е.А. Эволюция исламских концепций в официальной идеологии Ирана / Ислам и проблемы национализма в странах Ближнего и Среднего Востока (Сборник статей). Ответственный редактор: Ю.В.Ганковский. Москва: Наука, 1986, стр. 78-92.*

*7. Лукоянов А.К. Али Шариати // Иранская революция 1978-1979 гг. Причины и уроки. Ответственный редактор: А.З.Арабаджян. Москва: Наука, 1989, с. 85-91.*

*8. Кепель Ж. Джихад. Экспансия и закат исламизма. Перевод с французского В.Ф.Денисова. Москва: Ладомир, 2004, - 468 с.*

**РЕЗЮМЕ**

**Эльдар Амиров**
**доктор философии по политическим наукам, доцент**
**(Азербайджанский Университет Языков)**

**Али Шариати (1933-1977) как один из идеологов Исламской революции в Иране 1979 года**

Статья посвящена анализу общественно-политических и религиозных взглядов выдающегося иранского философа Али Шариати, которого очень многие по праву относят к числу основных идеологов – мыслителей подготовивших интеллектуальную почву исламской революции 1979 года. Автором уделяется особое внимание критическим взглядам философа относительно реакционной и тиранической сущности шахского режима в Иране, удерживающего власть до 1979 года, одновременно и тогдашнего иранского духовенства, погрязшего в невежестве и коррупции. Али Шариати, считал, что большинство представителей духовенство не заинтересовано в истинном духовном, интеллектуальном и политическом возрождении Ислама, так как это положит конец эксплуатации религиозных чувств миллионов верующих. Мыслитель считал, что без революционных изменений в умах никакое протестное движение в Иране не может привести к серьезным политическим и экономическим преобразованиям либерального и социального характера. Такие радиальные взгляды делали Али Шариати ненавистным как для правящей верхушки, так и для духовенства, враждебно настроенного против власти. Это, в конце концов, привело к тому, что Али Шариати остался один, не сумев присоединиться ни к одному из противостоящих друг другу политических сил. Хотя его идеи, личность и трагическая смерть от рук шахских агентов в Лондоне впоследствии начали весьма широко использоваться духовенством в идеологической и информационной борьбе против иранского шаха. Прогрессивные и смелые идеи, открытые призывы Али Шариати сыграл важную роль в склонении народных масс на сторону духовенства, и фактически создали новый, объективный образ шиизма, оклеветанный шахской пропагандой и действиями ряда продажных священнослужителей.

**Ключевые слова:** *Али Шариати, исламская революция, шиизм, идеология, Пехлевийский режим.*

**SUMMARY**

**Eldar Amirov**
**PhD in Political Science, Associate Professor**
**(Azerbaijan University of Languages)**

**Ali Shariati (1933-1977) as one of the ideologists of the Islamic Revolution in Iran in 1979**

The article is devoted to the analysis of the socio-political and religious views of the prominent Iranian philosopher Ali Shariati, who is rightfully considered by many to be among the main ideologists - thinkers who prepared the intellectual ground for the Islamic Revolution of 1979. The author pays special attention to the critical views of the philosopher regarding the reactionary and tyrannical nature of the Shah's regime in Iran, which held power until 1979, and at the same time the then Iranian clergy, mired in ignorance and corruption. Ali Shariati believed that most of the clergy were not interested in a true spiritual, intellectual and political revival of Islam, as this would put an end to the exploitation of the religious feelings of millions of believers. The thinker believed that without revolutionary changes in the minds, no protest movement in Iran could lead to serious political and economic transformations of a liberal and social nature. Such radical views made Ali Shariati hated by both the ruling elite and the clergy, hostile to the authorities. This, in the end, led to the fact that Ali Shariati was left alone, unable to join any of the political forces opposing each other. Although his ideas, personality and tragic death at the hands of the Shah's agents in London subsequently began to be widely used by the clergy in the ideological and informational struggle against the Iranian Shah. Progressive and bold ideas, open calls of Ali Shariati played an important role in inclining the masses to the side of the clergy, and in fact created a new, objective image of Shiism, slandered by the Shah's propaganda and the actions of a number of corrupt.

**Key words:** *Ali Shariati, Islamic revolution, Shiism, ideology, Pahlavi regime.*

UOT 327

# UKRAYNA MÜHARİBƏSİNDƏN SONRA AVROPA İTTİFAQININ AZƏRBAYCAN-ERMƏNİSTAN DANIŞIQLAR PROSESİNDƏ ARTAN AKTİVLİYİ

**ÜLVİ ƏHMƏDLİ**
*Bakı Dövlət Universitetinin Beynəlxalq münasibətlər ixtisası üzrə doktorantı*

*E-mail: ulviehmedli@gmail.com*

## Giriş

Rusiyanın 23 fevralda "Xüsusi əməliyyat" adı ilə Ukraynada başlatdığı hərbi müdaxilə bir sıra geosiyasi dəyişikliklərin başlanğıcı oldu. Müharibənin sərhədləri iki dövlət ilə məhdudlaşmadı. Avropa İttifaqı, ABŞ və digər ölkələrdən ibarət Qərb blokunun Rusiyaya qarşı sanksiyaları və Ukraynanı hərbi cəhətdən dəstəkləməsi müharibənin mənzərəsini dəyişdirdi.

Rusiyanı hədəfə alan Qərb bloku Cənubi Qafqazda da siyasi aktivliyini artırdı. Brüsseldə keçirilən görüşlər, siyasi tərəflərin təmaslarının çoxluğu bu aktivliyin əsas göstəricisi hesab edilir. İkinci Qarabağ müharibəsindən sonra ATƏT-in Minsk Qrupu fonunda Qərbin nüfuzu sarsılsa da, Ukrayna müharibəsindən sonra Qərb regionun siyasi proseslərində payını artırmağa başladı.

Moskvanın bütün gücünü Ukraynaya cəmləşdirməsi müvəqqəti geosiyasi boşluq yaradıb ki, bu da Brüssel üçün yeni fürsətlər açır. Aİ danışıqların mərkəzini Brüsselə çəkərək iki dövlət arasında problemin həllində əsas tərəf olmağa çalışır.

Məqalədə Avropa İttifaqının Ukrayna müharibəsindən sonra Azərbaycan və Ermənistan arasında danışıqlarda aktivliyinin artması, bu məsələlərin arxasında dayanan geosiyasi mübarizəni təhlil edilir. Burada "Lebensraum" nəzəriyyəsinin Rusiya modeli, Aİ, Azərbaycan və Ermənistanın təhlükəsizlik, sülh quruculuğu kimi məsələlərdə rəsmi sənədlərinə istinad verilib.

Tədqiqat metodu olaraq isə Avropa İttifaqının Qarabağ problemi üzrə danışıqlarda iştirak keysi, bu məsələdə Rusiya və Aİ-nin siyasi addımları müqayisəli olaraq təhlil edilib. Hər iki dövlətin danışıqlar prosesinə təsiri və izlədikləri siyasi format yazıda geniş əks edilib.

## Ukrayna müharibəsinə qədər Avropa İttifaqının Azərbaycan-Ermənistan sülh prosesində iştirakı

Münaqişələrin həll prosesi uzun çəkdikcə çıxılmaz vəziyyət yarana bilər. Bu, "nə sülh, nə də müharibə" formasında on illərlə uzanır. Belə bir vəziyyətin yaranmasına isə bir sıra elementlər səbəb olur. Buraya tərəflərin zidd ideologiyalara və yanaşmalara malik olması və danışıqlardan imtina etməsi; qarşılıqlı inamın itməsi; status-kvodan faydalanan tərəflərin mövcudluğu kimi elementlər aiddir. (1, s. 29-30)

1988-ci ildə Qarabağda separatçılıq fəaliyyətinə başlayan Ermənistan müharibədə qalib gəldi. Birinci Qarabağ müharibəsi Azərbaycanın torpaqlarının 20%-nin işğalı ilə nəticələndi. 1994-cü ildə atəşkəs müqaviləsinin imzalanması ilə danışıqlar prosesi başladı. Lakin yuxarıda da qeyd edildiyi kimi status-kvonun uzanmasında maraqlı tərəfin mövcudluğu və beynəlxalq səylərin çatışmazlığı münaqişənin həllini 30 ilə qədər uzatdı. Ermənistan danışıqlarda passivlik nümayiş etdirərək və prosesi uzadaraq status-kvonun qorunmasına çalışırdı. Bu isə Azərbaycana hərbi güc tətbiqindən başqa yol buraxmadı və 2020-ci ildə başlayan 44 gün davam edən müharibə Azərbaycanın qələbəsi ilə yekunlaşdı (2, s. 1,2).

İkinci Qarabağ müharibəsinə qədər Avropa İttifaqı sülh prosesində birbaşa şəkildə olduqca az iştirak edib. İttifaqın üzvlərindən olan Fransa 1992-ci ildə yaradılan ATƏT-in Minsk Qrupunun fəaliyyəti çərçivəsində fəaliyyət göstərib. Bundan əlavə, Aİ müxtəlif mexanizmlər ilə Minsk Qrupunun fəaliyyətinə dəstək nümayiş etdirib.

Rəsmi Brüsselin xarici siyasəti onun qəbul etdiyi bir sıra sənədlər vasitəsi ilə müəyyən edilir. Burada münaqişələrin həllində vasitəçilik rolu tanınır. Avropa İttifaqı haqqında Müqavilənin 21-ci maddəsi "sülhün qorunması və qarşısının alınması, beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi" kimi elementlər Aİ-nin əsas məqsədlərindən biri kimi müəyyən edilmişdir. 43-cü maddə Aİ-yə münaqişələrin qarşısını almaq üçün mülki və hərbi vasitələrlə məşğul olmağa icazə verir (3).

Bundan əlavə, 2009-cu ildə qüvvəyə minmiş Lissabon Müqaviləsi Aİ-yə mülki və hərbi fəaliyyətdə əməliyyat potensialı kimi imkan verir. Bu imkanlar Ümumi Təhlükəsizlik və Müdafiə Siyasəti (CSDP)

vasitəsi ilə təmin edilir. Lissabon Müqaviləsinə əsasən, Aİ bu vasitədən ittifaqdan kənarda "sülhün qorunması, münaqişələrin qarşısının alınması və beynəlxalq təhlükəsizliyin möhkəmləndirilməsi" üçün istifadə edə bilər. Təbii ki, Aİ bu missiyanı BMT Nizamnaməsinin prinsiplərinə uyğun həyata keçirməlidir (4).

Avropa İttifaqı Qarabağ münaqişəsi üzrə danışıqlarda ATƏT-in Minsk Qrupunu dəstəkləməklə kifayətlənirdi. Lakin bu institut bir sıra səbəblərə görə uğursuz oldu. Bu qurumda həmsədrlər olan ABŞ, Rusiya sülhün təminatından daha çox öz maraqlarını əsas tuturdu. Rusiya "Yaxın Çevrə" adlanan təsir dairəsində öz hegemonluğunu artırmağa çalışırdı. 11 sentyabr hücumundan sonra regionun ABŞ-ın Yaxın Şərqdəki mövqeyi üçün əhəmiyyəti artdı. Bu da Vaşinqtonun danışıqlar prosesində öz maraqlarını irəli çəkməsinə səbəb oldu. Daha sonra erməni diasporunun həmsədr ölkələrdəki aktivliyi ümumilikdə Minsk Qrupunun fəaliyyətini uğursuzluğa düçar etdi (5, s.156).

**Ukrayna müharibəsindən sonra Aİ və Rusiya rəqabəti**

Dövlətlərə təsir etməyin bir sıra vasitələri var, bunlardan biri isə münaqişələrdir. Qarabağ münaqişəsi Azərbaycan və Ermənistan xarici siyasətində əsas prioriteti təşkil edir. Bu, hər iki dövlətin Milli Təhlükəsizlik Konsepsiyasında qeyd edilib. 2020-ci ildə Ermənistan yeni Milli Təhlükəsizlik Strategiyası adlı rəsmi sənəd qəbul edib. Bu sənədə əsasən Ermənistan Qarabağ problemini milli təhlükəsizliyə əsas hədə kimi görür. Bundan əvvəl, 2007-ci ildə qəbul edilən eyniadlı sənədlə müqayisədə yeni sənəd bəzi dəyişiklikləri özündə ehtiva edir. Burada "Dağlıq Qarabağ" sözü qondarma "Artsax" kimi qeyd edilib. Bununla da Ermənistan Azərbaycan torpaqlarını "tarix"ə istinad edərək iddia qaldırıb. Eyni zamanda 2007-ci ilə zidd olaraq qondarma respublika sözü işlənməyib. Bu, Ermənistanın Qarabağı özünə birləşdirmək kimi iddiasından xəbər verir (6).

2007-ci ildə təsdiq edilmiş Milli Təhlükəsizlik stratgiyasının I,II və III hissələrinə istinadən Azərbaycan ərazi bütövlüyünün həllini həm milli maraqlar, həm də milli təhlükəsizlik baxımından əsas prioritet götürür. Konsepsiyanın birinci hissəsində Azərbaycan regionun sülh və əməkdaşlıq potensialını qabardaraq əsas məqsədinin sabitlik olmasını ifadə edir.

Bir sözlə, hər iki dövlətin xarici siyasətində və təhlükəsizlik strategiyasında Qarabağ probleminin həlli əsas istiqaməti müəyyən edir. Problemin həllinə xarici dövlətlər tərəfindən yanaşma iki dövlətin siyasi rəhbərliyi və xalqı tərəfindən böyük həsassiyyətlə yanaşılır.

Ukrayna müharibəsi Avropa İttifaqı və Rusiya arasında münasibətləri daha da kəskinləşdirdi. Aİ-nin Rusiyaya sanksiyaları dünya təchizat zəncirinə ciddi zərbə vurdu. Müharibə eyni zamanda Aİ-nin iqtisadiyyatında da böhran yaratdı. Həm logistika baxımından, həm də enerji baxımından Aİ ciddi problemlərlə üz-üzə dayanıb. Hadisələrin fonunda Cənubi Qafqaz regionunun əhəmiyyəti artmağa başlayıb. Şərq və Qərb arasında əhəmiyyətli mövqeyə sahib olması və enerji yataqlarına malik olması regionun strateji önəmini müəyyən edir. Son illərdə regionda Aİ və Rusiya rəqabətinin artmasını Azərbaycan-Ermənistan sülh danışıqlarında xüsusi hiss edə bilərik. Bu rəqabəti anlamaq üçün isə siyasi genişlənmə və Rusiyanın imperial siyasətinin kökünü bilməkdə fayda var.

XIX əsr Sənaye İnqilabından sonra böyük güclər yeni bazarlar və xam maddələrə ehtiyac duymağa başladılar. Bu ehtiyac həmin gücləri yeni rəqabətə sövq etdi. Qərb dövlətləri Asiya, Latın Amerikası və Afrika kimi bölgələrə üz tutdu. Qeyd edək ki müstəmləkəçiliyə qədər Qərb dövlətləri bu ərazilərə geridə qalmış, yararsız torpaqlar kimi baxırdı. Qeyd edilən dövrlərdə "Lebensraum" konsepti meydana gəldi. 1930-cu illərdə Hitler Almaniyası bu konsepti izləyərək "Böyük Alman Milləti" ideyasını həyata keçirmək üçün ehtiyacı olan xam maddələri ələ keçirməyə başladı. Bununla da ətraf dövlətlər əsas hədəfə çevrildi. Nəticədə isə İkinci Dünya müharibəsi başladı.

Bu yanaşma Rusiya tərəfindən də izlənməyə başlandı. Vladimir Putin hakimiyyəti ətraf ərazilərə xüsusi diqqət və siyasi nəzarəti artırmağa başladı. "Lebensraum" konspetinin banisi olan Fridrix Ratzel dövlətləri canlı orqanizmə bənzədərək böyüməyə ehtiyacı olduğunu qeyd etmişdi. Bunun üçün hərbi vasitələr istisna edilmir. Bu siyasətin də nəticəsi olaraq Kreml Ukraynada müharibə variantından çəkinmədi (7, s. 4-5).

Putinin Ukrayna ilə müharibəsində geriləməsi Avrasiyada Rusiyanın gücünün zəifləməsi qavrayışına səbəb olub. Yaranmış bu vəziyyət Qərb üçün regionda təşəbbüsü ələ alma fürsəti verdi. Qeyd edək

ki, Rusiya Qarabağ müharibəsindən sonra Aİ-nin bölgədə potensial irəliləməsinin və hadisələrdə rol almasının qarşısını almaq üçün 3+3 formatını irəli sürmüşdü. Bu format vasitəsi ilə Moskva Aİ və NATO siyasi proseslərdən uzaqlaşdırmaq və sülh prosesində manevr imkanlarını məhdudlaşdırmağa çalışırdı (8, s.1,3).

Ukrayna müharibəsindən sonra Brüssel və Kreml Cənubi Qafqazda rəqabətini daha da kəskinləşdirdi. Qarabağ problemi, Azərbaycan-Ermənistan danışıqlarında iştirak rəqabətin əsas meydançasına çevrildi.

### Azərbaycan-Ermənistan sülh danışıqlarında Aİ-nin birbaşa iştirakı

Ukrayna müharibəsindən sonra Avropa İttifaqı Azərbaycan-Ermənistan danışıqlarında ciddi aktivlik nümayiş etdirir. Bu zamana qədər ATƏT-in Minsk Qrupunun fəaliyyətlərini dəstəkləməklə kifayətlənən Brüssel artıq özü yüksək səviyyədə danışıqlar prosesində iştirak etməyə başladı. Burada birbaşa olaraq siyasi liderlər səviyyəsində danışıqların ünvanı Brüsselə çevrildi. Eyni zamanda Aİ rəsmiləri regiona səfərlər etməyə başladı.

23 mayda Belçikanın Brüssel şəhərində Azərbaycan Prezidenti İlham Əliyev ilə Ermənistanın Baş naziri Nikol Paşinyan arasında sayca üçüncü görüş keçirilib. Görüşdə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel də iştirak edib. Şarl Mişel görüşdə sərhədlərin müəyyənləşdirilməsi, nəqliyyat və kommunikasiya yollarının açılması, sülh sazişi və sosial-iqtisadi problemlər kimi məsələlərin müzakirə olunduğunu vurğulayıb (9). Müsbət vədlər verən görüş Avropa İttifaqının ciddi hərəkətə keçdiyini və fəaliyyətinin aktiv fazasının başladığından xəbər verir. Belə ki, müzakirə mövzusu olan məsələlər Rusiyanın vasitəçiliyi ilə imzalanan üçtərəfli müqavilələrin bəndlərində əks olunmuşdur. Bununla da Aİ Rusiyanın nəzarətində saxlamağa çalışdığı sahəyə daxil olur.

Avropa İttifaqı artıq ATƏT kimi instrumentlərlə deyil, birbaşa yüksək səviyyədə görüşləri təşkil edir. Bu görüşlərdə həmsədrlər deyil, Aİ Şurasının Prezidenti iştirak edir. Qeyd edək ki, may görüşü son 6 ayda sayca 3-cü görüşdür. Təbii ki, bütün bunlar proseslərdən Rusiyanın kənarlaşması mənasına gəlmir.

Brüssel görüşündən sonra mayın 31-də Rusiya Prezidenti Vladimir Putin Azərbaycan Prezidenti İlham Əliyev ilə telefon danışığı həyata keçirib. Bu danışıqda Brüssel görüşü müzakirə edilib (10).

Lakin Aİ-nin iştirakı sadəcə siyasi müstəvidə baş verənlərlə bitmir. Rusiyanın Ukraynada törətdiyi əməllər həm Ermənistan, həm də Azərbaycan xalqında ciddi narahatlığa səbəb oldu. Hər iki xalq Ukraynaya dəstək nümayiş etdirməyə başladı. Lakin siyasi rəhbərliklər isə daha çox diplomatik davranaraq münasibətlərdə gərginliyin yaranmasından çəkinməyə çalışır. Azərbaycan ittifaq sazişi imzaladı və BMT Baş Assambleyasında Rusiyaya qarşı səs vermədi. Ermənistan Baş naziri Nikol Paşinyan isə Moskvaya səfərlərində iki dövlət arasında münasibətlərin inkişafını vurğulayırdı (11).

Azərbaycanın siyasi mövqeyi Cənubi Qafqazın taleyinin həllində olduqca vacibdir. Zbiqnev Bjezisnki "Böyük şahmat taxtası" əsərində Azərbaycanın Avrasiya materikində geosiyasi əhəmiyyətinə diqqət yetirib. Onun fikrincə, etnik cəhətdən yaxın olan Türkiyədən boru kəmərləri keçirən müstəqil Azərbaycan Rusiyanın regionda siyasi monopoliyasına mane olacaq. Bu, Mərkəzi Asiyada yeni müstəqil dövlətlərin üzərində Rusiyanın siyasi təsir vasitələrini də məhdudlaşdıracaq (12, s. 129). Bjezinskinin sözləri Brüsselin Azərbaycanla əlaqələrdə və Qarabağ probleminin həllində aktivliyinin əsas səbəblərini ifadə edir. Buraya regionda Rusiyanın siyasi təsir vasitələrini məhdudlaşdırmaq və Avrasiyada əsas geosiyai məkanlardan biri ilə güclü əməkdaşlıq qurmaq daxildir.

Xüsusilə Ukrayna münaqişəsindən sonra Azərbaycanın siyasi mövqeyində möhkəmlik Aİ üçün əhəmiyyət kəsb edir. Regionda Gürcüstan Aİ ilə müsbət əlaqələrə, Ermənistan isə Rusiyadan asılılığa, Azərbaycan isə balanslaşdırılmış siyasətə sahibdir. Azərbaycanın siyasi mövqeyində dəyişiklik regionda güc balansının Moskvaya və ya Brüsselə əyiləcəyini müəyyən edəcək. İkinci Qarabağ müharibəsinə qədər Aİ Azərbaycana tam dəstək göstərə bilmirdi. Çünki Rusiyanın 2008-ci ildə Gürcüstana və 2014-cü ildə Ukraynaya müdaxiləsi Kremlin belə bir məsələdə dözümsüzlük göstərəcəyini nümayiş etdirirdi. Belə bir məqamda Azərbaycanın Aİ-yə istiqamətlənmiş addımı nəhəng fəlakətlərə səbəb ola bilərdi, nəzərə alaq ki, Qarabağ kartı tamamilə Rusiyanın əlində idi (13, s.63,64).

Müharibə Avropa İttifaqı üçün bir sıra imkanlar açdı. Moskvanın bütün diqqətini Ukraynaya çəkdiyi bir zamanda, Azərbaycan və Ermənistan xalqının Rusiyaya olan münasibətinin dəyişdiyi bir anda Brüssel üçün yaşıl işıq yanır. Aİ növbəti illərdə də

danışıqlarda vasitəçi rolu oynamağa və sülhün əldə edilməsində öz imzasının olması üçün səylərini əsirgəməyəcək.

**Nəticə**

Rusiya və Ukrayna arasında baş verən müharibə beynəlxalq geosiyasi mühti gərginləşdirdi. Bu, Brüssel və Kreml arasında siyasi çəkişməni daha da artırdı. İki qütbün rəqabəti Azərbaycan-Ermənistan danışıqlarına da təsir etməyə başladı. Siyasi mübarizə proseslərə kimin nəzarət etməsi uğrunda aparılır.

Müharibə zamanı Rusiyanın törətdiyi əməllər Bakı və Yerevanda narahatlıqlara səbəb oldu. Eyni zamanda iki xalqın nümayəndələri də Ukrayna xalqına qarşı həmrəylik nümayiş etdirdi. Geosiyasi çəkişmə Brüssel üçün yeni imkanlar açdı və bunun fonunda Aİ-nin aktivliyi müşahidə edilir. Avrasiya siyasi taxtasının əsas xanalarından olan Azərbaycanla əməkdaşlıq yaranmış enerji və logistika böhranında yumşaldıcı vasitəyə çevrilə bilər.

Bütün bu məqamları ələ alaraq siyasi liderlərin bəyanatlarının və görüşlərinin tezliyi danışıqlar prosesində Brüssel-Kreml rəqabətinin mənzərəsini yaradır. Danışıqların mərkəzini Qərbə çəkməyə çalışan Aİ qarşıdakı günlərdə də aktivliyini nümayiş etdirəcək. Lakin bu, Moskvanın heç də sakit qalması deyil, əlində kifayət qədər təsir vasitəsi olan Kreml danışıqlar prosesində əsas rol oynamağa çalışacaq.

**ƏDƏBİYYAT SİYAHISI:**


*1. Berghof Foundation, Berghof Glossary on Conflict Transformation and Peacebuilding, 2019, p. 168.*

*2. Ibrahimov R., Oztarsu F. M., Causus of the Second Karabakh War: Analysis of the Positions and the Strength and Weakness of Armenia and Azerbaijan, Journal of Balkan and Near Eastern Studies, February 2022, p. 19.*

*3. Treaty on European Union, retrieved from https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=celex%3A12012M%2FTXT.*

*4. Treaty of Lisbon, retrieved from https://eur-lex.europa.eu/legal-content/EN/TXT/?uri=celex%3A12007L%2FTXT.*

*5. Abilov S., OSCE Minsk Group: Proposals and Failure, the View from Azerbaijan, Insight Turkey, Winter 2018, Volume 20, Number 1, pp. 143-163.*

*6. Bilanishvili G., National Security Strategy of Armenia, 2020, Georgian Foundation for Strategic and International Studies, retrieved from https://gfsis.org.ge/publications/view/2845.*

*7. Algarni A. D., Ukraine in Russian Geopolitics, Rasanah, 15 may 2022, p. 28.*

*8. Chkhaidze N. & Kuzio T., A Weaker Russia and the West's Opportunity in the South Caucasus, RUSSIA & EURASIA STUDIES CENTRE, p.11.*

*9. Press statement by President Michel of the European Council following a trilateral meeting with President Aliyev of Azerbaijan and Prime Minister Pashinyan of Armenia, retrieved from https://www.consilium.europa.eu/en/press/press-releases/2022/05/23/press-statement-by-president-michel-of-the-european-council-following-a-trilateral-meeting-with-president-aliyev-of-azerbaijan-and-prime-minister-pashinyan-of-armenia/*

*10. Telephone conversation with President of Azerbaijan Ilham Aliyev, retrieved from http://en.kremlin.ru/events/president/news/68535.*

*11. Fults A. Stronski P., The Ukraine War Is Reshaping the Armenia-Azerbaijan Conflict, 25.02.2022, Carnegie Endowment for International Peace, retrieved from https://carnegieendowment.org/2022/04/25/ukraine-war-is-reshaping-armenia-azerbaijan-conflict-pub-86994.*

*12. Bzezinski Z., The Grand Chessboard: American Primacy and Its Geostrategic, Imperatives, (New York: Basic Books, 1997), p. 223.*

*13. Abilov S., Hajiyev B., Why the Neutrality of Azerbaijan Is Important for the European Union, Insight Turkey, Vol. 21, No. 3, 2019, pp. 53-66.*


**XÜLASƏ**


Məqalədə 23 fevral Rusiya-Ukrayna müharibəsindən sonra Avropa İttifaqı ilə Rusiya arasında geosiyasi rəqabətin Azərbaycan və Ermənistan arasında danışıqlara təsirindən bəhs olunur. Bu dövrdə rəsmi Brüsselin danışıqlarda aktivliyi xüsusi diqqət çəkir. Məqalədə regionun Avropa İttifaqı üçün əhəmiyyəti və Azərbaycan-Ermənistan danışıqlarının bölgənin geosiyasəti üçün əhəmiyyəti qeyd edilib. Burada Brüsselin aktivliyinin arxasında duran səbəblər və Moskvanın əks tədbirləri vurğulanıb.

Məqalədə qeyd olunur ki, Aİ yaranmış geosiyasi vəziyyətdən istifadə edərək danışıqlarda aktivliyi artırmağa və regiona öz təsirini nüfuz etdirməyə çalışır. Yaxın zamanlarda isə bu aktivliyin davam edəcəyi və Moskva ilə rəqabətin güclənməsinə səbəb olacağı gözlənilir.

**Açar sözlər:** *Azərbaycan, Ermənistan, Avropa İttifaqı, Rusiya, Ukrayna, Qarabağ problemi.*

**Повышение активности Евросоюза в азербайджано-армянском переговорном процессе после войны на Украине**

**РЕЗЮМЕ**

В статье рассматривается влияние геополитического соперничества между Европейским Союзом и Россией на переговорный процесс между Азербайджаном и Арменией после российско-украинской войны 23 февраля. Примечательно, что в этот период усиливается участие Брюсселя в переговорном процессе. В статье отмечается важность региона для Евросоюза и значение азербайджано-армянских переговоров для геополитики региона. Здесь были освещены причины активности Брюсселя и контрмеры Москвы.

В статье отмечается, что ЕС пытается использовать текущую геополитическую ситуацию для повышения активности на переговорах и влияния в регионе. В ближайшее время эта деятельность продолжится и усилит конкуренцию с Москвой.

**Ключевые слова:** *Азербайджан, Армения, Евросоюз, Россия, Украина, Карабахская проблема.*

**Increasing activity of the European Union in the Azerbaijani-Armenian negotiation process after the war in Ukraine**

**SUMMARY**

The article covers the impact of geopolitical competition between the European Union and Russia on the negotiation process between Azerbaijan and Armenia after the February 23 Russian-Ukrainian war. It is worthy to note that during this period, Brussels' participation in the negotiation process is increased. The article notes the importance of the region for the European Union and the importance of the Azerbaijani-Armenian talks for the geopolitics of the region. The reasons behind Brussels' activity and Moscow's countermeasures were highlighted here.

The article notes that the EU is trying to use the current geopolitical situation to increase activity in the negotiations and to influence the region. In the near future, this activity will continue and will intensify competition with Moscow.

**Keywords:** *Azerbaijan, Armenia, European Union, Russia, Ukraine, Karabakh problem*

UDC: 327

# MILITARY-POLITICAL RESOLUTION OF THE ARMENIA - AZERBAIJAN CONFLICT AND THE INTERESTS OF THE U.S.A

**AYSEL BAGHIROVA**
*PhD student on international relations of Institute on Law and Human Rights of Azerbaijan National Academy of Sciences (Baku, Azerbaijan)*

*E-mail: aysel-baghirova@mail.ru*

## INTRODUCTION

On the eve of the collapse of the USSR, Armenia – Azerbaijan conflict became one of the most serious conflicts in the Caucasus region which arose as a result of the separatist demands of Armenians living in the mountainous part of the Karabakh region of Azerbaijan and Armenia's occupation of Azerbaijan territories. It is no coincidence that a number of experts studying the problem have described this problem as a "labyrinth" [4, p.156]. Unlike the conflicts in Georgia, the Russian Federation did not act as a party to this conflict. On the other hand, unlike the conflicts in Abkhazia and Tskhinvali region, the occupation factor had a greater role in this conflict than the separatist factor [13, p.29]. The Armenian people have already determined their destiny once and created the Armenian state at the expense of the historical lands of Azerbaijan.

When talking about the strategic interests of the major powers in the Caucasus, it is necessary to take into account the possible influence of the United States in the region. Efforts of the United States, France, Russia, Iran, Kazakhstan to mediate for the peaceful settlement of the Armenia - Azerbaijan conflict, UN Security Council resolutions on the withdrawal of Armenian forces from the occupied territories of Azerbaijan [11, p.13-14], the activities of the OSCE Minsk Group, which was established for the peaceful settlement of the conflict have been ineffective. After the Bishkek ceasefire agreement was reached in 1994, US mediation efforts in the negotiations between Armenia and Azerbaijan intensified. After the signing of the ceasefire protocol in Bishkek in May, 1994, James F. Collins, Special Adviser to the US Secretary of State, Chief Coordinator of the US policy on newly independent states visited to Azerbaijan [2, p.48-49]. This was also due to the geopolitical and geo-economic interests of the superpower in the region.

In the mid-1990s, there was growing hope that the conflict would be resolved through US mediation and initiatives. In the post-Soviet period, Russia's internal problems were quite large, and the availability of US influence allowed the world's only superpower to take effective steps in this direction. Until the first years of the XXI century, it was considered that the active and concrete steps taken by the United States in the process of resolving the Armenia - Azerbaijan conflict played a more important role, and the US factor was more constructive in resolving the conflict. In the post-2008 period, the United States gradually withdrew from the South Caucasus and has largely lost its influence in the settlement of the Armenia – Azerbaijan conflict.

The United States, which has made the most of its influence in various parts of the world to resolve the conflicts, has refrained from taking strict steps against the aggressor in order to restore historical and international legal justice in the region. As a result, in the post-2016 period, in fact, the negotiation process between Armenia and Azerbaijan gradually declined, and the possible opportunities for a peaceful settlement of the conflict were exhausted as a result of Armenia's disruptive activities.

## 1. Reasons for the failure of US proposals to resolve the conflict

In order to assess the United States' ability to influence the settlement of the conflict and in the post-war period, it is necessary to focus primarily on the proposals which put forward by the United States to resolve the conflict throughout the history of the conflict. In fact, in the early period of the conflict, Armenian propaganda achieved to create a quite biased impression in the United States. That is why on July 19, 1989, the Senate of the congress of US passed a resolution unanimously expressing that "the United States supports the aspirations of the people of Soviet Armenia for a peaceful and fair settlement to the dispute over Nagorno-Karabakh conflict" [12, p.78-79].

As it is known, the US version of the settlement of the Armenia - Azerbaijan conflict was proposed at the initial stage of the conflict resolution process.

According to this option, Lachin, Kalbajar regions of Azerbaijan and one part of the former Nagorno-Karabakh Autonomous Region should have been included in Armenia, Mehri region of Armenia, Mardakert and Hadrut regions of the former Nagorno-Karabakh Autonomous Region should have been given to Azerbaijan. This plan, which at first glance seemed to be a compromise option, did not satisfy both parties. Azerbaijan opposed every territorial change, and Armenia was not satisfied with the fact of losing its border with Iran [5, p.51].

Armenian lobby organizations' influence is great in the United States. Incorrect information of the Armenian lobby about Azerbaijan led to some non-objective decisions. The 907th Amendment to the Freedom Support Act (Freedom for Russia, Emerging Eurasian Democracies and the Open Markets Support Act) adopted by the US Congress on October 24, 1992. The 907th amendment which proposed by Massachusetts Senator J. Kerry limited aid to the Republic of Azerbaijan [5, p.65]. Only after the national leader of the Azerbaijan people Heydar Aliyev came to power, as a result of special negotiations with the US administration and especially with the President B. Clinton, steps were taken to obtain indirect assistance, although the amendment remained in force. From that time on, the truth about the conflict, which began as a result of Armenia's military aggression to Azerbaijan, began to be widely propagated in the United States. It was the result of long-term successful diplomacy that the US position gradually changed. In a letter of US President Bill Clinton to the President of the Republic of Azerbaijan Heydar Aliyev on November 8, 1996, US noted that a peaceful solution to the conflict was possible in accordance with international principles [6, p.26-27]. Azerbaijan had high hopes for the United States, which has been one of the three co-chairs of the Minsk Group since 1997. US's geopolitical and energy interests also demanded to defend Azerbaijan's legitimate interests. The most active US initiatives to resolve the conflict resulted in the Key West talks. Despite these talks, it was not possible to force the occupier to liberate Azerbaijan territories. As can be seen from the above analysis, after 2008 the US influence in the region began to gradually decline.

The first large-scale fighting in the conflict zone between Armenia and Azerbaijan since the signing of the ceasefire agreement in 1994 took place in April 2016. Thus, during the night and day of April 1-2, 2016, along the entire front the positions of army and settlements of Azerbaijan was subjected to heavy artillery fire by the armed forces of Armenia. The Azerbaijan army responded to the positions and artillery installations of the Armenian armed forces in the occupied territories in order to prevent new aggression activities of Armenia and punish the aggressor [3, p.179-180].

**2. The Second Karabakh war and the reasons why the United States remained out**

In September 2020, Armenia again committed provocations and attacked civilian settlements in the frontline zone. Diplomatic means to resolve the conflict have been exhausted, and the disruptive position of the Armenia side has made peace talks meaningless. On September 27, 2020, the third provocation during the year by the Armenian army took place. Armed forces of Armenia began aggression to Azerbaijan. The Azerbaijan army launched counter-offensive operations and liberated its lands from occupation with a glorious victory over Armenia.

The Second Karabakh war to liberate Azerbaijan territories from the occupation of Armenia took place during a fierce presidential race in the United States. For this reason delays was observed in US approach to the processes in the region. At this point, of course, Russia's taking the initiative in the process of halting the new military phase of the conflict, and sending troops to the region, albeit in the format of peacekeeping forces was undesirable for the United States.

It is true that in late October 2020, US diplomacy made some efforts to stop the war. The United States has taken steps considering the changing geopolitical situation in the region. The OSCE Minsk Group co-chairs met with Armenian Foreign Minister Zohrab Mnatsakanyan and Azerbaijan Foreign Minister Jeyhun Bayramov in Washington on October 24. The meeting was also attended by US Deputy Secretary of State Stephen Biegun. According to the consent, a humanitarian ceasefire had to come into force on October 26 at 08.00. Following the consent, the US President wrote on Twitter: "Congratulations to Armenian Prime Minister Nikol Pashinyan and Azerbaijani President Ilham Aliyev, who just agreed to adhere to a cease fire effective at midnight. Many lives will be saved. Proud of my team." [9].

However, the fate of the agreement reached in the United States was the same as the ceasefire agreements reached in Moscow and Paris. The Armenian side did not observe the ceasefire.

US diplomacy also tried to play an active role in the ceasefire talks in Geneva in late October. However, the internal processes, the culmination of the election marathon in the United States did not allow paying enough attention to the processes in the South Caucasus. In late October and early November, the Azerbaijan army continued to liberate own ancient lands. On November 8, in the Alley of Martyrs the President of the Republic of Azerbaijan Ilham Aliyev announced the liberation of Shusha from occupation. Shusha was liberated [8].

**3. Moscow statement, a new stage in the region. And the position of the United States**

On November 10, the President of Russia and the President of Azerbaijan and the Prime Minister of Armenia signed a trilateral statement. In the aftermath of the statement, the election of Joe Biden, who had previously initiated a number of political steps in the United States raised hopes in Armenia. US diplomacy has worked with France to regain its lost role in resolving the conflict. Following the signing of the trilateral statement, the Minsk Group co-chairs from France and the United States visited Baku on 12 December. In fact, attempts to revive the issue of the "status" of the region in the conflict, which was resolved mainly by military-political means, and to establish a pro-Armenian position contrary to the norms and principles of international law were met with a strong reaction from Azerbaijan [10].

The analysis shows that US diplomacy, as Brzezinski once wrote in his book “The Great Chessboard. American Primacy and Its Geostrategic Imperatives”, recognizes that Azerbaijan is a key player in the region and US can restore its influence in the region through Azerbaijan as the victor of the war. In May 2021, this point was clearly reflected in the congratulatory letter of the President of the United States Joe Biden to the President of the Republic of Azerbaijan Ilham Aliyev on the occasion of the Republic Day. In his letter, the US President drew attention to the active work of the United States with Azerbaijan in the development of security, energy and democratic governance since 1991, emphasizing the role of the United States in the implementation of energy projects [1].

**4. How do Azerbaijan and Armenia approach the participation of the United States in the region?**

The analysis shows that Armenia is trying to use US pressure capabilities to prolong the settlement process and maximize the benefits of the delimitation process.

The Azerbaijan side officially rejects the issue of special status for Armenians living in the liberated territories and does not accept the proposals voiced by the United States in this regard. However, Azerbaijan does not exclude participation of the United States as co-chair of the OSCE Minsk Group in the process of strengthening peace in the post-conflict period. For example, the President of the Republic of Azerbaijan Ilham Aliyev said at the international conference "A New Look at the South Caucasus: Post-Conflict Development and Cooperation" in April 2021: "…But I think if we talk seriously, there could be some areas where they can play their role, because as the post-conflict situation, not as a group which needs to help to resolve the conflict. Here I completely disagree with some of the representatives of the Minsk Group countries, that they say the conflict must be resolved. It has been resolved. If I say that it is resolved, it means that it is resolved.…” [7].

Analysis of research shows that the ability of the United States to have a significant impact on the post-conflict process is not great. The processes in the region, as well as, in the Eastern Europe show that the ability of the United States to influence the post-conflict process is lower than Russia.

The result. Thus, the analysis of the US approach to the military-political resolution of the Armenia - Azerbaijan conflict and the possibilities of influence in the post-war period allows us to draw a number of conclusions. They include:

- At a time when the United States did not have the opportunity to seriously influence the process, its attitude to the cessation of the war between Armenia and Azerbaijan was positive, but to the achieving such a solution through the Russian Federation was relatively negative;
- Russia's active role in the settlement process has further shaken the position of the United States, whose influence in the region has diminished since 2008;
- During the post-war period, the US ability to in-

fluence both countries was significantly limited, but the influence of the Armenian lobby in the United States increased;

- Unlike in 1994-2018, in the post-war period of 2020, alternative initiatives of various US governmental and non-governmental organizations, institutions and foundations to strengthen peace in the region is weak. However, in the first chronological framework of the ongoing occupation of Azerbaijan territories by Armenia, numerous initiatives were shown to promote the establishment of relations between the people of Azerbaijan and Armenia.

- The United States is trying to return to the region and restore its influence. After the war between Russia and Ukraine, the United States has been more active in normalizing relations between Azerbaijan and Armenia in the post-conflict period.

## REFERENCES


*1. Amerika Birləşmiş Ştatlarının Prezidenti Cozef R.Baydendən : [Elektron resurs] / Azərtac, -Bakı, 2021, 24 may. URL: https://azertag.az/xeber/Amerika_ Birlesmis_Statlarinin_Prezidenti_Cozef_RBaydenden-1788485.*

*2. Əhmədov, E. Ermənistanın Azərbaycana təcavüzü və beynəxalq təşkilatlar /E.Əhmov. –Bakı: Tuna, c. 3, - 1998. -137 s.*

*3. Əliyev, İ.H. İnkişaf məqsədimizdir. [104 cilddə] / Buraxılışa məsul R.Mehdiyev. -Bakı: Azərnəşr, c. 73. -2018. -400 s.*

*4. Həmidov, S.S. Dağlıq Qarabağ münaqişəsi 2020-ci ildə: sülh, yoxsa müharibə? // -Bakı: Dirçəliş-XXI əsr, -2011, №153-154, -s. 146-159.*

*5. İsmayılov F.C. Qarabağ konflikti ABŞ-ın qlobal siyasəti kontekstində / F.C.İsmayılov. -Bakı: Azərbaycan Milli Ensiklopediyası Nəşriyyatı, - 2001, -152 s.*

*6. Lissabon sammiti / Tərt. Ə.Həsənov, Ş.Şahməmmədov.-Bakı: Azərnəşr, -1997, -312 s.*

*7. Prezident İlham Əliyev ADA Universitetində keçirilən "Cənubi Qafqaza yeni baxış: münaqişədən sonra inkişaf və əməkdaşlıq" adlı beynəlxalq konfransda iştirak edib: [Elektron resurs] / Azərtac. -Bakı: -2021, 14 aprel. URL: https://azertag.az/xeber/1754025.*

*8. Prezident İlham Əliyev: Bu gün Azərbaycan xalqı yumruq kimi birləşib! Bu birlik əbədi olacaq!: [Elektron resurs] / Azərtac. -Bakı: -2020, 08 noyabr. URL: https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Bu_gun_Azerbaycan_xalqi_yumruq_kimi_birlesib_Bu_birlik_ebedi_olacaq_vıdeo-1636885*

*9. Tramp Azərbaycan və Ermənistan rəhbərlərini niyə təbrik etdi - ABŞ-dan şərh: [Elektron resurs] / Azpolitika, -2020, 26 oktyabr. URL: https://azpolitika.info/?p=609014*

*10. Improving Prospects for Peace after the Nagorno-Karabakh War: [Electronic resource] / İnternational Crisis Group. -2020, 22 December. URL: www.crisisgroup.org/europe-central-asia/caucasus/nagorno-karabakh-conflict/b91-improving-prospects-peace-after-nagorno-karabakh-war.*

*11. Resolution 822 (1993) Adopted by the Security Council at its 3205 th Meeting on 30 Aprel 1993 // Aggression of the Republic of Armenia Against the Azerbaijani Republic. Information Bulletin., -Baku: The Ministry of Foreign Affairs of the Azerbaijan Republic -1994. -p. 13-14.*

*12. Помпеев, Ю. А. Кровавый омут Карабаха / Ю. А. Помпеев. -Баку: Издательство "Азербайджан", -1992. -208 с.*

*13. Севдималиев, Р. М. Международный терроризм - глобальная проблема современности /Р. М. Севдималиев. –Баку: Элм, -2004. -311 с.*


## SUMMARY


After the signing of the Bishkek Agreement between Armenia and Azerbaijan in 1994, the role of the OSCE Minsk Group format for the diplomatic settlement of the conflict came to the fore. OSCE Minsk Group has failed to resolve the conflict diplomatically. After Azerbaijan liberated its territories from occupation in 2020 and the signing of the 10 November Trilateral Statement through the mediation of Russia, the United States has fallen out of certain processes in the South Caucasus. The study of the reasons for this, and to analyze the activities of US in the postwar period in the region after the military-political settlement of the conflict is relevant.

In the article various research methods such as content and event analyses as well as a multilateral comparative analysis of the processes are applied in examining how the military-political settlement of the Armenia - Azerbaijan conflict affects the interests of the United States. The result is that the United States had a positive attitude to the cessation of war, which began in September 2020, and a relatively negative attitude to such a solution which achieved with the mediation of its geopolitical rival, the Rus-

sian Federation. Such a solution has further undermined the position of the United States, which has been declining in the region since 2008, and at the same time this situation conditioned it to become more active to increase its power in the region.
**Keywords:** *USA, Armenia, Azerbaijan, military-political resolution, post-conflict period*

## ERMƏNİSTAN – AZƏRBAYCAN MÜNAQİŞƏSİNİN HƏRBİ-SİYASİ YOLLA HƏLLİ VƏ ABŞ-IN MARAQLARI

### XÜLASƏ

1994-cü ildə Ermənistan və Azərbaycan arasında Bişkek sazişinin imzalanmasından sonra münaqişənin diplomatik həlli üçün ATƏT-in Minsk qrupu formatının rolu ön plana çıxdı. ATƏT-in Minsk qrupu münaqişəni diplomatik yolla həll edə bilmədi. 2020-ci ildə Azərbaycan ərazilərini işğaldan azad etdikdən sonra və Rusiyanın vasitəçiliyi ilə 10 Noyabr üçtərəfli bəyanatın imzalanmasından sonra ABŞ Cənubi Qafqazda müəyyən proseslərdə kənar vəziyyətə düşmüşdür. Bunun səbəblərinin öyrənilməsi, münaqişənin hərbi-siyasi həllindən sonra ABŞ-ın müharibədən sonrakı dövrdə regionda fəaliyyətinin təhlili aktuallıq kəsb edir.

Məqalədə kontent və ivent analiz metodlarından istifadə edilməklə, habelə proseslərin çoxtərəfli müqayisəli təhlili aparılmaqla Ermənistan-Azərbaycan münaqişəsinin hərbi-siyasi yolla həllinin ABŞ-ın maraqlarına necə təsir etdiyi araşdırılmışdır.

Əldə olunan nəticə ondan ibarətdir ki, ABŞ-ın 2020-ci ilin sentyabrında başlamış müharibənin dayandırılmasına münasibəti müsbət, bu cür həllin özünün geosiyasi rəqibi olan Rusiya Federasiyasının vasitəsi ilə əldə edilməsinə münasibəti isə nisbətən mənfi olmuşdur. Bu cür həll 2008-ci ildən sonrakı mərhələdə regiona təsir imkanları azalan ABŞ-ın mövqeyini daha da sarsıtmışdır, paralel olaraq regionda gücünü artırmaq üçün fəallaşmasını şərtləndirmişdir.

**Açar sözlər:** *ABŞ, Ermənistan, Azərbaycan, hərbi-siyasi həll, münaqişədən sonrakı dövr*

**UOT 327; 339.9**

*https://orcid.org/0000-0001-5609-3339*

# ERMƏNİSTAN RESPUBLİKASINDA MİQRASİYA PROSESLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İSTİQAMƏTLƏRİ

**RASİM RZAXANOV**
*Bakı Dövlət Universiteti,*
*Beynəlxalq münasibətlər kafedrasının dissertantı*

*E-mail: rasimrzaxanov@mail.ru*

XX əsrin sonları üçün miqrasiya prosesləri tədricən ümumplanet miqyası almağa başlamışdı. Bu proseslər təkcə əhalinin yerdəyişməsi demək deyildi, qaçqınlıq, köçkünlük, deportasiyadan tutmuş iş axtaranların köçünə qədər mühacirətin bütün sahələrini kompleks şəkildə əhatə edirdi. Beynəlxalq Miqrasiya Təşkilatının statistikasına görə, yüzilliyin sonları üçün yaşadığı ölkənin hüdudlarından kənarda 150 mln nəfərdən yuxarı əhali yaşayır və fəaliyyət göstərirdi ki, yaranmış vəziyyət dövlətləri və beynəlxalq təşkilatları ciddi suallar qarşısında qoymuşdu [15]. Təsadüfi deyildi ki, məhz bu dövrdən etibarən demoqrafik böhranın səbəblərini müəyyənləşdirmək üçün miqrasiya proseslərinin kompleks şəkildə elmi-siyasi baxımdan öyrənilməsinə başlanmışdı. Politoloqlar artıq miqrasiya proseslərinə milli təhlükəsizliyə və beynəlxalq sabitliyə başlıca təhlükələrdən biri kimi baxmağa başlamışdılar. Qeyd edək ki, göstərilən dövrdə əgər şərq ölkələrindən miqrasiyanın başlıca istiqaməti Avropa ölkələri idisə, avropalıların Şimali Amerikaya axını ildən-ilə artmaqda idi. Belə ki, 1946-1961-ci illər arasındakı on beş illik dövr ərzində Avropadan Amerikaya 7 mln nəfər əhali mühacirət etmişdi [5, s. 237]. Sonrakı illərə dair statistikalar miqrasiya proseslərinin müxtəlif səbəblərdən ilbəil genişləndiyini göstərirdi. Bu prosesdə postsovet məkanı ölkələri istisna təşkil etmirdi.

Tədqiqat prosesində toplanmış materialların təhlili göstərir ki, miqrasiya prosesləri SSRİ-nin dağılmasından sonra kütləvi xarakter almağa başlamışdı. Əgər Cənubi Qafqaz və Mərkəzi Asiya respublikalarından (8 respublikadan) miqrasiya əsasən Rusiyaya istiqamətlənmişdisə, Rusiya, Ukrayna və Belarusiyadan mühacirət Avropa ölkələrinə, ABŞ-a və Kanadaya istiqamətlənmişdi. Postsovet məkanında miqrasiya prosesləri bir neçə faktorun təsiri altında baş verirdi ki, bunlara münaqişələri, iş axtarmağı, siyasi motivləri, iqtisadi çətinlikləri, qaçqınlığı və s. göstərmək olar. Təsadüfi deyil ki, miqrasiyanın və onun təzahür formalarının ilk elmi, siyasi, nəzəri, hüquqi və s. baxımdan mənalandırılmasını məhz bu dövrə aid etmək olar. Rusiyalı müəlliflərdən A.V.Dimitriyev miqrasiyanın təzahür formalarından biri kimi, "qaçqın" anlayışının tərifini verərək qeyd etmişdi ki, "qaçqın"- yaşadığı ölkəni neqativ amillərin təsiri nəticəsində tərk edən şəxslərdir [4].

MDB məkanında miqrasiya proseslərində əmək miqrasiyası və həyat səviyyəsinin yaxşılaşdırılması ilə bağlı yerdəyişmələr mühüm əhəmiyyətə malikdir. Məlum olduğu kimi, Rusiyanın mərkəzi regionlarında 2005-ci il statistikasına görə, əməkhaqqının orta məbləği 147 ABŞ dolları, Ukraynada - 61 doll., Qırğızıstanda - 31 doll., Tacikstanda isə 13 dollardır. Rusiyanın ucqarlarından da miqrasiyanın başlıca səbəbi budur. Mühacirətlə bağlı mühüm səbəblərin içərisində ekoloji səbəblərin yeri ayrıcadır. Belə ki, Çernobıl AES-də, Mayak İB-də qəzalar, Aral gölünün quruması və ayrı-ayrı regionlarda radiasiyanın yüksək səviyyəsi də əhalinin yerdəyişməsində mühüm rol oynayır. Müxtəlif illərdə keçirilmiş sorğulara əsasən qohumların yanına köçmə - 9,5%, vətənə qayıtma - 7,2%, karyera qurmaq üçün - 10,8%, iş yeri əldə etmək - 7,6%, müqavilə üzrə iş - 6,1% təşkil edirdi [4].

Qeyd edək ki, miqrasiya hesabına Rusiyada əhalinin artımı 1992-2012-ci illər arasındakı dövrdə 6,9, 2010-cu il siyahıyaalmasına görə 8 mln nəfər olmuşdur. Həmin dövrdə Rusiyadakı gürcü əhalisinin sayı 10,3 faiz, erməni əhalisinin sayı isə 13,2 faiz artmışdır. Halbuki, statistikaya görə, Rusiyadakı 42 milyon rus ailəsinin 48 faizi uşaqsız ailələrdən ibarətdir. Əgər Ermənistandan mühacirət Dağlıq Qarabağda yeni müharibə ehtimalının mövcudluğu ilə bağlı idisə, Gürcüstan mühaciréti M. Saakaşvilinin prezidentlik dövrü ilə (2004-2013) bağlı olmuşdu, belə ki, Gürcüstandan miqrasiya 2007-ci ilədək illik 25 min nəfər idisə, 2007-ci ildən sonra illik 38 min nəfərə çatmışdı [3], lakin ölkədə hakimiyyət dəyişikliyindən sonra miqrasiyanın səviyyəsi tədricən enməyə başlamışdı.

Miqrasiya proseslərinin genişliyi və intensivliyi baxımından postsovet məkanının cənubu digər bölgələrdən seçilirdi, çünki bir tərəfdən bu regionların özündən, digər tərəfdən isə Yaxın Şərq və Əfqanıstandan olan mühacirlər bu regionlardan keçərək Rusiyaya və Avropaya axışırdılar. Cənubi Qafqazı "xalqlar muzeyi" adlandıranlar səhv etmirdilər, çünki bu regionda 60-a yaxın aborigen xalq yaşayırdı. Amma daxi-

li və xarici qüvvələrin təsiri ilə qızışdırılan etnosiyasi münaqişələr bu xalqların bir qismini bir - birinə düşmən etmişdi [8, s. 25]. Məhz bu zəmində demoqrafik vəziyyətin dəyişməsinə ciddi təsir göstərən qaçqınlıq və köçkünlük problemi yaranır, miqrasiya prosesləri genişlənirdi. Beynəlxalq qurumların və milli dövlət strukturlarının məlumatlarının ümumiləşdirilməsinə əsasən miqrasiyanın Cənubi Qafqazdan keçməklə başlanan istiqaməti Gürcüstan/Ermənistan/Azərbaycan xətti üzrə olmaqla Moskva>Sankt Peterburq>Estoniya/Latviya>Polşaya uzanıb gedirdi [14, s. 28]. Miqrasiyanın bu istiqaməti əsasən qeyri-qanuni mühacirlərin istifadə etdiyi marşrut idi ki, mühacirlərin bir qismi də əsasən bu yolla geri qayıdırdılar. Cənubi Qafqaz və Mərkəzi Asiyada dövlətçiliyin möhkəmlənməsi miqrasiyanın əngəllənməsində mühüm rol oynasa da bu prosesi tamamilə dayandıra bilmədi.

Miqrasiyanın dövlətlərin həyatında əhəmiyyətini müəyyənləşdirmək məqsədilə Ermənistan və Gürcüstanda miqrasiyanın vəziyyəti ilə bağlı statistikanı müqayisəli təhlil edə bilərik. Belə ki, ölkədə 4 noyabr 2014-cü il siyahıyaalınmasına görə, Gürcüstanda əhalinin sayı (Cənubi Osetiya və Abxaziyanın əhalisi nəzərə alınmadan) 3.713.804 nəfər olmuşdur, halbuki, 2013-cü ilin 1 yanvarı üçün əhalinin sayı 4.483.800 nəfər idi. Ölkədə 1 yanvar 2018-ci ildə 3.729.600 nəfər əhali yaşayırdı, deməli beş il ərzində (01.01.2013 - 01.01.2018) Gürcüstanda əhalinin sayı 754.200 nəfər azalmışdı ki, gürcü mətbuatı məhz bununla əlaqədar həyəcan siqnalı vermişdi. Maraqlıdır ki, gedənlərin geri qayıtması ilə əlaqədar göstərilən dövr üçün rəsmi statistika olmasa da, illər üzrə dəyişilən statistika əsasında ölkəni tərk edənlərdən geri qayıdanların sayı heç 100 min nəfərə çatmadığını görürük [13].

Ermənilərin Rusiyanın müxtəlif ərazilərinə yüzilliklər boyu davam edən miqrasiyası ona gətirib çıxarmışdı ki, Rusiyanın müxtəlif şəhərlərində güclü erməni diaspora təşkilatları yaranmışdı. Bunlar yerləşdikləri zonalarda əsasən iqtisadi sahələrdə (bazar və ictimai iaşə sahələrində), kütləvi informasiya vasitələrində, şəhər və ya rayonun administrasiyalarında yerləşməklə güclü mövqelərə malik olmuşlar. Rusiyanın statistika orqanlarının məlumatlarına görə, ermənilərin ən çox məskunlaşdıqları zonalar Moskva şəhəri və ətrafı, Volqoqrad, Samara, Nijni Novqorod, Yekaterinburq, Krasnoyarsk, Novosibirsk, habelə Şimali Qafqaz şəhərləridir. 2010-cu il statistikasına əsasən ermənilərin məskunlaşdığı 23 böyük Rusiya şəhərində 550 min nəfər erməni əhalisi yaşayır ki, bunlar Rusiya vətəndaşlarıdır. Statistikaya görə, təkcə Moskva şəhərində 110 min nəfərə yaxın erməni yaşayır ki, bunların sayı artmaqdadır. Rusiyanın kurort şəhərlərinin yerləşdiyi Şimali Qafqazdakı Pyatiqorsk, Kislovodsk, Vladiqafqaz və Mineralnı Vodı şəhərlərində 50 min nəfərdən yuxarı erməni əhalisi yaşamaqdadır ki, Dağlıq Qarabağ münaqişəsindən sonra gələnlər də buna daxildir [12]. Bu ərazilərə erməni əhalisinin yerləşdirilməsi məqsədli xarakter daşıyır, Rusiya əhalisinin Avropaya mühacirət etməkdə olduğu şəraitdə bir tərəfdən demoqrafik vəziyyətin xristian dininə mənsub olanların hesabına dəyişdirilməsi planlaşdırılır, digər tərəfdən isə münaqişələrlə dolu olan bu regionda Rusiyanın sosial dayaqlarının möhkəmləndirilməsinə nail olmağa çalışılırdı.

Erməni politoloqları miqrasiyanın qarşısıalınmaz proses olduğunu, miqrasiyaya qarşı Ermənistanda və Rusiyada qəbul edilmiş qanunların yetərli olmadığını qeyd etməklə yanaşı onu "təbii" proses kimi səciyyələndirir və miqrasiyanın 4 tipini ayırırdılar: daimi, mövsümi, uzunmüddətli və təhsil almaq məqsədli miqrasiya. Statistikanın təhlili göstərir ki, miqrasiyanın səviyyəsinə görə Şirak, Qexarkunik, Lori, Araqasotni və Tavuş marzları (Ermənistanda ərazi vahidləri) öndə gedirlər. Miqrasiyanın səbəblərinə gəlincə, erməni müəlliflər bu səbəbləri iki qrupa ayırırlar:

- birincisi, sosial-iqtisadi səbəblər (işsizlik, aşağı əməkhaqqı, sosial yardımların azlığı və ya olmaması, məşğuliyyət sahələrinin azlığı və s.);
- ikincisi, insan kapitalının inkişaf etdirilməsi məqsədilə coğrafi yerdəyişmə (peşəkarlığı inkişaf etdirmək, keyfiyyətli təhsil almaq, özünü daha yaxşı reallaşdırmaq, iş qurmaq, karyera yaratmaq və s.).

Erməni və rus müəllifləri miqrasiyanın Ermənistana gətirdiyi ağrılı nəticələrə də diqqəti cəlb edirdilər. Təsadüfi deyildi ki, KİV-də "Kişilərsiz Ermənistan", "Miqrasiya Ermənistanda ucdantutma qadın kəndlərinin yaradılmasına gətirib çıxaracaq", "Ermənistanın miqrasiya siyasətinə yenidən baxılmalıdır" və s. başlıqlar altında çoxsaylı yazılara rast gəlinirdi. Son illərin statistikası göstərirdi ki, Ermənistanda hər üç ailədən birində əməkçi miqranta rast gəlmək mümkün idi [9].

Nuhçıxan İnformasiya Agentliyinin Ermənistana məxsus armeniareport.com saytına istinadən yaydığı məlumata əsasən, 2021-ci ilin iyununda Zvartnost və Şirak hava limanları vasitəsilə sərnişin axını 200 534 nəfər təşkil edib. 2021-ci ilin 6 ayı ərzində ölkəni tərk edənlərin sayının 740 785, geri qayıdanların sayının isə 602 679 nəfər olduğu ortaya çıxıb. Bəlli olub ki, hava yolu ilə bu ölkəni tərk edən vətəndaşların sayı bu ölkəyə dönənlərin sayından 138 106 nəfər çoxdur [1].

Ermənistan mənbələrinin statistikanı aşkarlamadı-

ğına görə quru yolla ölkəni tərk edənlərin sayı ilə bağlı təhlil aparmaq çətindir, bununla belə, Ermənistan əhalisinin sayı ilə bağlı statistika quru yolla ölkəni tərk edən miqrantların sayının hava yolu ilə gedənlərdən bir neçə dəfə çox olmasını deməyə imkan verir. Bu baxımdan Ermənistan və Gürcüstan gömrük xidməti fərqli rəqəmlər səsləndirirlər.

Ermənistan - Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1994-cü ilin mayında Bişkek protokolu imzalandıqdan, müvəqqəti atəşkəsə nail olunduqdan sonra Ermənistandan miqrasiya xüsusi vüsət aldı və 1995-1996-cı illərdə ölkəni 1 mln nəfərdən yuxarı erməni tərk etdi, bunlar əsasən hakimiyyətə müxalif mövqedə dayananlar, "beyinlər və işçi əllər" idilər [10]. Mühacirətin başlıca istiqaməti Rusiya olsa da, ölkəni tərk edənlərin bir qismi, xüsusilə ziyalılar Avropa ölkələrinə və ABŞ-a üz tuturdular ki, bu prosesdə ermənilərin xaricdəki həmvətənləri ilə əlaqələr mühüm rol oynayırdı. Erməni mətbuatının yazdığına görə, Rusiya Prezidenti V.Putin Ermənistana səfərlərinin birində prezident R.Köçəryandan Ermənistanda nə qədər əhalinin yaşadığını soruşmuş və aldığı cavabdan sonra zarafatla demişdi ki, "deməli mən eyni zamanda ermənilərin prezidentiyəm" [10]. Əslində zarafatla deyilmiş bu ifadə həqiqəti əks etdirirdi, çünki Rusiyada yaşayan ermənilərin sayı ildəil artmaqda idi. Rusiya nəinki ermənilərə yer verib onları saxlayırdı, habelə onları işlə təmin edir, pul qazanmağa imkan verirdi ki, həmin gəlirlərin hesabına mühacirətdə olan ermənilər Ermənistanda qoyub gəldikləri ailələrinə və soydaşlarına maddi yardım edir, əslində bununla Ermənistan Respublikasını yaşadırdılar. Bu, həm də Rusiyanın Ermənistanda mövcudluğunun davam etməsi demək idi. Belə vəziyyətə davamlı xarakter verilməsi Rusiyanın regionla bağlı strateji planlarından irəli gəlirdi və bütövlükdə Cənubi Qafqazı öz nüfuzunda saxlamağa xidmət edirdi.

Keçən əsrin 90-cı illərində məşhur erməni jurnalistlərindən Narek Mesropyan "Qolos Armenii" qəzetinin səhifələrində Ermənistan Prezidenti L.Ter-Petrosyana müraciət edərək onu və Erməni Ümummilli Hərəkatını "öz xalqına qarşı ağ genosid siyasətini" həyata keçirməkdə ittiham etmişdi. Eyni mövqeyi digər müxalif yönümlü jurnalistlər və mətbuat orqanları da sərgiləyirdilər. Ermənistan hakimiyyəti tez-tez belə ittihamlarla üz-üzə qalır və cavab axtarmalı olurdu: "Levon Ter-Petrosyanın Ermənistanı ermənilərsiz qoyması, anti-insani və anti-erməni siyasəti kimlərə xidmət edir? Türkiyəyəmi? Yoxsa Böyük Kürdüstan dövlətinin yaradılmasına?" [10]. Bu baxımdan, erməni elektron mətbuatında gedən yazılara verilən şərhlər xüsusi maraq doğururdu. Qeyd edək ki, belə şərhlər ictimai fikrin problemə münasibətini dolğun əks etdirirdi.

Belə ki, N.Mesropyanın məqaləsində qaldırılan problemlərə münasibət bildirən oxuculardan biri verdiyi şərhdə bildirirdi ki, ermənilərin İsrail tipli dövlət yaratmaq arzuları fiaskoya uğramışdır, baxmayaraq ki, "ağıllılıq məsələsində yəhudilərlə yarışırlar". Müəllifə görə, əgər əvvəllər ermənilər türk qılıncından ("yatağan") qaçırdılarsa, indi öz xalqını amansız şəkildə istismar edən hakimiyyətdən, klanlardan, iqtisadi "yatağandan" qaçırlar [10]. Demək olar ki, kütləvi informasiya vasitələrinin gündəmindən düşməyən korrupsiya və bürokratik əngəllər ermənilərin miqrasiyasının başlıca şərti kimi göstərilirdi.

Ermənistan müxalifəti və hakimiyyəti kütləvi miqrasiyanın səbəblərinə fərqli mövqedən yanaşırlar. Belə ki, müxalifət hökuməti fəaliyyətsizlikdə, korrupsiyaya uğramaqda, ölkənin sərvətlərini xaricə daşımaqda, əhalinin köçünün qarşısının alınması üçün əsaslı iqtisadi islahatlar həyata keçirməməkdə ittiham etdiyi halda, Ermənistan hakimiyyəti dramın möhkəmləndirilməsi ilə bağlı həyata keçirilən tədbirləri misal gətirir, xalqın həyat səviyyəsinin yüksəlməkdə olduğuna dair qeyri-real, şişirdilmiş rəqəmləri mətbuatda yayır, müxalifəti dezinformasiya yaymaqda və hakimiyyətə şər atmaqda günahlandırırdılar. Lakin N.Paşinyan hakimiyyətə gəldikdən sonra aparılmış təhqiqatlar göstərdi ki, S.Sarkisyan hər il ölkədən 60 mln doll. yuxarı pul çıxarırdı. Halbuki, rəsmi statistikaya və real vəziyyətə görə, Ermənistanda iqtisadi böhran dərinləşməkdə, infilyasiya artmaqda davam edir, 2014-cü ildən etibarən 1 doll. 470 dram həndəvərindədir və dəyişiklik müşahidə edilmir [2]. Yaranmış vəziyyət ölkədə qiymətlərin bahalaşması ilə yanaşı, xaricdən, xüsusilə Rusiyadan Ermənistana göndərilən pul baratlarının da alıcılıq qabiliyyətinə ciddi təsir göstərirdi. Məhz bunun nəticəsində Ermənistandan Rusiyaya mühacirət edən mövsümi işçilər geri qayıtmaq əvəzinə, öz ailələrini və yaxınlarını Rusiyaya dəvət edirdilər ki, bununla da əmək miqrasiyası Ermənistanın "boşaldılmasına" gətirib çıxarırdı. Ermənistanda onilliklər boyu aparılan anti-miqrasiya kompaniyasına və anti-miqrasiya qanunlarına baxmayaraq əhalinin güzəranının və sosial-iqtisadi vəziyyətin pisləşməkdə davam etməsi miqrasiyanı əngəlləmək əvəzinə daha da gücləndirməkdədir. Digər tərəfdən Rusiya hökumətinin Ermənistandan olan mühacirlərə güzəştli şərtlərlə ölkədə qalmaq, işləmək və öz ölkəsi ilə əlaqə saxlamaq imkanı verməsi miqrasiya proseslərini stimullaşdırırdı. Əslində mühacirlər Rusiya üçün Ermə-

nistanda "beşinci kolon" rolunu oynayırdı.

Erməni iqtisadçılarına görə xarici borcların əsiri olan və inflyasiya göstəricisi ikirəqəmli olan Ermənistanda illik iqtisadi yüksəliş 5 faizdən yuxarıdır, halbuki politoloqlardan A. Simonyana görə hər il ölkə əhalisinin 7 faizi Ermənistanı tərk edərək əsasən Rusiyaya gedirlər [6]. Ermənistanda yaranmış çıxılmaz vəziyyətin təhlilini verən erməni jurnalisti M.Tarxanyan qeyd edirdi ki, Ermənistan diktaturaya yuvarlanmaqda, polis dövlətinə çevrilməkdədir. Müəllif yazırdı ki, "ölkə əhalisinin ciddi şəkildə miqrasiyası indi heç kəsə sirr deyil, miqrasiya elə şəkil almışdır ki, mövsümilik arxada qalmışdır". Hazırda bütöv ailələr və qohumlar bir daha qayıtmamaq üçün ölkəni tərk edirlər, mətbuatın yazdığına görə, əgər belə getsə, bir müddət sonra Ermənistan Respublikası bir dövlət kimi coğrafi xəritədən silinəcək, tarixi vətən məhv olub gedəcəkdir.

## Nəticə

Nəticə olaraq deyə bilərik ki, tədqiqat prosesində toplanmış materialların elmi-siyasi təhlilinə əsasən Ermənistan sürətlə "qocalmaqdadır", çünki ölkəni tərk edənlər əsasən gənc və orta yaşlı nəsillərdir. Digər tərəfdən MDB respublikaları içərisində ən böyük "beyin axını" Ermənistandandır, istedadlı, bacarıqlı, texniki və dəqiq elmlərə malik ali təhsilli, yüksək səviyyəli mütəxəssislər dünyanın müxtəlif yerlərinə yayılmaqdadırlar. Təsadüfi deyil ki, erməni kütləvi informasiya vasitələri baş verməkdə olanların çox tezliklə milli fəlakətə çevriləcəyini qeyd etməkdədirlər. Yaranmış vəziyyətdən çıxış yolu axtaran milli erməni mətbuatı, sosioloji mərkəzlər, qeyri-hökumət təşkilatları, strateji qurumlar kiçik respublikanın böyük problemlərini həll etmək, xüsusilə miqrasiyanın qarşısını almaq üçün bir araya gəlməkdədirlər. Sosioloji sorğunun nəticələrinə görə, kütləvi miqrasiya erməni əhalisinin hakimiyyətin siyasətinə, bahalığa, işsizliyə və sosial-iqtisadi çətinliklərə qarşı bir növ kütləvi etirazıdır. Mətbuat baş verənlərin günahını hakimiyyətin üzərinə qoyaraq bütün bunların "xalqın yaşamaq istəyindən" qaynaqlandığını yazırdı. "Tert.am" sorğu mərkəzinin apardığı sorğunun nəticələrinə görə, rəyi soruşulanların 58 %-i qazın bahalaşacağı təqdirdə Ermənistanı tərk etmək niyyətində olduğunu bildirmişdi. Şirak mərzinin Azatan kənd sakinləri isə hamılıqla Yakutiyaya köç etmək qərarına gəldiklərini bildirmişdilər [11], baxmayaraq ki, bunu reallaşdırmaq hələlik mümkünsüzdür.

Ermənistanda vəziyyətin pisləşməsini istəməyən və sosial-iqtisadi çətinliklərin aradan qaldırılması yollarını axtaran müxtəlif mərkəzlərin apardıqları sorğuların nəticələri real vəziyyəti aydınlaşdırmağa imkan verir. Qeyd edək ki, müxtəlif illərdə keçirilən sorğularda əhalinin miqrasiyaya münasibətinin müəyyənləşdirilməsinə xüsusilə ciddi fikir verilirdi. Ermənistan Sosioloqlar Assossiasiyasının vitse-prezidenti A.Poqosyan 2013-cü ilin iyununda keçirilmiş sorğunun nəticələrindən çıxış edərək bildirmişdi ki, rəyi soruşulanların böyük hissəsini "potensial miqrantlar" hesab etmək olar ki, onlar 4 çətinliyi əsas göstərirlər: işsizlik, perspektivsizlik, sosial ədalətin olmaması və məişət çətinlikləri. Məhz buna əsasən Ermənistanda kişi əhalinin 50%-nin, qadınların 42,4 %-nin potensial miqrant olduğu nəticəsinə gəlmək olar [7]. Analitiklər belə siyasətin sonda Ermənistanda əhalinin "depopulyasiyasına" - "əhalisizləşdirilməsinə" gətirib çıxaracağını bildirirdilər. Ermənistan hakimiyyətinin anti-Azərbaycan və anti-türk siyasətinin, ksenofobiya və rasizm siyasətinin nəticələrinin erməni xalqına fəlakət yaşayacağı qaçılmazdır.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. https://nuhçixan.az/news/dunya/49276-ermenistani-terk-edenlerin-sayi-geri-donenlerin-sayini-usteleyir*

*2. АРМЕНИЯ: ЖЕСТОКАЯ РЕАЛЬНОСТЬ, ИЛИ НА ПОРОГЕ ХАОСА?*

*https://russia-armenia.info/node/14231?utm_source=politobzor.net/ 30.01.2015*

*3. Демографический фактор в контексте улучшения отношений между Россией и Грузией / https://russiancouncil.ru/analytics-and-comments/analytics/ demograficheskiy-faktor-v-kontekste-uluchsheniya-otnosheniy-/ ? sphrase_ id = 14066112*

*4. Грузия > Миграция, виза, туризм > newsgeorgia.ru, 7 ноября 2018 > № 2787610*

*5. Ионцев В.А. Международная миграция населения: теории и история изучения. М.: 2005, с.237*

*6. Кому глядешь, Армения? https://russia-armenia.info/node/ 1267?utm_source=politobzor.net*

*7. Левон Арсенян: Миграция из Армении/ https://husisapail.wordpress.com/2013/06/26/%d0%bb%d0%*

*8. Маценов Д. Интересы и безопасность России в постсоветскую эпоху.*

*Журн. Мировая экономика и международные отношения, 1992, № 4, с. 25*

*9. Миграция из Армении приводит к образованию женских деревень / https://inosmi.ru/caucasus/20110811/173213904.html*

*10. Миграция из Армении – угроза депопуля-*

*ции, «белый геноцид» http://russia-armenia. info/ node/1733*

*11. ...Моя бедная, моя родная, моя измученная Армения...https://russia-armenia.info/ node/ 1339?utm_source=politobzor.net*

*12. ЧИСЛЕННОСТЬ АРМЯН В ГОРОДАХ РОССИИ*

*СВОБОДА / ПУТЕШЕСТВИЯ / 12 январь 2020 https://www.livekavkaz.ru/index.php? newsid=6263&utm_source=pulse_ mail ru&utm referrer=https%3A%2F%2Fpulse.mail.ru#sel=12:1,24:9*

*13. https://wiki.sc/wikipedia/Население_Грузии*

*14. The Migration Development Nexus, IOM, UN, 2003, p. 28 (p.114)*

*15. World migration report 2000, IOM-UN 2005, p.5 (56 p.)*

## XÜLASƏ

XX əsrin sonlarında SSRİ-nin dağılması ilə post-sovet məkanında başlanan miqrasiya prosesləri müasir dövrə qədər davam etməkdədir. Bu proseslərdən yan keçməyən Cənubi Qafqaz ölkələrində ciddi problemlər yaşanmağa başladı. Azərbaycan və Gürcüstan vasitəsi ilə Rusiyadan ayrı düşən Ermənistandan miqrasiya proseslərinin başlıca istiqaməti Rusiya Federasiyasına idi. Ermənistandan mühacirətin başlıca səbəbi Dağlıq Qarabağ probleminin mövcudluğu və həll edilməməsi səbəbindən erməni ailələrinin oğlan uşaqlarını ölkədən çıxarmaq, iş yeri qazanmaq, sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq, bürokratik əngəllərdən və hərc-mərclikdən canını qurtarmaq və s. ilə əlaqədar idi. Məqalədə postsosialist dövründə Ermənistanda baş verən miqrasiya prosesləri və istiqamətləri kompleks şəkildə araşdırılır, nəticələri ümumiləşdirilir.

**Açar sözlər:** *sosial-iqtisadi vəziyyət, geosiyasət, statistika, sosial sorğular, polis dövləti*

**RASIM RZAKHANOV**
**PhD candidate,**
**Department of International relation,**
**Baku State University**

## CURRENT SITUATION AND DIRECTIONS OF MIGRATION PROCESSES IN THE REPUBLIC OF ARMENIA

## SUMMARY

The migration processes that began in the post-Soviet space with the collapse of the USSR at the end of the 20th century continue until the modern era. Serious problems began to arise in the countries of the South Caucasus, which did not bypass these processes. The main direction of migration processes from Armenia, which separated from Russia through Azerbaijan and Georgia, was to the Russian Federation. The main reason for emigrating from Armenia is to get the male children of Armenian families out of the country due to the existence and non-resolution of the Nagorno-Karabakh problem, to get a job, to improve their socio-economic situation, to get rid of bureaucratic obstacles and hardship, etc. was related to In the article, the processes and directions of migration occurring in Armenia in the post-socialist era are comprehensively investigated, and the results are summarized.

**Key words:** *socio-economic situation, geopolitics, statistics, social surveys, police state*

**РАСИМ РЗАХАНОВ**
**Диссертант кафедры Международного отношении Бакинского Государственного Университета**

## СОВРЕМЕННОЕ СОСТОЯНИЕ И НАПРАВРЕЛЕНИЯ МИГРАЦИОННЫХ ПРОЦЕССОВ В РЕСПУБЛИКЕ АРМЕНИЯ

## РЕЗЮМЕ

Миграционные процессы, на постсоветском пространстве с распадом СССР в конце XX века, продолжаются до современной эпохи. Серьезные проблемы стали возникать и в странах Южного Кавказа, не обошедших эти процессы стороной. Основное направление миграционных процессов из Армении, отделившейся от России через Азербайджан и Грузию, было в Российскую Федерацию. Основной причиной эмиграции из Армении является вывоз из страны детей мужского пола армянских семей в связи с наличием и нерешенностью нагорно - карабахской проблемы, устройство на работу, улучшение своего социально-экономического положения, получение избавление от бюрократических препятствий и лишений и т.д. был связан с В статье всесторонне исследуются процессы и направления миграции, происходящие в Армении в постсоциалистическую эпоху, и обобщаются результаты.

**Ключевые слова:** *социально-экономическая ситуация, геополитика, статистика, социальные опросы, полицейское государство.*

UOT 327;930.22

# ŞƏRQİ ARALIQ DƏNİZİNDƏ İSİNƏN SULAR. TÜRKİYƏNİN STRATEGİYASI

**SƏRXAN HÜSEYNLİ**
*Bakı Dövlət Universitetinin doktorantı*

*E-mail: serxan_service@yahoo.com*

Son vaxtlar Aralıq dənizinin şərqi ətrafında siyasi, hüquqi və iqtisadi müzakirələr qızışmaqdadır. Bölgədə sahilyanı ölkələr olan Türkiyə, Kipr Respublikası (Cənubi Kipr), Yunanıstan, Misir, İsrail,-Livan ilə yanaşı qlobal güclər-ABŞ,Çin və Rusiyanın da maraqları toqquşur.Hətta Aralıq dənizinə sahili olmayan İranın belə sahilyanı ölkələr Suriya və Livandakı "rıçaq"ları ilə bölgəyə təsir etmək cəhdləri müşahidə edilir. Hər şeydən əvvəl, Aralıq dənizi dünya neft ehtiyatlarının 68% -i, qaz ehtiyyatlarının isə 41%-nin cəmləşdiyi Yaxın Şərq regionu ilə enerjiyə böyük ehtiyacı olan Avropa arasında tranzit rolunu oynayır. Bununla birlikdə son zamanlar bölgədə kəşf edilən neft-qaz yataqları Şərqi Aralıq dənizinin əhəmiyyətini daha da artırmışdır. Tanınmış diplomat və siyasətçi H.Kissincerin söylədiyi "Enerji təchizatına nəzarət edən bütün qitələrə nəzarət edə bilər" həqiqəti günü-gündən öz əhəmiyyətini artırır.

Şərqi Aralıq dənizində enerji uğrunda aparılan mübarizədə Türkiyənin əzmi ilə yanaşı onun sıxışdırılma cəhdlərinə məruz qalması da bu məqalənin əsasını təşkil edir. Bilindiyi kimi, Türkiyə Cümhuriyyəti enerji təchizatı baxımından böyük ölçüdə Rusiya və İrandan asılıdır. Lakin Türkiyə bu asılılığı minimuma endirmək, eləcə də özü regionda neft-qaz boru xətlərinin keçdiyi əsas mərkəz olmaq iddiasındadır. Şərqi Aralıq dənizi enerji tranziti baxımından da strateji mövqedə yerləşir. Belə ki, Bakı-Tiflis-Ceyhan boru xəttinin istismarı ilə birlikdə, Xəzər dənizinin enerji qaynaqlarının bir qisminin, eləcə də, Kərkük-Yumurtalıq boru xətti vasitəsi ilə Şimali İraq neftinin Aralıq dənizi vasitəsi ilə Avropa bazarlarına çatdırılması buna əyani sübutdur.

Şərqi Aralıq dənizində tapılan enerji mənbələri uğrunda böyük güclərin, xüsusən Avropa Birliyi,Rusiya və ABŞ-ın mövqeləri toqquşur. Belə ki, enerji təchizatına görə Rusiyadan asılı olan Avropanın xüsusən də Ukrayna krizindən sonra bu asılılığa son qoymaq cəhdləri ABŞ tərəfindən də dəstəklənir. Rusiya isə hər vəchlə Avropanı enerji baxımından öz asılılığında saxlamaqda maraqlıdır. Exxon Mobilin enerji ssenarilərini qiymətləndirdiyi "2018 Outlook for Energy: A View to 2040" adlı məruzəsində qlobal mavi qaz ehtiyacının 2016-cı ildən 2040-cı ilədək 40 % artacağı, Çin və Hindistanın bu enerji tələbində 45 %-lik paya sahib olacağı qeyd olunur. Bu artan enerji ehtiyacı Çini də regionda maraqlı tərəflərdən birinə çevirməkdədir. Çin dövlət rəhbəri Xi Pingin 2013-cü ildə beynəlxalq sülh proyekti kimi elan etdiyi "Bir Kəmər Bir Yol" layihəsi avtomobil və dəmir yolu vasitəsi ilə tarixi İpək Yolunu yenidən canlandırmaqla birlikdə, Dəniz İpək yolu proyektini də nəzərdə tutmaqdadır. Bu layihənin dəniz qismi Çin dənizindən başlayaraq Hind okeanı, Afrika sahilləri ilə yanaşı Aralıq dənizindən keçməklə böyük bir coğrafiyada ticarəti canlandırmağı nəzərdə tutur [1].

Dünya qaz rezervlərinin 47 %-nin olduğu güman edilən Şərqi Aralıq dənizində artıq İsrail, Kipr Respublikası (Cənubi Kipr) və Misir öz ərazi sularında qaz yataqlarını kəşf etmiş və istismarını planlamaqdadırlar. İsrailin Leviatan və Tamar yataqlarında 1 trilyon kubmetrdən çox təbii qaz rezervi aşkar edilmişdir. Kipr Respublikasının ərazi sularında yerləşən Afrodita yatağında 100 milyard kubmetrdən çox qaz aşkara çıxarılıb.Misirin Zohr yatağındakı təbii qazın miqdarı isə 850 milyard kubmetr hesablanmışdır.

Şərqi Aralıq dənizində çox sayda sahilyanı ölkələrin olması və bu ölkələrin hamılıqla qəbul etdiyi Müstəsna İqtisadi Zona (MİZ) ilə bağlı müqavilənin olmaması bu ölkələrdən heç birinin özbaşına hərəkət etməsinə və digərlərinə məhəl qoymamasına imkan vermir. Misal üçün, Kipr Respublikası (Cənubi Kipr) bölgədəki qazı boru kəməri vasitəsi ilə Avropa bazarına çıxarmaq istədiyi təqdirdə bu xəttin Türkiyənin iddia etdiyi MİZ-dan keçəcəyi görünməkdədir [2]. Yunanıstanın tərtib etdiyi aşağıdakı xəritəyə əsasən isə Türkiyənin ərazi suları və MİZ sahəsi olduqca kiçik sahəni əhatə edir.

Aralıq dənizinin Şərqi ilə bağlı qlobal və regional güclərin enerji mübarizəsini analiz edərkən biz,-Rusiyanın buradakı aktivliyini izləməliyik. Rusiya




Avropanın ondan olan enerji asılılığını davam etdirmək üçün Aralıq dənizində güclənmək strategiyasını tutub. Bu mənada Rusiya Suriyadakı hərbi gücünü artırmaqla birlikdə 2017-ci ilin mayından Şərqi Aralıq dənizində daimi donanma saxlamaq qərarını vermişdir.Bununla da Rusiya Aralıq Dənizini NATO dənizi olmaqdan çıxarmışdır. Rusiya həmçinin, bölgədə Yunanıstan, xüsusən də yunanların yaşadığı Kipr Respublikası ilə ciddi əlaqələr yaratmış, hətta buradakı yunan şirkətlərinə borc vermək üçün Kipr banklarında 70 mlrd dollarlıq pul saxlamaqdadır.

ABŞ və Avropa Birliyi üçün isə Aralıq dənizi həm də təhlükəsizlik cəhətdən əhəmiyyətlidir. Regiondakı rus donanmasında yerləşdirilmiş olan ballistik raketlərə qarşı Avropanın müdafiəsini ABŞ-ın Aralıq dənizindəki hərbi gəmiləri təmin etməkdədir. Eləcə də regionda əsas ABŞ müttəfiqi olan İsrailin sabitliyi də Amerikanın prioritetlərindəndir.

Şərqi Aralıq dənizində öz nüfuz dairəsini formalaşdırmağa çalışan Fransa bu məqsədlə Misir,İsrail və Kipr Respublikası ilə yaxın münasibətlər qurmuş və 2007-ci ildə Kipr Respublikası ilə Müdafiə və Hərbi Əməkdaşlıq müqaviləsi imzalanmışdır. Buna əsasən Fransa adanın rum əsgərlərinə təlim verməklə yanaşı adadakı hərbi aerodromlardan istifadə haqqı da əldə etmişdir [11].

2010-cu ildən başlayaraq regionda rəqabət o dərəcə qızışmışdır ki, bir çox dövlət-İngiltərə, Misir, Fransa,Yunanıstan, İtaliya regiona donanma yeritmiş və müttəfiqliklər qurmuş və ortaq hərbi təlimlərə başlamışlar.

Təəssüf ki, qlobal güclərdən nə ABŞ, nə də Rusiya bir çox sahələrdə olduğu kimi, Aralıq dənizi enerji məsələsində də Türkiyənin əleyhinə mövqe nümayiş etdirirlər. Rusiya Türkiyənin tanımadığı və Cənubi Kipr adlandırdığı Kipr Respublikası ilə müttəfiqlik etməklə birgə, regionda ABŞ-ın əsas tərəfdaşı və Türkiyə ilə gərgin münasibətləri olan İsraillə də örtülü strateji münasibətlərə malikdir.ABŞ da bu məsələdə Kipr Respublikasının mövqeyini müdafiə edir. İsrail isə bölgədə qaz yataqlarının kəşfindən sonra Aralıq dənizinə çıxışı olan Fələstin torpaqlarını- Qəzzəni də ilhaq etmək və onun dənizdəki ərazilərinə sahiblənmək iddiasındadır [3].

Bölgədəki gərginliyi artıran əsas məsələlərdən biri Kipr Respublikasının (Cənubi Kipr) təktərəfli olaraq bir çox qonşu dövlətlərlə MİZ ilə bağlı müqavilələr imzalamasıdır. Aralıq dənizində yerləşən Kipr adasının strateji əhəmiyyətini Alfred Mahanın "Dəniz Hakimiyyəti" teoriyası baxımından analiz etsək, Süveyş kanalı vasitəsi ilə Hind və Sakit okeanlarına çıxışı olan Aralıq dənizinin şərqinə nəzarət üçün Kipr vacib mövqedədir. Dəniz keçid yollarına və bu yolların keçdiyi strateji quru ərazilərinə hakim olmaq "Dəniz Hakimiyyəti" adlanan teoremdə dünyaya hakim olmağın əsas şərti kimi irəli sürülür. Bu mənada Kiprə hakim olmaq Aralıq dənizi vasitəsiylə Yaxın Şərqə nəzarət etmək üçün əhəmiyyətlidir [8]. Məlumdur ki, 1974-cü ildə Türkiyə adadakı türklərin hüquqlarını qorumaq üçün Şimali Kiprə ordu yeritmiş və 1884-cü ildən orada KKTC (Kuzey Kıprıs Türk Cumhuriyyeti) adlanan respublika yaradılmışdır. Lakin bu respublikanı Türkiyədən başqa dünyada heç bir dövlət tanımamış və dünyada bütövlükdə adanın təmsilçisi kimi Kipr Respublikası (Cənubi Kipr) qəbul edilmişdir.2004-cü ildə Kiprdə konfliktin həlli və adanın birləşməsi ilə bağlı Annan Planı çərçivəsindəki referenduma adanın türk əhalisi bəli desə də yunan (rum) əhalisi "xeyr" dediyindən münaqişə bu günədək həll olunmamış qalır.Bu referendumun istənilən nəticə vermədiyini görən Avropa Birliyi isə dərhal Kipr Respublikasını Birliyə üzv kimi qəbul etmiş və onu adanın yeganə təmsilçisi olaraq elan etmişdir. Bu mənada Avropa Birliyinə üzvlük şərtlərindən biri olan ərazi münaqişəsinin olmaması tələbi görməzlikdən gəlinmiş, bunun əsas səbəbi isə regionda uzun müddətdən bəri ehtimal edilən enerji yataqlarının istismarı məsələsi olmuşdur. 2003-cü ildə KKTC-nin xarici işlər naziri Serdar Denktaş mətbuata verdiyi açıqlamada Kiprin zəngin neft-qaz yataqlarının kəşf edildiyini və Avropa İttifaqının bu mənbələri nəzarət altına almaq məqsədi ilə Annan planına dəstək verdiyini söyləmişdir. O həmçinin Kiprin tələsik Aİ-yə üzv qəbul edilməsinin də enerji oyununun bir parçası olduğunu və ABŞ ilə Aİ-nin ortaq məqsədinin Türkiyəni buradakı neft-qaz mənbələrindən uzaqlaşdırmağa yönəldiyini bəyan etmişdir [5].

Kipr Respublikası dünya şirkətlərini öz sularında neft-qaz axtarışına cəlb etməklə həm də Şimali Kipri və Türkiyəni sıxışdıraraq məsələnin həllində Türkiyəyə təzyiq edilməsinə nail olmağa çalışmaqdadır. Cənubi Kipr 2003-cü ildə Misir, 2004-cü ildə Livan, 2010-cu ildə isə İsraillə MİZ müqavilələri imzalayaraq bu müqavilələr əsasında öz ərazi sularında neft-qaz axtarışı üçün 13 zona müəyyən etmişdir. Xəritədən də göründüyü kimi, bu bölgü Kipr türklərini və onların haqlarını yox saymaqla birlikdə Türkiyənin iddia etdiyi MİZ ilə də toqquşur.




Yunanıstan və yunan Kiprinin əsas məqsədi Aralıq dənizində ən uzun sahili olan Türkiyəni Antalya körfəzindən ibarət dar bir ərazi sularına məhkum etməkdir [6]. Halbuki, Beynəlxalq Dəniz Hüququnda təsbit edilmiş Müstəsna İqtisadi Zona anlayışına görə, MİZ deyildikdə ərazi dənizinin hüdudlarından kənarda yerləşən və ona bitişik olan, eni 200 mildən çox olmayan açıq dəniz rayonu başa düşülür.[13] Bu isə Türkiyə Cümhuriyyətinin Müstəsna İqtisadi Zonasının Antaliya Körfəzinə həbs edilməyəcək qədər böyük sahəni əhatə etdiyini göstərir.

Kipr Respublikası beynəlxalq hüquqa məhəl qoymadan İtalyanın Eni və Fransanın Total şirkətlərinə bölgədə hidrokarbon axtarışına icazə versə də,Türkiyə onun təktərəfli addımlarını tanımamış və onun bütün Kipr adından beynəlxalq müqavilələr bağlamaq hüququnun olmadığını elan etmişdir.[4] Çünki,1960-cı il müqavilələrinə əsasən isə Kipr Respublikasının əsl qurucu ünsürlərindən biri adanın türk əhalisidir və onların adanın sərvətləri ilə əlaqəli haqlarını görməzlikdən gəlmək olmaz.

Türkiyə Kipr Respublikasının sahilyanı dövlətlərlə imzaladığı MİZ müqavilələrinə sərt münasibət bildirmişdir. 2007-ci ildə Türkiyənin XİN-i yaydığı bəyanatda yarı qapalı dəniz olan Aralıq dənizində ərazi suları və MİZ-nın müəyyənləşdirilməsi ilə bağlı anlaşmaların yalnız bütün maraqlı ölkələr arasında və onların haq və mənafelərini qoruyacaq şəkildə nizamlanmasının vacibliyini vurğulamış və regiondakı faint accompli-oldu bitdilərə razılıq verməyəcəyini bəyan etmişdir.Cənubi Kiprin Kiprdə yaşayan türklərin adından müqavilə bağlama haqqı olmadığını bəyan edən Türkiyə, təktərəfli müqavilələr imzalayan Cənubi Kiprin iki xalqın ortaq haqlarını tapdaladığını irəli sürmüşdür. Beynəlxalq arenada bunlardan nəticə ala bilməyən Türkiyə sonda TPAO-ya (Türk Petrolleri Anonim Ortaklığı) Kipr sularında da neft-qaz axtarışına icazə vermişdir [7].

Türkiyə və KKTC-nin əsas hədəfi bölgədə gərginlik və sıfır toplamlı oyun yerinə bütün maraqlı tərəflərin haqlarının qorunduğu əməkdaşlığı yaratmaq olduğu ortadadır. Bununla əlaqədar olaraq 2011-ci ildə Türkiyə Kipr yunanlarına enerjini birlikdə istehsal və emal edərək əldə olunacaq gəlirləri BMT-nin nəzarətindəki xüsusi bir fondda toplamaq və bütövlükdə ada əhalisinin maddi ehtiyaclarını bununla təmin etməyi təklif etmiş, lakin bu təklif Kipr rumları tərəfindən rədd edilmişdir.

2017-ci ilin iyun-iyul aylarında İsveçrənin Crans-Montana qəsəbəsində Kiprlə bağlı keçirilən konfrans da fiaskoya uğramış, Türk tərəfinin təklif etdiyi növbəli idarəçilik (bir müddət yunan, bir müddət türk) təklifi rədd edilmişdir.

Çox gec olsa da Türkiyə 10 aprel 2019-cu ildə özünün MİZ-sının sərhədlərini müəyyən edərək BMT-yə bildirmiş, bununla da öz sonrakı hüquqi və hərbi addımlarına zəmin hazırlamışdır.

Cənubi Kiprin elan etdiyi neft-qaz axtarışı ilə bağlı ikinci tenderin nəticəsində ABŞ və İsrailin ardınca Fransa, İtaliya, Rusiya və Cənubi Koreya enerji şirkətləri üzərindən Kipr probleminin bir parçası halına gəlmişdir. Türkiyə 18 may 2012-ci il tarixli bəyanatında bu şirkətlərin Türkiyədə enerji layihələrinə daxil edilməyəcəyini söyləmiş, bununla digər şirkətləri də belə addım atmaqdan çəkindirməyə çalışmışdır. Doğrusu, Türkiyə baxımından ən məyusedici məsələ bu enerji şirkətlərinə qarşı beynəlxalq arenada bir sanksiya tətbiq etmə gücünün olmamasıdır.

2011-ci ildə "Piri Rəis" gəmisini Şərqi Aralıq dənizinə göndərən Türkiyə bununla daha çox region dövlətlərinə mesaj verməyi planlamışdır. Belə ki, bu araşdırma gəmisi uzağı 1200 metr dərinliyinə qədər araşdırma apara bilirdi ki, bu neft-qaz axtarışı üçün məqbul dərinlik deyildi. Lakin 2013-cü ildə Türkiyə 8 km-lik dərinliyə qədər araşdırma apara bilən "Xeyrəddin Barbaros Paşa" gəmisini regiona gön-

dərməklə adadakı rumları, eləcə də, digər regional gücləri ciddi narahat etmişdir [9].

2017-ci ildən etibarən Cənubi Kipr hökuməti, ərazi sularında elan etdiyi 13 zonanın 8-də beynəlxalq şirkətlərin axtarış aparmasına icazə vermiş, lakin bir çox şirkətin buradakı fəaliyyəti türk hərbi gəmiləri tərəfindən əngəllənmişdir.

Türkiyə regionda təklənmiş və ona qarşı müxtəlif ittifaqlar meydana çıxmışdır.Xüsusən də enerji qaynaqlarının kəşfindən sonra, Kipr Respublikası-Misir-Yunanıstan və Kipr Respublikası-İsrail-Yunanıstan kimi əməkdaşlıq üçbucaqları buradakı sərvətlərin çıxarılmasından Avropa bazarlarına çatdırılmasınadək hər mərhələdə Türkiyəni kənarda qoymağa çalışmaqdadırlar.

East-Med adlanan Aralıq dənizindəki təbii qazın dənizin altından keçəcək olan boru xətti ilə Kipr-Girit-Yunanıstan və İtaliyadan Avropaya çatdırılmasını nəzərdə tutan layihə ABŞ və Aİ tərəfindən dəstəklənməkdə və bunu Rusiyanın Avropaya etdiyi enerji təzyiqini azaldacağı düşünülməkdədir. Lakin, bölgədəki qazın Türkiyə vasitəsi ilə Avropaya çatdırılması texniki və maliyyə cəhətdən daha sərfəlidir [10].

29 oktyabr 2018-ci ildə Türkiyə bölgəyə özünün ilk qazma gəmisi olan "Fatihi" göndərmiş və "Alanya-1" quyusunda neft-qaz axtarışına başlamış, 22 iyun 2019-cu ildə bölgəyə göndərilən "Yavuz" gəmisi isə Şimali Kiprin icazə verdiyi sularda neft axtarışına başlayacaq.

Bölgədə baş verən iqtisadi, siyasi və hərbi dəyişikliklər, ABŞ və İsrailin təsiri ilə Türkiyəyə Şərqi Aralıq dənizi tənliyində yer verilmədiyini göstərir. Bu mənada Rusiya-Türkiyə-Suriya əməkdaşlığı tənliyi yaradılaraq bölgədə balansı təmin etmək olar.Bunun üçünsə mütləq Suriya ilə münasibətləri qaydaya salmaq lazımdır [12].

## NƏTİCƏ

Strateji və geopolitik cəhətdən əhəmiyyətli olan Aralıq dənizi, onun şərqində enerji mənbələrinin də tapılması ilə dünya siyasi gündəmində əsas müzakirə obyektinə çevrilmişdir. Regionda sahilyanı ölkələrlə birlikdə Rusiya, ABŞ və Çinin də köklü maraqları mövcuddur. Şərqi Aralıq dənizinə ən uzun sahili olan Türkiyə isə buradakı maraqlarının təmin olunmasında bir qədər gecikmiş və dənizin bölgüsü ilə bağlı lazımı müttəfiqliklər quraraq müqavilələr imzalaya bilməmişdir. Xüsusən də, türk və yunan əhalisinin ayrıca dövlət qurduğu Kipr adası və onun dəniz suları məsələsi Kipr münaqişəsinin özü qədər anlaşılmaz və çıxılmaz vəziyyət yaratmışdır. Qlobal və regional güclər isə Kipr problemində olduğu kimi Aralıq dənizinin şərqi ilə bağlı Müstəsna İqtisadi Zonaların müəyyənləşdirilməsində də Yunanıstan və yunan Kiprinin mövqeyini dəstəkləmiş və bunu Türkiyəyə təzyiq vasitəsi kimi görmüşdür.

Təəssüf ki,Türkiyənin Şərqi Aralıq dənizi ilə bağlı siyasəti də proaktiv yox, reaktiv olmuş və təşəbbüs əldən verilmişdir. Bununla belə, Türkiyənin təklif etdiyi regionda hər bir dövlətin faydalana biləcəyi dənizdəki enerji mənbələri və onların nəqli ilə bağlı əməkdaşlıq modeli ziddiyyətlərin həlli üçün ən yaxşı variantdır.

Türkiyənin Aralıq dənizinə sahili olan regional güclərlə yaxşı münasibətlərinin olmaması, onun buradakı enerji hasilatı və bölgüsü, eləcə də, Kipr məsələsində təklənməsinə gətirib çıxarmışdır.Türkiyə nəinki Kipr yunanları və Yunanıstan dövləti ilə, həmçinin Suriya, Misir, İsrail və Liviya kimi sahilyanı dövlətlərlə də münasibətlərini korlamışdır.Bu isə Türkiyənin Beynəlxalq dəniz hüququna əsasən haqlı olduğu məsələlərdə belə Şərqi Aralıq dənizində maraqlarının tanınmamasına gətirib çıxarmışdır. Türkiyənin cənubundakı dəniz sularında bu qədər xarici ölkələrə məxsus hərbi donanmaların olması isə onun təhlükəsizlik maraqlarını da təhdid edir.

Türkiyənin Misir, Suriya və İsraillə bir zamanlar xeyli inkişaf etdirdiyi münasibətlərə yenidən qayıtması onun Aralıq dənizində maraqlarını təmin etməklə birlikdə, regionda sabitliyin qorunmasına da töhfə verərdi.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Şahin İsmail.“Doğu Akdenizde enerji çatışması ve İşbirliği”, ORSAM, Rapor No 3, Ocak 2019. səh 5.*

*2. Yılmaz Emre. “Doğu Akdenizde enerji çıkmazı”,SETA perspektif,say188,mart 2018, səh 2.*

*3. Tarakçı, Nejat. “Güç Dengeleri ışığında Türkiyenin Doğu Akdeniz stratejisi nasıl olmalıdır?”*

*4. Yılmaz Emre. “Doğu Akdenizde enerji çıkmazı”, SETA perspektif, say188, mart 2018, səh 6.*

*5. Şahin İsmail.“Doğu Akdenizde enerji çatışması ve İşbirliği “, ORSAM, Rapor No 3, Ocak 2019, səh 16.*

*6. Şahin,İsmail. “Doğu Akdenizde enerji çatışması ve İşbirliği “, ORSAM,Rapor No 3, Ocak 2019.*

*7. Şahin, İsmail. "Doğu Akdenizde enerji çatışması ve İşbirliği", ORSAM, Rapor No 3, Ocak 2019.*

*8. Kedikli, Umut. Deniz,Taşkın. "Enerji kaynakları mücadelesinde Doğu Akdeniz Havzası ve Deniz Yetki Alanları uyuşmazlığı"*

*9. Şahin, İsmail. "Doğu Akdenizde enerji çatışması ve İşbirliği", ORSAM, Rapor No 3, Ocak 2019.*

*10. Şahin,İsmail. "Doğu Akdenizde enerji çatışması ve İşbirliği", ORSAM, Rapor No 3, Ocak 2019.*

*11. Şahin,İsmail. "Doğu Akdenizde enerji çatışması ve İşbirliği", ORSAM, Rapor No 3, Ocak 2019.*

*12. Tarakçı, Nejat. "Güç Dengeleri ışığında Türkiyenin Doğu Akdeniz stratejisi nasıl olmalıdır?"*

*13. Hüseynov, Lətif. Beynəlxalq Hüquq., Hüquq ədəbiyyatı, Bakı 2002, səh.269.*

**Şərqi Aralıq dənizində isinən sular. Türkiyənin strategiyası**

**XÜLASƏ**

Strateji cəhətdən böyük əhəmiyyət daşıyan Aralıq dənizi hövzəsi, onun şərq sahillərində enerji mənbələrinin də tapılması ilə qlobal və regional güclərin mübarizə meydanına çevrilmişdir. Şərqi Aralıq dənizinə ən uzun sahili olan Türkiyə isə buradakı maraqlarının təmin olunması üçün mübarizə aparmaqdadır.

**Açar sözlər:** *Türkiyə, Kipr, Aralıq dənizi, Müstəsna iqtisadi zona.*

**Потепление вод в восточной части Средиземного моря. Стратегия Турции**

**РЕЗЮМЕ**

Стратегически важный средиземноморский бассейн стал полем битвы мировых и региональных держав из-за открытия источников энергии на его восточных берегах. Турция, имеющая самое длинное побережье до Восточного Средиземноморья, изо всех сил пытается обеспечить здесь свои интересы.

**Ключевые слова:** *Турция, Кипр, Средиземное море, исключительная экономическая зона.*

**Warming waters in the eastern Mediterranean Sea. Turkey's strategy**

**SUMMARY**

After the discovery of the new energy resources in the strategically important east Mediterranean Sea, it becomes the struggling area of the regional and global powers.Having the longest coast to the eastern Mediterranean, Turkey is struggling to support its interests there.

**Key words:** *Turkey, Cyprus, Mediterranean Sea, Exclusive economic zone*

UOT 94 (479.24); 930:314

# ŞUŞA ŞƏHƏRİNİN ƏHALİSİ: SAY DİNAMİKASI, ETNİK VƏ SOSİAL TƏRKİBİ

**T.f.d., a.e.i. ASƏF HACIYEV,**
**b.e.i. ULDUZ PAŞAYEVA**
*Bakı Dövlət Universiteti, Tarix fakültəsi*
*Dünya azərbaycanlıları: tarixi-demoqrafiya ETL-i*

*E-mail: asafhajiyev@rambler.ru*
*star.miri@mail.ru*

***"Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir"***

**Heydər Əliyev**
**Ümummilli lider**

***Şuşanın azad edilməsi həm böyük siyasi, həm böyük strateji eyni zamanda, çox böyük mənəvi məna daşıyır. Əziz Şuşa, sən azadsan! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!***

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Şuşa haqqında dediklərini heç də təsadüfən xatırlatmadıq. 1992-ci ilin mayın 8-dən 2020-ci ilin noyabrın 8-dək iyirmi səkkiz il yarım erməni işğalı altında olan Şuşa şəhərinin Azərbaycan tarixində özünəməxsus bir yeri olmuşdur. Və nəhayət Ali Baş Komandan İlham Əliyevin və qəhrəman xalqımızın qətiyyəti sayəsində haqq işi naminə apardığımız 44 günlük Vətən müharibəsində rəşadətli Azərbaycan ordusu Şuşa şəhərini 2020-ci il noyabrın 8-də işğaldan azad etdi. Biz hər il mayın 8-ni Şuşanın işğal günü kimi anırdıq. Bundan sonra bu tarixi fərqli ovqatda, nikbin əhval-ruhiyyə ilə - Zəfər Günü kimi bayram edəcəyik. Ermənistanın kapitulyasiyasına yol açan Şuşa qalibiyyəti xalqımızın qəhrəmanlıq ruhunun təntənəsinə çevrilərək, tariximizə Zəfər Günü kimi həkk olundu. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 07 may 2021-ci il sərəncamı ilə Şuşa şəhərini "Azərbaycanın mədəniyyət paytaxtı" elan etməsi bu qədim şəhərin özəlliklərindən qaynaqlanır. Həmçinin 05 yanvar 2022-ci il sərəncamı ilə "Şuşa İli" elan etməsi bu şəhərə sevgimizin nə dərəcədə böyük olduğunu bir daha sübut etdi.

Pənahabad - Şuşa qala şəhəri Azərbaycanın ən qədim ərazilərindən olan Qarabağda-Sarıcalı oymağının nümayəndəsi Pənah xan Cavanşirin göstərişi və şəxsən iştirakı ilə tikildiyinə görə, onun şərəfinə Pənahabad (sonralar Şuşa) adlandırılmışdır [11, səh.243]. 1747-ci ildə görkəmli Azərbaycan sərkərdəsi Nadir şah Əfşarın ölümündən sonra keçmiş Qarabağ bəylərbəyliyinin ərazisində Cavanşir tayfasının başçısı Pənahəli xan (1693-1763) tərəfindən yaradılmış Qarabağ xanlığının qarşısında ilk öncə xanlığı iqtisadi və siyasi cəhətdən möhkəmləndirmək kimi çox vacib məsələ dayanırdı. Belə ki, Pənahəli xan başa düşürdü ki, siyasi cəhətdən möhkəm olan mərkəzi şəhər olmadan xanlığı qoruyub saxlamaq, həmçinin öz təhlükəsizliyini təmin etmək mümkün deyildir. Çünki Qarabağ xanlığının ilk dövrlərdə möhkəmləndirilmiş paytaxt şəhəri yox idi. Xanlığın daxilində gedən çəkişmələr, xüsusilə xristian məliklərin xəyanəti, qonşu xanlıqların və İranda taxt-tac mübarizəsi aparan ayrı-ayrı hakimlərin hücum təhlükəsi şəraitində bu, olduqca təhlükəli idi. Buna görə də Pənahəli xan paytaxt üçün güclü müdafiə imkanlarına malik olan qala tikdirmək qərarına gəldi. Bu qala-şəhər həmçinin xanlığın paytaxtı rolunu oynamalı idi. Məhz bu məqsədlə Pənahəli xan 1748-ci ildə Kəbirli mahalında - Ağcabədi yaxınlığında ilk olaraq **Bayat** qalasını tikdirir [5, səh.18; 11,səh.245]. Lakin Bayat qalası əlverişli mövqedə olmadığı üçün Pənahəli xan strateji cəhətdən daha əlverişli mövqeyə malik olan yeni qalanın tikilməsi qərarına gəlir. Bu məqsədlə Ağdamdan 10 km. aralıda yerləşən bir ərazidə başqa bir qalanın - Şahbulaq qalasının tikilməsi barədə göstəriş verir. Akademik Yaqub Mahmudovun və professor Camal Mustafa-

yevin "Şuşa-Pənahabad" adlı əsərində qeyd edilir: "Şahbulaq qalasının tikintisi çox sürətlə aparıldı və 1751/52-ci ildə, əsasən, başa çatdırıldı" [5, səh.20]. Qeyd edək ki, Şahbulaq qalası da fasiləsiz davam edən ara müharibələri zamanı xanlığın təhlükəsizliyini təmin edə bilmirdi. Bunun üçün Pənahəli xan daha etibarlı və daha möhkəm olan yeni bir qalanın tikilməsini vacib sayırdı. Tikilməsi nəzərdə tutulan qala, həmçinin hərbi-strateji cəhətdən əvvəlki qalalardan üstün olmalı idi. Bununla əlaqədar məşvərət məclisi keçirən Pənahəli xan əyanlara müraciətlə demişdi: "Biz gərək dağların içində, möhkəm və keçilməz yerdə elə bir əbədi və sarsılmaz qala tikək ki, onu güclü düşmən belə mühasirə edə bilməsin. Qalanın bir tərəfi dağlarda olan ellərin üzünə daim açıq olmalı və mahallarla rabitəmiz, əlaqəmiz bir an belə kəsilməməlidir" [5, səh.21]. Çox güman ki, bu hadisə xanın iqamətgahının Bayat qalasından Şahbulaq qalasına köçürüldüyü vaxt, daha doğrusu, 1750-ci illərin əvvəlində baş vermişdi. Görünür, Şahbulaq qalasının təhlükəsizlik baxımından xeyli zəif olduğunu tez başa düşən Qarabağ xanı daha etibarlı qala tikdirmək məqsədilə göstərilən məşvərət məclisini çağırmış və elə həmin vaxt da Pənahabad - Şuşa qalasının salınması barədə əmr vermişdi. Qeyd edək ki, dəniz səviyyəsindən 1300-1600 metr yüksəklikdə yerləşən qalanı cənub-şərq tərəfdən hündürlüyü 250-300 sajen və eni 100 sajenə qədər olan sıldırım qayalarla böyük bir dərə əhatə edir (qeyd-1 sajen 3 arşına, 1 arşın isə 75 sm-ə bərabərdir- A.H., U.P.).

Beləliklə, azərbaycanlıların qədim yaşayış məskəni olan Şuşa ərazisində Qarabağ xanlarının yeni iqamətgahının tikintisinə başlanıldı. Yeni şəhər-qala mövcud olduğu ilk illərdə öz banisinin adı ilə Pənahabad, sonralar isə bu yerin qədim adı ilə Şuşa adlandırıldı və Qarabağ xanlığınm daimi paytaxtına çevrildi. Şəhərin adının etimoloji mənasının türk dilinə mənsub olması heç bir şübhə doğurmur. Bu ad şəhərin salındığı relyefə uyğun olub qədim türk dilində "yayla", "piramida", "şiş qaya" mənasını verir.

"Qarabağnamə" müəllifləri Pənahabad qalasının inşa olunması barədə müxtəlif fikirlər irəli sürürlər. Belə ki, Mirzə Yusif Qarabaği "Tarixi-Safi"əsərində qalanın əsasının 1752-ci ildə, Mirzə Adıgözəl bəy və Mirzə Camal bəy Cavanşir Qarabaği 1756-1757-ci illərdə, Əhməd bəy Cavanşir isə qalanın əsasının 1754-cü ildə qoyulduğunu qeyd edirlər [4, səh.13-14]. M.Mustafayev isə "Qarabağ xanlığının iqtisadiyyatı" adlı əsərində göstərir ki, qalanın tikintisinə 1750-ci ildə başlanılmış, 1752-ci ildə isə başa çatdırılmışdır [10, səh.33]. Şuşadan olan Həsən İxfa Əlizadə "Şuşa şəhərinin tarixi" salnaməsində qalanın inşa edilməsi barədə yazır: "Şuşa şəhərinin bünövrəsi 1750-ci ildə qoyulmuşdur" [2, səh.316]. Qarabağ salnamələrinin müəlliflərindən olan Həsənəli Qaradaği özünün "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət övzaları" adlı salnaməsində Şuşa qalasının 1754-cü ildə inşa olunması barədə məlumat verir. Şəhərin bünövrəsinin qoyulması barədə araşdırmaları təhlil edərək belə qənaətə gəlmək olar ki, qalanın əsası 1752-ci ildə qoyulmuş və 1754-cü ildə tikintisi başa çatdırılmış, 1756-cı ildə isə Qarabağ xanlığının paytaxtı Pənahabada - Şuşaya köçürülmüşdür.

Şuşa şəhərinin əhalisi rus məmurları tərəfindən ilk dəfə 1823-cü ildə kameral siyahıya alınmış və həmin arxiv sənədlərindən məlum olur ki, şəhərin yalnız Təbrizli məhəlləsində (ruslar məhəllə adlarını kvartal kimi qeyd edir – A.H., U.P.) 162 ailə yaşamışdır [13, səh. 7-8]. Tərtib etdiyimiz cədvəldə **(cədvəl 1)**1800-cü ildə Şuşa şəhərində 10.000 nəfər əhalinin yaşadığının şahidi oluruqsa,1870-ci ildə şəhərin əhalisinin sayı əsrin əvvəlinə nisbətən demək olar ki, 2 dəfə artaraq 19.945 nəfərə çatmışdır. 1917-ci ildə isə Şuşa səhərinin əhalisi 43.869 nəfərə çatmışdır ki, bu da 1800-cü ilə nisbətdə 33.869 nəfər artım deməkdir [15, səh. 50].

**Cədvəl 1**

**Şuşa əhalisinin say dinamikası**

| № | İllər | Ümumi əhalinin sayı |
|---|---|---|
| 1 | 1800-cü il | 10.000 |
| 2 | 1823-cü il | 1.532 ailə |
| 3 | 1830-cu il | 9.579 |
| 4 | 1850-ci il | 12.724 |
| 5 | 1870-ci il | 19.945 |
| 6 | 1886-cı il | 26.806 |
| 7 | 1897-ci il | 25.881 |
| 8 | 1904-cü il | 34.847 |
| 9 | 1910-cu il | 37.531 |
| 10 | 1917-ci il | 43.869 |
| 11 | 1926-cı il | 5.104 |
| 12 | 1939-cu il | 10.819 |
| 13 | 1959-cu il | 10.626 |
| 14 | 1970-ci il | 13.664 |
| 15 | 1979-cu il | 16.019 |
| 16 | 1989-cu il | 20.374 |

1926-cı ildə Şuşa şəhərinin əhalisinin sayında kəskin azalmaya rast gəlirik. Belə ki,1917-ci ildə şəhər əhalisinin sayı 43.869 nəfər idisə, 1926-cı ildə bu rəqəm 5.104 nəfərə düşmüşdü. Bu azalma-1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə Qarabağa, o cümlədən, Şuşada bölgənin azərbaycanlı əhalisinə qarşı, sözün əsl mənasında, soyqırım və deportasiya siyasəti həyata keçirilməsi ilə bağlı idi. 1920-1922-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin fitvası ilə həbs edilmiş, güllələnmiş və təqiblərə məruz qalmışdı. Şəhərin bir çox bəyləri əhalinin gözü qarşısında güllələnmişdi. Azərbaycanlı ailələrin xeyli hissəsi erməni təqiblərindən xilas olmağın yeganə yolunu Şuşanı tərk edərək İrana və Türkiyəyə qaçmaqda görürdülər. Həyata keçirilən bu repressiyalar şəhərdə əhalinin sayının daha da azalmasına səbəb olmuşdu [9, səh.5]. 1926-cı ildə əhalinin azalmasına başqa bir səbəb də təsir etmişdi. Belə ki, Sovet hakimiyyəti dövründə Şuşa şəhərinin inzibati statusunun bir neçə dəfə dəyişdirilməsi də əhalinin sayının azalmasına gətirib çıxarmışdır. Cədvəldən həmçinin Şuşa şəhərinin əhalisinin sonrakı illərdəki sayı barədə də məlumat əldə etmiş oluruq. Məlum olur ki, şəhərdə 1939-cu ildə -10.819 nəfər, 1959-cu ildə -10.626 nəfər, 1970-ci ildə -13.664 nəfər, 1979-cu ildə -16.019 nəfər və nəhayət 1989-cu ildə -20.374 nəfər əhali yaşayırdı [12; 14; 16; 18].

Yuxarıda qeyd etdiyimiz kimi Təbrizli məhəlləsində162 ailə yaşamışdır ki, bu ailələrin hamısı azərbaycan türklərindən ibarət olmuşdur [13, səh. 7-8]. Bu məlumatın özü onu təsdiq edir ki, Şuşanın əsasını Azərbaycan türkləri qoymuş və ilk dövrlərdə burada ancaq Azərbaycan türkləri yaşamışlar. Şuşanın əhalisinin Azərbaycan türklərindən ibarət olmasını şəhərin  məhəllə adlarının (Təbrizli, Böyük qurdlar, Kiçik qurdlar, Seyidli, Culfalar, Təzə məhəllə, Hamamqabağı, Dəmirçilər, Quyuluq, Xocamərcanlı, Mamayı, Saatlı, Köçərli, Merdinli, Çölqala, Hacı Yusifli, Çuxur məhəllə, Ağadədəli və s.) Azərbaycan türkcəsində olması da bir daha sübut edir.

XVIII əsrin sonları - XIX əsrin əvvəllərində Şuşaya köçüb gələnlər arasında mənşə etibarilə alban olub orta əsrlərdə erməni kilsəsinin təsiri altında qriqoryanlaşmış və erməniləşmiş əhali də var idi ki, bunların əksəriyyətini Qarabağ xanlığının Tativ, Xaçın və Dizaq mahallarından gələnlər təşkil edirdi. Lakin «Qarabağ əyalətinin təsviri» adlı sənədin məlumatları əsasında apardığımız hesablamalardan məlum olur ki, bu əhali Şuşada yaşayan bütün əhalinin cəmi 27% -ni təşkil edirdi [13, səh.13-18].

XIX əsrin əvvəllərinə aid məlumatlar göstərir ki, xristian əhali yalnız Şuşada deyil, həm də bütün Qarabağ xanlığında əhalinin az bir hissəsini təşkil edirdi. 1823-cü ilə aid statistik məlumatlardan aydın olur ki, həmin dövrdə Qarabağ xanlığında yaşayan 20.035 ailənin 15.729-u azərbaycanlı ailələrdən, 4.306-ı isə xristian ailələrindən ibarət olmuşdu [9,səh. 4].

1823-cü ildə Şuşada yaşayan 1.532 ailənin 1000-dən çoxu azərbaycanlılardan (67,4 faizi), təxminən, 500-ü isə ermənilərdən (32,6 faizi) (alban mənşəli xristianlar) ibarət olmuşdu. **(cədvəl 2)** Şuşa şəhərində əhalinin etnik tərkibinin bu nisbəti, hətta çar hökumətinin erməniləri kütləvi surətdə İrandan və Osmanlı imperiyasından Qarabağa köçürdüyü dövrdə, həmçinin bu proses XIX əsrin 30-cu illərində də dəyişməmişdi. Həmin dövrdə şəhərdə qeydə alınmış 1.698 ailənin 936-sını azərbaycanlılar təşkil edirdi.

**Cədvəl 2**

**Şuşa şəhəri əhalisinin etnik tərkibi (1823-cü il)**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər (alban mənşəli xristianlar) |
|---|---|---|---|
| Şuşa şəhəri | 1.532 ailə (100%) | 1.032 ailə (67,4%) | 500 ailə (32,6%) |

1886-cı il ailə və 1897-ci il Ümumrusiya siyahıyaalınmaları zamanı Şuşa əhalisinin etnik tərkibinə nəzər  yetirsək artıq bu dövrdə ermənilərin üstünlük təşkil etdiyini görürük. Belə ki, 1886-cı ildə Şuşa səhərinin 26.806 nəfər ümumi əhalisinin 15.188 nəfərini, yəni 56,7 faizini ermənilər təşkil etdiyi halda, azərbaycanlılar 11.595 nəfərini, yəni 43,2 faizini təşkil etmişlər **(cədvəl 3)**.

**Cədvəl 3**

**Şuşa şəhəri əhalisinin etnik tərkibi (1886-cı il )**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa şəhəri | 26.806 (100%) | 11.595 (43,2%) | 15.188 (56,7%) | 23 (0,1%) |

1897-ci ildə isə şəhərin 25.881 nəfər  ümumi əhalisinin 14.420 nəfərini, yəni 55,7 faizinin ermənilərdən ibarət olduğunu, azərbaycanlıların 41,6 faiz, yəni 10.778 nəfər təşkil etdiyini görürük **(cədvəl 4).**

**Cədvəl 4**

**Şuşa şəhəri əhalisinin etnik tərkibi (1897-ci il )**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa şəhəri | 25.881 (100%) | 10.778 (41,6%) | 14.420 (55,7%) | 683 (2,6%) |

Göründüyü kimi, ermənilərin bu dövrdə üstünlüyü 1828-ci ildə Rusiya ilə Qacar İranı arasında bağlanmış Türkmənçay və 1829-cu ildə Osmanlı Türkiyəsi ilə imzalanmış Ədirnə müqavilələrindən sonra baş vermişdir. Belə ki, Cənubi Qafqazın işğalını başa çatdıran çar Rusiyası burada öz mövqelərini möhkəmləndirmək məqsədilə ermənilərin bu ərazilərə köçürülməsi qərarına gəldi. Həmin müqavilələrin (Türkmənçay və Ədirnə) şərtlərinə əsasən ermənilərin İrandan və Osmanlı Türkiyəsindən Cənubi Qafqaza, əsasən tarixi Azərbaycan torpaqlarına köçürülməsinə başlanıldı. Rəsmi məlumatlara görə Rusiya təkcə 1828–1830-cu illərdə Cənubi Qafqaza 40 min nəfər İran ermənisi, 84 min nəfər isə Türkiyə ermənisi köçürmüşdü [17, səh.47]. Qeyd etmək lazımdır ki, Türkmənçay və Ədirnə müqavilələrindən sonra 80 il ərzində Cənubi Qafqazda ermənilərin sayı, təxminən 4,5 dəfə çoxalmışdı. Rus qafqazşünası N.Şavrovun verdiyi məlumata görə, XX əsrin əvvəllərində Cənubi Qafqazda yaşayan 1,3 milyon erməni əhalisinin 1 milyonu gəlmə idi [17, səh.64].

**Cədvəl 5**

**Şuşa şəhəri əhalisinin etnik tərkibi (1926-cı il)**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa şəhəri | 5.104 (100%) | 4.900 (96%) | 93 (1,8%) | 111 (2,2%) |

**Cədvəl 6**

**Şuşa əhalisinin etnik tərkibi (1939-cu il)**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa rayonu | 10.819 (100%) | 6.306 (58,3%) | 4.177 (38,6%) | 336 (3,1%) |
| Şuşa şəhər | 5.424 (100 %) | 3.701 (68,2%) | 1.476 (27,2%) | 247 (4,6%) |
| Şuşa kənd | 5.395 (100%) | 2.605 (48,3%) | 2.701 (50,1%) | 89 (1,6%) |

***Qeyd:*** *1939-cu il siyahıyaalınmasından etibarən Şuşa şəhəri ilə yanaşı, Şuşa rayonunun və Şuşanın kəndlərinin əhalisi də ayrıca verilmişdir.*

XX əsrin əvvəllərində Şuşa şəhəri əhalisinin etnik tərkibini 1926-cı ildə keçirilmiş Ümumittifaq siyahıyaalınması materialları əsasında izləyərkən qəribə bir mənzərə ilə rastlaşırıq. Belə ki, bu ildə şəhərin 5.104 nəfər ümumu əhalisinin 4.900 nəfərini, yəni 96 faizini azərbaycanlılar təşkil edir, ermənilərin sayı isə 93 nəfər, yəni 1,8 faiz göstərilir **(cədvəl 5)**. Lakin 10 il sonra 1939-cu il siyahıyaalınmasında azərbaycanlıların sayı 1.400 nəfər artdığı halda, ermənilərin sayında təxminən 4.100 nəfər artım baş verir **(cədvəl 6)**. Belə ki, 1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə Qarabağa, o cümlədən, Şuşada bölgənin azərbaycanlı əhalisinə qarşı, sözün əsl mənasında, soyqırım və deportasiya siyasəti həyata keçirilməyə başladı. 1920-1922-ci illərdə Şuşanın yüzlərlə azərbaycanlı sakini ermənilərin fitvası ilə həbs edilmiş, güllələnmiş və təqiblərə məruz qalmışdı. Şəhərin bir çox bəyləri əhalinin gözü qarşısında güllələnmişdi. Azərbaycanlı ailələrin xeyli hissəsi erməni təqiblərindən xilas olmağın yeganə yolunu Şuşanı tərk edərək İrana və Türkiyəyə qaçmaqda görürdülər. Həyata keçirilən bu repressiyalar şəhər əhalisinin etnik tərkibinə təsir edirdi [9, səh.5]. 1926-cı ildə əhalinin etnik tərkibinə başqa bir səbəb də təsir etmişdi. Belə ki, sovet hakimiyyəti dövründə Şuşa şəhərinin inzibati statusu bir neçə dəfə dəyişdirildi. PK(b)P MK Qafqaz bürosu plenumunun 1921-ci il 5 iyul tarixli qərarı ilə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi kimi müəyyənləşdirildi. Lakin bu qərar 1923-cü il iyulun 7-də həyata keçirilərkən Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi Şuşa yox, Xankəndi seçildi. Görünür, ermənilər Azərbaycana qarşı hazırladıqları məkrli planları Şuşadan həyata keçirməyin heç də asan olmayacağını başa düşüb bu addımı atmışdılar. Şuşa şəhəri isə AK(b)P MK Rəyasət Heyətinin 1923-cü il 16 iyul tarixli iclasının xüsusi qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edildi. Şəhər eyniadlı rayonun və 12 kənddən ibarət Malıbəyli volostunun mərkəzinə çevrildi. Bununla da Şuşa 170 ildən artıq yerinə yetirdiyi statusdan - bütün Qarabağın mərkəzi statusundan məhrum edildi [6,səh. 48-51].

Şuşa şəhərinin etnik tərkibindəki dəyişiklikliyə gətirib çıxaran məsələlərdən biri onun, qısa müddətə də olsa, rayon mərkəzi statusundan məhrum edilməsi oldu. XX əsrin 60-cı illərinin əvvəllərində Sovet dövlətinin başçısı N.S.Xruşşovun təşəbbüsü ilə rayonların iriləşdirilməsi siyasətinin həyata keçirilməsindən DQMV-nin erməni rəhbərliyi Şuşaya qarşı istifadə etdi. 1963-cü il yanvarın 4-də Şuşa rayonu ləğv

edilərək Stepanakert (Xankəndi) rayonunun tərkibinə qatıldı. Yalnız N.S.Xruşşovun hakimiyyətdən uzaqlaşdırılmasından sonra 1965-ci il yanvarın 6-da Şuşanın rayon statusu yenidən bərpa edildi [6,səh.69-70]. Bütövlükdə sovet hakimiyyətinin Şuşa şəhərinə bəslədiyi bu ögey münasibət burada yaşayan əhalinin etnik tərkibində dəyişikliyə gətirib çıxarırdı. Belə ki, 1959-cu ildə 10.626 nəfər ümumi əhalinin 6.564 nəfərini azərbaycanlılar, 3.794 nəfərini ermənilər **(cədvəl 7)**, 1970-ci ildə 13.664 nəfər ümumi əhalinin 9.890 nəfərini azərbaycanlılar, 3.577 nəfərini ermənilər **(cədvəl 8)**, 1979-cu ildə 16.019 nəfər ümumi əhalinin 12.955 nəfərini azərbaycanlılar, 2.881 nəfərini ermənilər **(cədvəl 9)**, 1989-cu ildə 20.374 nəfər ümumi əhalinin 18.679 nəfərini azərbaycanlılar, 1.430 nəfərini isə ermənilər təşkil edirdi **(cədvəl 10)**.

**Cədvəl 7**

**Şuşa əhalisinin etnik tərkibi (1959-cu il)**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa rayonu | 10.626 (100%) | 6.564 (61,8 %) | 3.794 (35,7%) | 268 (2,5%) |
| Şuşa şəhər | 6.117 (100%) | 4.453 (72,8%) | 1.428 (23,3%) | 236 (3,9%) |
| Şuşa kənd | 4.509 (100%) | 2.111 (46,8%) | 2.366 (52,5%) | 32 (0,7%) |

**Cədvəl 8**

**Şuşa əhalisinin etnik tərkibi (1970-ci il)**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa rayonu | 13.664 (100%) | 9.890 (72,4%) | 3.577 (26,2%) | 197 (1,4%) |
| Şuşa şəhər | 8.693 (100%) | 6.974 (80,2%) | 1.540 (17,7%) | 179 (2,1%) |
| Şuşa kənd | 4.971 (100%) | 2.916 (58,7 %) | 2.037 (41,0%) | 18 (0,3%) |

**Cədvəl 9**

**Şuşa əhalisinin etnik tərkibi (1979-cu il**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa rayonu | 16.019 (100%) | 12.955 (80,9%) | 2.881 (18%) | 183 (1,1%) |
| Şuşa şəhər | 10.784 (100%) | 9.216 (85,5%) | 1.409 (13%) | 159 (1,5%) |
| Şuşa kənd | 5.235 (100%) | 3.739 (71,4%) | 1.472 (28,1%) | 24 (0,5 %) |

**Cədvəl 10**

**Şuşa əhalisinin etnik tərkibi (1989-cu il)**

| | Cəmi | Azərbaycanlılar | Ermənilər | Digər |
|---|---|---|---|---|
| Şuşa şəhər | 20.374 (100%) | 18.679 (91,7%) | 1.430 (7,0%) | 265 (1,3%) |

***Mənbə:*** *1. РГАЭ, ф.1562, оп.336, д.999, 1244, 1566-д, 1567, 5925, 6282, 7879. 2. РГАЭ, ф.1562, оп.338, ч.1, д.573, 3. РГАЭ, ф.1562, оп.338, ч.2, д.331, 4. РГАЭ, ф.1562, оп.338,ч.3, д.486, 5.Свод статистических данных о населении Закавказского края, извлеченных из* поселейных списков 1886 г., г. Тифлис, 1893 г.*, 6. Первая всеобщая перепись населения Российской империи 1897 г.* Елизоветпольская губерния. СПб., 1904.*, 7.* Всесоюзная перепись населения 1926 г.,Т.*14, Закавказская СФСР, г. Москва, 1929 г., 8.*Этнодемография Кавказа. Население Шушинского района по переписи *1939, 1959, 1970, 1979, 1989 г.*

Azərbaycanın digər şəhərlərində olduğu kimi, Şuşada da əhalinin sosial tərkibi müxtəlifliyi ilə seçilirdi. Belə ki, şəhərdə xan nəslinə mənsub ailələrlə yanaşı, bəylərin, dövlət məmurlarının, din xadimlərinin, tacirlərin, sənətkarların, hərbiçilərin, müəllimlərin, tibb işçilərinin və başqalarının ailələri məskunlaşmışdı. 1830-cu ilin məlumatına görə Şuşada 56 nəfər bəy, 64 nəfər müsəlman ruhanisi, 21 nəfər xristian din xadimi, 200 nəfər tacir, 266 nəfər isə sənətkar yaşayırdı [15,səh. 53]. **(cədvəl 11)**.

**Cədvəl 11**

**Şuşa əhalisinin sosial tərkibi (1830-cu il)**

| Bəy | Müsəlman ruhani | Xristian din xadimi | Tacir | Sənətkar |
|---|---|---|---|---|
| 56 nəfər | 64 nəfər | 21 nəfər | 200 nəfər | 266 nəfər |

1897-ci ildə keçirilmiş Ümumrusiya siyahıyaalınmasına görə, Şuşa şəhərində 2.272 nəfər zadəgan, 270 nəfər din xadimi, 1.416 nəfər tacir, 2.738 nəfər sənətkar, 97 nəfər dövlət məmuru, 334 nəfər hərbçi, 121 nəfər müəllim və tərbiyəçi, 40 nəfər səhiyyə işçisi və 200 nəfər isə daimi işçi qeydə alınmışdı [15,səh. 53] **(cədvəl 12)** .

**Cədvəl 12**

**Şuşa əhalisinin sosial tərkibi (1897-ci il)**

| Zadəgan | Din xadimi | Dövlət məmuru | Hərbçi | Tacir | Sənətkar | Müəl-m, tərbiyəçi | Səh. işçisi | Daimi işçi |
|---|---|---|---|---|---|---|---|---|
| 2.272 nəfər | 270 nəfər | 97 nəfər | 334 nəfər | 1.416 nəfər | 2.738 nəfər | 121 nəfər | 40 nəfər | 200 nəfər |

Şuşa əhalisinin sosial tərkibi ilə bağlı cədvəlləri nəzərdən keçirərkən 1830-cu ilə nisbətən, 1897-ci ildə sənətkarların sayının 10, tacirlərin sayının isə 7,5 dəfə çox olduğunu görürük [15,səh. 54]. Əhalinin məşğulluq növünü xarakterizə edərkən isə daha çox hissəsinin sənətkarlıq və ticarətlə məşğul olduğu qənaətinə gəlirik. Həmçinin onu da vurğulayaq ki, Şuşa əhalisi demək olar ki, kənd təsərrüfatı ilə məşğul olmayıb. Şəhərin lap əvvəldən sənətkarlıq və ticarət şəhəri kimi inkişaf etdiyinin şahidi oluruq.

Beləliklə, Şuşa şəhərinin əhalisinin sayı, etnik və sosial tərkibini araşdırarkən belə nəticəyə gəlirik: Araşdırma dövründə yalnız 1926-cı ildə keçirilmiş siyahıyaalma zamanı şəhərin əhalisinin sayında (5.104 nəfər) kəskin azalma baş vermişdir ki, bu azalma 1920-ci ildə Azərbaycanda sovet hakimiyyətinin qurulması ilə Qarabağda, o cümlədən, Şuşada bölgənin azərbaycanlı əhalisinə qarşı, soyqırım və deportasiya siyasəti həyata keçirilməsi, həmçinin, şəhərin inzibati statusunun bir neçə dəfə dəyişdirilməsi ilə əlaqədar olmuşdu.

Araşdırma zamanı Şuşa əhalisinin etnik tərkibindəki dəyişikliyə - yəni ermənilərin sayının çoxluğuna XIX əsrin sonlarında keçirilmiş 1886-cı il ailə və 1897-ci il Ümumrusiya siyahıyaalınmaları zamanı rast gəlirik (1886-cı ildə 26.806 nəfər ümumi əhalinin 15.188 nəfəri, 1897-ci ildə isə 25.881 nəfər ümumi əhalinin 14.420 nəfəri ermənilər olub). Bu çoxalmanı isə Rusiyanın Cənubi Qafqazda mövqelərini möhkəmləndirmək məqsədilə 1828-ci il Türkmənçay və 1829-cu il Ədirnə müqavilələrindən dərhal sonra tarixi Azərbaycan torpağı - Qarabağa İrandan 40 min nəfər, Türkiyədən isə 84 min nəfər erməninin köçürülməsi ilə izah etmək olar.

Əhalinin sosial tərkibi araşdırılan zaman isə şəhərdə xan nəslinə mənsub ailələrlə yanaşı, bəylərin, dövlət məmurlarının, din xadimlərinin, tacirlərin, sənətkarların, hərbçilərin, müəllimlərin, tibb işçilərinin və başqalarının ailələrinin məskunlaşdığının şahidi oluruq ki, bu da Şuşa əhalisinin sosial tərkibinin müxtəlifliyini göstərirdi.

**Şuşa şəhərinin inzibati statusu barədə**

Şuşa qala şəhəri- 1752-1822-ci illərdə Qarabağ xanlığının mərkəzi şəhəri olmuşdur.

1822-1840-cı illər-Qarabağ əyalətinin mərkəzi şəhəri.

1840-cı il. Şuşa qəzası yaradılmış və 1841-ci il yanvarın 1-də təsis edilmiş Kaspi vilayətinin tərkibinə daxil edilmişdir.

Şuşa qəzası 4911 kv.km. əraziyə malik olmaqla- Miğri, Kəbirli, Zəngəzur, Cavanşir, Çilabert və Vərəndə məntəqələrinə bölünürdü

1843-cü il, 21 may. Şuşa şəhərinin gerbi təsdiq olunmuşdur.

1846-cı il. Kaspi vilayəti ləğv edilmiş, Şuşa qəzası yeni yaradılan Şamaxı quberniyasının (1959-cu ildən Bakı quberniyasının) tərkibinə daxil edilmişdir.

1867-ci il. Yelizavetpol (Gəncə) quberniyası yaradılmış və Şuşa qəzası onun tərkibinə daxil edilmişdir.

1883-cü il. Şuşa qəzasının ərazisində üç yeni qəza – Zəngəzur, Cavanşir və Cəbrayıl (Qaryagin) qəzaları yaradılmışdır.

1919-cu il, 15 yanvar. Şuşa qəzası Azərbaycan Xalq Cümhuriyyəti tərəfindən müvəqqəti yaradılmış Qarabağ general-qubernatorluğuna daxil edilmişdir.

1921-ci il 5 iyul .PK(b)P MK Qafqaz bürosu plenumunun qərarı ilə Şuşa yeni yaradılmış Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi kimi müəyyənləşdirildi.

1923-cü il. Azərbaycan Mərkəzi İcraiyyə Komitəsinin 7 iyul tarixli dekreti ilə Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmış, Şuşa qəzasının bir hissəsi onun tərkibinə daxil edilmişdir.

1923-cü il 16 iyul. Şuşa AK(b)P MK Riyasət Heyətinin iclasının xüsusi qərarı ilə Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil edilmiş, şəhər eyniadlı rayonun və 12 kənddən ibarət Malıbəyli volostunun mərkəzinə çevrilmişdir.

1924-cü il 26 noyabr. Şuşa qəzasından Şuşa (o cümlədən Xankəndi, Cavanşir qəzasından 62 kənd, Qaryagin qəzasından 30 kənd, Qubadlı qəzasından isə Qaladərəsi kəndi DQMV-nin tərkibinə daxil edilmişdir)

1929-cu il. Şuşa qəzası rayonlaşma ilə əlaqədar ləğv olunmuşdur.

1930-cu il 08 avqust. Şuşa rayonu yaradılmışdır.

1963-cü il, 04 yanvar. Şuşa rayonu ləğv edilərək Stepanakert (Xankəndi) rayonunun tərkibinə daxil edilmişdir.

1965-ci il, 6 yanvar. Şuşa rayonunun statusu bərpa edilmişdir.

1992-ci il, 8 may. Şuşa şəhəri hərbi təcavüz nəticəsində Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilmişdir.

2020-ci il, 08 noyabr. 44 günlük Vətən müharibəsi nəticəsində rəşadətli Azərbaycan Ordusu Şuşa şəhərini erməni təcavüzkarlarından azad etmişdir.

2021-ci il, 07 may. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı elan edilmişdir.

2022-ci il, 05 yanvar. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə "Şuşa İli" elan edilmişdir.

**Açar sözlər:** *Qarabağ, Şuşa, əhali, siyahıyaalma, etnik tərkib, say dinamikası.*

## ƏDƏBİYYAT SİYAHISI:

***Azərbaycan dilində***

*1.Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1805-ci illər siyasi vəziyyətinə dair. Qarabağnamələr. I kitab, Bakı, 1989.*

*2.Həsən İxfa Əlizadə. Şuşa şəhərinin tarixi. Qarabağnamələr. II kitab, Bakı, 1991.*

*3.Həsənəli Qarabaği. "Qarabağ vilayətinin qədim və cədid keyfiyyət övzaları". Qarabağnamələr. II kitab, Bakı, 1991.*

*4.Hüseynov Y.R. Şuşa şəhərinin tarixi. Bakı, Şuşa nəşriyyatı, 2013, 156 s.*

*5.Mahmudov Y.M., Mustafayev C. Şuşa-Pənahabad. Bakı, 2012, 152 s.*

*6.Mahmudov Y. Şükürov K. Qarabağ. Real tarix, faktlar və sənədlər. Bakı, 2005*

*7.Mirzə Adıgözəl bəy. Qarabağnamə. Qarabağnamələr. I kitab, Bakı, 1989.*

*8.Mirzə Camal bəy Cavanşir Qarabaği. Qarabağ tarixi. Qarabağnamələr. I kitab,Bakı,1989.*

*9.Mustafayev C. Şuşa-qədim Azərbaycan diyarı. Bakı- 2009,*

*10.Mustafayev M. Qarabağ xanlığının iqtisadiyyatı. Berlin, 1949.*

*11.Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri. Qarabağnamələr. II kitab, Bakı, 2006, 288 s.*

***Rus dilində***

*12.Этнодемография Кавказа. Население Шушинского района по переписи 1939, 1959, 1970, 1979, 1989 г.*

*13.Описание Карабахской провинции, составленное в 1823 году по распоряжению главнокомандующего в Грузии Ермолова. Тбилиси, 1866.*

*14.Первая всеобщая перепись населения Российской империи 1897 г. Елизоветпольская губерния. СПб., 1904.*

*15.Садыхова Г.Н. История города Шуши: XIX-начало XX вв. Баку, Нурлан, 2004 г. 166 с.*

*16.Свод статистических данных о населении Закавказского края, извлеченных из поселейных списков 1886 г., г. Тифлис, 1893 г.*

*17.Шавров Н.Н. Новая угроза русскому делу в Закавказье: предстоящая распродажа Мугани иногородцам СПб.,1991.*

*18.Всесоюзная перепись населения 1926 г.,Т.14, Закавказская СФСР, г. Москва, 1929 г.*

## SUMMARY
## THE POPULATION OF SHUSHA: NUMBER DYNAMICS, ETHNIC AND SOCIAL COMPOSITION

The article covers information about the construction of the Bayat fortress in 1748, the Shahbulag fortress in 1751-1752, the foundation of the Shusha fortress in 1752, the completion of its construction in 1754, and the moving of the capital city of Karabakh khanate to Panahabad - Shusha in 1756. The article considers the numerical dynamics, and ethnic and social composition of the population, including information that all 162 families living in the Tabrizli estate of the city consist of Azerbaijanis during the chamber census conducted by Russian officials in 1823. This justifies the fact that the names of the estates of the city were written in the Azerbaijani-Turkic language, proving once again that the indigenous population of Shusha consisted only of Turkic-Azerbaijani people.

**Keywords:** *Karabakh, Shusha, population, census, ethnic composition, number dynamics.*

UOT 94(479.24)

# AZƏRBAYCAN RESPUBLİKASINDAN YÜKSƏK İXTİSASLI MÜTƏXƏSSİSLƏRİN (BEYİN AXININDA) MİQRASİYASINDA DİASPOR AMİLİ

**YƏHYA BABANLI**
*AMEA A.A. Bakıxanov adına Tarix İnstitutunun doktorantı, tarix üzrə fəlsəfə doktoru*

*E-mail: y_babanli@yahoo.com*

## Giriş

Vətəndən kənarda, milli məsələlərdə insan cəmiyyətinin özünüdərk və özünütəsdiqində diaspor amilinin yeri və rolu mühüm xarakter daşıyır. Məhz miqrasiya prosesləri nəticəsində etnososial və etnomədəni institutlardan biri kimi diaspor yaranır. Bəşəriyyətin inkişafının hələ ta qədim dövrlərindən insanların coğrafi yerdəyişməsi - miqrasiya etməsi mövcuddur. Lakin bəşəriyyətin təkamülünün müxtəlif mərhələlərində onun forması, məzmunu, intensivliyi və miqyası fərqli olmuşdur. Belə ki, qədim zamanlarda miqrasiya prosesləri daha çox geosiyasi (məcburi) xarakter daşıyırdısa, hazırda daha çox geoiqtisadi (könüllü) təmayülə malikdir.

Qeyd edək ki, siyasi məzmunlu lüğətlərdə "miqrasiya" latın sözü olub "migratio", "migro" - keçirəm, köçürəm mənalarını verir. Bu termin dörd mənanı ifadə edir. Birinci mənada yaşayış yerinin dəyişilməsi ilə əlaqədar insanların bir ərazidən digər əraziyə köçməsi, orada məskunlaşması, işləməsi, ikinci mənada yaşayış şəraitinin, yaxud inkişaf silkinin dəyişməsi ilə əlaqədar canlı orqanizmlərin yerdəyişməsi, üçüncü mənada yer qabığında və səthində kimyəvi elementlərin paylanması və yerlərini dəyişməsi, elektromaqnit qarşılıqlı təsir nəticəsində enerjinin bir hissəcikdən digərinə özbaşına keçməsi; dördüncü mənada kapitalın ixracı kimi başa düşülərək beynəlxalq məzmun daşıyır [1].

Tarixdən məlumdur ki, "Xalqların böyük köçü" planetin konfiqurasiyasına təsir etməklə Avropa və Asiya əhalisinin formalaşmasına və cəmiyyətin inkişafına güclü təsir göstərmişdir. Bəşəriyyətə xas olan bütün proseslər kimi miqrasiya məsələləri də cəmiyyətin sosial strukturuna təsir edir, lokal və qlobal məsələlərdə özünü açıq-aşkar göstərir. Əhalinin miqrasiyası dünyanın istənilən regionunun sosial-iqtisadi vəziyyəti ilə sıx bağlıdır. Ona görə də bu məsələnin hər bir dövlətin milli maraqları, miqrasiya qanunları ilə tənzimlənməsi son dərəcə vacibdir. Vətəndən kənar yad ölkəyə miqrasiya etmiş insan iradəsindən asılı olmayaraq müxtəlif mədəniyyətlərlə ünsiyyətdə olduğundan, akkulturasiya (mədəniyyətini dəyişmə) prosesinə cəlb olunur. Şəxsiyyət səviyyəsində əxlaqi keyfiyyət və xüsusiyyətlərlə bağlı düşünülmüş və düşünülməmiş dəyişikliklər baş verir. Hər bir azlığın və mühacirin ayrılıqda akkulturassiya prosesinin 4 yolu var: assimilyasiya, separasiya, marqinalizasiya və inteqrasiya:

Assimilyasiya - (həllolma). Öz mədəniyyətini rədd edib, çoxluğun mədəniyyətinə yiyələnmək deməkdir (doğma dilini itirmək və hakim dilə keçmək);

Separasiya - (izoləolunma). Bu zaman azlığın nümayəndələri çoxluğun mədəniyyəti ilə ünsiyyətdən qaçır, öz mədəniyyətlərini qoruyub saxlamağa çalışırlar (assimliyasiyanın əksidir);

Marqinalizasiya - (rəddetmə). Bu, öz mədəniyyətini rədd etməklə yanaşı, çoxluğun da mədəniyyətini - yeni mədəniyyəti qəbul etməməkdir (Akkulturasiyanın ən problemli variantıdır);

İnteqrasiya - (birləşmə). Müasir Avropada immiqrantların məqsədinə əsasən xidmət edən variantdır. (Finlandiyada bu "kotoutuminen" termininə uyğun gəlir).

Birinci yol kimi immiqrant assimilyasiyaya məruz qalır. Latınca "assimilate" uyğunlaşma, oxşatma sözündən əmələ gələn assimilyasiya hər xalqın öz daxilini, mədəniyyətini, milli şüurunu, dilini, dinini itirərək başqa xalqa qarışmasına deyilir. Diasporun həyatında assimilyasiya başlıca rol oynayır. Həlledici əhəmiyyətə malik olan assimilyasiya prosesi etnik qrup və ya xalqın adaptasiya və məşğulluq tempini nizamlayır. Assimilyasiya prosesinin öyrənilməsi əsasən qarışıq nigah barədə statistik göstəricilərdə diasporların say dinamikası və onların tarixi əhəmiyyətinə bağlılığı ilə həyata keçirilir [2].

Diaspor tədqiqatçılarının bəzilərinin fikrincə, assimilyasiya bir siyasət kimi iri dövlətlər tərəfindən azsaylı xalq və ya etnik qruplara qarşı yeridilən əsas vasitədir ki, dövlət bununla öz milli və dini maraqlarını təmin etmiş olur. "Kiçik və azsaylı xalq və etnik qruplar üçün qanun xarakteri daşıyan assimilyasiya prosesi iki tərəfli xarakterə malikdir. Burada assimilyasiya edən xalqla assimilyasiya olunan xalqlar və ya etnik qrupların milli və tarixi spesifik xüsusiyyətlərindən çox şey asılıdır. Elə etnik qrup və xalqlar var ki, sayca çoxluq təşkil etmələrinə baxmayaraq tarixi, mə-

dəni, dini xüsusiyyətlərinə görə onları assimilyasiya etmək qeyri-mümkündür. Yəhudi və çinlilər çətin assimilyasiya olunan xalqlardan hesab olunur ki, onların diasporları əksinə onlar məskunlaşdıqları ölkələrdə assimilyasiya siyasəti yeritmək iqtidarındadırlar" [3].

Bəzən azlıqlar çoxluğun mədəniyyətindən qaçaraq öz mədəniyyətlərini qoruyub saxlamağa çalışırlar ki, bu proses izoləolunma, yəni separasiya prosesi adlanır. Bu proses məzmunundan da göründüyü kimi, assimilyasiyanın tam əksi hesab olunur. Digər bir proses marqinalizasiya adlanır. Belə ki, bir sıra azlıqlar öz mədəniyyətləri ilə yanaşı, hakim mədəniyyəti də qəbul etməyib rədd edirlər və özlərinə spesifik mədəniyyət qəbul edirlər. Bu rəddetmə müasir dövrdə akkulturasiyanın ən problemli tərəfi kimi özünü büruzə verir. Akkulturasiyanın ən müasir və təqdir olunan forması inteqrasiya prosesidir. Bu proses imkan verir ki, eyni zamanda hər hansısa bir şəxs həm öz milli özünəməxsusluğunu, adət-ənənələrinin özəlliklərini qoruyub saxlasın, həm də çoxluğun milli mentalitetinə, mədəniyyətinə uyğunlaşsın. Bütün bunlar isə mədəniyyətlərin qovuşmasına və yeni sivilizasiyaların yaranmasına gətirib çıxardır.

Göstərildiyi kimi beynəlxalq və ya dövlət daxilindəki inzibati sərhədləri keçməklə baş verən yerdəyişmə, köçmə miqrasiya prosesi adlanır. Yeni yurd saldığı yerdə 6 aydan çox yaşamış şəxs miqrasiya etmiş hesab olunur. Hər bir dövlətin bu prosesi milli maraqlarına uyğun müvafiq qanunvericiliklə tənzimləməsi vacib məsələdir. Bu bəşəri prosesin genişlənməsi müxtəlif səbəblərlə bağlıdır. Bunlar, etnik-mədəni, sosial-iqtisadi, ictimai-siyasi və dini məqamlarla bağlı məcburi və könüllü səciyyə daşıyır. Məsələn, etnik miqrasiyanı məcburi prosesə aid etmək olar. Ona görə ki, insanlar etnik mənsubiyyətinə görə bu prosesə məcburi qatılırlar. Ötən əsrdə Ermənistan ərazisindən azərbaycanlıların mərhələli şəkildə deportasiya olunması, xüsusən də, 1988-1992-ci illərdə Ermənistanın planlı şəkildə həyata keçirdiyi etnik təmizləmə siyasəti nəticəsində tarixən həmin ərazidə yaşamış 250 min azərbaycanlının son nəfərədək öz doğma yurdlarından zorla qovularaq Azərbaycana pənah gətirməsi bunun bariz nümunəsidir. Eyni zamanda, əvvəllər Gürcüstandan qovularaq Orta Asiya respublikalarında yerləşdirilmiş, 1990-cı ildə orada baş vermiş milli münaqişə zəminində didərgin salınmış 50 min məhsəti türkü də, ölkəmizdə sığınacaq tapmışdır. Hər iki fakt etnik - məcburi miqrasiyanın bariz təzahürüdür. O cümlədən, Ermənistan silahlı qüvvələrinin hərbi təcavüzü nəticəsində Azərbaycan torpaqlarının 20% işğal olunması və işğal təhlükəsi 800 min nəfərə yaxın insanı öz ev-eşiyindən didərgin düşməyə vadar etmişdir [2].

Bu məcburi daxili və xarici miqrasiyanın nəticəsi olaraq Azərbaycan dünyanın ən çox qaçqın və məcburi köçkün olan ölkəsinə çevrildi. Bununla yanaşı qeyd etmək lazımdır ki, miqrasiya prosesi özündə mənfi cəhətlərlə yanaşı, müsbət tərəfləri də birləşdirir. Bura yeni sosial münasibətlərin, mədəniyyətlərin formalaşması, sivilizasiyaların, əlaqələrin yaranması və digər amillər daxildir. Bu sahənin tədqiqatçıları, analitikləri miqrasiyanı daha çox iqtisadi amillə bağlayırlar və bunu əsaslandırmağa çalışırlar. Beynəlxalq aləmdə miqrasiya proseslərindən təcrübədə məqsədyönlü istifadə olunmasında Amerika modeli özünü doğrultmuşdur. Məhz ABŞ-ın milyonlarla immiqranta qucaq açması cəmiyyətin və dövlətin inkişafına təkan verməklə qüdrətli dövlət statusu qazanmasına rəvac verdi. Bu gün miqrant axını nəticəsində bir neçə beynəlxalq əmək bazarı formalaşmışdır ki, bunlar Yaxın Şərq, Qərbi Avropa və ABŞ-dır. Miqrasiyanın əhəmiyyəti və iqtisadi səmərəliliyi dünya və beynəlxalq təşkilatlar səviyyəsində də dərk edilir. Bu sahədə bəşəri inkişafa və beynəlxalq münasibətlərin yaxşılaşdırılmasına nail olmaq məqsədilə, 1951-ci ildə Beynəlxalq Miqrasiya Təşkilatının əsası qoyulmuşdur. BMT-nin Baş Assambleyası tərəfindən 18 dekabr 1990-cı ildə "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsi haqqında" Beynəlxalq Konvensiyası qəbul olunmuşdur. Daha sonra, bu tarix 4 dekabr 2000-ci ildə Baş Assambleya tərəfindən Beynəlxalq Miqrant Günü elan edilmişdir. Hazırda hər ilin 18 dekabr tarixi - Beynəlxalq Miqrant Günü kimi qeyd edilir [4].

Azərbaycan Respublikasında da bu gün rəsmi qeyd edilir və müxtəlif tədbirlər keçirilir. Bütün bunlar bir daha bu sahənin prioritetliyini özündə əks etdirir. Azərbaycan miqrasiya prosesləri yaxın keçmişdə özünəməxsus tarixi yol keçmişdir. Bu tarixi beş dövrə bölmək olar:

Birinci dövr - 1900-1920-ci illər (inqilabdan əvvəlki milli oyanış dövrü). Bu dövrdə əsasən təhsil almaq məqsədilə xaricə üz tutanları misal göstərmək olar. Onlar Avropanın müxtəlif ali məktəblərində təhsil alaraq milli dövlətçiliyin, Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasında müstəsna xidmət göstərən şəxslərdir.

İkinci dövr - 1920-1930-cu illər (inqilabdan sonrakı mühacirət dövrü). Bu dövrdə yüzlərlə azərbay-

canlı dünyanın müxtəlif yerlərinə, Türkiyə, Almaniya, Fransa və başqa ölkələrə miqrasiya etmişdir. Bura ictimai-siyasi xadimlər, tanınmış ziyalılar, nüfuzlu elm adamları, eyni zamanda, əhalinin orta təbəqəsinin nümayəndələri daxil idi.

Üçüncü dövr - 1930-1950-ci illər (repressiya və İkinci Dünya müharibəsi dövrü). Bu dövrdə məcburi miqrasiya edən insanlar arasında şairlər və yazıçılar, mədəniyyət və incəsənət xadimləri, başqa bir çox tanınmış ziyalılar olmuşdur. Onların sırasında müvafiq peşə sahibləri, habelə hərbçilər - bir sözlə, əksər sosial təbəqələrin nümayəndələri var idi.

Dördüncü dövr - 1970-1985-ci illər (durğunluq və yenidənqurma dövrü). Bu çox əhəmiyyətli və həddindən artıq diqqətdə olan dövrdür, müstəqilliyə aparan yoldur. Bu vaxt miqrasiya düzgün istiqamət alaraq əsasən insan kapitalının artırılması istiqamətinə yönəlmişdi. Belə ki, əsasən lazımi təhsil almaq, elmi-təhsil və ixtisas səviyyəsini yüksəltmək, işləmək və ölkəni təmsil etmək üçün SSRİ-nin müxtəlif mərkəzlərinə üz tutanlar əksəriyyət təşkil edirdi.

Nəhayət, beşinçi dövr kimi 90-ci illəri götürə bilərik. Bu dövr SSRİ-nin parçalanması ilə milli dövlətlərin təzahürü nəticəsində yaranmış sosial-siyasi-iqtisadi vəziyyətlə sıx bağlılıq təşkil etmişdir. Ona görə də, 1990-cı illərin əvvəllərində mövcud durumla əlaqədar xarici ölkələrə əsasən yüksək ixtisaslı mütəxəssislər və iş adamları köçməyə başlamışdır.

1991-ci ilin oktyabrında suverenliyini bəyan edən Azərbaycan Respublikası üçün sadalanan amillər narahatlıq doğurmaya bilməzdi, çünki miqrasiya demoqrafik problemlə yanaşı, eyni zamanda, bu proses xüsusi istedada, biliyə, bacarığa, peşəyə malik şəxslərin emiqrasiyasına səbəb olur ki, nəticədə milli genofondun zədələnməsi təhlükəsi yaranırdı. Bütün bunlar nəzərə alınaraq müstəqilliyin ilk illərindən başlayaraq, Azərbaycan Respublikasının miqrasiya məsələlərinin tənzimlənməsilə bağlı qanunvericilik bazası yaradıldı. Bu sahə ilə məşğul olan bir sıra beynəlxalq təşkilatlarla, o cümlədən, Beynəlxalq Miqrasiya Təşkilatı ilə əməkdaşlıq edilməyə başlanıldı və 2001-ci ilin iyun ayında Azərbaycan Respublikası həmin təşkilata tam hüquqlu üzv qəbul edildi. Sözügedən təşkilatın Bakı, Naxçıvan ofisi yaradıldı. Daha sonra isə əlaqələr daha da genişləndirilərək təşkilatın Mingəçevir ofisi açıldı. Bütün bunlar beynəlxalq hüquqi normalar əsasında milli maraqlar nəzərə alınmaqla, dövlət miqrasiya strategiyası hazırlanması üçün geniş imkanlar açdı. Bununla, milli miqrasiya siyasəti formalaşdırıldı və bu sahə ilə bağlı bir sıra proqramlar təsdiq edilərək həyata keçirilməyə başlanıldı.

Hazırda ölkədən mühacirət edənlər Azərbaycanın diaspor potensialının yaranmasına, öz tarixi-etnik torpaqlarından kənarda yaşayaraq öz etnik kimliyini qoruyub saxlayan, milli şüurunu, adət-ənənələrini, məişətini, mədəniyyətini və dilini qoruyan, inkişaf və təbliğ edən missionerlərə çevrilirlər. Yəni, bir vaxtlar həmyerlilərimiz ağır sosial-iqtisadi vəziyyətə görə ölkədən köç etməyə məcbur olurdusa, indi onlar təhsil almağa, sərmayə yatırmağa, nüfuzlu beynəlxalq təşkilatlarda işləməyə və başqa müsbət məqsədlər üçün xaricə üz tuturlar.

**Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan alimlərinin ölkələr üzrə paylanması**

**Cədvəl 1.**




Azərbaycan Respublikasında miqrasiya məsələləri ilə bağlı Dövlət Statistika Komitəsinin 2010-cu ildə "Miqrasiya proseslərinin öyrənilməsinə dair" dövlət sərhəd-buraxılış məntəqələrində bütövlükdə 15 min miqrantı əhatə etməklə seçmə statistik təhlilləri böyük maraq doğurur. DSK-nın məlumatına görə, statistik müayinənin keçirilməsində əsas məqsəd ölkədə miqrasiya proseslərinin vəziyyətinin öyrənilməsindən, miqrasiya axınları haqqında statistik məlumatların dəqiqləşdirilməsi və onun istiqamətlərinin, eləcə də səbəblərinin müəyyənləşdirilməsindən ibarətdir. Statistik müayinə ilə əhatə olunmuş miqrantların "7501 nəfəri ölkəyə gələnlər, 7499 nəfəri isə ölkədən gedənlər olub, gələnlərin 66,2%-ni, gedənlərin isə 66,8%-ni kişilər təşkil edib. Müayinənin nəticələrinə görə, ölkəyə gələnlərin 47,6%-i, gedənlərin isə 27,6%-i öz evinə qayıdanlar, müvafiq olaraq 18,1%-i və 15,5%-i qonaq, 7,5%-i və 10,4%-i turist kimi, 7,2%-i və 16,3%-i işləməyə, 6,9%-i və 6,3%-i xidməti və işgüzar ezamiyyətə

gələnlər və gedənlərdir. İşləməyə gələnlərin 73%-i, gedənlərin 80%-i haqqı ödənilən əmək fəaliyyəti ilə, qalanları isə sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlər olub. Azərbaycandan işləməyə gedənlərin sayı ölkəyə işləməyə gələnlərin sayından 2,2 dəfə, müalicəyə gedənlərin sayı gələnlərdən 2,8 dəfə, oxumağa gedənlərin sayı gələnlərdən 63,6%, turist kimi ölkədən gedənlərin sayı ölkəyə gələnlərdən 38,4% çox, gələnlərin tərkibində evə qayıdanların sayı gedənlərin sayından 72,5%, qonaq gələnlərin sayı qonaq gedənlərin sayından 16,7% çox olub. Oxumağa gedən 18-29 yaşlı gənclərin sayı ölkəyə gələnlərdən 68%, 50 və yuxarı yaşlılar arasında müalicəyə gedənlərin sayı gələnlərin sayından 2,8 dəfə çox olub" [5].

Bu, Azərbaycanda müsbət miqrasiya saldosunun göstəricisidir.

XXI əsrin mütəxəssislər tərəfindən total miqrasiya əsri adlandırılması, bu sahədə baş verən proseslərə yeni yanaşmanı və müasir dövrün tələblərinə cavab verən mexanizmləri tətbiq etməyi şərtləndirir. Bu gün Azərbaycan Respublikasında müəyyənləşdirilən və həyata keçirilən miqrasiya siyasəti dövlət müstəqilliyinin möhkəmləndirilməsinə, milli maraqların təmin olunmasına və ölkəmizin sosial-iqtisadi tərəqqisinə, xalqımızın sosial-rifah halının yüksəlməsinə və respublikamızın beynəlxalq aləmə sürətli inteqrasiya edərək nüfuzunun güclənməsinə xidmət edir.

**Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan alimlərinin elm sahələri üzrə paylanması**

**Cədvəl 2.**




Belə ki, ötən dövr ərzində Azərbaycanda milli miqrasiya siyasətinin formalaşdırılması, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsi istiqamətində xeyli işlər görülmüş, bu sahədə dövlət nəzarətinin gücləndirilməsi məqsədi ilə zəruri normativ hüquqi aktlar qəbul edilmiş, bir sıra fərman və sərəncamlar imzalanmışdır. Eyni zamanda, ikitərəfli və çoxtərəfli əməkdaşlıq inkişaf etdirilir, dövlət orqanları və qeyri-hökumət təşkilatları ilə birgə səmərəli fəaliyyət mexanizmi yaradılmışdır. Əcnəbilərin ölkəyə gəlməsi və ölkədən getməsi, onların yaşayış yeri üzrə qeydiyyatı sahəsində göstərilən xidmətlərin səviyyəsinin yaxşılaşdırılması, bu sahənin təkmilləşdirilməsi üçün institusional və təşkilati tədbirlər reallaşdırılmış, elektron informasiya resursları formalaşdırılmışdır.

**Xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan alimlərinin cinsi mənsubiyyəti üzrə paylanması**

**Cədvəl 3.**




Miqrasiya sahəsində atılan ən mühüm və strateji addımlardan biri, bu sahəyə dövlət tərəfindən göstərilən diqqət və qayğının bariz təzahürü 2007-ci ildə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərmanı ilə mərkəzi icra hakimiyyəti orqanının - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılmasıdır. Bu qurumun yaradılması ilə Azərbaycan Respublikasının milli təhlükəsizliyinin və sabit sosial-iqtisadi inkişafının, demoqrafik vəziyyətinin təşkilində və əmək ehtiyatlarından səmərəli istifadə olunmasında, eyni zamanda, ölkə ərazisində əhalinin mütənasib yerləşdirilməsində, miqrantların intellektual və əmək potensialından istifadə edilməsində, insan alveri də daxil olmaqla, qeyri-qanuni miqrasiyanın qarşısının alınmasında mühüm irəliləyişlər əldə etmişdir. Bütün bunlar isə kortəbbi miqrasiyanın qarşısını almaqla bu proseslərin qanunauyğun şəkildə istiqamətləndirilməsinə imkan verdi. Bu

sahədə görülən işlər, ölkənin sosial-iqtisadi inkişafı, miqrasiya proseslərinin ölkənin milli maraqlarına uyğun nizamlanması sağlam diaspor potensialının yaranmasına yol açdı. Belə ki, diplomatik uğurlar, xaricdə təhsil proqramı, investisiya proqramları da buna xidmət edir desək, yanılmarıq.

Bununla belə, bir nəticə hasil olur ki, miqrasiya diaspor potensialının yaranmasında başlıca şərtdir. Bir sözlə, miqrasiya proses kimi, diaspor isə bu prosesin nəticəsi kimi özünü göstərir. Bir vaxtlar miqrasiya etmiş şəxslər sonradan diaspor şəklində milli və bəşəri münasibətlərin inkişafında etnik qrupun xüsusi amili kimi iştirak edirlər. Bununla bərabər diaspor mədəniyyətin ənənəvi obyektindən hüququn və siyasətin subyektinə çevrilməsinə çalışaraq öz funksiyasını genişləndirir və dərinləşdirir. Təsadüfi deyil ki, bir çox tədqiqatçılar diaspor və miqrasiya məfhumunu eyniləşdirirlər. Məsələn, V. Tişkova görə "Diaspor əsasən ölkənin donorluğu hesabına yaranır, ölkədən çıxış yoxdursa, diaspor da yoxdur". Onu da qeyd edir ki, "diaspor hər şeydən əvvəl siyasi, eyni zamanda sosial miqrasiyadır. Diasporun yaranmasının açarı isə etnik icma deyil, milli dövlətdir" [4].

Hətta bir çox tədqiqatçılar diasporla miqrasiyanın eyni məna daşıdığını qeyd edir. Q. Şefferə görə "diaspor etnik qrupların könüllü və ya məcburi miqrasiya prosesləri nəticəsində ortaya çıxır. Onlar muhacirət etdikləri ölkələrdə milli azlıq statusunda yaşayırlar, etnik və etno-dini mənsubiyyətlərini, qrup daxili həmrəyliklərini mühafizə edirlər". Diaspora J.T. Toşenka və T.İ. Capitkovu verdiyi təriflər Şefferin tərifinə yaxındır. Onlara görə diaspora anlayışı "miqrasiya" və "milli azlıqlar" sözləri ilə sinonimlik təşkil etməklə, diaspor öz tarixi vətənlərindən kənarda yaşayan, mövcud cəmiyyətdə fəaliyyət göstərmək və inkişaf etmək üçün müvafiq sosial institutlara sahib, eyni etnik qrupa aid insanlardan ibarətdir [6].

Hazırda dünyada istər miqrasiya, istərsə də diaspor məsələləri prioritet təşkil etməklə milli və bəşəri proseslərə təsir edən vacib elementlərdən biri hesab olunur. Bu amillər beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli münasibətlərin qurulmasında əsas bağlayıcı həlqə rolunu oynamaqla dövlətlərin xarici siyasət strategiyalarının vacib elementlərindən biri hesab edilir. Qeyd edək ki, t.ü.e.d. M.Seyidbəylinin "Rusiyada Azərbaycan diasporu: təşəkkülü və inkişafının xüsusiyyətləri və tendensiyaları" adlı monoqrafiyasında tədqiq etdiyimiz problemə geniş yer verilmişdir [7].

Tarixi keçmişimizə müraciət etdikdə aydın olur ki, azərbaycanlılar hələ orta əsrlərdə müxtəlif səbəblərdən vətənini tərk edib, onun hüdudlarından kənarlara, eləcə də Türkiyəyə üz tutmuşlar. Bu gün tarixi araşdıranda bizə məlum olur ki, XV əsrdə Türkiyəni özlərinə vətən seçmiş, müxtəlif şəhərlərində məskunlaşmış həmvətənlərimiz həm Azərbaycanın təmsilçisi olmuş, həm də bu ölkənin ictimai-siyasi, elmi və mədəni həyatında fəal iştirak etmişlər.

Belə şəxslərdən biri XV əsrin sonu XVI əsrin ortalarında yaşamış, vətəni Şamaxını kiçik yaşlarında tərk edib, əvvəl Qahirədə (Misir) yaşayan, sonra isə Türkiyəyə köçüb orada ali tibb təhsili almış Şükürallahi Şirvani idi. O, əsərlərində epidemiya xəstəliklərinə qarşı mübarizə problemlərindən bəhs etmiş, yoxsul əhalinin pulsuz müayinə-müalicə olunması və Türkiyədə geniş profilaktik tədbirlərin həyata keçirilməsinin tərəfdarı olmuşdur.

Həmin dövrdə Əli Əhməd ibn-Məhəmməd Kamal Təbrizi (Əli Çələbi -Y.B.) Türkiyədə xalq və xüsusən də elmi ictimaiyyət arasında məşhur olmuş, orada tibb elminin, səhiyyə sahəsinin inkişafında böyük işlər görmüşdür. O, vətəni Təbrizdən Türkiyəyə köçmüş, burada bir sıra şəhərlərdə yaşayıb həkimlik sirlərinə yiyələnmiş, xalq arasında təcrübəli təbib kimi şöhrət qazanmışdır. Əvvəl xüsusi müalicəxana təşkil etmiş, şəhər əhalisinin ən çox hörmət etdiyi həkimlərdən birinə çevrilmişdir. Ədirnənin şəhərətrafı onun adı ilə - Əli Çələbi adlanır. Sonralar bu görkəmli tibb alimi uzun müddət Bursa şəhər xəstəxanasında baş həkim işləmiş, İstanbulun iri müalicə ocaqlarında həkimlik fəaliyyətini davam etdirmiş, eyni zamanda tibb elmi və xalq təbabətilə məşğul olmuşdur [7].

Müasir dövrdə də bu proses belə davam etmişdir. Ən çox beyin axını Türkiyəyə və daha sonra digər ölkələrə olmuşdur. Onlardan biri parlaq zəkası ilə seçilən Səlahəddin Xəlilovdur. İstanbul Beynəlxalq Fəlsəfə Araşdırmaları Mərkəzinin, fəlsəfədə yeni istiqamətlərdən biri olan Həyat fenomenologiyasının, "canlı ideya" təliminin yaradıcılarından biridir. Sosial təfəkkür üçün xüsusi toplanma qaydasını və dünyanın alternativ riyazi modellərini və vektorial zaman konsepsiyasını irəli sürmüşdür.

Sistem-struktur təhlil metodunu ilk dəfə elmşünaslığa tətbiq etmiş, elmin qnoseoloji və sosial modellərinin müqayisəsini vermişdir.

Eyni zamanda, seçilən azərbaycanlı alimlərdən fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, professor,

qeyri-xətti optika, fotonik sistemler, nanotexnologiya, bərk cisimlər fizikası və s. sahələrdə araşdırmaların müəllifi, beynəlxalq elmi jurnallarda 250-dən çox məqaləsi çap olunmuş, 38 beynəlxalq elmi toplantıda məruzə ilə çıxış etmiş, hazırda Bilkənt Universiteti, Nanotexnologiya Araşdırmalar Mərkəzi-NANOTAM, Ankara, Bakı Dövlət Universiteti, Beynəlxalq Araşdırma Mərkəzi ilə əməkdaşlıq edən Məmmədov Əmirullah Məmmədəli oğlunun adını qeyd etmək olar.

Belə tədqiqatçılar sırasında Əliyeva Tamilla Sədatxan qızı da vardır. O, Muş Alparslan Universiteti, Türk dili və ədəbiyyatı kafedrasının müəllimidir. Bakı Dövlət Universitetində (BDU) "Qərbi Avropa, Amerika, Avstraliya ədəbiyyatı" ixtisası üzrə aspiranturada (indiki doktorantura) təhsil almışdır. "Azərbaycan Amerika ədəbi əlaqələri" mövzusunda fəlsəfə doktorluğu dissertasiyasını müdafiə etmişdir. Əskişəhər Osmanqazi Universitetində professor elmi adını almışdır. ABŞ, İsveç, Almaniya, Makedonya, Şimali Kipr Türk Cümhuriyyətində və s. nəşr olunmuş 100-dən çox elmi məqalənin, "Ceyms Fenimor Kuper", "Çağdaş Azərbaycan Türkiyə şairlərinin şeirlərində evrənsəl temaların qarşılaşdırılması", "Çağdaş Türk şeiri incələmələri", "İstanbulu gördüm" kitablarının müəllifidir. Azərbaycanlı şairlərin 10-a yaxın şeir kitabını Türkiyə türkçəsinə tərcümə etmişdir [9].

## Nəticə

Sonda belə bir nəticəyə gəlirik ki, bu sahədə yaradılan yeni təşkilatların, cəmiyyətlərin, konqreslərin və digər qurumların əsas vəzifələri və məqsədləri milli və bəşəri maraqlara xidmət etməklə qloballaşan dünyanın inkişafına öz müsbət təsirini göstərməkdən ibarət olmalıdır. Azərbaycanlıların intellektual miqrasiyasına xüsusi həssaslıqla yanaşmaq lazımdır. Azərbaycan diasporunun fəaliyyət göstərdiyi ölkədə seçdiyi strateji xəttə uyğun istiqamətləndirilməlidir.

1. Dünya azərbaycanlı alimlərin vahid platformalarının yaradılması;
2. Peşə ixtisasları üzrə diskussiya klublarının təsis olunması;
3. Azərbaycan diasporunun elm nümayəndələrinin iştirakı ilə konfranslar keçirilməsi.
4. Elm sahəsində çalışan azərbaycanlıların hər beş ildən bir Beynəlxalq Elmi Simpoziumunun təşkil edilməsi.
5. Xaricdə təhsil alan azərbaycanlı gənclərin virtual şəbəkəsinin qurulması.

Bütün bunlar milli və bəşəri inkişafa xidmət etməklə yanaşı, inteqrasiya məsələlərində müsbət təsir göstərər.

Hər bir xalqın miqrasiyası nəticəsində yaranan sağlam diaspor potensialı "diaspor məkanı", mühacirlərin sosial-mədəni, iqtisadi-siyasi, bir sözlə hərtərəfli inkişafında əsas şərtdir. Bununla, belə, bir nəticəyə gəlmək olar ki, miqrasiya prosesləri qlobal inkişafın əsas subyektindən biri olmaqla, diaspor potensialının yaranmasına gətirib çıxardır. Məhz intellekt miqrasiyası, yəni, "beyin axını" müxtəlif cəmiyyətlər arasında pərakəndəliyə deyil, sosial-mədəni sahələrdə xalqlararası əlaqələrin yaranmasına və dövlətlərarası münasibətlərin inkişafına müsbət təsir göstərir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Azərbaycan Sovet Ensiklopediyası. VI cild. Bakı, 1982*

*2. https://www.icmpd.org/file/download/54464/file/AZE_Momenta%2520Handbook.pdf*

*3. Əliyev Z. Diaspor: izahlı sözlük və məlumat kitabı. Bakı, 2007*

*4. http://www.dissercat.com/content/rol-i-mesto-diaspor-v-politicheskoi-sisteme-sovremennoi-finlyandii*

*5. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi: http://www.azstat.org/*

*6. Диаспоры в современном мире: эволюция явления и понятия: http://www.perspektivy.info/srez/etnos/diaspory_v_sovremennom_mire_evolucija_javlenija_i_ponatija_2010-02-27.htm*

*7. Сеидбейли М. Азербайджанская диаспора в России: особенности и тенденции формировантя и развития, (1988-2007-гг). Баку, "Элм", 2009*

*8. Y.M.Babanlı. Türkiyədə Azərbaycan diasporu. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbi. Elmi Əsərlər Məcmuəsi. N2 (17), Bakı 2011, s. 9-13*

*9. https://elmidiaspora.az/*


## Azərbaycan Respublikasından yüksək ixtisaslı mütəxəssislərin (beyin axınında) miqrasiyasında diaspor amili

## XÜLASƏ


Elmi məqalədə miqrasiya prosesləri haqqında məlumat verilir və bu proseslərin diaspor potensialının formalaşmasına təsiri şərh olunur.

Azərbaycandan emmiqrasiya edən alimlərin po-

tensialından milli və bəşəri inkişaf üçün səmərəli istifadə olunması ilə bağlı təkliflər irəli sürülüb.

**Açar sözlər:** *Azərbaycan Respublikası, "beyin axını", miqrasiya, diaspor, lobbi.*

**Я.М.Бабанлы**

**Фактор диаспоры в миграции высококвалифицированных специалистов (утечка мозгов) из Азербайджанской Республики**

**РЕЗЮМЕ**

В научной статье представлены сведения о миграционных процессах и комментарии о влиянии этих процессов на формирование диаспорального потенциала.

Внесены предложения по эффективному использованию потенциала ученых, мигрирующих из Азербайджана в зарубежные страны, для национального и человеческого развития.

**Ключевые слова:** *Азербайджанской Республики, "утечка мозгов", миграция, диаспора, лобби.*

**Y.M.Babanli**

**The diaspora factor in migration (brain flow) of highly qualified specialists from the Republic of Azerbaijan**

**SUMMARY**

The scientific article provides information about migration processes and comments on the impact of these processes in the formation of diaspora potential.

Proposals put forward for effective use of potential of scientists migrating from Azerbaijan to foreign countries for national and human development.

**Key words:** *Republic of Azerbaijan, "brain flow", migration, diaspora, lobbi.*

UOT 94

# İNGİLTƏRƏ VƏ FRANSANIN RƏQABƏTİ KONTEKSTİNDƏ "ERMƏNİ MƏSƏLƏSİ". PAUL TƏRZİYANIN LAYİHƏSİ

**AYŞƏ NƏRİMANOVA**
*Bakı Dövlət Universitetinin Erməni Araşdırmaları və Təlim Mərkəzinin mütəxəssisi*

*E-mail: ayse.nerimanova02@gmail.com*

## Giriş

Fransa inqilabından sonra yayılan millətçilik anlayışı XIX əsrin əvvəllərindən başlayaraq Balkanlardan Osmanlı ərazisinə nüfuz etməyə başladı. Balkan yarımadasında baş verən üsyanlar nəticəsində Yunanıstan və Bolqarıstanın müstəqillik qazanması Osmanlı daxilində yaşayan azlıqlara da təsirsiz ötüşmədi. Bu təsir erməni probleminin yaranmasında müəyyən bir rol oynamışdır. XIX əsrdən etibarən Qərb dövlətləri tərəfindən gündəmə gətirilən bu problemin əsasında Osmanlı dövlətini siyasi, iqtisadi baxımdan zəiflədərək parçalamaq məqsədi daşıyan "Şərq məsələsi" dayanırdı. "Şərq məsələsi"nin mühüm hissəsi olan "Erməni məsələsi" isə artıq XIX əsrin ikinci yarısından Qərb dövlətlərinin Osmanlı imperiyasının daxili işlərinə qarışmaq üçün önəmli bir vasitə halına gəlir. "Erməni məsələsi" ilk dəfə XIX əsrin sonlarında Avropa qəzetlərinin bəzi siyasi yazarları tərəfindən irəli sürülmüş, daha sonra 1877-1878-ci illər Osmanlı-Rusiya müharibələrinin sonunda imzalanan Yeşilköy və Berlin müqavilələrinin maddələrinə daxil edilərək beynəlxalq bir siyasi terminə çevrilmişdir. [2, 285] Qərb dövlətlərinin rəqabəti kontekstində yaranmış bu qondarma məsələ Osmanlı imperiyasını parçalamaq və müstəqillik əldə etmək istəyən ermənilər tərəfindən istifadə edilmişdir.

Qərb dövlətləri arasında Osmanlı ilə qarşılıqlı əlaqə yaradan ilk dövlət Fransa olmuşdur. Hələ səlib yürüşləri dövründən başlayan əlaqələr XVI əsrdə imzalanmağa başlayan kapitulyasiyalar vasitəsi ilə rəsmiləşdirilmişdir. Əlaqələrin qurulduğu digər Avropa dövləti isə İngiltərə olmuşdur. Tarixən bu iki Avropa dövlətinin bir-birinə rəqib olduğu bizə məlumdur. Bu rəqabət Osmanlı ilə olan münasibətlər fonunda toqquşan maraqlarda da özünü göstərmişdir.

Qərb dövlətlərinin Osmanlı ilə münasibətlərində burada yaşayan azlıqlar, əsasən, xristianlar xüsusi önəm kəsb etmişdir. Azlıqları Osmanlı əleyhinə qaldırmaq və onlardan bölgədəki siyasi maraqları təmin etmək üçün vasitə kimi istifadə etmək bu münasibətlərin əsasını təşkil edirdi. Bu məqsədin bariz nümunəsi olaraq 1604-cü ildə kapitulyasiya yeniləndikdən sonra Fransanın İstanbuldakı səfiri tərəfindən hazırlanan "Osmanlı dövlətini devirmək və məhv etmək üçün mütləq çarələr" adlı hesabatında qeyd olunan fikirlərə diqqət yetirək: "...Anadoluda erməniləri, rumları və gürcüləri üsyana çıxararaq müharibə ilə birlikdə Osmanlı dövlətinə bəlalar gətirmək..." [13, 727]. Buradan da müxtəlif dövrlərdə, əsasən də XIX əsrin ikinci yarısında Osmanlı əleyhinə baş vermiş üsyanların əsl səbəbkarları bizə aydın olur.

Osmanlının coğrafi baxımdan strateji məkanda yerləşməsi, iqtisadi potensialı, Avropa ilə Asiya və Afrikanı bir-birinə bağlayan quru və dəniz yollarına sahib olması, Orta Şərqdə İngiltərə üçün Suriya üzərindən Misiri və İraq üzərindən Hindistan yollarına nəzarət etməsi xüsusi əhəmiyyət daşıyırdı. İngiltərənin Osmanlı və Cənubi Asiya coğrafiyalarından uzaq olması səbəbindən bölgədəki maraqlarını qazanmaq, qorumaq və davam etdirmək üçün ticarət ortağına ehtiyac duyulurdu. Şübhəsiz ki, bu tərəfdaş XIV əsrdən etibarən İngiltərə ilə siyasi əlaqələr qurmağa çalışan və Kiçik Asiyada geniş ticarət şəbəkəsinə malik ermənilər idi [1, VII]. Başqa sözlə desək, əgər ingilislər İran və Hindistanda daimi qalmaq, İran və onun hüdudlarından kənarda hökmranlıq etmək istəyirdilərsə, Erməni Ticarət Şəbəkəsindən öz mənfəətləri üçün istifadə etməli idilər.

XIX əsrdə Aralıq dənizində ticarəti ələ almış Fransa İngiltərənin Aralıq dənizi və Orta Şərq ticarətində üstünlük qazanmaq cəhdlərindən narahat olmağa başladı. Çünki Şərqlə aparılan ticarətin demək olar ki, hamısı Fransanın əlində idi. Bu səbəblə İngiltərə Aralıq dənizində hakim mövqeyə sahib olmaq, Hindistanda ağalığını davam etdirmək, iqtisadi baxımdan yeraltı və yerüstü qaynaqlara sahib olan Hindistanı digər imperialist dövlətlərdən qorumaq məqsədi güdürdü. Bu məqsədlə Aralıq dənizində hakim mövqedə olan Fransanı həm siyasi, həm də iqtisadi baxımdan əldə etmiş olduğu üstünlükdən məhrum etməyə çalışırdı. Bu siyasət XIX əsrdə İngiltərənin Orta Şərqdə yeritdiyi və həmçinin də ingilis xarici siyasətinin əsasını təşkil edirdi. Bölgədə əsas mövqeyə sahib Osmanlı ilə əlaqələr zəminində bu iki dövlət daha asan mənfəət təmin etmək məqsədi ilə siyasi məsələlərlə yanaşı iqtisadi məsələlərdən

də istifadə etməyə başladılar. Bu məqsədlə İngiltərə Osmanlı ilə iqtisadi əlaqələrini möhkəmləndirmək üçün 1838-ci ildə geniş imtiyazlar əldə etdiyi bir müqavilə imzaladı. Bununla da bəzi müəlliflərin qeyd etdiyi kimi, "İngilislər Şərqə ticarət məqsədilə gəlib siyasi məqsədlərlə yerləşdilər" [14, 612]. Osmanlı imperiyası Krım müharibəsinin iqtisadiyyata vurduğu zərbəni nisbətən aradan qaldırmaq məqsədi ilə ilk dəfə İngiltərə və Fransadan kredit almaq məcburiyyəti ilə qarşılaşır [19, 172]. İki dövlət o dövrün iki maliyyə mərkəzi olan Paris və Londonda Osmanlı istiqrazlarının satışında vasitəçi oldular. Bununla da, 1854-cü ildən sonra Osmanlı iqtisadiyyatı 2 imperialist dövlətin təsir dairəsinə düşür. Sonrakı dövrdə ingilislərin Aydın vilayəti ilə başlayan dəmir yolu sərmayələri fransızların diqqətini çəkir. Bu səbəbdən, fransızlar da Anadolu Dəmiryolunu işə salaraq ingilislərə bu sahədə də rəqib oldular. Nəticədə, Osmanlı İmperatorluğunun Şərqi Aralıq dənizində gücünü itirməsindən sonra yaranan səlahiyyət boşluğunu fransızlar və ingilislər doldurdu [5, 339] .İki dövlət rəqib gördükləri rusların Aralıq dənizinə çıxmasının qarşısını almaq üçün bəzi zamanlarda birlikdə hərəkət etsələr də, ümumiyyətlə, Aralıq dənizindəki ticarət fəaliyyətlərini nəzarətdə saxlamaq üçün bir-birləri ilə daim rəqabət halında olmuşlar.

Şərqi Aralıq dənizində ticarətə nəzarət etmək üçün dəniz üstünlüyü ilə yanaşı, Osmanlı torpaqlarında qeyri-müsəlman ünsürlərə qarşı missionerlik fəaliyyətləri başqa bir rəqabət sahəsinə çevrildi. Xüsusilə katolik təbliğatı apararaq erməniləri öz tərəfinə çəkməyə çalışan Fransa 1830-cu ildə katolik erməni icmasının "millət" kimi tanınmasını təmin edərək ermənilərin bir qismi üzərində müdafiə hüququ əldə etdi [12, 181]. Fransızların illərdir həyata keçirdikləri katolikləri qorumaq siyasətinə ingilislər müxtəlif qruplarla əməkdaşlıq edərək və protestantlığı təbliğ etməklə cavab verdilər. 1842-ci ildə Osmanlı ərazisində ilk anqlikan kilsəsi fəaliyyətə başlayır. 1847-ci ildə isə ingilislər Babı-Alidən muxtar icma yaratmaq hüququ əldə etdilər [21, 55]. Açılan yeni kilsə İngiltərə və Amerikadan gələn missionerlər vasitəsi ilə başqa məzhəbdən olan Osmanlı təbəələrini, xüsusən erməniləri protestant məzhəbinə çəkməyə başladı. Bu fəaliyyətin İngiltərə üçün önəmi 25 mart 1878-ci ildə İngiltərənin İstanbuldakı səfiri Henri Layardın ingilis xarici işlər naziri Lord Derbiyə göndərdiyi məktubun məzmununda öz əksini tapmışdır. Məktubda Fransanın İngiltərənin məqsədlərinə zidd olaraq Osmanlı torpaqlarındakı siyasətini həyata keçirmək üçün katolik məzhəbini ermənilər arasında yaymasının böyük bir təhlükə olaraq qiymətləndirilir. Buna qarşılıq olaraq, Anqlo-sakson kilsəsinin ermənilər üçün açdığı məktəblər, xəstəxanalar və b. müəssisələrin bölgədə ingilis nüfuzunun yayılmasında önəm kəsb edəcəyi vurğulanır. Bununla da İngiltərə rəqibi Fransa kimi Osmanlı dövlətinin bölüşdürüləcəyi təqdirdə öz payını ala bilmək üçün Osmanlı daxilində zümrəyə sahib olacaqdı. Ruslar, fransızlar və ingilislər tərəfindən islah edilən ermənilər və erməni kilsəsi Osmanlı coğrafiyasında böyük rəqabətin yeni elementləri oldu [1, 142].

Ermənilərin avropalı himayədarlarından kənar öz dövlətlərini qurmaq siyasəti mümkün deyildi. Bu məqsədə ancaq böyük dövlətlərin köməyi ilə nail ola bilərdilər. Bunun qarşılığında isə yeni yaradılacaq bu dövlət həmin o dövlətlərin siyasətinə uyğun olmalı idi [1, 142].

İngiltərə V.Pitt (1783-1801) hökuməti dövründən başlayaraq rus təhlükəsinə qarşı Osmanlı imperiyasının ərazi bütövlüyünü müdafiə etmişdir. Çünki zəif Osmanlı İmperiyasının ərazi bütövlüyünün qorunub saxlanması İngiltərəyə, xüsusən də Rusiyaya qarşı bir çox üstünlüklər təmin edirdi [10]. Lakin 1860-cı illərdən etibarən Osmanlı-İngilis münasibətləri yeni mərhələyə qədəm qoydu. Fransanın İngiltərə üçün əhəmiyyətli yer olan Misirdəki fəaliyyətləri, Rusiyanın Balkanlardakı panslavist fəaliyyətləri, Prussiyanın 1866-cı ildə Avstriyanı və 1870-ci ildə Fransanı məğlub etməsi, İngiltərə səfirlərinin Şərqi Anadoluda qeyri-müsəlman təbəələrə qarşı pis rəftarlarına dair xəbərlər İngiltərənin Osmanlılara qarşı siyasətinin dəyişməsində mühüm amillər oldu.

1877-1878-ci illər rus-türk müharibəsinin sonunda San-Stefano müqaviləsi imzalanır. Bu müqavilədə erməni məsələsi gündəmə gətirilir və erməni adı ilk dəfə olaraq beynəlxalq bir müqaviləyə daxil edilir. Bu səbəbdən, San-Stefano müqaviləsi ermənilərin müstəqilliyi yolunda mühüm bir addım kimi qiymətləndirilir. Ermənilərin Osmanlı dövlətindən ilk ayrılma istəkləri də məhz bu müqavilə ilə ortaya çıxmışdır [15, 48]. Müqavilənin 16-cı maddəsində qeyd olunurdu ki, rus əsgərləri ən qısa zamanda Şərqi Anadolunu boşaldacaq və bu torpaqları yenidən öz ərazisinə qatan Osmanlı dövləti ermənilərin cəmləşdiyi bölgələrdə islahatlar aparacaqdır. Lakin Avropa dövlətləri müqavilənin şərtləri ilə razılaşmır. Çünki Rusiya bu müqavilə ilə Yaxın Şərqdə dövlətlərarası

balansı pozurdu. Nəticədə, 1878-ci ilin iyunun 13-də Berlində konqres toplanır. Hələ bundan öncə, 4 iyun 1878-ci ildə Osmanlı ilə İngiltərə arasında Kiprdə gizli müqavilə imzalanır. Bu müqaviləyə əsasən, İngiltərə bir tərəfdən faktiki olaraq, Kipri nəzarət altına alır, digər tərəfdən isə Şərqi Anadoluda müdafiə və müdaxilə hüququna sahib olurdu. Beləliklə, oradakı yaşayan ermənilər də bir növ ingilislərin himayəsinə keçirdi. Osmanlı dövləti Kiprin idarəsini İngiltərəyə buraxdıqdan sonra ada erməni komitələrinin fəaliyyət meydanına çevrildi. Osmanlı hökuməti cənub sahillərindən gizli yollarla silah və quldurların keçirilməsinin qarşısını ala bilmədi və nəticədə Anadoluda çoxlu sayda erməni üsyanları baş verdi. Kipr bu üsyanlar zamanı Anadoluya göndərilən silah və sursatların anbarına və erməni üsyançılarının təlim keçdiyi düşərgəyə çevrildi [6, 124-125].

San-Stefano və Berlin müqavilələri arasındakı vaxt ərzində ermənilər boş dayanmamış, Avropa dövlətlərinə öz müraciətlərini göndərmişlər. Erməni patriarxı Nerses Varjabetyan və tanınmış ermənilər Balkanlardakı qeyri-müsəlman təbəələrin müstəqilliyə doğru fəaliyyətinin Şərqi Anadoluda da təkrarlanmasını istəyirdilər [9, 166]. Bu məqsədlə 6 bənddən ibarət Anadolu torpaqlarında "Erməni dövləti" yaradılması haqqında müraciətnaməni Berlin konqresində iştirak edəcək bütün Avropa ölkələrinə çatdırırdılar [15, 48].

17 mart 1878-ci ildə patriarx Nerses İstanbuldakı ingilis səfiri H.Layardı ziyarət edərək demişdir: "…Şərqdə müstəqil bir Ermənistan istəyirik…" Səfir Ermənistan dedikdə haranı nəzərdə tutduğunu soruşduqda isə o Van, Sivas, Diyarbəkir və Kilikiyanı qeyd etmişdir. H.Layard bu böyük bölgənin əhalisinin böyük əksəriyyətinin müsəlman olduğunu bildirdikdə, patriarx bunu təsdiqləyir. Səfir belə bir böyük layihənin reallaşma şansına şübhə ilə yanaşdığını bildirdikdə isə patriarx qeyd edib ki, ermənilərin haqlı tələblərinə məhəl qoyulmasa, bu bölgə türk hakimiyyətinə qarşı üsyan edərək Rusiyaya qoşulacaq [8, 106-107]. Bütün bu cəhdlərə baxmayaraq ermənilər əsl məqsədlərinə çatmadı. Berlin traktatına San-Stefano müqaviləsində göstərilən "Ermənistan" sözü çıxarılaraq "ermənilər yaşadığı ərazi" ifadəsi əlavə edilmişdi. Lakin San-Stefano sazişi ondan sonra imzalanan Berlin traktatı ilə birgə Osmanlı imperiyası üçün Anadoluda islahat adında yeni problemlər ortaya çıxarmaqla, uzun sürəcək "erməni məsələsi"ni ortaya çıxardı [15, 48]. Bununla belə, başda Nerses Varjabetyan olmaqla ermənilərin görkəmli şəxsləri öz işlərində mühüm addım atdıqlarını bəyan etmişlər. Digər mühüm məqam isə budur ki, diqqətlə araşdırıldıqda, San-Stefano müqaviləsinin 16-cı maddəsi ilə Berlin müqaviləsinin 61-ci maddəsi arasında çox da fərq yoxdur. Lakin Osmanlı dövləti San-Stefano müqaviləsində yalnız Rusiya qarşısında məsul olduğu halda, Berlin müqaviləsində isə bu müqaviləni imzalayan bütün Avropa dövlətləri qarşısında məsuliyyət daşıyırdı. Daha sonrakı dövrdə İngiltərə və Fransa bu islahatların həyata keçirilməsi üçün Osmanlı dövlətinə müxtəlif təzyiqlər göstərir. İngilis sənədlərindən öyrənirik ki, Sultan bu təzyiqlər qarşısında islahatın həyata keçirilməsi üçün 6 milyon funt sterlinq kredit almaq məqsədi ilə İngiltərə hökumətinə müraciət etmişdir. Ancaq İngiltərənin kredit imkanlarının olmadığı anlaşılır. Bu səbəbdən, islahatlar həyata keçirilmir [8, 114]. Bu məsələdən sonra İngiltərənin erməni məsələsi ilə bağlı siyasətində qısa müddətlik bir durğunluğu müşahidə edirik [19, 154].

İngiltərənin 1880-ci ildən sonra Osmanlıya qarşı siyasəti dəyişir. Buna səbəb hakimiyyətə gələn E.Qladstonun yevangelist inancları əsasında İngiltərənin daxili və xarici siyasətini dəyişməsi olmuşdur. Ermənilərin müstəqillik tələbləri 1878-ci ildə imzalanmış San-Stefano və Berlin müqavilələri ilə başlasa da, bu tələblərin faktiki hərəkata çevrilməsi və ermənilərin silahlı mübarizə yolu ilə müstəqilliklərini əldə etmək cəhdləri 1880-ci ildən sonrakı illərə təsadüf edir. Görünür, Ərzurumda başlayan Vətən Müdafiəçiləri Hadisəsi və ondan sonrakı terror hərəkatları Qladstonun 1880-ci ildə hakimiyyətə gəlməsi və ermənilər üçün islahat tələblərini gündəmə gətirməsi ilə birbaşa bağlıdır. Erməni yazıçısı L.Nalbadian qeyd edir ki, ermənilərin bu məsələdə ruhlanmaları Qladstonun hakimiyyətə gəldikdən sonra tutduğu siyasətlə, xüsusən də "Ermənistana xidmət etmək sivilizasiyaya xidmət etməkdir" ifadəsi ilə bağlıdır [17, 84]. Qladstonun bu həvəsləndirici davranışları ilə 1880-ci ildən sonra erməni istiqlal hərəkatları geniş vüsət almağa başladı və qısa müddətdə ermənilər tərəfindən terror təşkilatları yaradıldı. Yeni qurulan Armenakan, Hnçak və Daşnaksütyun partiyaları inqilab və silahlı mübarizə yolunu seçərək açıq şəkildə Osmanlıya müharibə elan etdilər [11, 204]. Hətta bu barədə Fransanın İstanbuldakı səfiri M.Kanbon qeyd edir: "Erməniləri üsyana çıxarmaq üçün, ilk növbədə, onların arasında milli məqsəd və istiqlal

ideyalarını yaymaq lazım idi. Erməni komitələri bu məqsədlərin yayılmasını və bərqərar olmasını təmin etdilər. Qurulmuş gizli cəmiyyətlər Osmanlı hökumətinin pis və qüsurlu tərəflərini qabardaraq ətrafa yayırdı. Beləliklə, onlar müstəqillik ideyasının ermənilər arasında yayılmasında əsas amil oldular" [16, 31]. Ermənilərin xarici ölkələrdə fəaliyyət göstərən komitələrinin də yaranmış bu çıxışlardakı rolu danılmazdır. Bunlardan Fransadakı erməni komitələrinin fəaliyyətindəki əsas məqsəd Osmanlı imperiyasında yaşayan erməniləri təxribata çəkmək cəhdləri idi. Xüsusilə, London və Marsel Erməni Komitələrinin Birgə Katibliyinin 1892-ci il avqustun 9-da Adana Erməni Arxiyepiskopuna göndərdiyi məktublar və erməni ruhaniləri tərəfindən Osmanlı imperiyasının digər böyük erməni komitələrinə çatdırılan məktublar göstərir ki, komitələr və ruhanilər birgə iş aparırdılar [4, 345].

Bu məsələlər fonunda bölgədə öz nüfuzunu qoruyub saxlamağa çalışan İngiltərə və Fransa arasında mövcud vəziyyəti öz lehinə istifadə etmək üçün rəqabət davam edirdi. Bir sıra hallarda Osmanlı ilə münasibətləri pozmamaq məqsədi ilə yaranmış qarışıqlıqda günahkar olaraq digər dövlət göstərilirdi. Belə ki, 1895-ci ilin may ayında Fransa Parlament stenoqrafının rəhbərliyi ilə Anadoluda baş verən qarışıqlıq və erməni məsələsinə dair keçirilən konfransda müzakirələr zamanı İngiltərənin o bölgədə yaşayan xristianların lehinə hərəkət edərək üsyana təhrik etdiyi qeyd olunur. Həmçinin bildirilir ki, erməni məsələsi sırf ingilislər tərəfindən ortaya atılmışdır. Materialda qeyd olunur: "Xüsusilə İngiltərənin uydurduğu bir nağıl olan erməni məsələsinə Paris əhalisinin diqqətini cəlb etmək üçün bu salonda üç toplantı keçirilib…Məsələnin həqiqəti araşdırılarsa, görünəcək ki, İngiltərənin məqsədlərinə xidmət edənlər vətənlərindən didərgin salınmış bir dəstə lal və avara ermənilərdən ibarətdir"(s.47). 10 noyabr 1895-ci ildə Osmanlı Xarici İşlər Nazirliyinə Fransa Parlamentinin nümayəndəsi Çiseren tərəfindən göndərilən məktubun tərcüməsində də mövcud vəziyyətdə İngiltərənin günahkar olduğu və ermənilərdən istifadə etdiyi bildirilir [18, 58].

1897-ci ildə Türkiyə-Yunan müharibəsinin başlaması Osmanlı-İngiltərə münasibətlərinə yeni bir istiqamət gətirdi. Bu tarixdən sonra Britaniya hökuməti ermənilərə dəstək siyasətindən əl çəkdi. Əksinə, Osmanlı dövləti ilə qarşı-qarşıya qalmamağa çalışdı [10]. Bölgədə fransız mədəniyyətinin və dilinin təsiri, həmçinin İngiltərənin siyasətindəki dəyişiklik Fransaya meyil edənlərin sayını artırdı. Bununla yanaşı, Osmanlı daxilində baş verən üsyanların nəticə verməməsi də hakim dairələrdəki erməniləri narahat edirdi. Bu səbəbdən, Adanadakı erməni yepiskopu Paul Tərziyan xəyali Ermənistan qurmaq adı ilə hazırladığı layihəni gizli məktub şəklində Fransa Xarici İşlər Nazirliyinə göndərir. Osmanlıda yaşayan ermənilərin müqəddəratı adı altında dövləti parçalamaq məqsədli 6 iyul 1898-ci ildə qeydə alınmış məktubda Fransanın himayəsi ilə Adana və Maraş ərazisində bir Erməni dövləti yaradılmasından bəhs olunur. Fransanın fransız mədəniyyətini və dilini yaymaq məqsədilə Adana, Maraş, Harput, Urfa, Antep, Diyarbəkir, Mosul, Hələb kimi ərazilərdə açdığı dini və dünyəvi məktəblər erməni yepiskopunun bu addımında böyük rol oynamışdır. Belə ki, layihənin həyata keçiriləcəyi təqdirdə ermənilərin Orta Şərqdə fransız mədəniyyətinin təbliğatçıları olacağı bildirilir. Məktubda şişirdilərək həmin ərazilərdə yaşayan ermənilərin sayı 150-200 min olaraq göstərilir. Lakin 1898-ci ildə Maraş mahalının əhalisi əvvəlki illərə nisbətən təxminən 4000 nəfər artaraq 56049 nəfərə çatmışdır. Onlardan 39968 nəfəri müsəlman, 9324 isə nəfəri erməni, qalanları isə digər millət və din mənsubları olmuşdur. Buna əsasən, əhalisinin 70%-ni müsəlmanlar təşkil edən Maraşda ermənilər əhalinin sadəcə 16,9% -ni təşkil edirdi [7]. Məqsədə çatmaq üçün məktubda bildirilir ki, bölgədə fransız hegemonluğunun artırılması, fransız mədəniyyətinin yayılması Fransanın rəqib dövlətlərə qarşı mübarizəsi yolunda atıla biləcək ən doğru addımdır. Bütün bunlarla yanaşı, P.Tərziyan məktubda bir sıra şərtlər irəli sürürdü. Birinci şərtdə bildirilirdi ki, iki erməni yepiskopluğunun olduğu Adana və Maraşa Livanda olduğu kimi xüsusi status verilməlidir. Həmçinin buraya xristian rəhbər təyin edilməli və qarışıq polis qüvvələri yaradılaraq islahatlar keçirilməli idi. İkinci şərtdə isə ermənilər Adana və Maraş bölgəsinə köçürülməli və Rusiyaya qaçmış 30 min erməni geri qaytarılmalı idi. Belə bir nəticəyə gəlmək olar ki, bölgədə müsəlmanların çoxluq təşkil etdiyini anlayan P.Tərziyan erməni nüfuzunu artırmaq məqsədi ilə belə bir şərt əlavə etmişdir.

Osmanlı sultanı II Əbdülhəmid bu yazışmalardan xəbərdar idi [20, 218]. Lakin Fransa tərəfinin bu layihəyə göstərdiyi münasibət bizə məlum deyildir. Osmanlı daxilində ayrıca dövlət qurmaq məqsədi ilə xarici dövlət nümayəndələrinə Osmanlı təbəəsinin

belə bir müraciəti qəbuledilməz idi. Bu səbəblə, 25 yanvar 1899-cu ilə aid bir hesabatda II Əbdülhəmid bu layihəni kəskin şəkildə rədd etmişdir. [3, 48] O, həmçinin bölgəyə ermənilərin köçürülməsinə qarşı çıxmışdır. Ermənilərin köçürülməsi və 30 min erməninin geri qaytarılması məsələsinə II Əbdülhəmid başqa bir həll yolu təklif edirdi. Həll təklifi 30 min erməninin Adana bölgəsinə deyil, Krit adasına köçürülməsi olmuşdur. Lakin əsl məqsəd Adanada erməni əhalisinin sayını artırmaq olduğu üçün bu təklif Erməni Nümayəndələrinin İnqilab Şurası tərəfindən qəbul edilmir.

Layihədən də aydın olur ki, Paul Tərziyan heç bir zaman 6 vilayəti əhatə edən "Böyük Ermənistan"nın yaradılmayacağını dərk edirdi. Bu səbəbdən, ümidini Adana və Maraşı əhatə edəcək "Kiçik Ermənistan" yaradılmasına bağlayır. Bunun üçün də müsəlmanların əksəriyyət daşıdığı belə bir bölgədə erməni sayını artırmağın yolunu Fransaya sığınmaqda görürdü. O, İngiltərənin tərkibində olacaq Ermənistanın yerinə Kilikiya bölgəsində Fransanın tərkibində "Kiçik Ermənistan"ı üstün tuturdu. Bütün bunlarla yanaşı, II Əbdülhəmidin yeritdiyi siyasət onun bu planı məqbul saymasında böyük rol oynayırdı. Lakin bütün bu cəhdlərinə baxmayaraq layihə həyata keçirilmir.

## Nəticə

XIX əsrin ikinci yarısından etibarən ingilislərin ermənilər vasitəsilə həyata keçirdikləri fəaliyyətlərin Osmanlı imperiyasına qarşı siyasi nəticələrinin olması Osmanlı-İngiltərə münasibətlərində gərginliyə səbəb oldu. Bu gərgin münasibətlərdə ermənilər siyasi amilə çevrildilər. İngiltərə və Fransanın öz mənfəətləri üçün həyata keçirdikləri siyasət və ermənilər arasında millətçilik fikirlərinin yayılması Osmanlı imperiyası üçün dağıdıcı nəticələr verdi, bununla da ingilislər və qismən də fransızlar qazandı. Nəticədə bu işdən nə Osmanlı imperiyası, nə də ermənilər heç bir qazanc əldə edə bilmədi və hər ikisi böyük dağıntı ilə üzləşdi. Ermənilər nə azlıqda yaşadıqları İngiltərədə, ABŞ-da, Fransada, SSRİ-də, nə də yaşadıqları Ermənistanda bir vaxtlar Osmanlı imperiyasında sülh və əmin-amanlıq şəraitində vətəndaş kimi sahib olduqları nisbətən müstəqil hüquqları bir daha bərpa edə bilmədilər.

**Açar sözlər:** *Erməni məsələsi, Şərqi Aralıq dənizi, missionerlər, İngiltərə, Fransa.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Avcı H.E., Türk-ingiliz ilişkilerinde ermeni faktörü. İstanbul, 2010. 488 s.*

*2. Aydın D., Ermeni Meselesinin Ortaya Çıkmasında Fransa'nın Rolü / Tarih Boyunca Türklerin Ermeni Toplumu İle İlişkileri Sempozyumu, 8-12 Ekim 1984, Ankara, 1985. 285-291 s.*

*3. Bayram Kodaman., Abdülhamit ve Paul Terziyan// Ondokuz Mayıs Üniversitesi Eğitim Fakültesi Dergisi, №2, Samsun, 1987. 42-49 s.*

*4. Bozkuş. Y.D., Yayımlanmış olan Osmanlı Arşiv Belgelerinde Ermeni-Fransız ilişkileri (1879-1918) / II Uluslararası Sosyal Araştırmalar Sempozyumu (EUSAS-II), XIX Yüzyılda Ermeni Milliyetçiliğinin Doğuşu ve Büyük Devletlerin Politikaları, 22–24 Mayıs 2008, Erciyes Üniversitesi, Nevşehir Üniversitesi, Kayseri. 316-353 s.*

*5. Çapar O., Osmanlı devletinde fransız sermayesi (1838-1914), İstanbul, 2019. 431 s.*

*6. Günay N., Kıbrıs'ın ingiliz idaresine bırakılması ve bunun Anadolu'da çıkan ermeni olaylarına etkisi//Akademik bakış, I cild, №1, 2007. 115-126 s.*

*7. Günay N., XIX. Yüzyıl Sonu XX. yüzyıl başlarında Maraş ve Zeytun'un demografik yapısı içinde Ermeni nüfusu//https://turksandarmenians.marmara.edu.tr/tr/xix-yuzyil-sonu-xx-yuzyil-baslarinda-maras-ve-zeytunun-demografik-yapisi-icinde-ermeni-nufusu/*

*8. Gürün K., Ermeni dosyası. Ankara, Türk Tarih kurumu, 1985. 326 s.*

*9. İlter E., Ermeni meselesi'nin doğuşunda ve gelişmesinde İngiltere'nin rolü // Ankara Üniversitesi Osmanlı Tarihi Araştırma ve Uygulama Merkezi Dergisi, VI cild, №6, Ankara, 1995. 155-171 s.*

*10. İngiltere ve ermeni sorunu https://satemer.sakarya.edu.tr/tr/icerik/19853/102016/ingiltere-ve-ermeni-sorunu*

*11. Karaca T.N., İngiliz başbakanı William Edwart Gladstone'un ermeni propogandası ve evanjelizm / Hoşgörüden yol ayrımına ermeniler, Erciyes Üniversitesi–Nevşehir Üniversitesi II Uluslararasi Sosyal Araştırmalar Sempozyumu, 22–24 Mayıs 2008, Kayseri. 195-213 s.*

*12. Karacakaya R., Belgelerle türk-fransiz-ermeni ilişkilerine genel bir bakiş// Osmanlı araştırmaları №XXIV, İstanbul, 2004. 182-212 s.*

*13. Kılıç D., Osmanlı Ermenileri Arasında Katolik Kilisesi'nin Kuruluş Faaliyetleri // Yeni Türkiye Dergisi, №38, Ankara 2001. 726-734 s.*

*14. Küçük C. Şark meselesine dair önemli bir ve-*

*sika // Tarih dergisi, XXXII, 1979 mart. 607-638 s.*

*15. Muxtarova Ə. XIX əsrin II yarısında Osmanlı imperiyasında ermənilərin ingilis-rus rəqabətindən yararlanmaq cəhdləri: "Erməni məsələsi"nin meydana gəlməsi // Tarix və Onun Problemləri, №1, Bakı, 2018. 41-51 s.*

*16. Mustafa Ç. 1875–1925 yılları arasında Adana, Antakya, Antep, Maraş ve Mersin bölgelerinde misyonerlik faaliyetleri ve ermeni olayları, Kahramanmaraş, 2013, 240+12 s.*

*17. Nalbadian L. The Armenian revolutionary movement: The development of armenian political parties through the nineteenth century, Los-Angeles, University of California press, 1963. 247 p.*

*18. Osmanlı belgelerine göre ermeni-fransız ilişkileri (1879-1918), I cild, Ankara, 2002. 270 s.*

*19. Seyit S. Rus və erməni mənbələri işığında erməni problemi. Meydana çıxma prosesi (1678-1914), Ankara, 2017. 398 s.*

*20. Selvi H. Milleti-Sadıkada isyan: Ermeni komitacılarının gizli mektubları (1878-1923), İstanbul, Timaş, 2011. 288 s.*

*21. Ternor Y. Ermeni tabusu. İstanbul, Belge, 1993. 361 s.*

**Narimanova A.H.**

**In the context of rivalry between the Britain and France, "the Armenian question." Paul Terzian's project**

**SUMMARY**

Western nations initiated "The Armenian question". The "Eastern Question," which sought to sever the Ottoman Empire, served as the foundation for this program. This circumstance benefitted Armenians in the 19th century who desired to form an independent state following the San-Stefano and Berlin treaties. Armenian aspirations to use the assistance of Western nations to establish an independent "Armenia" did not go as planned. Within this strategy, P. Terzian's initiative also fell through. The article describes the causes of the rivalry between Britain and France, how it affected the Armenian question, and how the Armenians took advantage of it.

**Ключевые слова:** *Армянский вопрос, Восточное Средиземноморье, миссионеры, Англия, Франция.*

**Нариманова А. Г.**

**В контексте соперничества между Великобританией и Францией «армянский вопрос». Проект Паул Терзиана**

**РЕЗЮМЕ**

Западные страны инициировали «армянский вопрос». Основой этой программы послужил «Восточный вопрос», который стремился разделить Османскую империю. Это обстоятельство пошло на пользу армянам XIX века, которые желали образовать независимое государство в соответствии с Сан-Стефанским и Берлинским договорами. Армянские стремления использовать помощь западных стран для создания независимой «Армении» не пошли по плану. В рамках этой стратегии провалилась и инициатива П. Терзиана. В статье описываются причины соперничества между Великобританией и Францией, как оно повлияло на армянский вопрос и как этим воспользовались армяне.

**Key words:** *The armenian question, Eastern Mediterranean, missionaries, England, France.*

UOT 94

# BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ NEFT REGİONLARI UĞRUNDA HƏRBİ – SİYASİ MÜBARİZƏ

**NƏRGİZ ƏLİYEVA**
*Bakı Dövlət Universiteti, doktorant*

*E-mail: nargizaliyeva10@mail.ru*

## Giriş

XIX əsrin sonu – XX əsrin əvvəllərindən etibarən neft amilinin beynəlxalq münasibətlər sistemində aktuallaşması, məhz hərbi texnikaların təchizatında kömürün neftlə əvəz olunması ilə bağlı olmuşdur. Neft imperializmi Birinci Dünya müharibəsi illərində yarandı, bununla birgə gələcək müharibələr üçün əsaslı zəmin yaratmış oldu. Müharibənin ilk illərindən Osmanlının Yaxın Şərqdəki mülklərini ələ keçirmək Antanta ölkələrinin əsas hədəfinə çevrilmişdi, çünki müttəfiqlər Osmanlının Yaxın Şərqdəki mövqelərini yıxmaqla Almaniyanın dağılacağı ilə bağlı həmfikir idilər. Rus inqilabının başlanması həmçinin neftə olan böyük tələbat nəticəsində Qafqaz regionu, xüsusilə Bakı nefti döyüşən dövlətlərin hərbi – siyasi maraqlarına daxil olmuşdur.

Neft regionları uğrunda mübarizənin başlanması. Alman geoloqları Şimali Mesopotamiyada çoxsaylı tədqiqatlardan sonra 1898-ci ildə neft axtarışlarına başlamışdılar. Beləliklə, Almaniyanın xarici siyasətində Mesopotamiya ərazisi, xüsusilə Mosul vilayəti ön plana çıxmağa başladı. Geoloqların fikrincə, "Almaniya Mosul nefti vasitəsilə Qafqazın zəngin neft yataqlarından daha çox gəlir əldə etmək imkanına sahib ola bilərdi" [11, 236]. Yeni yaranmış şəraitdən istifadə etməyə çalışan Kayzer elə həmin il Osmanlı imperiyasına diplomatik səfərə yollanır. Bu səfərin pərdə arxasındakı məqsədi isə Berlin – Bağdad dəmir yolu üçün Konya xəttini cənub – şərqdən Bağdada və onun hüdudlarından kənara uzatmaq üçün güzəşt əldə etmək idi. Tarixçi David Fromkinin fikrincə, " ingilislər bu layihəni əvvəlcə təşviq edir və dəstəkləyirdilər, çünki başlanğıcda onun yarada biləcəyi təhlükələrdən xəbərdar deyildilər. Daha sonra layihə İngiltərə və Almaniya arasında ixtilaf mənbəyinə çevrildi. Bununla belə, 1914-cü ildə iki ölkə arasında əldə olunan razılaşma ilə həll olundu" [7]. Belə ki, ingilislər dəmir yol xəttinin Dəclə və Fərat çaylarının qovuşduğu yerdəki Bəsrə liman şəhərinin yanından keçmədiyi müddətcə tikintiyə razılıq verirdilər [2, 3p]. Almaniyanın Mesopotomiyadakı maraqları İngiltərə hökumətini narahat etməyə bilməzdi, belə ki, buranın zəngin neft ehtiyatlarından əlavə regionun İrana və Hindistana yaxınlığı gələcəkdə Böyük Britaniyanın maraqları ilə toqquşa bilərdi. İmperialist güclər arasında Yaxın və Orta Şərq regionunda XIX əsrin sonlarından etibarən kəskinləşən rəqabət Birinci Dünya müharibəsi zamanı şiddətli döyüşlərdə, bir çox gizli müqavilələrdə öz təzahürünü göstərmişdi.

Birinci Dünya müharibəsinin başlandığı andan etibarən İngiltərə və Rusiya Osmanlı imperiyasının davamlı neytrallığını qorumağa çalışsalar da, imperiya daxilində baş verən hadisələr, həmçinin sonuncu rus – türk müharibəsində itirilmiş torpaqları qaytarmaq arzusu ilə Almaniya ilə müttəfiqliyi üstün tuturdu. Müharibənin ilk illərində Almaniya üçün Osmanlı imperiyası əvəzedilməz müttəfiq idi. Belə ki, müharibənin gedişində Almaniya Qərb cəbhəsində vuruşarkən, Osmanlı Qara dəniz hövzəsinə hökmranlıq edərək, Rusiyanın müttəfiqləri ilə əlaqəsini kəsə bilərdi, bunun nəticəsində isə Şərq cəbhəsində rusları sıxışdıracaqdılar. Bütün bunlardan əlavə Osmanlı dini ambisiyalardan çıxış edərək müsəlmanların çoxluq təşkil etdiyi – Qafqazda, Misirdə və Hindistandakı müsəlman xalqlarını müstəmləkəçilərə qarşı ayaqlandıra bilərdi [8, 231-4]. Lakin məlum olduğu kimi, 1915-ci ilin yanvarında Sarıqamış döyüşündə türklərin Şərqdə rusları sıxışdırma cəhdləri fiasko ilə nəticələnir. Şərqdəki məğlubiyyət türk qoşunlarını Misirdə Britaniya əleyhinə təbliğatı gücləndirməyə sövq etdi. Osmanlı qoşunları dini fanatizmdən istifadə edərək Süveyş kanalını ələ keçirmək üçün kampaniya başlatsalar da öz məqsədlərinə çata bilmirlər [8, 303 p].

Döyüş meydanında Osmanlı imperiyasının ard – arda yaşadığı uğursuzluqlara güvənərək Antanta ölkələri 1915-ci ilin mart ayında İstanbul sazişi imzaladılar. Sazişə görə, Osmanlı torpaqları hərbi qənimət kimi müttəfiqlər arasında bölüşdürülürdü. Strateji cəhətdən vacib ərazilərdən sayılan Mesopotomiya İngiltərənin nəzarətində qalmalı idi [1, 154 p]. Bu sazişdən sonra İngiltərə Mesopotamiyada öz mövqeyini təmin etmək məqsədilə yerli ərəb liderləri ilə Osmanlı əleyhinə danışıqlara başlamışdı. Belə ki, ingilis siyasətçilərinin fikrincə, ərəblərin köməyi ilə Britaniyanın sürətli və qəti qələbəsi, onun müsəlman dünyasında şəriksiz qələbə qazanmasına kömək

edəcəkdi. Bu danışıqlar ərəfəsində, ingilislər ərəblərə "müstəqil dövlət" yaratmağı vəd etsələr də, onlar 1917-ci ilə qədər neytral qalmağı üstün tutmuşdular [ 3, 567].

Müharibənin son illərində neft döyüşən bütün dövlətlərin döyüş maşınlarını təmin etdiyi üçün əsas vasitə olmaqla yanaşı, sülh danışıqları zamanı da həlledici məqama çevriləcəkdi. 1916-cı ilə qədər neftlə zəngin ərazini tutmaq heç bir döyüşən dövlətin əsas müharibə məqsədi olmamışdır. Lakin Qərb cəbhəsində bir çox sarsıdıcı döyüşlərdən sonra neft ölkənin təkamülünün əsas strateji komponenti kimi ortaya çıxdı. Bu, həmçinin müharibənin sonrakı gedişinə əsaslı təsir göstərdi. Almaniya üçün kəskin neft qıtlığı onun hərbi planlarına ciddi maneə törədirdi. 1916-cı ilin sonlarında müttəfiqlərin dəniz blokadası Almaniyanı xarici neft ehtiyatlarından məhrum etdi. Şərq cəbhəsinin dağılmasından əvvəl Rumıniyanın nefti Almaniya üçün yeganə etibarlı mənbə idi. Lakin ingilislərin törətdikləri təxribatlar nəticəsində Almaniya bu mənbədən də məhrum oldu [1, 286].

Almaniya getdikcə Yaxın Şərqə və Qafqaza neft mənbəyi kimi baxırdı. 1916-cı ilin yazında ingilis kəşfiyyatçıları "fars və türk neftinin əhəmiyyəti haqqında məqalələr"-i əks etdirən Alman-Osmanlı rabitəsini ələ keçirdilər. Bunlar Almaniyanın Yaxın Şərqdəki türk-alman hərbi əməliyyatlarının mühüm məqsədi olan Mesopotamiya və İran neft yataqlarına sahib olmağın təmin edilməsinə verdiyi əhəmiyyəti göstərirdi [8, 370-1].

1916-cı ilin mayında Fransa və İngiltərə Yaxın Şərqi yenidən öz aralarında bölünməsini təmin edən Sayks – Pikot sazişini imzaladılar. Britaniya hökümətinin həm imzalanan bu gizli saziş vasitəsilə, həm də 1917-ci ilin mart ayında Bağdadın işğal olunması ilə Mesopotamiyadakı mövqeləri gücləndi [4, 146 p]. Məhz buna görə də tədricən ərəb lideri Şərif Hüseynə verdiyi "müstəqil dövlət" vədlərindən də boyun qaçırırdı. Osmanlı liderlərinin türk qüvvələrini Mesopotamiya və Fələstində cəmləşdirilməsi ilə bağlı alman tələblərini qəbul etməkdən imtina etməsi müttəfiqlər arasında ixtilaf yaratdı, eyni zamanda 1917-ci ildən etibarən ingilislərin bu müharibə meydanında hökmranlıq etməsinə də imkan verdi. Bütün müharibə boyu Türkiyə şərqi Anadoluda və Qafqazda panturan ideologiyasının irəliləməsi üçün cəbhəsinə böyük əhəmiyyət vermiş, almanlar üçün həyati əhəmiyyət daşıyan Mesopotamiyadan və Fələstindən mühüm işçi qüvvəsini və hərbi qüvvələrini çəkmişdir. 1917-ci ilin noyabr – dekabr aylarından artıq Qəzza və Qüds şəhərləri də Britaniyanın təsiri altına düşmüşdü. Buna görə də, Aralıq dənizi limanlarından, Suriyadan, Ərəbistandan keçərək İran körfəzinə gedən əsas dəmir yolları ingilislərin nəzarətində idi. Bununla belə, 1917-ci ilin noyabrında Balfur Bəyənnaməsi yəhudilərə Fələstində vətən vəd etsə də, bu zəmanətin arxasında duran əsl motiv Fələstinin, Kerzonun qeyd etdiyi kimi, "Misirə və Süveyş kanalına hərbi qapı olması" idi [9,68-70].

Müharibənin sonrakı taleyindəki əsas məqamlardan biri isə Rusiya inqilabı olmuşdur. Belə ki, inqilabın baş verməsi Antanta ölkələrinin Şərq cəbhəsindəki strateji planlarına köklü zərbə vursa da, Almaniya və Osmanlı Rusiyanın daxilində yaranmış bu təlatümlü vəziyyətdən istifadə etmək üçün can atırdılar. Bolşeviklərin hakimiyyətə gəlməsi ilə rus qoşunları Qafqazdan və İrandan çəkilməyə başlamışdı. Qeyd edilməlidir ki, 1917-ci ilin yayına qədər rus xətti Rusiyanın cənubundan, Qafqazdan, Xəzər dənizindən, İranın şimal – qərbindən keçərək sol cinahı Mesopotamiyada, Bağdadın şərqinə qədər uzanırdı [10, 278 p]. Hər halda, 1917-ci ilin payızına qədər Rusiyanın Qafqaz ordusunun süqutu, türklərə 1915-ci ildə həmin bölgədəki fiaskodan qurtulmaq şansı verdi. Bununla Qafqaz nefti uğrunda mübarizə aparacaq tək ölkə Osmanlı deyildi, neftə yaranan böyük tələbat Almaniya və Böyük Britaniyanı da bu yola sövq edəcəkdi.

Almaniya ilə bolşeviklər arasında Brest – Litovsk sülhünün imzalanması ilə Rusiya rəsmi şəkildə Antantadan çıxdı. Əslində, Almaniya və Türkiyənin eyni məqsədə – Qafqaz neftinin təhlükəsizliyinin təmin edilməsinə nail olmaq üçün çox fərqli strateji planları var idi. Müttəfiqliyə baxmayaraq, Qafqaz uğrunda Almaniya ilə Türkiyə arasında ixtilaf dərhal yarandı. Almaniya Qafqazda öz planları ilə Osmanlı qoşunlarını bu cəbhədən gizli şəkildə çıxarmağa, regiondakı gələcək Alman uğurlarını təmin etməyə çalışırdı. Almaniya Qafqazın zəngin neft yataqlarını ələ keçirəcəyi təqdirdə, heç şübhəsiz müharibənin nəticəsini öz xeyrinə çevirə bilərdi. Osmanlının hərbi dairələri isə Osmanlı imperiyasını yenidən dirçəltmək, Qafqazda və Mərkəzi Asiyadakı türk xalqlarını bir bayraq altında toplayaraq çoxdankı arzuları olan – Böyük Turan ideologiyasını həyata keçirməyə çalışırdılar. 1918-ci ilin yazında və yayında türk qoşunlarının Qafqazdakı fəaliyyətini Böyük Turan ideologiyası bəsləsə də, bu yürüşün əsas məqsədi Bakı nefti idi.

Bakı neftinin strateji əhəmiyyəti, həmçinin Almaniya və ya Türkiyə tərəfindən ələ keçirlməsi qorxu-

su Britaniyanı narahat etməyə bilməzdi. Belə ki, Qafqaz almanların və türklərin təsir dairəsinə düşsə, gələcəkdə ingilislərin İran və Hindistandakı maraqları üçün böyük təhlükəyə çevriləcəkdi. Buna görə də, 1917-ci ilin dekabr ayında general Robertson və Lord Kerzonun rəhbərliyi altında İmperiya Hərbi Bürosunun Şərq Komitəsi, alman və yaxud türk qoşunlarının Qafqazdan keçərək cənub-şərqdən Orta Asiya və Hindistana doğru irəliləməsi təhlükəsi ilə mübarizə aparmaq üçün xüsusi hərbi missiyalar təşkil etməyə başladı. Bu misiyaya general C.L.Denstervil başçılıq edirdi [ 12, 112 p].

Eyni zamanda regionda alman – türk maraqları da toqquşurdu. Yaranmış bu ixtilaf, 1918-ci ilin yayında müttəfiqlər arasında hərbi qarşıdurma ilə nəticələndi. Belə ki, bu toqquşmanın ardınca almanlar türklərin sürətlə Şərqə doğru irəliləməsinin qarşısının alınması məqsədilə, hərbi və maddi dəstəyi kəsəcəkləri ilə bağlı türkləri hədələyirdilər. Lakin, almanların bu təhdidləri türkləri öz ideologiyalarından döndərə bilmədi [6, 312 p]. İngilis siyasi dairələri isə, Bakının türklərin əlinə keçməsini almanların və ya rusların ələ keçməsindən daha üstün tuturdular. Bununla belə, Bakıda Türk müsəlman ordusu ilə ingilislər arasındakı hərbi qarşıdurma qaçılmaz idi. 1918-ci ilin sentyabr ayında baş verən toqquşma nəticəsində, ingilislər Bakıdan geri çəkilmək məcburiyyətində qalırlar [8, 398 p].

Bununla belə, müttəfiqlər gələcək sülh prossesində öz maraqlarını təmin etmək məqsədilə təşkil etdikləri konfranslarda əsas mübahisə mövzusu neftlə zəngin ərazilər olurdu. Bunlardan biri, İngiltərə və Fransa tərəfindən imzalanan Yaxın Şərqin bölüşdürülməsini təmin edəcək Sayks – Piko gizli sazişi idi. Daha dəqiq desək, anlaşma çərçivəsində Fransanın təsir dairəsində olan, lakin noyabrın əvvəlində Britaniya qüvvələri tərəfindən işğal edilmiş Mosul mübahisə və diplomatiyanın mərkəzi idi [5, 296 p]. Britaniya hər vəchlə Mosulu öz nəzarət dairəsinə salmağa çalışırdı, belə ki, regionun zəngin neft ehtiyatları gələcəkdə onu Amerikadan idxal olunan neftdən asılılığına son qoya bilərdi. Baxmayaraq ki, Mosul Sayks – Piko sazişinə əsasən Fransanın payına düşmüşdü, lakin qeyd edilməlidir ki, müharibə dövründə Yaxın Şərqdəki hərbi əməliyyatların uğurla nəticələnməsində ingilislərin payı daha çox idi. Müharibə dövründə ingilis siyasi dairələri üçün müharibənin ideal nəticəsi Qərb cəbhəsində Antantanın qələbəsinin təmin edildiyi halda, Yaxın Şərqdə Britaniyanın şəriksiz qələbəyə nail olmağı idi. Sülh danışıqları zamanı isə, daha bir mübahisəli mövzu Palmira vahəsi idi. Əsas məsələ isə İngiltərənin Dəməşq və Fərat çayının arasında yerləşən Palmira vahəsinin Suriyanın deyil, Mesopotamiyanın bir hissəsi olduğunu iddia etməsi idi [5, 310 p]. Çünki, ingilislər yaxşı başa düşürdülər ki, bu yer Mosuldan Aralıq dənizinin ixrac limanlarına gedən istənilən boru kəməri və ya dəmir yolu boyunca mühüm stansiya olacaqdı.

Müttəfiqlər arasındakı digər əsas məsələlərdən biri də Qafqaza nəzarətlə bağlı idi. 1918-ci il 30 oktyabrda imzalanan Mudros sülhü çərçivəsində türk qoşunları Azərbaycan, Ermənistan və Gürcüstan ərazisindəki qoşunlarını şərqi Anadoluya çəkməli idi. 1918-ci il noyabrın 17-də general Tomsonun rəhbərliyi altında ingilislər Bakını işğal etdi. Sülh konfransına qədər Britaniyanın Qafqazdakı niyyətləri üç əsas məqsəd üzərində cəmlənmişdi. Sülh nümayəndə heyətinin fikrincə, birincisi Bakı neftinin, Qafqazda dəmir yollarının, ilk növbədə isə neft ixracının əsas limanı olan Bakıdan Batuma gedən xəttin qorunması idi. İkincisi, Qafqaz və İrandan keçməklə Hindistana gedən marşrutun qorunmasını təmin etmək idi. Nəhayət üçüncüsü, fransızları Qafqaz da daxil olmaqla Suriyanın şimalındakı istənilən torpaqlardan uzaq tutmaq məqsədəuyğun hesab edilirdi. 1919-cu ilin yanvarına qədər Selanik ordusundan ayrılmış daha üç piyada diviziyası Batum və Bakı arasındakı mühüm dəmir yolu əlaqəsini qorumaq üçün Qafqaza yerləşdirildi. Britaniya neft imperializmini müdafiə edən Kerzonun fikrincə, Bakı neftinin ingilislər tərəfindən mənimsənilməsi neft böhranını həll edəcəkdi. Bu vaxta qədər Britaniyanın Qafqazdakı hərbi heyətinin sayı 40.000 nəfər təşkil edirdi ki, bu da Britaniyanın Rusiyadakı müdaxilə kontingentlərinin ən böyüyü idi. Britaniyanın Qafqaz siyasəti ilə bağlı hazırladığı hesabatlarda Cənubi Qafqazın ingilislər tərəfindən müdafiəsinin tam təşkil edilməsinə yardım edəcək daha 20 min nəfərlik hərbi heyətə təcili ehtiyac olduğu bildirilirdi [4, 215-218 p].

Qırmızı Ordunun Qafqaz kampaniyası beynəlxalq neft sərvətlərini təhdid etdiyinə görə Azərbaycan üçün güclü xarici protektoratın olması və ya ən azı bütün neft yataqlarını bir növ birbaşa beynəlxalq nəzarət altına almaq əsaslandırılırdı. Lakin Britaniya Qafqazda əlavə 20 min nəfərlik hərbi heyət yerləşdirmək iqtidarında deyildi. Bununla belə, yeni bir dilemma ortaya çıxırdı, ingilislərin Qafqazdan çıxacağı təqdirdə, bu boşluğu hansı ölkə doldura bilərdi? ABŞ-ın bu vəziyyətdən boyun qaçırması, fransızların isə "arzuolunmaz" olması ingilislərin italyanlara üz tutmasına səbəb oldu. İtalyanlar ilk əvvəl razı

olsalar da, sonralar hökümətin dəyişməsi, həmçinin dəyişən siyasi şərait də onların Qafqazda qoşun yerləşdirməsinə maneələr törətdi [9, 558 p]. Bolşeviklərin 28 aprel 1920-ci ildə Bakını işğal etməsi ilə birgə, qalib dövlətlərin Bakı nefti üzərində qurduqları xəyallar puç olur.

**Nəticə.** Müharibədən sonra neft güzəştləri sülh konfranslarının danışıqlar masası ətrafında böyük mübahisələrə səbəb olmuşdu. Müharibə dövründə imperialist güclərin Yaxın Şərqdə və Qafqazdakı etnik münaqişələrdən bəhrələnmə səyləri, heç şübhəsiz gələcəkdə bu regionlarda baş verəcək münaqişələrin təməl daşları rolunu oynayacaqdı. Bir çox tarixçinin fikrincə, İkinci Dünya müharibəsinin başlanması məhz Paris sülh konfransının qərarlarına əsasən dünyanın "ədalətsiz " bölgüsü olmuşdur.

**Açar sözlər:** *Birinci Dünya müharibəsi, neft, müharibə, sülh, Yaxın Şərq, Qafqaz*

## ƏDƏBİYYAT SİYAHISI:


1. *Aron R, Century of Total War, New York, 1954, 392 pages*
2. *Delaisi F, Oil: Its Influence on Politics, London, 1922, 104 pages*
3. *Fisk R, The Great War for Civilization: The Conquest of the Middle East, New York, 2006, 1396 pages*
4. *French D, British Strategy & War Aims, London,1986, 274 pages*
5. *French D, Strategy of the Lloyd George Coalition 1916–1918, London, 1995, 344 pages*
6. *Jenkins P, Great and Holy War, Oxford, 2014, 456 pages*
7. *Millman B, "A Counsel of Despair: British Strategy and War Aims, 1917-1918," Journal of Contemporary History 36, no. 2 (2001)*
8. *Overy R, Why the Allies Won, New York, 1996, 436 pages*
9. *Ullman R.H., Anglo-Soviet Relations, 1917–1921, New Jersey, 1961, 548 pages*
10. *Silverlight, Victor's Dilemma: Allied intervention in the Russian civil war, New York, 1970, 392 pages*
11. *Tolkien J.R.R. The Lord of the Rings, New York, 1995, 571*
12. *Venn F, Oil Diplomacy in the Twentieth Century, New York, 1986, 246 pages*


**Aliyeva Nargiz**
**Ph.D student, Baku State University**

**Mılıtary-polıtıcal struggle for oil regions during the Fırst World War**

**SUMMARY**

The article is devoted to the actualization of the oil factor in the system of international relations during the First World War. Along with the manifestation of oil in the foreign policy of the imperialist powers, as well as in the goals of the war, the change in the direction and outcome of the war is discussed. These goals resulted in the Ottoman Empire losing its rule over Mesopotamia from 1535. In addition, Baku, which is considered a rich oil source in the Caucasus, quickly enters in the war strategies of the warring states.

**Keywords:** *First World War, oil, war, peace, Middle East, Caucasus*

**Алиева Наргиз**
**Докторант, Бакинский Государственный Университет**

**Военно-политическая борьба за нефтяные регионы в годы Первой Мировой Войны**

**РЕЗЮМЕ**

Статья посвящена актуализации нефтяного фактора в системе международных отношений в годы Первой мировой войны. Наряду с проявлением нефти во внешней политике империалистических держав, а также в целях войны обсуждается изменение направления и исхода войны. Эти цели привели к тому, что Османская империя потеряла свое господство над Месопотамией с 1535 года. Кроме того, Баку, который считается богатым источником нефти на Кавказе, быстро включается в военные стратегии воюющих государств.

**Ключевые слова:** *Первая мировая война, нефть, война, мир, Ближний Восток, Кавказ.*

**UOT 94**

# HUN DÖVLƏTİNİN PARÇALANMASINDAN SONRA CƏNUB ŞƏRQİ AVROPADA MƏSKUNLAŞMIŞ TÜRK XALQLARININ SONRAKI İNKİŞAFINA DAİR

**SAİDƏ İSMAYILZADƏ**
*Gəncə Dövlət Universitetinin*
*Ümumi tarix kafedrasının baş müəllimi,*
*tarix üzrə fəlsəfə doktoru*

*E-mail: saida.ismailzade @mail.ru*

Böyük Hun imperiyası parçalandıqdan sonra Hun tayfa birliyinə daxil olan xalqların bir hissəsi çinlilərin və digər qonşu tayfaların təzyiqi altında qərbə doğru hərəkətə başladılar [9.67]. Bu hadisə tarixşünaslıqda xalqların böyük köçü kimi qeyd edilmişdir. Hunlar qərbə hərəkət edərkən qərbi Sibir və Ural ətrafı ərazilərdə yaşayan Türk və Uqor xalqlarına mənsub tayfa birliklərini də özlərinə tabe etdilər bundan sonra hərbi və siyasi cəhətdən xeyli güclənən Hunlar Avropanın içlərinə doğru irəliləmək qərarına gəldilər. Dördüncü əsrin əvvəllərində Şərqi Avropa çöllərinə gələn hunlar burada alman tayfalarının güclü müqavimətiylə qarşılaşdılar, hunlara Balamir rəhbərlik edirdi. O, öz hərbi strategiyası və ağıllı döyüş taktikaları ilə hətta düşmənlərinin belə rəğbətini qazanmışdı [4 17]. Balamirin rəhbərliyi altında hunlar 374-cü ildə Ostqot dövlətinin varlığına son qoydular ardından 375-ci ildə digər alman mənşəli xalqı olan Vesqotların qurduğu dövlət məhv edildi [1. 35]. Hunlara qarşı dayana bilməyən alman tayfaları qərbə doğru, yəni Roma imperiyasının sərhədləri daxilinə çəkildilər. Qot tayfalarına sarsıdıcı zərbələr vuran hunlar cənub şərqi Avropa düzlərindəki ərazilərin Almanlaşmasına birdəfəlik son qoydular. 390-cı ildə Hun dövlətinin yeni xaqanı Ulduz xan seçildi. Ulduz xanın dövründə hunlar Karpat dağlarını aşaraq Macarıstan ərazisinə gələrək Panoniya vilayətində möhkəmləndilər. Hun dövlətinin gələcək xarici siyasəti Ulduz xanın zamanında formalaşdı. Ulduz xanın xarici siyasətinin əsasını Şərqi Roma (Bizans ) imperyasını təzyiq altında saxlamaq, Qərbi Roma impryasıyla isə xoş münasibətlər qurmaq, lazım olduqda barbar tayfalarına qarşı birgə mübarizə aparmaq, Qərbi Roma imperyasını himayə etmək idi. Ulduz xanın zamanında formalaşan bu xarici siyasət demək olar ki, Hun dövləti dağılana kimi mövcud olmuşdur. Hun imperatoru Ruanın ölümünün ardından hakimiyyətə onun qardaşı oğlu Atilla gəlmişdir (434-453). Atillanın hakimiyyət illəri Avropa hun dövlətinin qüdrətinin ən yüksək olduğu dövrüdür. Atilla zamanında Qot tayfalarının müqaviməti tamamilə yatırılmış, Bizans imperiyası üzərinə ağır vergilər qoyulmuşdur. Qərbi Roma imperiyası Atillanın himayəsini qəbul etməklə hunlara tabe edilmişdir. Ancaq böyük hökmdar Atillanın ölümünün ardından bütün erkən orta əsr imperiyaları kimi Hun dövləti də parçalanmağa məhkum idi. Hun imperatoru Atillanın ölümünün ardından onun varisləri arasında hakimiyyət uğrunda mübarizə başlandı. Mərkəzi hakimiyyətin zəifləməsi nəticəsində Atillanın imperyasına daxil olan iri tayfa birlikləri və xalqlar arasında separat meyilləri gücləndi. İmperiyadan ayrılan ilk tayfa birliyi alman mənşəli Qipedlər oldu. Qipedlərin ardından digər alman tayfaları da ard-arda üsyan qaldıraraq Hunlardan ayrıldılar. Hun ordusu ilə üsyançı alman tayfaları arasında həlledici döyüş 454-cü ildə bugünkü Macarıstan Respublikasının Panoniya vilayətində baş verdi. Panoniya döyüşü Hunların məğlubiyyətiylə bitdi. Bu döyüşdə Hunlara Atillanın böyük oğlu Ellak rəhbərlik edirdi. Döyüş zamanı Ellak qəhrəmancasına döyüşərək həlak oldu. Panoniya məğlubiyyətindən sonra Hun imperiyası bir neçə hissəyə parçalandı. Macarıstan ərazisində dayana bilməyən hunlar şərqə doğru hərəkətə başladılar. **Q.V.Vernadskinin yazdığı kimi desək Panoniyadan hərəkətə başlayan hunlar şimali Qara dəniz və Azov ətrafı çöllərə gələrək burada məskunlaşdılar, bundan sonrakı dövrlərdə onlar artıq Bulqar adıyla tanınacaqdılar.** Hunların bir hissəsi Atillanın iki oğlu Ultsindur və Emnetzurun rəhbərliyi altında Roma əyaləti olan Dakiya sahillərində (müasir Rumıniya) məskunlaşdılar. Ellakın öldürülməsinin ardından Hun tayfalarının əsas hissəsinə Atillanın digər iki oğlu Denqizix və Ernak başçılıq etməyə başladılar. Onlar qısa müddətlik Dakiya və Bessarabiya (müasir Moldova ərazisi) ərazilərində məskunlaşdırsalar da bu ərazilərdə uzun müddət dayanmadılar.

**İrnak (qədim türkçədə İrmak çay), Denqizix (deniz və ya dəniz mənasında və ya qadim türk dastanındakı Oğuz xanın oğlu Dəniz xan)** 468-ci ildə Denqizix və Ernak öz nümayəndə heyətlərini Konstantinopola göndərdilər. Denqizixin imperatordan əsas tələbi Dunay bazarlarını Hunların ticarə-

tinə açmaları idi. Ancaq imperator hun nümayəndə heyətinə rədd cavabı verdi. Bizans tərəfindən bu cür hörmətsizliyə qəzəblənən Denqizix Dunay çayını keçərək Bizansın içərilərinə doğru yürüşə başladı. Frakiya əyalətində baş verən döyüşdə Denqizix öldürüldü. Hunlar Dunay ətrafına çəkildilər. Ancaq Ernak qardaşının bizans üzərinə axınlarını davam etdirmədi, o daha çox Dunayətrafı ərazilərdə möhkəmləndi. Sonradan Ernaka sadiq olan hun tayfaları hun-bulqarların əsasını təşkil etdi. 499-cu ildə hun-bolqarlar Bizans ərazisinə yürüşə başladılar Bizans ordusuyla yenidən Frakya ərazisində qarşılaşan Hun-bolqarlar bu dəfə Bizans ordusunu darmadağın etdilər. Öz cəsur xanları Denqizix xanın intiqamını aldılar.

**Hun-bolqarların şərqi Avropa çöllərinə doğru hərəkəti.** Ernak qardaşına sadiq olan hunları Bessarabiya ərazisində yerləşdirərək Hunların əsas hissəsiylə şərqə doğru hərəkət etdi. Ernakla hərəkət edən hunlar Utiqur (onqur) adlanmağa başladı. Utiqurlar bir müddət aşağı Dneprətrafı çöllərdə yaşadıqdan sonra Prekop bərzəxini keçərək Şimali Krım çöllərində yerləşdilər. Ancaq Kırımda tam məskunlaşmayan Utiqurlar Kerç boğazını keçərək Azov-Taman düzlərində məskunlaşdılar. Böyük ehtimalla hunlar qərbə doğru axın edərkən onların bir qismi ( utiqur və kutiqurlar ) Kuman çöllərində qalaraq qərbə hərəkət etməmişlər. Mərkəzi Avropadan geri dönən Hunlar cənub-şərqi Avropa çöllərində Kuman və Xəzərətrafı düzlərdə yaşayan həmqəbilələrinin yanına qayıtmışlar. Yuxarda qeyd olunduğu kimi, Dunay ətrafı ərazilərdə qalan (74)Denqizix xana sadiq olan hun tayfaları sonrakı ilərdə Kutiqurlar adlanmağa başlandı. Kutiqurlar da Utiqurlar kimi şərqə hərəkət edərək V əsrin sonlarında Dnepr çaynın aşağı ətrafını və 488-ci ildən isə bütün Krım yarımadasını nəzarətləri altına aldılar **(Kutri sözü qədim çuvaş türkcəsində sonradan gələn, arxadan gələn mənasını verir).** Denqizix xana sadiq Kutiqurlar hələ 370-ci ildəki böyük qərb axınları zamanı da Hun tayfa ittifaqının tərkibində mövcud olmuşlar. Ancaq Utiqurlar cənubi Qafqaz və şərqi Qara dəniz ərazilərində alanlarla ittifaqa girərək hələ birinci əsrin əvvəllərindən bu ərazilərdə yaşamışlar. Asiya bolqarları (subaşılar) ikinci və dördüncü əsrlər arasında Şimal-şərqi Xəzər ətrafında yerləşərək hun dövlətinin cənub-şərq sərhəddini qoruyurdular. 665-ci ildə böyük Bulqar dövləti parçalandıqdan sonra Utiqurlar Asparux xanın öndərliyində məhz əvvəlki vətənləri olan Dunay ətrafı ətazilərə qayıtmışlar. (bu arada Ernak adı bolqar hökmdarlarında xan rütbəsinin sinonimi kimi işlənmişdir (6.79). Kutuqurlar isə orta Volqaboyu ərazilərdə məskunlaşaraq Volqa bulqar dövlətini yaratmışlar. Çin mədəniyyətinin və dilinin bulqar – çuvaşlara təsir etməsi bununla izah olunur. Denqiz (dəniz mütərcim) adına hələ də bir çox türk xalqlarında təsadüf olunur.

**Hun-savirlər (sabir savur)** Utiqurlardan və Kutiqurlardan başqa sonralar şimali Qafqaz ərazisində məskunlaşmış üçüncü böyük Hun qrupu isə Suvarlar (savirlər) idi. Farsların hərbi yürüşlərinin artması nəticəsində cənubi Qafqazın şimal-şərqində məskunlaşmış suvarlarla birlikdə Ermənistan və Albaniya ərazisində məskunlaşan Subirlərin də (savur) böyük əksəriyyəti şimala doğru çəkilməyə başladı. Onlar Dərbənd keçidindən başlayaraq Xəzər dənizinin sahil boyu ərazilərində yerləşdilər. Xəzər ətrafında möhkəmlənən Hun-Suvarlar VIII əsrin əvvəllərinə kimi, yəni ərəblərin gəlişinədək Xəzər xaqanlığının cənub sərhədlərinin mühafizəsini təşkil edirdilər. Əvvəllər olduğu kimi, Suvarlar yenə də Qafqaz Albaniyası ilə mədəni-siyasi əlaqələr saxlayırdılar.VII əsrin ortalarından bu əlaqələri daha da möhkəmləndirən Hun-Suvarların böyük xaqanı Alp İlitvər (İlitver) Alban hökmdarı ilə qohumluq əlaqəsi qurmuşdu. (Alban hökümdarı Cavanşir Alp İlitverin qızıyla evlənmişdir). Əvvələr Qara-İrtış çayı ilə Ural dağları arasında yaşayan tayfalar II əsrdən etibarən hunların basqınlarına məruz qaldıqlarından Xəzər ətrafına köçdülər, sonrakı dövrlərdə Hun-Suvarlar həmən tayfaları öz təsirlərinə saldılar. Hun imperyasının qüdrətli zamanlarında ağ Hunların (Suvarlar) başçısını hun hökmdarı şəxsən özü təyin edirdi adətən bu vəzifəyə hakim sülalə üzvlərindən təyin olunurdu. Buna misal olaraq Atillanın Hun imperatoru olmadan öncə ağ hunların (suvarların) başçısı olmasını göstərmək olar. Ağ Hun birliklərindən başqa, Panoniya və Azov ətrafı ərazilərdə çoxda böyük olmayan “Qara Hun” (“Qara Bolqar”) tayfa birliyi də mövcud idi. Qara Hunların başçısı Ebars idi Ebars öldürüldükdən sonra Atilla Qara Hunlara başçı olaraq böyük oğlu Ellakı təyin etmişdi, bu təyinatda əsas məqsədlərdən biri də şərq vilayətlərinin təhlükəsizliyinin təmin edilməsi idi.

**Suvarların ( Savirlər ) qərbi Sibirdən ( İrtış ətrafından ) Qafqaza köç etmələri.** 460-cı ildə Eftalitlilər Yaik və Emba çayları arasında yaşayan Avarlar üzərinə yürüş başladılar.Eftalitlərə məğlub

olan Avarlar şimal-şərqə hərəkət edərək Suvarlar üzərinə hücum etdilər. Buradakı Suvar-Subaşi tayfalarını Hun Şanyumları (hökmdarları) hələ bizim eranın birinci əsrinin əvvəllərindən dövlətin uc oymaklarını qorumaq məqsədi ilə İrtış sahillərinə və Tayqa ətrafı düzlərə yerləşdirmişdilər. Sonradan onlar orta İrtış ətrafındakı ərazilərə kimi yayıldılar. Avarların təzyiqinə davam gətirə bilməyən Suvarlar qərbə doğru hərəkətə başladılar. Öz növbəsində Suvarlar önlərinə çıxan Uqor tayfalarını Saraqurları, Onqurları, Uroqları qərbə doğru sıxışdırdılar. Qərbə hərəkət edən Uqor tayfaları 463-cü ildə digər hun boyu olan Akaçirləri (aqasirlər) məğlub etdilər. 463-cü ildə şərqi Roma imperiyasının paytaxtına Saraqurların, Onqurların və Uroqların səfirləri gəldi. Onlar Bizanslılarla sülh və dostluq şəraitində yaşamaq istədiklərini bildirdilər. İmperator və ətrafı elçiləri hörmətlə qarşıladılar, onlara qiymətli hədiyyələr verərək ölkələrinə yola saldılar. 466-cı ildə Saraqurlar və Aqasirlər Alan torpaqlarına gələrək Dəryal keçidini keçərək İbrya və Ermənistan üzərinə yürüşlər etdilər. Qafqaz Alanları onların öz torpaqlarından keçmələrinə könüllü olaraq icazə verdilər, hətta yürüş üçün lazım olan silahlarla təchiz etdilər. Qafqaz Alanlarının şərqində Hun-Suvarlar (savirlər) yaşayırdılar ki, onlar Dərbənd keçidinə nəzarət edir, Xəzər sahili ərazilərdə məskunlaşmışdılar.V əsrin sonlarından Qara dəniz ətrafındakı geniş çöllərdən başlayan Dunayın aşağı axarlarına Qafqaz dağlarından Xəzər ətrafı çöllərə kimi Volqa çayının orta axarlarndan cənubi Qafqazda Araz çayına qədər çox geniş ərazilərdə döyüşkən köçəri hun tayfaları məskunlaşmışlar. Həmin tayfaların ən böyükləri Utriqurlar Kutriqurlar və Subirlər (savurlar) sonradan yaranacaq bir çox yeni türk dövlətinin nüvəsini, rüşeyimini təşkil edəcəkdilər. Bir çox orta əsr Avropa "tarixçilərinin" dediyi kimi **"Atillanın ölümünün ardından Hunlar bir xalq kimi qısa bir zamanda əriyib yoxa çıxdı"** fikri kökündən yanlışdır. Hunlar hələ bir neçə yüz il fərqli adlar ilə öz türk kimliklərini qoruyub saxladılar, sonrakı dövrlərdə Göytürk, Xəzər, Bulqar və digər türk dövlətlərinin meydana gəlməsi və inkişafında önəmli rol oynamışlar. Hunlar bir sıra türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin etnoginezinin əsasını təşkil etmişlər.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Абрашкин А. А. Предки русских в древнем мире. М.: Вече, 2002.*

*2.Авдеев В. И. История Древнего Востока. М.: Высшая школа. 1970.*

*3.Артамонов М. И. История хазар. Л., 1962. 2-е изд. СПб., 2002.*

*4.Арташес Ариурни. Армянское нагорье и цивилизация. М.: Менеджер, 1999.*

*5.Ашмарин И. И. Болгары и чуваши. Чебоксары, 2000.*

*6.Бичурин Н. Я. (Иакинф). Собрание сведений о народах, обитавших в Средней Азии в древние времена. В 3-х томах. Алматы: Жалык байпасы, 1998.*

*7.Боровкова Л. А. Царства Западного края во II — I веках до н. э. Восточный Туркестан и Средняя Азия по сведениям из Ши Цзи и Хань шу. Институт востоковедения РАН. М.: ИВ РАН — КРАФТ+, 2001.*

*8.Боровкова Л. А. Царство зайнузского края. М., 2001.*

*9.Бувье-Ажан Морис. Аттила. Пер. с франц. Глаголевой М. В. М.: Молодая гвардия, 2003.*

*10.Вернадский Г. В. История России. Древняя Русь. Тверь — Москва: Леон, Граф, 2000.*

*11.Византиец Феофан. Летопись от Диоклетиана до царей Михаила и сына его Феофилакта. Пер. Оболенского В. И. и Бодянского О. М. 1858. Рязань: Александрия, 2005.*

*12.Георги Н.-Г. Описание всех обитающих в Российском государстве народов. Русская симфония. Библиотека РАН. СПб., 2005.*

*13.Голб Норман, Прицак Омельян. Хазаро-еврейские документы X века. Пер. с англ. Научная редакция, послесловие и комментарии В. А. Петрухина. М.: РАН. Институт славяноведения. 2003.*

*14.Голден Питер. Достижения и перспективы хазарских исследований // Хазары. Еврейский университет в Иерусалиме. Институт славяноведения РАН. Иерусалим — М.: Гешарим, Мосты культуры, 2005.*

*15.Гумилев Л. Н. Древняя Русь и Великая Степь. М., 2002.*

*16.Гумилев Л. Н. Тысячелетие вокруг Каспия. М., 2002.*

*Димитриев В. Д. Вопросы этногенеза, этнографии и истории культуры чувашского*

*народа. Сб. статей. Чебоксары, 2004.*

*17.Иванов В. П., Николаев В. В., Димитриев В. Д. Чуваши: этническая история и традиционная культура. М.: ДИК. 2000.*

**İsmayılzadə Saidə Cəfər qızı**

**Avropa Hun dövlətinin parçalanmasından sonra Cənub-Şərqi Avropada məskunlaşmış türk xalqlarının sonrakı inkişafı**

**XÜLASƏ**

Böyük hun imperiyası dağıldıqdan sonra bugünkü Monqolustan və Altay dağları ətrafında yaşayan türk xalqları qərbə doğru köç etdilər. Döyüşkən köçəri Hun türkləri qarşılarına çıxan digər etnik qrupları da özləri ilə Avropa düzənlikərinə sürüklədilər. Mərkəzi və cənub-şərqi Avropa ərazisində yerləşən Hunlar qısa müddətdə qüdrətli imperiya quraraq hakimiyyətlərini bütün Avropa qitəsinə yaydılar. Hun imperiyası qüdrətinin pik nöqtəsinə hökmdar Atillanın hakimiyyəti dövründə çatdı.Atillanın ölümünün ardından hun imperiyası parçalandı. Hun dövlətinin dağılmasından sonra mərkəzi Avropada möhkəmlənə bilməyən türk tayfaları yenidən cənub-şərqi Avropa düzlərinə çəkildilər, gəldikləri yeni ərazilərdə möhkəmlənən türklər yeni etnik qruplar halında qurduqları dövlətlərin ətrafında birləşdilər [15.22].

**Açar sözlər :** *Hunlar, Bulqarlar, Kutiqurlar, Utiqurlar, Suvarlar, Atilla.*

**Исмаилзаде Саида Джафар кызы**

**После распада гуннского государства дальнейшее развитие тюркских народов расселилось в Юго-Восточной Европе**

**РЕЗЮМЕ**

После распада империи Великих Гуннов тюркские народы, жившие вокруг сегодняшней Монголии и Алтайских гор, мигрировали на запад. Воинственные кочевые тюрки-гунны увлекли за собой на равнины Европы другие этнические группы. Гунны, располагавшиеся на территории центральной и юго-восточной Европы, в короткие сроки создали мощную империю и распространили свою власть на весь европейский континент. Империя Гуннов достигла пика своего могущества во время правления Аттилы, после смерти Аттилы империя Гуннов была разделена. После распада Гуннского государства тюркские племена, которые не могли укрепиться в Центральной Европе, отступили на юго-восточные европейские равнины. Тюрки, укрепившиеся на новых территориях, на которые они пришли, объединялись вокруг построенных ими провинций в виде новых этносов.

**Ключевые слова:** *Гунны, Булгары, Кутигуры, Утигуры, Сувры, Атиллы.*

**Ismayilzadeh Saida Jafar girl**

**After the disintegration of the Hun state, the further development of the Turkic peoples settled in South-Eastern Europe**

**SUMMARY**

After the collapse of the Great Hun Empire, the Turkic peoples living around today's Mongolia and the Altai Mountains migrated westward. The warlike nomadic Hun Turks dragged the other ethnic groups they encountered to the plains of Europe with them. The Huns, located in the territory of Central and South-Eastern Europe, established a powerful empire in a short time and spread their power over the entire European continent. The Hun Empire reached the peak of its power during the reign of Attila. After the death of Attila, the Hun Empire was divided. After the collapse of the Hun state, the Turkic tribes, which could not be strengthened in central Europe, retreated to the south-eastern European plains. The Turks who strengthened themselves in the new territories they came to were united around the provinces they built in the form of new ethnic groups.

**Key Words:** *Huns, Bulgars, Utigurs, Kutigurs, Suvars, Atilla.*

UOT 94(479.24)

# XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI NEFT SƏNAYESİNİN ÜMUMİ DURUMU HAQQINDA

**NƏRGİZ HACIYEVA**
*AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun doktorantı*
*E-mail: nargizhac4@gmail.com*

## Giriş

Azərbaycanda neftin hələ qədim zamanlardan çıxarılmasına baxmayaraq, neft sənayesinin inkişafı üçün geniş imkanların yaranması XIX əsrə təsadüf edir. Məhz bu dövrdə neft işində köklü dəyişikliklər edilmiş, manufakturadan maşınlı sənayeyə keçid, neft sənayesinin bütün sahələrinin texniki cəhətdən yenidən qurulması, buraya iri kapital axını baş vermişdi.

Mövzunun öyrənilmə səviyyəsini təhlil edərkən XIX əsrin sonu-XX əsrin əvvəllərində Azərbaycanda neft sənayesinin inkişafından bəhs edən bir sıra əsərləri xüsusilə qeyd etmək lazımdır. Bunlardan biri M. İsmayılovun və M. İbrahimovun 1991-ci ildə nəşr olunmuş "Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi" əsəridir. Əsərdə neft sənayesində mövcud olan iltazam sisteminin mahiyyətindən, onun ləğvindən sonra neft sahəsində baş verən köklü dəyişikliklərdən, kapital problemindən, inhisarların yaranmasından bəhs edilir. Həmçinin görkəmli alim Ə.Sumbatzadə özünün 1964-cü ildə dərc edilmiş "XIX əsrdə Azərbaycan sənayesi" adlı əsərində Azərbaycanda yüngül və yeyinti sənayesi ilə yanaşı, neft sənayesindəki vəziyyətlə bağlı da geniş məlumatlar vermişdir.

Azərbaycanda neft sənayesindən bəhs edərkən bu dövrdə Azərbaycanın ən böyük sahibkarlarından biri olan Hacı Zeynalabdin Tağıyevin də bu sahədəki fəaliyyəti və roluna xüsusi diqqət yetirmək lazımdır. Bu cəhətdən M.Ə.İsmayılovun 1993-cü ildə nəşr edilmiş "El atası" əsərini, M.C. İbrahimovun isə 1990-cı ildə dərc edilmiş "H.Z. Tağıyevin sahibkarlıq fəaliyyəti" adlı əsərini qeyd etmək lazımdır. Bu əsərlərdə dahi şəxsiyyətin Azərbaycanda neft sənayesinin inkişafındakı rolundan geniş şəkildə bəhs olunur.

Mövzu ilə bağlı bəzi məsələlər M.Musayevin əsərində də öz əksini tapmışdı. Əsərdə XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı şəhərində ticarətin inkişafı məhz neft sənayesinin yüksəlişi ilə sıx əlaqədə nəzərdən keçirilir.

## Əsas hissə

XIX əsrin sonunda çar Rusiyasının iqtisadi həyatında baş verən yüksəliş onun sənaye cəhətdən çiçəklənməsinə xeyli kömək etdi. Belə bir şəraitdə Azərbaycan neft sənayesi də sürətlə inkişaf etməyə başladı. İstehsalın və kapitalın təmərküzləşməsi, elmi-texniki və təşkilati nailiyyətlərdən istifadə edilməsi nəticəsində Azərbaycan neft sənayesi hasilatın və emalın həcminə görə dünyada birinci yerə çıxmışdı.

Neft sənayesində baş verən yüksəlişin səbəblərindən biri bu sahədə tətbiq edilən iltizam sisteminin ləğv edilməsi idi. Çar Rusiyası Azərbaycanın neft yataqlarını hələ işğalın ilk illərindən müxtəlif şəxslərə 4 il müddətinə icarəyə verirdi. Neftin çıxarılmasına və satışına inhisar hüquqları qazanmış iltizamçılar çar xəzinəsinə illik iltizam haqqı ödəməli idilər. Çarizmin azərbaycanlılara qarşı həyata keçirdiyi milli ayrı-seçkilik siyasəti burada da özünü göstərirdi. Təsadüfi deyil ki, iltizam sisteminin mövcud olduğu son illərdə (1863-1872) Bakı neft quyularının iltizamçısı ancaq erməni əsilli Mirzoyev olmuşdur [7, 16-18].

Neft yataqlarının iltizama verilməsi bu sahənin inkişafına böyük maneələr törədirdi. Çünki iltizamçılar onlara verilmiş qısa vaxt ərzində neft quyularında axtarış və kəşfiyyat işləri aparmağa kapital ayırmaq istəmirdilər. Onlar qorxurdular ki, bütün xərcləri ödəyə biləcək məhsuldar quyunun qazılması icarə müddətinin son vaxtlarına təsadüf edər [15, 276]. İltizamçılar həmçinin neft istehsalı üsullarını yaxşılaşdırmaq haqqında da düşünmürdülər. Onların istifadə etdiyi dayaz quyular az vaxtdan sonra neftvermə qabilyyətini itirirdi. Dayaz çuxurlarda saxlanılan neftin yüngül hissəsi buxarlanır və bunun nəticəsində neftayırma zamanı ondan çox az miqdarda neft alınırdı [7, 53]. Məhz bu səbəblərdən hökumət 1872-ci ildə Azərbaycan neft sahəsində iltizam sisteminin ləğv edilməsi və torpaqların hərrac yolu ilə satılmasına qərar verdi.

İltizam sisteminin ləğv olunması Bakı neft sənayesinin kapitalist inkişafı mərhələsinə daxil olmasına yol açdı, iri kapital axınını gücləndirdi. Belə ki, 1872-ci ilin dekabrında keçirilən ilk hərrac nəticəsində 193 des. neftli torpağın satışından əvvəlcədən

müəyyən edilmiş 552.221 rubl əvəzinə 2.975.000 rubl əldə olundu [13, 19]. Digər bir tərəfdən isə neft hasilatı da xeyli dərəcədə artdı. Əgər 1872-ci ildə Bakının neft rayonunda 1,4 mln pud neft hasil olmuşdusa, 1875-ci ildə bu rəqəm 5,4 mln puda, 1885-ci ildə isə 115 mln puda çatdı [4, 128].

XIX əsrin ortalarından başlayaraq neft sənayesində neftin çıxarılması və emalı sahəsində də bir sıra yeniliklər baş verdi. Belə ki, əvvəllər neft köhnə qaydalarla əl ilə qazılmış quyulardan tuluqlar vasitəsi ilə çıxarılırdısa, artıq 1848-ci ildə dünyada ilk dəfə mexaniki qazma-buruq üsulu ilə Bibiheybətdə neft quyusu işə salındı. 1863-cü ildə Cavad Məlikov Bakıda ağ neft zavodu tikdirdi və dünyada ilk dəfə neftayırma prosesində soyuducu sistemdən istifadə etdi [15, 286]. 1873-cü ildə ilk dəfə buxar mühərrikləri tətbiq edilməyə başladı [2, 41]. 1878-ci ildə Bakı neftinin və neft məhsullarının Rusiyaya böyük həcmdə daşınması üçün dünyada ilk dəfə tanker tipli gəmidən istifadə olundu. Nobel qardaşlarının sifarişi ilə İsveçdə inşa edilmiş neft tankeri Bakı ilə Həştərxan arasında müntəzəm hərəkətə başladı [3, 54]. Mədənlərdən çıxarılan nefti Bakı şəhərində yerləşən neftayırma zavodlarına çatdırmaq üçün Avrasiyada ilk dəfə olaraq 1878-ci ildə Balaxanı ilə Qaraşəhər arasında neft kəməri çəkildi. 1880-ci ildə isə dəmir yolu ilə neft daşınmasında ilk dəfə vaqon-sisternlər tətbiq edilməyə başladı.

XIX əsrin 70-80-ci illərində inkişaf etməkdə olan neft sənayesinin əsas xüsusiyyətlərindən biri də çox az bir vəsait ilə neft hasilatının və emalının başa gəlməsi idi. Bu da, öz növbəsində, xeyli sayda xırda və orta neft müəssisələrinin yaranmasına gətirib çıxarmışdı. Bu müəssisələrin əksəriyyəti payçı cəmiyyətlər, yəni ticarət evləri formasında fəaliyyət göstərirdilər.

İlk belə ticarət evlərindən biri "Şəriklər" cəmiyyəti idi. 1872-ci ildə yaranmış cəmiyyətə polkovnik A.A.fon Burmeyster, kapitan V.V.Kleyqels, H.Z.Tağıyev, M.İ.Sultanov, İ.Q.Tumanov,B.Q.Sərkisov və b. daxil idilər. 1899 -cu ildə şirkət öz nizamnamə kapitalını 2 mln rubla çatdırdı və səhmdar cəmiyyətə çevrildi [15, 20-21].

1878-ci ildə "H.Z.Tağıyev və Sərkisov qardaşları" adlı daha bir ticarət evi təşkil olundu [6, 59].

Əldə olunmuş müəyyən nailiyyətlərə baxmayaraq, neft sənayesi bir sıra çətinliklərlə üzləşirdi. Bunlardan biri ağ neft üzərinə qoyulmuş aksiz vergisi idi. Hələ iltizam sistemi ləğv edilməmişdən bir müddət əvvəl neft sənayesində aksiz vergisi tətbiq olunmağa başlanmışdı. Həmin verginin tətbiq olunmasında əsas məqsəd iltizamın ləğvindən sonra neft mədənlərində dövlət xəzinəsinin gəlirlərinin təmin edilməsi idi.

Aksiz vergisi hazır məhsullardan deyil, neftayırma zavodlarında neft emalı üçün istifadə edilən qazanların həcminə görə müəyyənləşdirilirdi. Eyni zamanda qanun qazanlardan gündə yalnız bir dəfə istifadə edilməsini nəzərdə tuturdu. Lakin zavod sahibləri qısa müddət ərzində mümkün qədər çox neftin emal olunmasına çalışdıqları üçün ağ nefti ağır və yüngül yağlardan ayırmadan gün ərzində bir neçə dəfə qazanlardan istifadə edirdilər. Bu da öz növbəsində məhsulun keyfiyyətsiz alınmasına və nəticədə ağ neftin qiymətinin aşağı düşməsinə səbəb olurdu. Bu isə neft sənayesini ləngidirdi. Məhz bu səbəbdən neft sənayeçiləri aksiz vergisinin ləğv edilməsi ilə bağlı hökumətə müraciət etdilər. Onlar həmçinin ölkəyə gətirilən ağ neftə görə gömrük rüsumunun artırılmasını təklif edirdilər. Bu yolla aksiz vergisi ləğv olunduqdan sonra dövlət xəzinəsinə dəymiş ziyan ödənilə bilərdi. 1877-ci ildə ölkədə istehsal olunan ağ neftdən alınan aksiz vergisi ləğv edildi və ölkəyə gətirilən ağ neft üçün gömrük rüsumu artırıldı. Bu tədbirlər neft sənayesinin inkişafına yeni bir təkan oldu [14, 94].

XIX əsrin 70-ci illərində neft sənayesində fəaliyyət göstərən şirkətlərin böyük əksəriyyətini rus sahibkarları təşkil edirdi. Lakin iltizam sistemi ləğv edildikdən və Bakıda neft fontanları baş verməyə başladıqdan sonra Azərbaycan neft sənayesinin geniş perspektivlərə malik olduğunu anlayan qərb kapitalı Bakıya axın etməyə başladı. Bu məsələdə 1880-ci il mayın 1-də çarın xarici ölkə vətəndaşlarının Bakıdakı neft mədənlərinə buraxılmasına dair qəbul etdiyi qərarın da böyük rolu olmuşdu.

1875-ci ildən Bakıda kiçik bir torpaq sahəsi satın alan İsveç təbəəsi Nobellər 1879-cu ildə əsas kapitalı 3 mln olan "Nobel qardaşları" səhmdar cəmiyyətini yaradaraq neft sənayesində fəaliyyətə başladılar [3, 51].

80-ci illərdən başlayaraq isə Fransa kapitalını təmsil edən Rotşildlərin "Xəzər-Qara dəniz sənaye və ticarət cəmiyyəti" fəaliyyət göstərirdi.

90-cı illərdən isə H.Z. Tağıyevin neft mədənlərini və ağ neft yağ zavodunu, Xəzərdəki neft gəmilərini 5 mln. manata ingilis bankının direktorlarından biri E. Qubbarta satması nəticəsində ingilis kapitalı Azər-

baycan neft sənayesinə nüfuz etməyə başladı [10, 9-10].

Artıq, 1898-1903-cü illərdə Bakı neft sənayesinə qoyulan sərmayənin 56%-i xarici kapitalın payına düşürdü.

XIX əsrin 80-ci illərində neftçıxarma sənayesində rus sahibkarları öz mövqelərini əllərində saxlasalar da, neft emalı sənayesində qərb kapitalı daha çox uğur qazanmışdı. 1885-ci ilin məlumatlarına görə Bakıda istehsal olunan 33 mln pud ağ neftin 65,5 %-i rus şirkətlərinin, qalan hissəsi isə Nobel və başqa qərb kapitalistlərinin payına düşürdü [8, 36].

Emal sənayesində azərbaycanlı sahibkarların mövqeyi daha güclü idi. Belə ki, 1885-ci ildə azərbaycanlı sənayeçilərə məxsus müəssisələrin emal etdiyi məhsul 8,7 mln pud idi ki, bu da ümumi istehalın 26, 3% -ni təşkil edirdi.

Neft sənayeçilərinin üzləşdiyi əsas problemlərdən biri də neftin daşınması məsələsi idi. Bu problemin həlli neft sənayesinin inkişafı üçün mühüm əhəmiyyət kəsb edirdi. Bu dövrdə neft və neft məhsullarının daşınması ilə “Drujina”, “ Qafqaz və Merkuri”, “Bakı neft cəmiyyəti”, “Lebed” kimi cəmiyyətlər məşğul olurdular [11, 49]. Lakin onlar neft sənayesinin artan tələbatlarını ödəyə bilmirdilər. 1880-ci illərin əvvəllərində neft sənayeçiləri və gəmi sahibləri tanker donanmasını genişləndirmək üçün cəhdlər göstərdilər. Lakin Nobel şirkətinin neft sənayesini inhisara almaq səyləri bu cəhdləri boşa çıxardı.

Bakı neft sənayesində 1876-cı ildə özünü göstərən böhran əlamətləri 1886-cı ildə daha da güclənmişdi. Böhranla əlaqədar olaraq, Bakının iri neft sənayeçilərindən olan H.Z.Tağıyev “Rus texniki cəmiyyəti”nin Bakı şöbəsinin 11 yanvar 1886-cı il tarixli iclasında “Neft sənayesindəki böhrandan necə çıxmaq olar” adlı məruzə ilə çıxış etmişdi. Görüləcək tədbirlərdən biri kimi o belə bir təklif irəli sürmüşdü ki, zavod sahibləri bir ticarət şirkətində birləşsinlər. Tağıyevin fikrincə, şirkət Bakının zavodlarında ağ neft hasilatının 50 mln pud artmasına gətirib çıxaracaqdı. Ancaq bunun müvəffəqiyyətli olması üçün ixrac edilən nefti ucuzlaşdırmaq lazım idi. Belə ki, zavod sahibləri istehsal etdikləri məhsulu yeni yaradılacaq şirkətə təhvil verməli idi, xam neft hamıdan eyni qiymətə alınmalı, eyni qiymətə daşınmalı idi [12, 162]. Tağıyev hesab edirdi ki, bu yolla böhrandan çıxmaq olar. Çünki daha aşağı qiymətlərlə Avropa bazarlarına çıxmaq təmin edilsə idi, Amerika kerosinini sıxışdırmaq olardı [3, 86]. Şirkətin bütün fəaliyyəti, Tağıyevin planına görə onun üzvlərinin ümumi iclası tərəfindən istiqamətləndirilməli və nəzarət olunmalı idi. Yalnız 500 min pud neft istehsal edən firmalar səsvermə hüququna malik idilər. Göstərilən normaya uyğun olaraq, iri zavod sahibləri 51 səs, orta zavod sahibləri 12, xırda zavod sahibləri isə 2 səs aldılar. Lakin neft məhsullarının Xəzər dənizi vasitəsi ilə daşınması üçün nəqliyyat vasitələrinin azlığından bu layihə kağız üzərində qaldı [7, 125].

80-ci illərin sonlarınadək Tağıyevin layihəsi istisna olmaqla, digərləri Rusiyanın daxili rayonlarında ağ neft ticarətini nəzərdə tuturdusa, 90-cı illərdən etibarən sindikat yaratmaqda məqsəd Bakı ağ neftinin xaricə ixracını artırmaq və dünya neft bazarında Amerikanın “Standart Oyl” kompaniyası ilə rəqabəti gücləndirmək idi. Belə bir sindikat layihəsi V.İ.Roqozin tərəfindən hazırlandı və 1891-ci ilin yanvarında “Neft sənayeçiləri qurultayı”nda müzakirə edildi. V.İ.Roqozinin layihəsini öyrənmək üçün ittifaq xüsusi komissiya seçdi və komissiya həmin ilin martında layihəni səhihləşdirib başa çatdırdı. Lakin neft sənayeçilərindən bəziləri separat danışıqlara girməklə müqavilə bağlanmasını pozdular [9, 145]. Buna baxmayaraq, “Bakı standartı” adlı sindikat təsis edildi. Onun tərkibində H.Z.Tağıyev, Q.M.Lianozov, Budaqov qardaşları və A.İ.Mantaşov daxil idilər [14, 49]. Qeyd etmək lazımdır ki, “Bakı standartı” Nobel və Rotşildin iştirakı olmadan yaranmışdı və neft məhsullarının qiymətinin aşağı olması, eləcə də sindikat üzvlərinin sayının məhdudluğu səbəbindən bazarda ciddi bir dəyişilik edə bilməmişdi. Lakin bununla belə, sindikat yerli ağ neft istehsalçılarına bir təşkilatda birləşməyin əhəmiyyətini göstərdi.

1893-cü ildə isə neft sənayeçilərinin Peterburq müşavirəsində “Bakı Ağ Neft Zavod Sahibləri İttifaqı” adlı inhisar birliyi yaradıldı. Bakıdakı ağ neft zavod sahibləri bu ittifaqa daxil idi və emal edilən neft məhsullarının əksər hissəsi həmin inhisar birliyinin payına düşürdü. Bakı Ağ Neft Zavod Sahibləri İttifaqı Bakıda istehsal olunan neft məhsullarının 98%-ni verirdi. Bu ittifaq da 1897-ci ildə daxili çəkişmələr nəticəsində dağıldı [14, 55-58].

XIX əsrin 90-cı illərində neft sənayesinin inkişafı qərb kapitalının axını ilə yanaşı, həm də istehsalın təmərküzləşməsi və səhmdar cəmiyyətlərin yaranması ilə səciyyələnirdi. Belə ki, 1890-cı ildə bütün 83 şirkət 226,3 mln pud neft hasil etmişdi ki, bunun da 147,3 mln pudu istehsal gücü 10 mln pud olan 8 şirkətin payına düşürdü [14, 98].

XX əsrin əvvəllərində baş vermiş dünya iqtisadi böhranı, rus-yapon müharibəsi, 1905-1907-ci illər rus inqilabı ölkə iqtisadiyyatının bütün sahələrinə, o cümlədən neft sənayesinə öz mənfi təsirini göstərdi. Neft sənayesindəki böhranın səbəbi neft və neft məhsullarının həddindən artıq istehsalı idi. Lakin bununla belə, Bakıda fəaliyyət göstərən firmaların heç də hamısı böhrana məruz qalmamışdı. Əksinə, onların dividenti 27,3 %-dən 68,8%-ə qalxmışdı. Bunun əsas səbəbi həmin firmalar tərəfindən Avropadakı uğurlu neft satışının davam etdirilməsi və xam neftin daha əvvəlcədən bağlanmış müqavilələr üzrə satılması ilə əlaqədar idi [7, 140-141].

Böhranın ilk əlamətləri 1901-ci ilin yazında neftə olan tələbatın azalmasında özünü göstərdi. Vəziyyəti çətinləşdirən məsələ isə ondan ibarət idi ki, bu dövrdə Bakıda nəhəng neft ehtiyatı – 131,1 mln pud neft toplanmışdı. 1902-ci ildə isə böhran neft sənayesinin bütün sahələrinə yayıldı. Qazma işləri, hasilat, emal ixtisar olundu. Kəşfiyyat işlərinin həcmi azaldıldı.

Böhranla əlaqədar olaraq xırda və orta müəssisələrin iflasa uğraması nəticəsində istehsalın təmərküzləşməsi prosesi də sürətlənmişdi. Belə ki, Bakıda çıxarılan neftin 50%-i 6 neft şirkətinin payına düşürdü. 1901-ci ilin məlumatlarına görə, Bakıda istehsal olunan neftin 25%-i, ixrac olunan ağ neftin 40%-i, Rusiyaya göndərilən neft məhsullarının isə 70%-i "Nobel qardaşları birliyi", Mantaşov və Rotşildin nəzarət etdikləri 3 neft şirkətinin payına düşürdü. 1904-cü ilin məlumatına görə isə İngiltərə ağ neftə olan tələbatın 47,1%-ni, Fransa isə 71,1%-ni Bakının hesabına ödəyirdi [1, 210]. Bu dövrdə iri neft şirkətləri hətta ixracatı da artıraraq neft satışından böyük gəlir əldə etmişdilər. Belə ki, 1902-1904-cü illərdə "Nobel qardaşları" şirkəti 9,3 milyon manat, "Bakı Neft Cəmiyyəti" isə 1 milyon manat gəlir götürmüşdü [1, 211].

1910-cu ildən Rusiya iqtisadiyyatında yüksəliş baş verdi. Bu yüksəliş XIX əsrin sonlarında baş vermiş yüksəlişdən xeyli fərqlənirdi. Belə ki, əgər XIX əsrin sonlarında çar hökuməti ölkəyə xarici kapital cəlb etməklə iqtisadiyyatı inkişaf etdirmək istəyirdisə, bu dövrdə əsas diqqəti ölkənin daxili resurslarının artırılmasına və bütün sahələrdə istehsalın genişləndirilməsinə yönəltmişdi. Lakin bununla belə Bakı neft sənayesində sabitləşməyə nail olmaq mümkün olmadı. Hətta 1913-cü ildə cəmi 468 milyon pud neft hasil olunmuşdu ki, bu da 1901-ci illə müqayisədə 200 milyon pud az idi. Bunun səbəblərindən biri də sənayedə istifadə olunan texniki vasitələrin müasir tələblərə cavab verməməsi idi. Belə ki, dövrün kapitalist ölkələrində neft sənayesində dərin nasoslar, kompressorlar, elektrik motorları, daxiliyanma mühərriklərindən istifadə olunurdusa, Bakıda neftin 4/5 hissəsi buxar mühərrikləri ilə çıxarılırdı. Nəticədə yaranmış neft qıtlığından istifadə edən iri neft şirkətləri qiymətləri 2-8 dəfə artıraraq böyük qazanc götürürdülər [1, 211].

Birinci Dünya müharibəsi başladıqdan sonra isə Azərbaycan iqtisadiyyatı, xüsusən də Bakı neft sənayesi hərbi istehsalata keçdi. Müharibə dövründə Bakı neft rayonunda 28.683 min ton neft çıxarılmışdı.

Müharibə illərində Bakı şəhəri özü də böyük əhəmiyyət kəsb edirdi. Belə ki, imperialist dövlətlərin planlarında neft Bakısı Cənubi Qafqaza sahib olmaq üçün əsas strateji baza kimi nəzərdə tutulurdu. Digər tərəfdən onlar üçün Bakı ən mühüm xammal bazası, bütövlükdə isə Şərqə təsir edərək, ona sahib olmaq üçün bir açar rolunu oynayırdı. Təəccüblü deyil ki, Amerika alimi Lui Fişer 1926-cı ildə Nyu-Yorkda nəşr edilən neft uğrunda beynəlxalq mübarizəyə həsr olunmuş "Neftin imperializmi" kitabında bir fəsli "Bakı uğrunda mübarizə" adlandırmışdı [5, 14-15].

**Nəticə**

XIX əsrin ikinci yarısından başlayaraq, çar Rusiyasının özünün xammal mənbəyi kimi gördüyü Azərbaycanda bir sıra islahatlar keçirməsi ölkədə iqtisadi inkişafa xeyli təkan verdi. Bunlardan ən önəmlisi 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğv edilməsi idi ki, məhz bundan sonra Rusiya imperiyasının iqtisadi həyatında mühüm rol oynayan Azərbaycan neft sənayesinin tarixində dönüş nöqtəsi olmuşdu. Geniş kapital axını və hasilatın artması neft sənayesinin inkişafına yol açmış və nəticədə o, XIX əsrin sonlarında neft hasilatına görə dünyada birinci yerə çıxmış çar Rusiyasının iqtisadiyyatında aparıcı sahəyə çevrilmişdi.

Neft sənayesinin inkişafı Azərbaycanda həm də sahibkarlıq fəaliyyətinin inkişaf etməsində, milli burjuaziyanın formalaşmasında müəyyən qədər rol oynamışdı. Həmçinin ölkədə əhalinin güzəranının da nisbətən yaxşılaşmasına şərait yaratmışdı. Təsadüfi deyil ki, Azərbaycanın görkəmli ziyalılarından olan Həsən bəy Zərdabi 1889-cu ildə "Kaspi" qəzetində yazırdı: " ...Uzun müddət Cənubi Qafqazın şərq hissəsi vəba ölkəsi kimi görünürdü. Nəhayət, daşlı

və susuz tarlalarda neft bulaqları fışqırdı və fontan sahibləri tezliklə, milyonlar qazandılar. Hər yerdən buraya kapital və beyin axını başladı və burada həyat canlandı".

Birinci Dünya müharibəsi illərində də dünya neft hasilatının 75%-i Bakının payına düşürdü. Neftin müharibədə həlledici vasitə olduğunu bilən dövlətlər Bakı ilə bağlı bir sıra planlara da sahib idilər. Bir tərəfdən müharibədə məğlub olmağa başlayan Almaniya və Osmanlı dövləti Bakı neftinə sahib olmaq istəyir və bununla da müharibədə öz xeyirlərinə bir dönüş yaratmağı ümid edirdilər. Digər tərəfdən isə Yaxın Şərqdə böyük qüvvə saxlayan Böyük Britaniya heç bir dövləti buraya buraxmaq istəmirdi.

Beləliklə də, XIX əsrin sonu XX əsrin əvvəllərində Bakı neft sənayesinin vəziyyətindən bəhs edərkən belə bir nəticəyə gəlmək olar ki, bu dövrdə neft sənayesinin inkişafı, istehsalın təmərküzləşməsi və kapitalın mərkəzləşməsi prosesi nəticəsində Azərbaycan həm dünya iqtisadiyyatında, həm də siyasətində mühüm yer tuturdu.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abdullayev M. Azərbaycan tarixi. B., 2014.*

*2. Həsənov H.N. Bakı nefti və Nobellər, B., 2009.*

*3. Həsənov M. Nobellər neft, milyonçular və qoçular şəhərində, B., 2018.*

*4. Xəlilov P. XIX əsrin sonlarında Bakı neft sənayeçiləri qurultayının strukturuna dair // Bakı Universitetinin xəbərləri, B., 2010, №1, səh.128-134.*

*5. İsmayılov İ. Azərbaycan nefti XX əsrdə. B., 2007.*

*6. İsmayılov M. El atası B., 1993.*

*7. İsmayılov M., İbrahimov M. Azərbaycan neft sənayesinin inqilaba qədərki tarixi, B., 1991.*

*8. Mehdiyev Ə. Azərbaycan neft sənayesi XIX əsrin son rübündə, B., 2000*

*9. Musayev M.Ə. XIX əsrin sonlarında Bakı şəhərinin ticarəti ( 1883-1900), B., 1972*

*10. Nuriyeva Z. N. Azərbaycan sənayesində milli burjuaziya. B., 1999.*

*11. Айдамиров Т. Вывоз Бакинской нефти из Азербайджана XIX-XX вв.Б., 2014*

*12. Ахундова Б.Ю. Монополистический капитал в дореволюционной бакинской нефтяной промышленности. М., 1959*

*13. Ибрагимов М.Дж. Предпринимательская деятельнось Г.З.Тагиева .Б., 1990*

*14. Нардова В.А. Начало монополизации бакинской нефтяной промышленности в России Л., 1964*

*15. Сумбатзаде А.С. Промышленность Азербайджана в XIX в. Б., 1964.*


### XIX əsrin sonu-XX əsrin əvvəllərində Bakı neft sənayesinin ümumi durumu haqqında

### XÜLASƏ


Neft Azərbaycan ərazisində hələ qədim zamanlardan insanlara məlum olmuşdur. Lakin onun xalqımızın həyatında mühüm amilə çevrilməsi XIX-XX əsrlərə təsadüf edir. Çünki məhz bu dövrdə ölkənin həm iqtisadi, həm də siyasi həyatında baş verən bir çox dəyişikliklər Azərbaycan neft sənayesinin sürətlə inkişaf etməsinə gətirib çıxarmışdı.

Çar Rusiyası XIX əsrin ikinci yarısından başlayaraq iqtisadi sahədəki çətinliklərini aradan qaldırmaq üçün ölkədə, o cümlədən Azərbaycanda bir sıra islahatlar keçirdi. Azərbaycanda həyata keçirilən islahatlardan biri 1872-ci ildə neft sənayesində iltizam sisteminin ləğv edilməsi oldu. Məhz iltizam sisteminin ləğv edilməsi Bakıda neft hasilatının yüksəlməsinə və neft emalı sənayesinin inkişafına təkan verdi. Neft sahəsindəki bu yüksəlişdən sonra isə Rusiya iqtisadiyyatı Amerika kerosinin asılılığından azad olmuş, Azərbaycan isə XIX əsrin sonu-XX əsrin əvvəllərində dünyanın əsas neft mərkəzlərindən birinə çevrilmişdi.



**Açar sözlər:** *neft, neft sənayesi, iltizam sistemi, sahibkarlar, H.Z.Tağıyev*


### Общее положение бакинской нефтяной промышленности в конце XIX-начале XX вв.

### РЕЗЮМЕ


Нефть известна в Азербайджане с древних времен. Однако его превращение в важный фактор жизни нашего народа относится к XIX-XX векам. Потому что именно в этот период многие изменения как в экономической, так и в политической жизни страны привели к бурному развитию азербайджанской нефтяной промышленности.

Со второй половины XIX века царская Россия провела ряд реформ в стране, в том числе и в Азербайджане, для преодоления экономических трудностей. Одной из реформ, осуществленных в Азербайджане, стала отмена откупной системы

в нефтяной промышленности в 1872 году. Именно отмена откупной системы дала толчок росту добычи нефти и развитию нефтеперерабатывающей промышленности в Баку. После этого нефтяного бума российская экономика освободилась от зависимости от американского керосина, а Азербайджан в конце 19 - начале 20 веков стал одним из крупнейших мировых нефтяных центров.

**Ключевые слова:** *нефть, нефтяная промышленность, откупная система, предприниматели, Г.З. Тагиев*

**The common condition of the Baku oil industry in the late XIX and early XX centuries**

**SUMMARY**

Oil has been known in Azerbaijan since ancient times. However, its transformation into an important factor in the life of our people dates back to the XIX-XX centuries. Because it was during this period that many changes in both the economic and political life of the country led to the rapid development of the Azerbaijani oil industry.

Since the second half of the 19th century, Tsarist Russia has carried out several reforms in the country, including Azerbaijan, to overcome its economic difficulties. One of the reforms implemented in Azerbaijan was the abolition of the obligation system in the oil industry in 1872. One of the main reasons for the abolition of the obligation system was the growing demand for oil products in Russia. So, the abolition of the obligation system that stimulated to the growth of oil production and the development of the oil refining industry in Baku. After this rise in the oil sector, the Russian economy became free from dependence on American kerosene, and Azerbaijan became one of the world's major oil centers in the late 19th and early 20th centuries.

**Key words:** *oil, oil industry, obligation system, entrepreneurs, H.Z.Tagiyev*

UOT 94

# OSMANLI XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ QABRİEL NORADUNKYANIN FƏALİYYƏTİ

**NƏRMİN İSMAYILOVA**
*Bakı Dövlət Universitetinin Erməni Araşdırmaları və Təlim Mərkəzinin mütəxəssisi*

*E-mail: narminismayilova098@gmail.com*

**Giriş:** Osmanlı dövləti XVII əsrin ikinci yarısından etibarən istər daxili, istərsə də xarici siyasətdə bir sıra problemlərlə qarşılaşdı. Bu problemlərin qarşısını almaq üçün dövlət idarəçiliyində olanlar islahat proqramları hazırlamağa başladılar. Bununla, onlar II Fateh Mehmet və Sultan Süleyman Qanuni dönəmlərini geri qaytarmağa çalışırdılar. Lakin problemlərin təməl nöqtəsi araşdırılmadığı üçün sistemli tədbirlər planı ortaya qoymaq mümkün olmadı.

Məlumdur ki, Karlovitsa sülh müqaviləsində Osmanlı dövləti torpaqlarının əksəriyyət hissəsini itirdi. XVIII əsrdə artıq Avropanın üstünlüyü qəbul edildi və buna görə də onun təcrübəsindən istifadə edilməyə başlanıldı. III Əhməd, I Mahmud, I Əbdülhəmid kimi sultanlar Avropanın təcrübəsindən yararlanmağa çalışdılar. Qeyd olunan sultanlara nisbətən III Səlim ilk dəfə sistemli şəkildə Avropa tipli islahatlar keçirməyə cəhd etdi. Lakin bu islahatlar müəyyən bir dövr üçün aktual olaraq qalırdı və öz əhəmiyyətini tez bir zamanda itirirdi. II Mahmud dövründə də bir sıra radikal tədbirlər həyata keçirildi. Lakin bu tədbirlər də proqramsız olduğuna görə tezliklə əhəmiyyətsiz xarakter aldı [3, 36].

Hərbi, siyasi geriliyi aradan qaldırmaq üçün Sultan Əbdülməcid dövründə iki fərman verildi. Birincisi, Mustafa Rəşid paşanın hazırladığı və Sultan Əbdülməcid tərəfindən 3 noyabr 1839-cu il tarixində elan edilmiş "Gülhanə Hatt-ı Humayunu" adlandırılan Tənzimat (Tənzimləmə) Fərmanı, XIX əsrin ilk yarısındakı siyasi tənzimləmələrin ən əhəmiyyətlilərindən biri idi. [2, 50] İkincisi isə İslahat fərmanı idi. Birinci fərmanda Osmanlı dövlətinin bütün əhalisi üçün islahatlar nəzərdə tutulmuşdu. İkinci fərmanda isə Osmanlıda yaşayan qeyri-müsəlmanların müsəlman əhali ilə bərabərliyinin təmin edilməsi və hüquqlarının müdafiəsi məsələsi əsas idi. Beləliklə, müsəlmanlarla qeyri-müsəlmanlar arasındakı ixtilaflar aradan qalxacaq və dövlətdə qeyri-müsəlmanlar öz yerlərini tutacaqlardı. 1856-cı ildəki İslahat Fərmanından sonra qeyri-müsəlmanlar birinci dərəcəli xidmətlərə; qubernator, general qubernator, müfəttiş, səfir və hətta nazir təyin edilməyə başladılar [1, 65].

İmperiyanın son dövründə, demək olar ki, bütün nazirliklərdə, xüsusən də xarici işlər nazirliyində çoxlu qeyri-müsəlmanlar xidmət edirdi. İslahat fərmanı "Osmançılıq" siyasətini yerinə yetirməli idi. Ancaq fərman 1856-cı il Paris anlaşmasının tərkib hissəsi kimi qəbul edildiyindən Avropa dövlətləri xristianlar vasitəsilə Osmanlı dövlətinin daxili işlərinə qarışırdı [7, 148].

Hətta türk erməniləri də yazdıqları əsərlərində Osmanlı sultanları dövründə ermənilərin mövqeyindən bəhs etmişlər. Öz sözləri ilə desək, atası Osmanlı ordusunun zabiti kimi Çanaqqala döyüşlərində "şəhid olan" Rh. Y. G. Çark 1953-cü ildə nəşr olunmuş "Türk Devleti Hizmetinde Ermeniler" adlı kitabında çıxışına belə başlayır: "İnanıram ki, Sultan Fatehin (1430-1481) İstanbulu fəthi ilə ermənilərin gələcəyi üçün yeni bir ulduz parlamağa başladı desəm, tarixi bir həqiqəti önə çıxarmış olaram... Əgər türklər İstanbula gəlməsəydilər və ya onların gəlişi geciksəydi, bu çox şübhəlidir, bəlkə də ermənilərin İstanbulda məskunlaşmasının, inkişaflarının izlərinə belə rast gəlinməzdi!" [11].

**Qabriel Noradunkyanın Osmanlı Xarici İşlər Nazirliyində fəaliyyət dövrü:** XVII əsrin sonlarında Osmanlı daxili işlərində Babıali geniş yer tutmağa başladı və uzun müddət imperatorluq onun aldığı qərarlarla idarə olundu. XIX əsrdə isə şərtlər dəyişdi, Osmanlı İmperiyasının bürokratiya və diplomatiyadakı qeyri-kafiliyi daha da dərinləşdi. Sultan II. Mahmud böyük vəzir və şeyxülislamda toplanan səlahiyyətləri Qərb dövlətlərində olduğu kimi müxtəlif nazirliklər arasında bölüşdürərək Osmanlı idarəsində yeni bir qaydaya imza atdı. Böyük vəzirlik baş nazirliyə çevrildi və baş nazirin nazirlər arasında harmoniyanı qoruyan dövlət xadimi kimi çıxış edəcəyi ifadə edildi. Artıq xarici məsələlərin müstəqil bir sahədən idarə olunması zəruri olduğu üçün II. Mahmudun qərarı ilə 1836-cı il martın 11-də Xarici İşlər Nazirliyi quruldu və Akif Əfəndi ilk nazir təyin edildi [8, 66].

1836-cı ildə Xarici İşlər Nazirliyinin yaradılmasından 1922-ci ildə Osmanlı İmperatorluğunun dağılmasına qədər burada 71 nazir fəaliyyət göstərmişdir. Bu nazirlərdən 4-ü qeyri-müsəlman idi [9, 72].

1821-ci il Mora (Yunan) üsyanından sonra Os-

manlı imperatorluğu və Rusiya arasında imzalanan Ədirnə müqaviləsinə görə, Yunanıstanın muxtariyyət alması ilə Osmanlı idarəsində yunanların yerini ermənilər almağa başladı. Osmanlı dövlətinin tərkibində uzun müddət yaşayaraq yerli əhalinin adət-ənənələrini tezliklə mənimsəyən ermənilər dövlət və özəl sahələrdə müxtəlif vəzifələr tutmuşdular [9, 7].

Osmanlı dövlətində fəaliyyət göstərən və ən önəmli vəzifələr tutan, xüsusilə də, ilk dəfə nazir vəzifəsinə qədər yüksələn erməni əsilli məmurlardan biri də Qabriel Noradunkyandır. İlk təhsilini İstanbulda alan Q.Noradunkyan 1869-cu ildə Kadıköydəki fransız kollecindən məzun olmuşdur. Təhsilini Parisdə davam etdirmiş, hüquq, siyasi elm və diplomatiya sahələrində təhsil almışdır. Fransız, ingilis, italyan dillərini mükəmməl öyrənmişdir. Yaxşı təhsil alandan sonra hələ 19 yaşında ikən 24 aprel 1871-ci ildə Xarici İşlər Nazirliyinə mülâzameten (stajçı olaraq) daxil olur və dörd ay sonra Xarici İşlər İdarəsinə keçir. Xarici İşlər Nazirliyində işlədiyi müddətdə Osmanlının xarici dövlətlərlə, xüsusilə də Avropa dövlətləri ilə əlaqələrində mühüm rol oynamışdır. Bu dövrdə o, həmçinin səfir kimi də fəaliyyət göstərmişdir. Çetinə (Podgorika) səfirliyindəki vəzifəsi məmur olduğu müddətcə xaricə son səfəri olmuşdur. Xəstəliyi ilə əlaqəli olsa belə, xaricə getmək tələbi II Əbdülhəmid tərəfindən rədd edilmişdir. O dövrdə dövlətin üzləşdiyi ən mühüm problemlərdən birinin erməni məsələsi olduğunu nəzərə alaraq, düşünmək olar ki, sultan dövlətin önəmli sahələrində mühüm vəzifələr tutan erməni əsilli məmurun xaricə getməsindən və ordakı fəaliyyətindən ehtiyat edirdi.

Noradunkyan həm də ölkənin digər sahələrində də fəaliyyət göstərmişdir. Ticarət və nafiə naziri kimi proqramlar irəli sürmüşdür. Bu vəzifələrdən getdikdən sonra onun irəli sürdüyü proqramlar da yarımçıq qalmışdır.

1912-ci ildə xarici işlər naziri kimi fəaliyyətə başladığı dövr Osmanlı dövlətinin böhranlı dövrünə təsadüf edir. Bu dövrdə daxildə "İttihad və tərəqqi" ilə mübarizə, xaricdə isə Trablis və Balkan savaşları məhz onun nazirlik dövründə baş vermişdir.

Müharibə zamanı dövrün yeni böyük dövlətlərindən biri olan İtaliya ilə gərgin diplomatiya yaşandı. Bununla yanaşı, Osmanlı imperiyası Balkan dövlətləri ilə eyni vaxtda döyüşmək məcburiyyətində qaldı. Rusiya və dövrün digər böyük dövlətləri sözdə Osmanlı imperiyası ilə diplomatik əlaqələr qursalar da, faktiki olaraq Osmanlıya qarşı müharibə edən dövlətləri yönətməyə çalışırdılar. Bütün bu diplomatiya hərəkatının mərkəzində təbii olaraq xarici işlər naziri Noradunkyan Əfəndi dayanırdı [12]. Balkan dövlətlərinin baş qaldırması ilə Osmanlı dövləti İtaliya ilə müqavilə bağlamağa məcbur oldu. 18 oktyabr 1912-ci ildə İtaliya və Osmanlı arasında Uşi müqaviləsi imzalananda Noradunkyan hələ də öz vəzifəsində fəaliyyət göstərirdi və bu, italyanları təəccübləndirirdi. Almaniyanın xarici işlər nazirinin müşaviri Zimmerman isə bunu, bütün məsuliyyətin xristian bir dövlətlə savaşda erməni, yəni xristian əsilli bir nazirin üzərinə atmaqla əlaqələndirirdi. Balkan dövlətləri ilə də müharibə zamanı Noradunkyanın fəaliyyəti dövlət lehinə idi. Sülh bağlamaq üçün mübahisəli ərazi Ədirnə idi. Bolqarıstan isə bu ərazinin özündə qalmasında israrlı idi. Noradunkyan Əfəndi Ədirnənin Osmanlı İmperatorluğu və sülh üçün nə qədər əhəmiyyətli olduğunu göstərmək baxımından bu qətiyyətli açıqlamanı verdi: "Ədirnə müqavimət göstərməyə davam edərsə, onu xilas etmək üçün mübarizə aparacağıq. Ədirnə düşsə, onu geri almaq üçün mübarizə aparacağıq [5, 166].

**Qabriel Noradunkyanın mühacir dövrü.** "İttihad və Tərəqqi" partiyası baş verən müharibələrdə II Əbdülhəmidi günahkar hesab edir və Xarici İşlər Nazirliyinin erməni əsilli bir nazir tərəfindən idarə olunmasına müsbət yanaşmırdı. Buna görə də 1913-cü il yanvarın 23-də Babıali baskınından sonra Noradunkyan yaranan heç bir hökumətin daxilində vəzifə almadı. 1913-cü il yanvarın 26-da o, ailəsi ilə birlikdə Fransaya köçdü [13].

Məhz bu baxımdan onun fəaliyyətini iki dövrə ayırmaq olar. Birinci dövr onun Osmanlı Xarici İşlər Nazirliyində çalışdığı, ikinci dövr isə işindən istefa verib xaricə getdiyi dönəmdir.

O, Fransada məskunlaşdıqdan sonra başqa şəxsiyyətə bürünərək dövlətə qarşı çıxdı. Bir neçə il siyasi müzakirələrdən uzaqlaşan Noradunkyan Birinci Dünya müharibəsində Osmanlı imperiyasının məğlubiyyətindən sonra meydana çıxdı və müstəqil Ermənistan naminə fəaliyyət göstərən Ermənistan nümayəndə heyətinin tərkibində iştirak etdi. O, məğlub olmuş dövlətlərin bölüşdürülməsinin müzakirə edildiyi Paris Sülh Konfransında Boqos Nubar Paşa ilə birlikdə erməni nümayəndə heyətinə başçılıq etmiş və Antanta dövlətləri qarşısında hələ də mənsub olduğu Osmanlı dövlətinin əleyhinə çalışmışdır. Nümayəndə heyəti xüsusilə Türkiyənin şərqində erməni dövlətinin qurulmasına diqqət yetirmiş və Sevr

müqaviləsi ilə bu istəklərinə nail olmuşdur.

Lozanna konfransında azlıqlar məsələsi ilk dəfə 1922-ci il dekabrın 12-də İngiltərənin xarici işlər naziri Lord Kerzonun sədrliyi ilə keçirilən iclasda müzakirə edilmişdir. Konfrans zamanı Böyük Britaniya hökuməti Ermənistan nümayəndələrinin mövzu ilə bağlı fikirlərini nəzərə alaraq konfransda bir sıra siyasi münasibəti müəyyən etdi. Anevrin Uilyamsın sədrlik etdiyi İngiltərə-Erməni Komitəsi Lozannadakı ingilis nümayəndələrinə göndərdikləri məktubda ermənilərin Antanta dövlətləri qarşısında böyük xidmətlər və fədakarlıqlar göstərdiklərini bildirmiş və bu dövlətlərin müstəqil dövlət təmin etmək üçün çoxlu vədlər verdiyini bildirmişdir. Həmin məqalədə İrəvanda Ermənistan Respublikasındakı 1 milyon erməni əhalisi ilə yanaşı, Türkiyədən köçmüş 400 min erməni qaçqının da olduğu, Türkiyə sərhədləri daxilində isə 1 milyon qeyri-müsəlman azlığın olduğu bildirilirdi. İstanbul da daxil olmaqla mövcud Parlament Hökuməti və onların məhv edilmə təhlükəsi ilə üzləşdiklərini söylədi. Lozanna konfransında İrəvan hökumətini Aharonyan və Hadisyan, xaricdə yaşayan erməniləri isə keçmiş xarici işlər naziri Qabriel Noradunkyan təmsil etməli idi [10, 275].

Erməni heyəti bu konfransda üç hədəfə çatmağa çalışırdı: 1-Birləşmiş və müstəqil bir Ermənistanın gerçəkləşməsi, 2-müvəqqəti həll yolu kimi Şərqi Anadoluda milli ocağın qurulması, 3- onların Lozanna konfransına qəbulları [6, 265].

İngilislər Osmanlı dövlətini məhv etmək üçün ermənilərə tərəfdar çıxırdılar. Ermənilər bu yolla konfransda iştirak etmək istəyirdilər. Lakin Osmanlı tərəfinin etirazı ilə onlar yalnız azlıqlarla bağlı alt komitədə iştirak hüququ aldılar. Bütün bunlara baxmayaraq Lozannada irəli sürdükləri təkliflər türklər tərəfindən qəbul edilmədi. Danışıqlarda Türkiyə nümayəndə heyətinin erməni tələblərinə barışmaz yanaşması erməni nümayəndə heyətinin ümidlərini tükəndirdi və son addım olaraq Noradunkyan Əfəndi İsmət İnönü və Rza Nurla görüşdü. Sözügedən görüşdə o, Türkiyədə ermənilərin birgə yaşaya biləcəyi yurd tələb edirdi. İsmət İnönü və Rza Nur hər ikisi bənzər şəkildə bu təklifi kəskin olaraq rədd etmişdilər.

Buna görə də Qabriel Noradunkyan xaricdə yaşayan ermənilərlə bağlı bir hesabat hazırladı və Lozanna müqaviləsindən sonra İsmət İnönüyə xüsusi məktub göndərdi. Məktubun transkripsiya forması aşağıda verilmişdir:

24 iyul 1924-cü il tarixli bu məktubunda o, müraciətini mülayimləşdirir. Fransada olduğu üçün başqa ölkədə yaşamasına baxmayaraq, doğulub boya-başa çatdığı Türkiyəyə olan maraq və bağlılığını vurğulayır. O, qırx illik siyasi və inzibati təcrübəsinə əsaslanaraq, aşağıdakı məsələləri qısaca təqdim edir. Əvvəla, o, şikayətlənir ki, Osmanlı dünyasını ehtiva edən bir çox adət-ənənələr, tikililər dağıdılsa da, yerində yeni dövlət qurulsa da, ermənilər bundan yararlana bilmədilər. O bildirir ki, altı əsrlik inam və əmin-amanlıq Əbdülhəmid dövründə bir sıra xoşagəlməz hadisələrin yaratdığı mənfi düşüncələr ucbatından sarsılmışdır. Xüsusilə deportasiya ilə başlayan və Milli Mübarizə dövrü ilə davam edən erməni köçləri bu camaatı çox pis şəraitdə yaşamağa məcbur etdiyini deyir. Bu gün və gələcək mənafeyi türklərin dostluğundan və himayəsindən asılı olan ermənilərin öz ölkələrinə qayıtmasına şərait yaradılmasının, getdikləri zaman qalan mal və mülklərin geri qaytarılmasının vicdanlı, inzibati və siyasi zərurət olduğu vurğulanır. Məktubunun davamında bildirir ki, yeni türk dövlətinin əcdadları döyüşərək sərhədlərini genişləndirərkən, digər tərəfdən də olduqları coğrafiyaya ədalət paylayaraq digər dövlətlərin və toplumların sədaqətini təmin edirlər. Belə bir keçmişi olan bu millətin övladlarının dərddə olan ermənilərə yardım əlini uzadacağını və beləliklə, milli xüsusiyyətlərini ortaya qoyan yeni türk dövlətinin milli birlik və bütövlüyünü yaradacağını ifadə edir [5, 173].

**Nəticə:** Məqalədəki əsas məqsəd osmanlıların ermənilərə, ümumiyyətlə qeyri-müsəlmanlara olan münasibətini açmaqdır. Ermənilərin hakim idarələrdə digər qeyri-müsəlman əhaliyə nisbətən çoxluq təşkil etməsi onların nə qədər nüfuz sahibi olduğunu göstərir. Bu baxımdan onların türklər tərəfindən soyqırıma məruz qalmaları fikrinin əsassız olması bir daha öz əksini tapır.

Həmçinin məqalədə sırf şəxsiyyətin fəaliyyətinin ön plana çəkilməsi ermənilərin əsl məramlarını ortaya qoymaqda önəmlidir. Qabriel Noradunkyan Osmanlıda doğulub, yüksək təhsil almışdır. Fəaliyyətinin ilk dönəmində dövlətin həm daxili, həm də xarici işlərində yaxından iştirak etmiş, daim dövlət lehinə proqramlarla çıxış etmişdir. I Dünya Müharibəsindən sonra Osmanlı dövlətinin zəifləməsi, həmçinin təzyiqlər nəticəsində istefa verib Fransada məskunlaşması onun fikirlərində fərqliliklər yaratmışdır. Təbii olaraq, bu da onun fəaliyyətində təzadlara yol açmışdır.

**Açar sözlər:** *Qabriel Noradunkyan, Osmanlı imperiyası, Lozanna konfransı, Xarici İşlər Naziri, qeyri-müsəlmanlar, İslahat fərmanı, Tənzimat fərmanı.*

### ƏDƏBİYYAT SİYAHISI:


*1. Abdülazim İbrahim "Tanzimat sonrası Gayrimüslim Osmanlı tebaasının hukuki durumu" NEÜ Hukuk Fakültesi Dergisi, Cilt 5, 2022 , s. 63-91*

*2. Ahmet Dönməz "Tanzimat, İslahat fermanları ve Avrupa devletleri: İçerik, ortaya çıkış ve tepkiler (1839-1856)", Uluslararası Tarih ve Sosyal Araştırmalar Dergisi Tarihin Peşinde 2019 s. 37-65*

*3. Ali Akyıldız "Osmanlı Bürokrasisi ve Modernleşme", İletişim Yayınları 2012, s. 239*

*4. Ercan Karakoç " Gabriel Noradunkyan Efendinin Ermeni Meselesiyle ilgili hazırladığı rapor ve Lozan Antlaşması sonrasında İsmet İnönüye gönderdiği hususi mektub", Ermeni araştırmaları dergisi 2010, s.115-131*

*5. Ercan Karakoç "Osmanlı Hariciyesinde bir Ermeni Nazır: Gabriel Noradunkyan Efendi", Uluslararası İlişkilər, Cilt 7, (Bahar 2010), s. 157-177*

*6. Haluk Selvi "Millet-i sadıkada isyan -Ermeni komitacıların gizli mektubları 1878-1923", Timaş Yayınları-2011, s. 288*

*7. Özcan Mert " Osmanlı türkləri idaresinde ermeniler", İstanbul Üniversitesi Yakın Dönəm Türkiye Araşdırmaları Dergisi 2003 s. 143-174*

*8. Mahmud Akpınar "Osmanlı İmparatorluğu'nda Hariciye Nezareti'nin Kuruluşu ve Dış Politikanın Kurumsallaşması" Tarih İncelemeleri Dergisi 2014, s.59-85*

*9. Musa Kılıç "Osmanlı Hariciyesinde Gayrimüslimler (1836-1876), Ankara-2009, s. 376*

*10. Mustafa Sıtkı Bilgin " Lozan Konferansı'nda Ermeni Meselesi: İtilaf Devletlerinin Diplomatik Manevraları ve Türkiye'nin Karşı Siyaseti" Dergi Park 2005, s. 268-283*

*11. Türk Devleti hizmetinde ermeniler. https://core.ac.uk/download/pdf/38321292.pdf*

*12. Gabriel Noradunkyan Efendi from Among the Ottoman Ministers of Armenian Origin (1852-1936). https://turksandarmenians.marmara.edu.tr/en/gabriyel-noradunkyan-efendi-from-among-the-ottoman-ministers-of-armenian-origin-1852-1936*

*13. İttihad ve Terakki Cemiyeti ve ermeniler (1908-1914). https://turksandarmenians.marmara.edu.tr/tr/ittihat-ve-terakki-cemiyeti-ve-ermeniler/*


**Narmin Ismayilova**

**Gabriel Noradunkyan's activity in the Ottoman Foreign Ministry.**

**SUMMARY**

In the article, Gabriel Noradunkyan - who attained the position of Ottoman Foreign Minister and his efforts during what we refer to as the second period are discussed. It should be recalled that the Ottoman state has always been a multinational one. People from these nations attained high positions in the Ottoman ruling hierarchy. Following the reform edict, Armenians were consistently chosen from among non-Muslims for positions inside the state. The article also illustrates Norandukyan's stance toward the Ottoman government after he left his position as foreign affairs minister. The focus was on his meeting with Ismet Inonu following the Lausanne summit and a special letter written to him on behalf of Armenians living abroad.

**Key words:** *Gabriel Noradunkyan, Ottoman Empire, Lausanne Conference, Minister of Foreign Affairs, non-muslims, Decree of Reform, Decree of Regulation.*

**Нармин Исмайлова**

**Деятельность Габриэля Норадункяна в МИД Османской империи.**

**РЕЗЮМЕ**

В статье обсуждаются Габриэль Норадункян, занявший пост министра иностранных дел Османской империи, и его усилия в период, который мы называем вторым периодом. Следует напомнить, что Османское государство всегда было многонациональным. Выходцы из этих наций занимали высокие посты в османской правящей иерархии. После указа о реформе армяне последовательно выбирались из числа немусульман на должности внутри государства. Статья также иллюстрирует позицию Норадункяна по отношению к османскому правительству после того, как он оставил свой пост министра иностранных дел. В центре внимания была его встреча с Исметом Иноню после саммита в Лозанне и специальное письмо, написанное ему от имени проживающих за границей армян.

**Ключевые слова:** *Габриэль Норадункян, Османская империя, Лозаннская конференция, Министр Иностранных Дел, немусульмане, указ о Реформе, указ о Регулировании.*

УДК 94"19/...

# ИЗУЧЕНИЕ ПРОБЛЕМЫ ДЕЯТЕЛЬНОСТИ КАВКАЗСКИХ ЛЕГИОНОВ НА СТОРОНЕ ТРЕТЬЕГО РЕЙХА В СОВРЕМЕННОЙ ИСТОРИОГРАФИИ

**ШАБАНОВА ХАЯЛЯ**
*Докторант, кафедры истории народов Кавказа*
*Бакинского Государственного Университета*
*E-mail: shabanovakhayala98@gmail.com*

**Введение:** В XX веке человечество пережило две мировые войны, которые привели к огромным человеческим потерям. Изучение истории Второй мировой войны весьма интересно. Многие аспекты данной проблемы освещены в монографиях, а также в научно-исследовательских работах. Одной из малоизученных проблем истории Второй мировой войны является проблема деятельности легионов на стороне Третьего Рейха. В период самой разрушительной войны человечества, сформировались легионы. Также создавались и вели свою деятельность коллаборационистские подразделения. Во второй половине XX века данная проблема изучалась в составе проблемы советского коллаборационизма. Коллаборационизм-добровольное сотрудничество с оккупантами. Из числа военнопленных стали формироваться легионы. Формирование легионов имело свои политические и военные цели.

Стратегически важным регионом, входившим в состав СССР, был Кавказ, который в этот период был в сферах интересов ряда сверхдержав. С нападением Гитлеровской Германии на СССР, Кавказ также был вовлечён во Вторую мировую войну. Огромное количество представителей народов Кавказа отправились на фронт. В период войны увеличивалось число военнопленных, которые в последующем сотрудничали с Германией.

Начиная с 1941 года, Гитлеровская Германия из числа военнопленных, в военных и политических целях начала формировать легионы. В ноябре — декабре 1941 г. Гитлер отдал распоряжения о формировании четырёх национальных легионов — Туркестанского, Грузинского, Кавказско-магометанского и Армянского. Деятельность легионеров и проблема коллаборационизма малоизучена, но весьма проблематична и интересна. Так что же вынудило представителей разных народов перейти на сторону Гитлеровской Германии? Причинами послужили политика репрессий и «Большого террора» в 30-х годах XX века и ряд проблем, связанных с политикой коллективизма. Исторические и политические причины отражены в монографиях и научных статьях.

Проблема деятельности кавказских легионов в современной историографии. Научная историография позволяет достоверно изучить многие проблемы истории. Историографию проблемы деятельности легионов на Кавказе можно на два периода: советская и современная. Историография современного периода отличается от современной историографии, идеологическим подходом. До конца XX века проблема советского коллаборационизма и деятельности легионов не была достаточно и объективно изучена. В советской историографии деятельности легионов была дана отрицательная оценка. Часто их называли «вредителями», «врагами народа» и «предателями».

После распада СССР, на Южном Кавказе произошло много изменений. Изменениям подвергается и историография. Отныне историки, изучая определённые проблемы истории, отказывались от внедрения коммунистической идеологии в трудах, и начали уделять внимание исследованию малоизученных проблем истории. Одной их таких проблем, была проблема деятельности кавказских легионов на стороне Третьего Рейха. В современной историографии вышеуказанная проблема изучается с новой призмы. Несмотря на то, что монографии, статьи, научные труды по данной проблеме малочисленны, в трудах современных отечественных и зарубежных историков, данная проблема правильно анализирована и объективно изучена. Историками глубоко изучены главные причины и исторические предпосылки формирования легионов. Особенности данной проблемы освещены как комплексно, так и частично в составе отдельных трудов. Среди исследований, также надо выделить научные статьи.

Также во многих монографиях и научных статьях легионы, формировавшиеся из числа во-

еннопленных, представителей народов Кавказа, даны под названием «Восточные легионы».

Проблема деятельности кавказских легионов в азербайджанской историографии. Рассмотрим изучение данной проблемы в азербайджанской (отечественной) историографии. Деятельность легионов в период Второй мировой войны была изучена азербайджанскими историками в рамках истории азербайджанской эмиграции.

Процесс деятельности азербайджанского легиона комплексно изучен азербайджанским историком Насиманом Ягублу. В своём труде «Азербайджанские легионеры»,[3] автор глубоко анализировал исторические причины и предпосылки формирования азербайджанского легиона. В труде историком рассмотрены такие вопросы как: особенности тоталитарного режима в Азербайджане в довоенный период, начало Второй мировой войны, процесс формирования азербайджанского легиона, деятельность печатных органов азербайджанского легиона.

Очередная монография Насимана Ягублу, «Фаталибейли Дудангинский», посвящённая 100-летию дня рождения истинного патриота – Фаталибейли Дудангинского [4]. В труде даются ценные биографические сведения о жизни и деятельности азербайджанского легионера.

В историографии можно выделить, те труды, в которых частично исследовалась проблема деятельности легионов. Одним из таких трудов является труд историка Джамиля Гасанлы «Советская политика по расширению южных границ: Сталин и азербайджанская карта в борьбе за нефть». В шестой главе данной монографии отводится место исследованию деятельности азербайджанской эмиграции. В написании монографии автор использовал уникальные материалы из архивов России, Азербайджана, Турции, Великобритании и других стран. В данной главе рассматриваются политические и военные цели Германии в создании военных подразделений из числа представителей народов Средней Азии и Кавказа. Изучаются процесс формирования азербайджанского легиона, деятельность азербайджанских легионеров. В монографии также отводится место исследованию вопроса формирования печатных органов легионов. Статистические данные, приведённые в данной монографии, также являются показателем объективного исследования столь сложной проблемы. [7]

Очередным весомым трудом, в котором также отводится место проблемам эмиграции периода Второй мировой войны, и вопросам формирования легионов, является совместный труд азербайджанского историка и дипломата Рамиза Абуталыбова и грузинского историка Георгия Мамулиа. В труде «Страна огней в борьбе за свободу и независимость» изучается проблема политической истории азербайджанской эмиграции в 1920-1945 годах. В восьмой главе монографии, авторами изучается вопрос политического аспекта азербайджано-германских отношений в период Второй мировой войны. Авторами анализируется план Розенберга по Кавказу, процесс формирования азербайджанского легиона. Также рассматривается проблема деятельности Азербайджанского национального комитета, и штаба связи.[6]

Азербайджанский историк Халеддин Ибрагимли в труде «История азербайджанской эмиграции», также анализирует процесс формирования легионов на стороне Германии. В монографии автор изучает исторические истоки процесса эмиграции. Рассматривая проблему деятельности легионов, автор отмечает причины формирования легиона: «Антибольшевистская позиция азербайджанцев (как и других народов) в период войны, которая в течение 20 лет подвергалась массовому террору после потери национальной независимости с большевистским вторжением в 1920 году, была логическим завершением исторических процессов».[2]

Изучение деятельности легионов в зарубежной историографии. В монографии грузинского историка Георгия Мамулиа: «Грузинский легион в борьбе за свободу и независимость Грузии в годы Второй мировой войны», даётся широкий анализ проблеме сотрудничества представителей кавказских народов с Гитлеровской Германией. В труде отводится место к таким вопросам:

- исторические истоки грузино-германских отношений;
- этапы формирования грузинского легиона;
- деятельность грузинских формирований Третьего Рейха в период Второй мировой войны;
- политические аспекты германо-грузинских взаимоотношений в период Второй мировой войны;

Историк также отмечает: «Занимающая ключевые геополитические позиции в кавказском регионе Грузия, рассматривалась германским генералитетом, прежде всего с военно-стратегической точки зрения. В качестве страны, являющейся как дверью на Ближний Восток, так и геоэкономической артерией, необходимой для обеспечения Германии столь необходимым для неё природным топливом Каспийского моря» [10; 17].

В труде «Восточные легионы и казачьи части в вермахте» С.Дробязко и А.Каращука изучается проблема формирования легионов и казачьих частей в вермахте [9]. Даны сведения о центрах формирования восточных легионов. Авторами представлены статистические сведения.

Некоторые главы посвящены деятельности легионов из представителей народов Кавказа, также особого соединения «Бергманн». В труде авторами использованы архивные фотоматериалы, иллюстрации знаков различия легионов вермахта.

В труде С.И.Дробязско «Под знамёнами врага», автор исследует проблему сотрудничества советских граждан с Гитлеровской Германией [8]. Автор относит эту проблему к «белым пятнам» истории Второй мировой войны. В труде анализированы следующие вопросы:

• Условия и причины формирования военных подразделений в составе вермахта.

• Организация восточных формирований.

• Деятельность восточных формирований в составе вермахта.

Военные формирования, сформировавшиеся в составе вермахта, названы антисоветскими формированиями. Автором в труде даны статистические и архивные фотоматериалы.

Российский и украинский историк О.В.Романько изучил проблему коллаборационизма периода Второй мировой войны. В труде «Мусульманские легионы во Второй мировой войне», автор отметил политические и военные причины формирования легионов, их численность [12].

Автор выделил среди них арабских, боснийских, балканских, среднеазиатских, северокавказских, азербайджанских добровольцев. Отмечается, что Германия создавая формирования из представителей мусульман, рассчитывала на поддержку Турции и мусульманского мира.

Немецкий военный историк Йоахим Хоффман, был крупным историком, изучившим историю Второй мировой войны. Его труды посвящены изучению истории советского коллаборационизма. В труде «Восточные легионы, 1941-1943: татары, кавказцы и поволжские финны в Вооружённых силах Германии», отводится место, изучению проблемы деятельности кавказских легионов является труд: Это новаторское исследование посвящено изучению создания, оснащения и подготовке к битве Восточных легионов в период с 1941 по 1943 год, в состав которых входили татары, кавказцы и поволжские финны в Вооружённых силах Германии. Они составляли значительную часть иностранных добровольцев и призывников в вермахте. Многие из них были бывшими советскими военнослужащими, завербованными из лагерей военнопленных [15].

Немецкий историк и публицист Д.Мотадел в труде «Ислам и война нацистской Германии», исследовал проблему сотрудничества исламского мира, с Гитлеровской Германией. Историк отмечает, что именно в этот период Берлин устанавливает союз с мусульманским миром против Советского Союза и Британской империи. Вермахт начал вербовку среди военнопленных и гражданского населения на оккупированных территориях на Востоке в конце 1941 г. Азербайджанцы, туркестанцы, калмыки, украинцы, грузины, армяне, и многие другие воевали в так называемых Восточных войсках вермахта (Osttruppen). Инициатором этого проекта был Клаус фон Штауффенберг [16;220].

Изучение деятельности легионов в научных статьях. К современной историографии, также можно отнести научные статьи. Одной из этих статей является статья Н.Т Напсо «Северокавказские воинские формирования в германских вооружённых силах (1941-1945 гг.)» [11]. В данной статье автор применил статистические данные. Указано, что численность северокавказских добровольцев составляло 29-30 тыс. Автором даны сведения об исторических обстоятельствах и причинах формирования северокавказских воинских формирований.

В статье азербайджанского дипломата Рамиза Абуталыбов «Свои среди чужих, чужие среди своих» [5]. В статье автор указал численность азербайджанских военнопленных-150 тысяч. Ав-

тор также дал сведения о газетах азербайджанских легионеров «Азербайджан», «Свобода», «Hücüm Milli birlik» «Bizim döyüşümüz». Рамиз Абуталыбов также указывает требования азербайджанских легионеров. Первым требованием, было признание независимости Азербайджана.

Олег Романько в научной статье «Восточные легионы в силовых структурах нацисткой Германии…» [14]. Автор отмечает, что в историографии существуют два мнения о восточных легионах. Приверженцы первого мнения к восточным легионам относят те формирования, которые было созданы в Украине и Польше. Но в более широком смысле к восточным легионам относят воинские подразделения из числа военнопленных кавказского и тюркского происхождения. Автором в статье даны статистические сведения. И сведения о местах дислокации восточных легионов.

**Заключение.** Резюмируя вышеуказанное, можно отметить, что после распада СССР изучению историками отводится широкое место изучению «белых пятен» событий Второй мировой войны. В отличие от советской историографии, в современной историографии отрицательная оценка к проблеме деятельности легионов на стороне Гитлеровской Германии встречается редко. Особенности данной проблемы столь интересного исторического периода Второй мировой войны современные историки изучили, учитывая сложные исторические условия.

Политика «Большого террора», репрессий и многие другие проблемы привели к такому повороту событий. Некоторые представители кавказских народов, переходя на сторону Германии, стремились обрести независимость.

Кавказские народы, которые столь различаются в этно-конфессиональном плане, вели антибольшевистскую войну, стремясь к обретению независимости. Сотрудничая с Третьим Рейхом, они стремились использовать силы Германии в национальных интересах в борьбе против большевизма.

Во время изучения истории Второй мировой войны, деятельность легионов не должна подвергаться критике исследователями. «Белые пятна» истории Второй мировой войны должны быть раскрыты и объективно изучены.

Недостатком изучения данной проблемы в советской историографии является малочисленность комплексных трудов. В этих трудах, деятельность легионов из представителей народов Кавказа изучена совместно с туркестанским легионом под названием «Восточные легионы». Данная проблема должна изучаться объективно с учётом политических и исторических особенностей данного периода.

## СПИСОК ИСПОЛЬЗОВАННОЙ ЛИТЕРАТУРЫ:

1. İbrahimli X.C Azərbaycan Siyasi Mühacirəti (1920-1991)”. Bakı, Elm, 1996, 305 səh.

2. İbrahimli. X. C.Azərbaycan mühacirəti tarixi. Bakı, ADPU nəşriyyatı 2012,358 səh.

3. Yaqublu N. Azərbaycan legionerləri. Bakı: “Çıraq”, 2005, 336 səh.

4. Yaqublu N. Əbdürrəhman Fətəlibəyli-Düdənginski, Bakı: “Abşeron Nəşr” 2009,262 səh.

5. Абуталыбов Р.Свои среди чужих, чужие среди своих. М., 2007.с.16.

6. Абуталыбов.Р и Мамулия.Г Страна огней. В борьбе за свободу и независимость. Политическая история азербайджанской эмиграции. 1920-1945 гг. “CBS”, Баку, 2014. с. 584.

7. Гасанлы.Дж. «Советская политика по расширению южных границ: Сталин и азербайджанская карта в борьбе за нефть»(1939-1945)М. Политическая энциклопедия,2017.с.447.

8. Дробязко С.И. Под знаменами врага. Антисоветские формирования в составе германских вооруженных сил. 1941–1945. М.: Эксмо, 2004.с.608

9. Дробязко С.Каращук А. Восточные легионы и казачьи части в вермахте, Москва: «АСТ» 2000.с.46.

10. Мамулия.Г Грузинский легион в борьбе за свободу и независимость Грузии в годы Второй мировой войны,Тбилиси,2007.с 411.

11. Напсо Н.Т.Северокавказские воинские формирования в германских вооруженных силах (1941-1945 гг.), Вестник Адыгейского государственного Университета, 2006

12. Романько О.В. Мусульманские легионы во Второй мировой войне. Москва: «Издательство АСТ»2004.с.312,

13. Романько О. В. "Советский легион Гитлера. Граждане СССР в рядах вермахта и СС". Москва: Издатель Быстров, 2006.с.640.

14. Романько О.В «Восточные легионы в силовых структурах нацистской Германии (1941-1945): организация, личный состав и численность» Журнал Мусульманский мир, 2014, №4.

15. Hoffman. Die Ostlegionen 1941—1943. Turkotartaren, Kaukasier, Wolgafinnen im deutschen Heer. 1976.

16. Islam and Nazi Germany's War. Harvard University Press, Cambridge (Massachusetts) 2014, 2. Auflage.p.512.

**РЕЗЮМЕ**

В данной статье, рассматривается изучение одной из малоизученных проблем современной историографии, проблемы деятельности легионов из представителей народов Кавказа, на стороне Гитлеровской Германии, в период Второй мировой войны. Отмечается, что данной проблеме в советской историографии была дана отрицательная оценка. В то время как, в современной историографии, при изучении данного вопроса учтены сложные исторические, политические предпосылки и условия. Также отмечается, что во многих монографиях легионы, формировавшиеся из числа кавказских народов, имеют название «Восточные легионы». В статье рассматриваются изучение вышеуказанной проблемы в трудах азербайджанских (отечественных) и зарубежных историков.

**Ключевые слова:** *Третий Рейх, Кавказ, легион, вермахт, историография.*

**XÜLASƏ**

Məqalədə müasir tarixşünaslıqda az öyrənilmiş problemlərdən biri, II Dünya müharibəsi dövründə Hitler Almaniyasının tərəfində Qafqaz xalqlarının nümayəndələrindən olan legionların fəaliyyət problemi araşdırılır. Qeyd edilir ki, sovet tarixşünaslığında bu problemə mənfi qiymət verilmişdir. Halbuki müasir tarixşünaslıqda bu məsələnin öyrənilməsi zamanı mürəkkəb tarixi, siyasi şərait nəzərə alınmışdır. Həmçinin qeyd edilir ki, bir çox monoqrafiyalarda Qafqaz xalqları sırasından formalaşmış legionları "Şərq legionları" adlandırılıb. Məqalədə yuxarıda qeyd olunan problemin Azərbaycan (yerli) və xarici tarixçilərin əsərlərində öyrənilməsinə baxılır.

**Açar sözlər:** *Üçüncü Reyx, Qafqaz, legion, vermaxt, tarixşünaslıq.*

**SUMMARY**

This article discusses the study of one of the little-studied problems in modern historiography, the problem of the activities of the legions from the representatives of the peoples of the Caucasus, on the side of Hitler's Germany, during the Second World War. It noted that this issue was giving a negative assessment in Soviet historiography. While, in modern historiography, when studying this issue, complex historical, political prerequisites and conditions, are taken into account. It is also noted,that in many monographs, the legions formed from among the Caucasian peoples are called "Eastern Legions." The article deals with the study of the above problem in the works, of Azerbaijani (domestic) and foreign historians.

**Key words:** *Third Reich, Caucasus, legion, wehrmacht, historiography.*

UOT 94

# AXISQA (MESXETİ) TÜRKLƏRİNİN DEPORTASİYASI VƏ ONUN NƏTİCƏLƏRİ

**ƏLVİDA RƏHİMOV**
*Bakı Dövlət Universitetinin doktorantı*
*E-mail: elvidarehimov1234@gmail.com*

Böyük türk dünyasının ulu boylarından, ulu olduqları qədər də ən ağır məşəqqətlərə düçar olan boylarından biri də Axısqa türkləri hesab olunur. Ən qədim dövrlərdən Kiçik Qafqaz sıra dağlarının başlanğıcında yaşayan bu soydaşlarımızın danışdığı şivə, adət və ənənələri, folkloru, mədəniyyəti qədim türk məskəni Borçalı mahalındakı Azərbaycan türkləri və Ərzurum-Qara ərazilərindəki türklərlə çox bağlıdır [9].

Onların mənşəyi haqqında tarixşünaslar arasında yekdil bir fikir yoxdur. Onlar ya etnik türklər, ya da ki Osmanlı hakimiyyəti dövründə islamı qəbul etmiş və türkləşmiş gürcülər hesab olunur.

Məlumdur ki, Rus-Türk müharibələri nəticəsində zaman-zaman türk torpaqlarının böyük bir hissəsi Rusiya imperiyasının tərkibinə daxil olmuşdur. Bu ərazilərdən biri də Adıgön-Axısqa ərazisidir.[9]

Axısqa və Axalkələk bölgələri sovet dönəmində Gürcüstan Sovet Sosialist Respublikasının tərkibində idi, indi isə Gürcüstan Respublikasının ərazisi hesab olunur. Gürcüstana verilən bu ərazi Mesxeti adlandırılmış və burada yaşayan Axısqa türklərinə də "Mesxeti türkləri" deyə müraciət edilmişdir.

Azərbaycanda əhalinin 8,4 %-i azsaylı xalqlardan ibarətdir. Azərbaycan tarixən digər xalqlara dost münasibət göstərmiş, ehtiyacı olanlara kömək etmişdir. Məhz bunun nəticəsidir ki, hazırda Azərbaycanda müxtəlif xalqların nümayəndələri yaşayır və onlar Azərbaycanı öz doğma torpaqları hesab edirlər.

Axısqa türkləri də Azərbaycan ərazisində məskunlaşmış azsaylı xalqların nümayəndələridir. Axısqa türklərinin tarixən yaşadıqları ərazi Gürcüstanın Məhsəti bölgəsi olub. Onların dilləri Azərbaycan və Türkiyə türkcəsinə çox yaxınlıqlıq təşkil edir. Türkiyənin Ərzurum bölgəsinin şivəsi ilə oxşarlıqları çoxdur. Axısqa türkləri qədim tarixə malik olub, hər cür əziyyətə, məşəqqətə dözərək, bu gün də bir xalq kimi öz həyatlarını yaşamaqda davam edirlər. 1920-30-cu illərdə Axısqa türkləri ana dilində məktəblər yaratmış, teatr inşa etmiş, mədəni yüksəlişə nail olmuşdular. Ancaq bu yüksəliş və dinc həyat uzun müddət davam etmədi [11].

Sovet səlahiyyətliləri 108 fərqli millətdən bir dövlət qurmağa çalışırdılar. Onlar ilkin mərhələdə, bu çoxmillətli dövlətin sərhədlərarası etnik qruplarını Sovet İttifaqına sərhədi olan ölkələrə təsir göstərmək üçün istismar edirdilər. SSRİ-nin "kapitalist təsiri" qorxusu axırda Mesxetiya da daxil olmaqla, dövlətin sərhədyanı ərazilərinin təmizlənməsinə səbəb oldu.

1928-ci ildən 1937-ci ilə qədər Axısqa türkləri sovet səlahiyyətliləri tərəfindən gürcü ad və soyadlarını mənimsəməyə məcbur olundular. 1926-cı ildə keçirilmiş SSRİ əhalisinin siyahıya alınmasında əldə olunan məlumatlara görə, Gürcüstan SSR-də 137.921 türk yaşamaqda idi, lakin bu göstəricilərə Gürcüstan azərbaycanlıları da daxil edilmişdi. 1939-cu ildə keçirilmiş SSRİ əhalisinin siyahıyaalınmasında Axısqa türklərinin çoxu azərbaycanlı olaraq qələmə verilmişdir. Lavrenti Beriya 28 noyabr 1944-cü il tarixində İosif Stalinə bir memorandum göndərir. Bu memorandumda Beriya Axısqa türklərini "qaçaqmalçılıq" və "təxribat üçün Türkiyə kəşfiyyatı ilə əməkdaşlıq"-da günahkar görür. Beriya Axısqa türklərini, kürdləri sərhədyanı ərazilərdə qovulmalı olan "etibarsız əhali" kimi göstərmişdir.

31 iyul 1944-cü ildə SSRİ Dövlət Müdafiə Komitəsinin "№ 6279" qərarı ilə (14 noyabr 1944-cü ildə icra olundu) 90 538 Axısqa türkü məcburi surətdə Gürcüstandan Qazaxıstan (40 min nəfər), Özbəkistan (30 min nəfər) və Qırğızıstanın (20 min nəfərdən çox) çöllərinə sürgün olundu. Sovet ordusunun əsgərləri axısqalıların yaşayış məskənlərinə gəlib, onlardan müxtəlif vədlərlə maşınlara minməyi tələb etmişlər. Əsgərlər sakinlərə buradan getmələrinin vacib olmasını, burada müharibə olacağını bildirmiş, onların daha təhlükəsiz yerlərdə yerləşdiriləcəklərinə, müharibə bitdikdən sonra evlərinə geri dönəcəklərinə dair yalan vədlər verərək onları maşınlara minməyə məcbur etdilər. Sakinlərə 3 saat vaxt verildi və onlara bu müddət ərzində 1 tona qədər əşya və ərzaq götürə bilmələri üçün şərait yaradıldı. Ən dəhşətlisi də budur ki, əhali heyvanların daşındığı vaqonlarda sürgün olunmuşdu. Əsgərlər həlak olanları vaqonlardan yerə ataraq yollarına davam edirdilər. Rus mənbələrində bu rəqəmin 400-500 nəfər arası olduğu qeyd edilir. Ancaq bu rəqəm həqiqəti əks etdirmir. Ölənlərin minlərlə olduğu qeyd olunur. Əlbəttə ki, bu

sürgünü axısqalıların özlərindən başqa heç kim daha yaxşı təsvir edə bilməz. Sürgündə sağ qalanlar Özbəkistan, Qazaxıstan və digər həmsərhəd bölgələrə aparıldı. Ana vətənlərindən amansızcasına çıxarılaraq yalquzaq səhralara göndərilən bu xalqın başına gələn müsibətləri yalnız onların özlərinin dilindən eşitmək olar. Əzablı yollarda xəstəlikdən, dərddən, əzabdan, sürgün ağrılarından minlərlə Axısqa türkü öldü, bütün siyasi hüquqlardan məhrum olundu. Sənədlərində onların milliyyətinin türk yazılması yasaq olundu, adları başqa-başqa xalqların adı ilə adlanmağa başlandı.

Deportasiya zamanı 212 kənddə yaşayan 16.700 ailədən 92.307 ilə 94.955 arası Axısqa türkü məcburi şəkildə öz evlərindən başqa yerə köçürülmüşdür. Onlar mal-qara üçün nəzərdə tutulmuş vaqonlara yerləşdirilmiş və şərq istiqamətində irəliləyərək Mərkəzi Asiyaya deportasiya edilmişlər. 17 noyabr 1944-cü il tarixində, saat 16.00-da 81.234 nəfər Axısqa türkü artıq Mərkəzi Asiyaya köçürülmüşdü.

Rəsmi Sovet sənədlərində qeyd edilir ki, 92.307 nəfər deportasiya olunmuşdur. Deportasiya olunanların 18.923-ü kişi, 27.309-u qadın, 45.989-u isə 16 yaşından kiçik uşaqlar olmuşdur. Deportasiya edilənlərin 52.163-ü Özbəkistan SSR-ə, 25.598-i Qazaxıstan SSR-ə, 10.546-sı isə Qırğızıstan SSR-ə yerləşdirilmişdir. Deportasiya edilənlərin 84.556-sı kolxozlarda, 6.316-sı sovxozlarda, 1.395-i isə sənaye müəssisələrində işə alınmışdır. Deportasiya edilən axırıncı insan 31 yanvar 1945-ci il tarixində Daşkənd şəhərinə çatdı.

Sovet rejiminin sonlarına doğru axısqalıların vəziyyəti yenidən gərginləşdi. SSRİ-nin demək olar ki, hər tərəfi etnik qarşıdurmalar ocağına çevrildi. Dövlətlər müstəqillik istəyir, xalqlar ayağa qalxıb mübarizə aparırdılar. Belə bölgələrdə sovet liderləri bəzən qəsdən və süni şəkildə “Parçala və hökmranlıq et” siyasəti ilə etnik mübarizəni qızışdırır və həmin ölkələrə təsirini bu yolla artırmağa çalışırdılar. Gürcüstan və Özbəkistana təsir etmək üçün məhz Axısqa türkləri hədəfə çevrilmişdi. Belə ki, Özbəkistanda süni qarşıdurma yaradılmalı, sonradan bu böyüdülməli və etnik mübarizəyə dönməli idi. Axısqalılar özbəklərin və digər xalqların gözündə vəhşi bir millət hesab olunurdu. Onların illər boyu əziyyətlə qurub ucaltdıqları evləri dağıdıldı, yandırıldı. Qadınlara, uşaqlara işgəncələr verildi. Əslində, özbəklər axısqalıları yaxşı tanıyır və onlara yaxşı münasibət göstərirdilər. Ancaq dağılmaq ərəfəsində olan Sovet hökuməti yenə də hər cür hiyləyə əl ataraq insanları öz tərəfinə çəkməyi bacardı və beləliklə, axısqalılar bir daha sürgün edildilər.

Axısqa türkləri dünyanın müxtəlif yerlərinə səpələndilər. Azərbaycan isə 1950-ci illərdə axısqalıları qəbul etmiş, onlara öz torpaqlarında yer ayırmışdır.

Axısqalılar təzyiqlər nəticəsində ölkədən qaçmağa başlayanda isə onlara heç yerdə sığınacaq verilmirdi və hamı bu əhalinin Gürcüstana köçürülməsi tələbini irəli sürmüşdü. Bu isə eyni anda iki ölkəyə təzyiq və onların SSRİ-dən asılı olduğunu göstərmək üçün vasitə hesab olunacaqdı.

Türklərin milli hərəkatını sarsıtmaq məqsədilə 1989-1990-cı illərdə növbəti qanlı cinayət törədildi: 23-25 may 1989-cu ildə Özbəkistanın Fərqanə vilayətinin Kuvasa şəhərində, 3-12 iyunda Fərqanə, Margilan və digər şəhər və qəsəbələrdə, 19-21 fevral 1990-cı ildə Buka rayonunda, 2-3 martda Parkənddə türklərə qarşı açıq-aşkar təşkil edilmiş və idarə edilən amansız qətliamlar həyata keçirildi. Axısqa türkləri türk düşməni Qorbaçovun riyakar siyasətinin ilk qurbanlarından oldu. Türklər Özbəkistanı tərk edib, Azərbaycan, Qazaxıstan, Rusiya və digər yerlərə üz tutdu. Gürcüstan hətta Fərqanə faciəsindən sonra da türkləri qəbul etmədi və nəinki qəbul etmədi, 1989-1991-ci illərdə «demokrat» Zviad Qamsaxurdiyanın başçılığı ilə gürcü şovinistləri tək-tük türk ailəsini, hətta özünü «mesx» adlandıranları da yenidən yurdlarından, ölkədən çıxardı. Beləliklə, yarım əsr sonra Özbəkistan və Gürcüstanda axısqalılar ikinci sürgünə məruz qaldılar [3].

Fərqanə faciəsindən sonra Axısqa türklərinin milli hərəkatı xeyli genişləndi: 1989-cu ilin 2 sentyabrında Azərbaycanda Saatlı rayonunun Adıgün kəndində 10-cu qurultay keçirildi; vətənə dönüş məsələsi tam kəskinliyi ilə qoyuldu; həmin ilin 23 sentyabrında Moskvada İzmayılov parkında müxtəlif respublikalardan gəlmiş 526 nümayəndənin iştirakı ilə türklərin ümumittifaq konfransı keçirildi. 1990-cı ilin fevralında Moskvada Axısqa türklərinin sovet və xarici jurnalistlər üçün mətbuat konfransı baş tutdu. Konfransda Qayıdış Müvəqqəti Komitəsinin sədri Y. Sərvərov xalqın qurtuluşunun yalnız Vətənə qayıtmaqda olduğunu bir daha bəyan etdi, bununla faciələrin qarşısının alına biləcəyini qeyd etdi. Müvəqqəti Komitənin katibi T. Aslanov Özbəkistan qaçqınlarının müxtəlif yerlərə səpələndiyini, ağır şəraitdə yaşadığını qeyd edərək bəzi rəqəmləri iştirakçılara çatdırdı: "Smolenskdə 2.311, Kurskda 2.236, Oryolda 3.152, Voronejdə 2.111, Krasnodar, Stavropolda minlərlə türk

qaçqını yaşayır, hətta Komi MSSR-də də köçkünlər var. Bu insanlar normal yaşayış şəraitindən, iş yeri və s.-dən məhrum edilib". SSRİ Ali Soveti Mesxeti türkləri komissiyasının işçi qrupunun sədri E.Pain türklərin sovetlərdə yaşaya biləcəyi yeganə yerin onların tarixi vətəni olduğunu qeyd etdi.

1990-cı ilin mayın 8-də Müvəqqəti Təşkilat Komitəsinin sədri Y. Sərvərov və katib Ş. Fəzliyevin imzasıyla gürcü xalqına müraciət qəbul olundu. Türklərin fəallığı, müraciətləri nəticəsində deputat L.A.Qorşkovun sədrliyilə türk-mesxeti əhalisi problemləri üzrə komissiya yaradıldı. SSRİ Ali Soveti 45 ildən sonra nəhayət, 1989-cu ilin 14 noyabrında deklarasiya, 1991-ci ilin 7 martında isə sürgün edilmiş xalqlara qarşı repressiyaların qanunsuzluğu və cinayətkarlığı, onların hüquqlarının bərpası haqqında qərar qəbul edərək Axısqa türklərinə hüquqi bəraət verdi.

SSRI-nin süqutundan sonra bu bölgədəki hər bir ölkə öz müstəqilliyinə nail oldu. Gürcüstan da öz müstəqilliyini qazana bildi. Artıq SSRİ deyə bir məfhum mövcud deyildi. Ortada axısqalıların ana vətənlərinin yerləşdiyi Gürcüstan, SSRİ-nin bütün varisliyini qəbul edən Rusiya dayanırdı və onlarla müzakirələr edilməli idi. Gürcüstan hər cəhdlə Axısqa nümayəndələrini qəbul etməməyə səy göstərirdi [2]. Lakin bu hal uzun çəkmədi. Gürcüstan Avropa Şurasına üzvlük üçün müraciət etdikdə axısqalıların qaytarılması tələbi ilə üzləşdi. La Haye konfransı baş tutdu və Axısqa məsələsi hər üç tərəfin və əlaqəli başqa dövlətlərin nümayəndələri tərəfindən müzakirə olundu. Gürcülərin istəyi əsasında Axısqa türklərinin Mesxetiya türkləri kimi adlandırılması qəbul edildi.

1999-cu ilin aprelində Gürcüstan Avropa Şurasına üzvlük üçün müraciət ünvanladı. Avropa Şurası Gürcüstanın Avropa Şurasına qəbulundan etibarən iki il içərisində Sovet rejimi tərəfindən ölkədən çıxarılan Axısqalıların Gürcüstana inteqrasiyası ilə bağlı qanun çərçivəsinin hazırlanmasını, qanunun qəbulundan əvvəl Avropa Şurası ilə məsləhətləşməsini, Avropa Şurasına qəbulundan etibarən 3 il içərisində vətənə çatdırılma və inteqrasiya müddətinin başladılmasını və axısqalı əhalinin vətənə qaytarılması müddətinin Avropa Şurasına üzv qəbul edildikdən etibarən 12 il içində tamamlanmasını qarşısına şərt kimi qoydu.

Gürcüstan 1999-cu ilin 29 aprelində Avropa Şurasının 41-ci üzvü seçildi, həmin il 20 may tarixində Avropa İnsan Hüquqları Müqaviləsinə, 7 iyul 2002-ci ildə isə Axısqa türklərinin əsas məsələsi olan mülkiyyət hüququ ilə əlaqəli protokola imza atdı [10].

Bütün bunlar axısqalıların vətənə dönüş problemini həll etmək üçün əlverişli zəmin hazırlayır. Amma onlar hələ də Rusiyanın müxtəlif bölgələrində, əsasən də Şimali Qafqaz respublikalarında yaşamağa məcbur olublar. Onların bəziləri Şimali Osetiyaya da pənah gətiriblər.

Bu gün Axısqa türkləri təşkilatlanaraq "Vətən Cəmiyyəti"nin əsasını qoyublar və öz ata yurdlarına dönmək üçün bu "Cəmiyyət"in ayrı-ayrı ölkələrdəki şöbələri bütün səy və bacarıqlarını əsirgəmir [5]. "Cəmiyyət" Gürcüstan hökuməti tərəfindən irəli sürülən məsələləri müzakirə edir, konkret mövqeyini göstərir. Ana vətənlərində kompakt şəkildə yaşamaq onların ən başlıca istəyidir. Çünki dağınıq şəkildə yaşamaq onları bütün siyasi, iqtisadi və mədəni hüquqlardan məhrum etmək anlamını daşıyır. Onlar sivil dünyanın bütün hüquqlarından yararlanmağa cəhd edirlər. Yarım əsrlik vətən həsrəti bu xalqın dilində bir Vətən yaradıb. Bu vətən onlar üçün Adıgün, Ahıska, Azğur, Ahıl-Kelek, Abastuban, Varxan, Zediban, Xero və Azərbaycan türklərinin yaşadığı Borçalı, Ağbulaq, Sarvan, Başkeçid, Qarayazı, Qaraçöp sayılır.

**Açar sözlər:** *Axısqa, sürgün, Beriya, Fərqanə, Zviad Qamsaxurdiya, inteqrasiya.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Babək Cahandarov-Paritet.- 2010.- 30 sentyabr-1 oktyabr.- S. 9.*

*2. Əziz Mustafa "Axısqa türkünün qara taleyi". Zaman-2010, 2-4 oktyabr. S-12*

*3. Fərqanə hadisələri,"Xalq Cəbhəsi" 2006. S-13.*

*4. Bəxtiyar QARACA. Axısqanın yanan qəlbi soyumaz. "Azərbaycan" qəzeti. 2015.*

*5. Elçin Qaliboğlu. Sürgün həyatı yaşamış Axısqa türkləri. "Xalq Cəbhəsi" qəzeti. 2009, 6-8 iyun. S 14.*

*6. Musa Qasımlı, SSRİ - Türkiyə münasibətləri, C.2, Bakı 2009, ss 337-362*

*7. http://ek.anl.az/lib/item?id=chamo:73417&theme=e-kataloq*

*8. http://ek.anl.az/lib/item?id=chamo:32104&theme=e-kataloq*

*9. https://gadtb.com/aydin-qasimli-axisqa-adigun-v%c9%99-ya-m%c9%99hs%c9%99ti-turkl%c9%99ri*

*10. https://musavat.com/news/axisqa-turklerinin-pozulan-huquqlari-onlar-oz-vetenlerine-geri-done-bilecekler_774455.html*

11. *https://muxalifet.az/axisqa-turklrininoz-tarixi-vtnlrin-qayitmaq-ugrunda-mucadilsi-v-yaxud-qrbin-bu-turk-toplumuna-qarsi*

## SUMMARY

The article discusses the deportation of Akhisga (Meskhetian) Turks from their ancestral homeland of Georgia's Mahsati region to various parts of the USSR and its consequences.

On July 31, 1944, by the decision of the USSR State Defense Committee "№ 6279" (executed on November 14, 1944) 90 538 Akhisga Turks were forcibly deported from Georgia to Kazakhstan (40 thousand people), Uzbekistan (30 thousand people) and Kyrgyzstan (more than 20 thousand people) were exiled to the steppes.

Official Soviet documents state that 92,307 people were deported. Of those deported, 18,923 were men, 27,309 were women, and 45,989 were children under the age of 16. Of those deported, 52,163 were placed in the Uzbek SSR, 25,598 in the Kazakh SSR, and 10,546 in the Kyrgyz SSR. Of those deported, 84,556 were employed in collective farms, 6,316 in state farms, and 1,395 in industrial enterprises.

Towards the end of the Soviet regime, the situation of the Akhiskals became tense again. Almost every part of the USSR has become a hotbed of ethnic conflict. States wanted independence, nations stood up and fought.

In order to shake the national movement of the Turks, another bloody crime was committed in 1989-1990: May 23-25, 1989 in the city of Kuvasa, Fergana region of Uzbekistan, June 3-12 in Fergana, Margilan and other cities and towns, February 19-21, 1990. In Buka district, on March 2-3, in Parkend, open and organized brutal massacres were carried out against the Turks. The Akhisga Turks were one of the first victims of the hypocritical policy of the Turkish enemy Gorbachev.

Today, the Akhisga Turks have organized and laid the foundation of the "Vatan Society", and the branches of this "Society" in different countries do not spare all their efforts and skills to return to their homeland. The Society discusses the issues raised by the Georgian government and shows its concrete position. Their main desire is to live compact their homeland.

**Keywords:** *Akhisga, exile, Beria, Fergana, Zviad Gamsakhurdia, integration*

## РЕЗЮМЕ

В статье рассматривается депортация ахысгинских турок (месхетинцев) с их прародины, грузинского района Махсати, в различные районы СССР и ее последствия.

31 июля 1944 г. по решению ГКО СССР «№ 6279» (расстрелян 14 ноября 1944 г.) 90 538 ахысгинских турок были насильственно депортированы из Грузии в Казахстан (40 000 чел.), Узбекистан (30 000 чел.) и Киргизию. (20 000 чел. более тысячи человек) были сосланы в степи.

Официальные советские документы утверждают, что было депортировано 92 307 человек. Из депортированных 18 923 мужчины, 27 309 женщин и 45 989 детей в возрасте до 16 лет. Из депортированных 52 163 человека были размещены в Узбекской ССР, 25 598 - в Казахской ССР и 10 546 - в Киргизской ССР. Из депортированных 84 556 человек работали в колхозах, 6 316 — в совхозах и 1 395 — на промышленных предприятиях.

К закату советской власти положение ахыскалов снова обострилось. Почти каждая часть СССР стала очагом этнических конфликтов. Государства хотели независимости, нации встали и сражались.

С целью расшатать национальное движение тюрков в 1989-1990 годах было совершено еще одно кровавое преступление: 23-25 мая 1989 года в городе Куваса Ферганской области Узбекистана, 3-12 июня в Фергане, Маргилане и других городах и города, 19-21 февраля 1990 г. В Букинском районе 2-3 марта в Паркенде были совершены открыто организованные и контролируемые жестокие расправы над турками. Турки-ахысги стали одной из первых жертв лицемерной политики турецкого врага Горбачева.

Сегодня тюрки-ахысга организовали и положили начало «Обществу Ватан», и отделения этого «Общества» в разных странах не жалеют всех своих сил и умений, чтобы вернуться на родину. Общество обсуждает вопросы, поднятые правительством Грузии, и показывает свою конкретную позицию. Главное их желание – компактно жить на родине.

**Ключевые слова:** *Ахысга, ссылка, Берия, Фергана, Звиад Гамсахурдия, интеграция.*

# İqtisadiyyat

UOT: 332.122

## AĞDAM VƏ FÜZULİ RAYONLARINDA POSTKONFLİKT ƏRAZİLƏRİNİN İNTENSİV İNKİŞAFININ QARABAĞIN DİRÇƏLDİLMƏSİNDƏ STRATEJİ ƏHƏMİYYƏTİ

**ŞƏFA ƏLİYEV**
*Sumqayıt Dövlət Universitetinin professoru, UNEC Qarabağ İqtisadi Araşdırmalar Mərkəzinin rəhbəri, iqtisad elmləri doktoru*
*E-mail: garabagh.iam@unec.edu.az*

Müasir dövrdə ölkəmizin qarşısında duran bir sıra strateji məsələlər vardır ki, biz həmin istiqamətlər üzrə məqsədli və uzunmüddətli perspektivləri özündə ehtiva edən işlərin şahidləriyik. Bu tarixi hadisələrin iştirakçısı olmaq qisməti isə 2020-ci ilin sentyabrın 27-dən başlayan Böyük Qarabağ Zəfəri ilə bilavasitə bağlıdır. Hazırda işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı bərpa və dirçəliş tədbirləri görülməkdədir. Ərazilər minalardan təmizlənir, sosial və istehsal infrastruktur qurulur, nəqliyyat layihələri həyata keçirilir. Artıq "Böyük köç" qayıdışı çərçivəsində Zəngilan rayonunun Ağalı kəndlərinin bazasında yaradılmış pilot "ağıllı kənd" layihəsi reallaşdırılmış və sakinlər öz doğma yurdlarına qayıtmağa başlamışlar.

Ölkəmiz bu strateji amillər nəzərə alınmaqla yeni sosial-iqtisadi inkişaf prioritetlərinin icrasına başlamışdır. Belə ki, AR Prezidentinin 22 iyul 2022-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" təsdiq olunmuşdur [1]. Strategiyanın başlıca məqsədi 2026-cı ilədək Azərbaycanın qüdrətli dövlət və yüksək rifah cəmiyyəti olan ölkəyə çevrilməsini təmin etməkdir. Strategiya çərçivəsində bir sıra strateji hədəflərlə yanaşı, işğaldan azad olunmuş ərazilərə Böyük Qayıdış məqsədinin reallaşdırılmasından ötrü əhalinin dayanıqlı məskunlaşması təmin ediləcəkdir. Eyni zamanda, bu ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyası təmin olunacaqdır və nəticədə ölkə iqtisadiyyatının böyüməsində, ümumi məhsul buraxılışında, qeyri-neft ixracında və məşğulluğun səviyyəsinin daha da yaxşılaşdırılmasında önəmli addımlar atılacaqdır.

Ölkə Prezidentinin 7 iyul 2021-ci il tarixli fərmanı ilə Azərbaycanda yeni iqtisadi rayonlaşdırma aparılmış və sevindirici haldır ki, işğaldan azad olunmuş ərazilərdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları yaradılmışdır [2]. Belə bir yanaşma tarixi siyasi-iqtisadi aspektlərə söykənməklə bərabər, həm də ədalətin bərpası kimi qiymətləndirilməlidir.

Qarabağ İqtisadi rayonunda obyektiv reallıqlardan çıxış etməklə genişmiqyaslı bərpa və quruculuq işləri aparılmaqdadır. Biz bu məqalədə əsasən Ağdam və Füzuli rayonlarının misalında həmin prosesləri araşdıracağıq. Bir məsələni də qeyd etmək istərdik ki, ölkə Prezidentinin 21 iyul 2022-ci il tarixli Fərmanı ilə "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsi yaradılmışdır [3]. Bu qurumun əsas xidmət funksiyası Qarabağ İqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərə əhalinin qayıdışı ilə bağlı çoxmənzilli binaların və fərdi yaşayış evlərinin tikintisinin təşkili, həmin infrastrukturun idarə olunması, eyni zamanda bu ərazilərdə abadlıq və yaşıllaşdırma işlərinin aparılması, mənzil-kommunal təsərrüfatının fəaliyyətinin reallaşdırılmasıdır [4].

Qeyd edək ki, Qarabağ iqtisadi rayonuna daxil olan Ağdam rayonu hələ sovetlər birliyi dövründə regionun əsas mərkəzlərindən biri idi. Ağdam şəhəri isə kifayət qədər inkişaf etmiş infrastruktura malik idi. Məsələn, Ağdamın iqtisadi potensialı və müasir dövrdə onun yenidən qurulmasının strateji aspektlərini müəyyənləşdirmək üçün bir sıra məqamlara diqqət yetirək. Əgər 1980-ci illərin statistik rəqəmlərindən yanaşsaq, Ağdamda 7,7 min hektarda taxıl əkilmiş, 7,6 min hektarda pambıq becərilmişdir. 13 min hektardan çox sahədə isə üzüm yetişdirilmişdir və ümumilikdə əkin sahələrinin həcmi 28,8 min ha olmuşdur. Aqrar Tədqiqatlar Mərkəzinin proqnozlaşdırılmasından baxsaq, Ağdamda perspektivdə əkin sahələrinin ümumi həcmi təxminən 63,3 min ha gözlənilir. Bunun 28,9 min hektarında taxılçılıq, 10,9 min hektarında isə yem bitkilərinin istehsalı proqnozlaşdırılır. 1980-ci ildə Ağdamda taxıl istehsalı 30,1 min ton təşkil etmişdirsə, yaxın perspektivdə bu rəqəmin 102 min tona qədər artacağını gözləmək olar [5]. Anoloji perspektivlər heyvandarlıqda da diqqət çəkir, məsələn, 1980-ci ildə Ağdamda iribuynuzlu heyvanların sayı 44,4 min baş və xırdabuynuzlu heyvanların sayı 191,8 min baş olmuşdursa, yaxın illərdə bu göstəricilərin müvafiq olaraq: 59,4 min baş və 273,2 min baş olacağı perspektivləri vardır. İşğal altında olmuş kənd təsərrüfatına yararlı torpaqlar keyfiyyət

xüsusiyyətlərinə və məhsuldarlıq qabiliyyətinə görə respublikanın digər rayonları ilə müqayisədə yüksək xüsusi çəkiyə malikdir. Ərazinin torpaq-iqlim xüsusiyyətləri burada kənd təsərrüfatının bitkiçilik və heyvandarlıq sahələrinin yüksək və səmərəli inkişafına imkan verir [6]. Bundan əlavə, işğala qədər olan dövrdə Ağdamda ağır sənaye müəssisələri, cihazqayırma müəssisələri, dəzgah avadanlıqları zavodu, yeyinti və yüngül sənaye müəssisələri, o cümlədən yağ-pendir və çörək zavodları, taxıl məhsulları emalı müəssisəsi, pambıq, şərab zavodları, traktor və avtomobil təmiri zavodu və s. fəaliyyət göstərmişdir. Maraqlıdır ki, təkcə Ağdam Dəzgahqayırma Zavodunda 950 nəfər işləmişdir və bu zavodun məhsulları keçmiş SSRİ-nin 125 şəhərinə yola salınırdı. Taxıl məhsulları kombinatı il ərzində 80 min ton məhsul istehsal edirdi [7]. Məhz bu kimi potensial komponentlərindən və ənənəvi fəaliyyət sahələrindən çıxış etməklə, Ağdamın güclü və perspektivli iqtisadi potensialının olması qənaətinə gəlmək mümkündür. Qeyd olunan sahələrlə yanaşı, digər iqtisadiyyat sahələrinin, ilk növbədə tikinti materialları sənayesinin və turizmin inkişaf etdirilməsi üçün də güclü imkanlar vardır [8]. Ağdam rayonu qısa zamanda Azərbaycan iqtisadiyyatına xüsusi töhfə verə biləcək. Ağdam rayonunun torpaqlarının 92 %-i əkin üçün yararlı torpaqlardır. Bu isə rayonun böyük aqrar potensialının olmasından xəbər verir. Ağdam yeni bərpa və quruculuq mərhələsinə qədəm qoyur [9]. Bu rayonda müxtəlif sənaye və kənd təsərrüfatı sahələrinin inkişaf etdirilməsi imkanları investorlar üçün kifayət qədər cəlbedici olacaqdır.

Hazırda Ağdam şəhərinin yenidən qurulması, şəhər infrastrukturunun yaradılması, dirçəliş və bərpa işlərinin aparılması prosesləri intensiv fazaya keçmək üzrədir. Artıq Ağdam şəhərinin Baş Planı təsdiq olunmuşdur. 28 may 2021-ci ildə Prezident İlham Əliyevin iştirakı ilə Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binasının təməli qoyulmuşdur. Bu tədbirdə çıxışında İlham Əliyev demişdir: "Hesab edirəm ki, bu gün tarixi gündür. Çünki bu gün azad edilmiş torpaqlarda birinci Baş Plan artıq təsdiqlənir... Şəhərin müasir standartlara, müasir tələblərə uyğun inkişaf planı artıq tam işlənib hazırlanıb. Bütün Qarabağ zonası "yaşıl enerji" zonası olacaq. Bütün şəhərlər "ağıllı şəhər" konsepsiyası əsasında qurulacaq. Vaxtilə Ağdam şəhərinin ərazisi 700-800 hektar idi. İndi iki dəfə böyüdürük" [10]. Müasir şəhər tikintisi ilə bərabər, həm də sənaye infrastrukturunun yaradılması xüsusi diqqət mərkəzində saxlanılır. Belə ki, ölkə Prezidentinin 28 may 2001-ci il tarixli fərmanı ilə Ağdam sənaye parkı yaradılmışdır. Bu parkın yaradılmasında strateji məqsəd sosial-iqtisadi inkişaf imkanlarının şaxələndirilməsi, rəqabətqabiliyyətli sənaye müəssisələrinin yaradılması və sənaye məhsullarının istehsal olunması, logistika potensialının yaradılması və rayonda iqtisadi fəallığın əhəmiyyətli səviyyədə artırılmasından ibarətdir [11]. Keçən müddət ərzində sənaye parkının yaradılması istiqamətində xeyli işlər görülmşdür və artıq burada iki müəssisənin təməli qoyulmuşdur. Bu müəssisələrin fəaliyyəti nəticəsində regionda qeyri-neft sənayesinin sürətli inkişafı üçün yeni mənbələr formalaşdırılacaqdır [12]. Sənaye parkının ərazisi 74 hektardır və artıq burada 5 sahibkarlıq subyekti rezident kimi qeydə alınmışdır, eyni zamanda 10 layihə baxılma prosesindədir.

Qeyd edək ki, Ağdam müasir dövrdə Azərbaycanın siyasi və iqtisadi qüdrətini bütün dünyada əyani nümayiş etdirmək iqtidarında olan, dinamik inkişafı özündə əks etdirən və yüksək, həm də "ağıllı" texnologiyaların cəmləşdiyi gözəl və güclü bir şəhərə çevriləcəkdir. Bu istiqamətlərdə proqnozlar və ekspert rəyləri də qeyd olunan fikirləri söyləməyə əsas verir. Şəhərdə 100 min əhalinin yaşaması nəzərdə tutulub və bununla da Ağdam Qarabağın ən böyük şəhərinə çevriləcəkdir. Şəhərdə geniş funksiyalı şəhər təsərrüfatı infrastrukturu, sosial infrastruktur şəbəkəsi və əhalinin rahat yaşaması üçün zəruri şərait yaradılacaqdır. Ağdamın kreativ nəqliyyat infrastrukturu və sistemi müasirlik və əlverişlilik baxımından ölkəmizdə ilk olacaqdır [13]. Şəhərin milli ornomentlər əsasında bərpa edilməsi ilə bərabər, müasirlik elementləri də xüsusi diqqət mərkəzində saxlanılacaqdır. Ağdam cümə məscidində bərpa-restavrasiya işlərinin əhəmiyyətli hissəsi başa çatdırılmışdır [14]. Bundan əlavə, 210 çarpayılıq Ağdam rayon mərkəzi xəstəxanasının tikintisinə başlanılmışdır. Xəstəxananın ərazisi 6 hektardan böyük olacaqdır və burada müasir texnologiyalar əsaslı səhiyyə infrastruktur yaradılacaqdır [15]. Bunlarla bərabər, sosial infrastrukturun yaradılması prosesləri intensivləşməkdədir. Məsələn, 2,16 hektar ərazidə inşa olunmasına başlanılmış "Park Forest Otel Ağdam" mehmanxanasında 110 nömrə fəaliyyət göstərəcəkdir və otelin istismara verilməsi 2024-cü ilin dekabrına planlaşdırılmışdır [16].

Qeyd olunanlarla yanaşı, Ağdam şəhərində əhalinin qayıdış proseslərini sürətləndirmək məqsədilə yeni yaşayış kompleksinin tikintisinə başlanılmışdır [17]. Mühüm tarixi əhəmiyyət kəsb edən Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət komplek-

sinin bərpası istiqamətində tədbirlər görülməkdədir [18]. Şuşa şəhəri istisna olmaqla, Qarabağ iqtisadi rayonunda aparılan bərpa işlərinin təşkili və gedişinə, postkonflikt ərazilərin bərpa prosesinə mobil və səmərəli idarəçiliyi təmin etmək məqsədilə Ağdam şəhərində innovativ texnologiyalar əsasında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahı yaradılmışdır və bu qərargahda səmərəli fəaliyyət üçün yüksək şərait təmin olunmuşdur [19]. Bir qrup alimlərin 2022-ci ilin iyun ayının 15-də Ağdama səfəri zamanı gəldikləri qənaətlər və fikirlər də bundan ibarətdir ki, Ağdamda aparılan bərpa və quruculuq işləri tezliklə öz bəhrəsini verəcəkdir və Ağdamın sürətli inkişafı təmin olunacaqdır [20].

Qarabağın digər mühüm bir strateji rayonu olan Füzulidə də bərpa və quruculuq işləri intensivliyi ilə diqqət çəkməkdədir. Qeyd edək ki, Füzuli Qarabağın formalaşması və inkişafı ilə bağlı olan tarixi proseslərdə önəmli yer tutur və ərazi vahidi kimi Qarabulaq adı ilə 1827-ci ildə yaradılmışdır [21]. Keçmiş SSRİ dövründə 1930-cı il avqust ayının 8-də inzibati rayon statusuna yiyələnmiş və Qaryagin rayonu adlandırılmışdır. Daha sonra böyük Azərbaycan şairi Məhəmməd Füzulinin 400 illik yubileyi şərəfinə 1950-ci ildə Füzuli adlandırılmışdır. Rayonun ərazisi mailli düzənliklərdən, həmçinin Qarabağ dağ silsiləsinin Cənub-Şərq ətəklərindən formalaşmışdır. Rayon Azərbaycanın cənub sərhədləri – İranla Araz çayı boyunca sərhəd ərazisi kimi strateji əhəmiyyət kəsb edir. Ümumilikdə rayonun ərazisi 1,39 min kvadrat kilometrdir, əhalinin sayı isə 134 min nəfərdən ibarətdir. Hazırda Füzuli şəhəri ilə bərabər, rayon mərkəzi funksiyasını yerinə yetirən Horadiz şəhəri müasir infrastruktura malikdir. Füzuli rayonunda məcburi köçkünlər üçün salınmış 11 yeni Qayıdış, 5 Zobucuk, 1 Fin qəsəbələri ilə yanaşı, 82 kənd mövcuddur.

Rayon işğaldan azad olunduqdan sonra, ilk növbədə Füzuli şəhərinin bərpası və sürətli inkişaf prosesləri diqqət çəkir. Füzuli şəhərinin baş planı təsdiq edilmiş, şəhərin inkişaf etdirilməsi ilə bağlı konseptual yanaşmalar müəyyənləşdirilmişdir. Respublika və beynəlxalq əhəmiyyətli yol infrastrukturunun yaradılması işləri isə misli görünməmiş sürətlə reallaşdırılmaqdadır. Füzuli-Hadrut avtomobil yolu, Horadiz-Ağbənd dəmiryolu xəttinin çəkilişi üzrə işlər dərinləşməkdədir. Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunun tikintisi isə Qarabağın sosial-iqtisadi inkişafında müstəsna əhəmiyyət kəsb edir. Eyni zamanda, rayonun və regionun su təchizatında genişmiqyaslı tədbirlər həyata keçirilir, elektrik enerjisinin fasiləsiz təchizatı üçün əsaslı işlər görülür. Bu tədbirlərin reallaşdırılmasında dövlət başçısının xüsusi qayğısı və təşəbbüsləri həlledici əhəmiyyət daşıyır. Ölkə Prezidentinin iştirakı ilə “Füzuli” yarımstansiyasının açılışı olmuşdur və 2021-ci il fevral ayının 14-də Horadiz-Ağbənd dəmiryol xəttinin təməlqoyma mərasimində dövlət başçısı iştirak etmişdir. Bundan əlavə, 2021-ci il avqust ayının 29-da isə ölkə Prezindenti və birinci xanım Füzuli Beynəlxalq Hava Limanında aparılan tikinti işlərinin gedişi ilə yerində tanış olublar. Bu hava limanı regionun ən iri hava limanı statusunu və eyni zamanda Qarabağımızn strateji hava qapısı rolunu daşıyır. Beynəlxalq Hava Limanının açılışı isə 2021-ci il oktyabr ayının 26-da qardaş Türkiyə prezidenti R.T.Ərdoğanın iştirakı ilə keçirilmişdir [22]. Bu hava limanının tikintisi sürətlə reallaşdırılmışdır və başlıca funksiyası Qarabağın ölkənin digər əraziləri ilə bərabər, bölgənin beynəlxalq inteqrasiyasının təmin olunmasıdır. Eyni zamanda, Füzuli hava limanı həm də mühüm strateji layihə və nəqliyyat-logistika mərkəzi kimi xüsusi önəm kəsb edir [23]. Rayonda həyata keçirilən infrastruktur, o cümlədən nəqliyyat-logistika layihələri yaxın perspektivdə sosial-iqtisadi inkişafın əhəmiyyətli səviyyədə yüksəlməsinə, işğaldan azad olunmuş kənd və qəsəbələrin yenidən çiçəklənməsinə, Füzuli şəhərinin isə nəinki Qarabağın, eləcə də regionun və dünyanın dinamik inkişaf edən və cəlbedici şəhərlərindən birinə çevriləcəyini deməyə əsas verir. Belə ki, rayonun güclü iqtisadi resursları, o cümlədən bir sıra ənənəvi və yeni iqtisadiyyat sahələrinin intensiv inkişafına imkan verən potensialı vardır. Füzulidə ənənəvi olaraq kənd təsərrüfatı sahələri – heyvandarlıq, üzümçülük, bitkiçilik, ilk növbədə taxılçılıq, onun əsas seqmenti olan ərzaq buğdası istehsalı inkişaf etdirilmişdir. Sənaye sahələrinin inkişafı da diqqət mərkəzində olmuş, xüsusilə aqrosənaye kompleksinin və tikinti sənayesinin inkişafı, emal müəssisələrinin fəaliyyəti məhsuldar xarakter daşımışdır. Füzuli rayonunda “Böyük köç” qayıdışı ərəfəsində bir sıra iri istehsal-sənaye komplekslərinin və zonalarının yaradılması, müəssisələrin istismara verilməsi vacibdir. Rayonun və regionun resurslarından yanaşdıqda, çoxfunksiyalı “Qida və yüngül sənaye” klasterinin təşkili cəlbedici qiymətləndirilə bilər. Bu klasterə ölkənin potensial investorları, ali təhsil və elmi-tədqiqat müəssisələri, elmi-texnoloji mərkəzləri ilə bərabər, xarici ölkələrdən investor şirkətlərin fəal cəlb olunması imkanı vardır və bunun əsas səbəbi – əksər növ nəqliyyat infrastrukturunun, o cümlədən, hava nəqliyyatı infrastruk-

turunun və logistika potensialının olmasıdır.

Ümumilikdə Füzuli rayonunda bərpa və quruculuq işləri intensiv fazaya keçməkdədir. Dövlətyarlı kəndinin bazasında "ağıllı kənd" layihəsi reallaşdırılmaqdadır və bunun hesabına rayonun işğaldan azad olunmuş ərazilərinə məcburi köçkünlərin qaytarılmasına başlanılacaqdır. 18 oktyabr 2021-ci ildə Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşündə Prezident İlham Əliyev qeyd etmişdir ki, Füzuli şəhərinin azad olunmasının əhəmiyyəti, eyni zamanda, bu şəhərin strateji yerləşməsi ilə bağlıdır... Füzuli şəhərinin azad edilməsi bizə mənəvi güc verdi [24]. Bu amillər baxımından Füzuli şəhərinin infrastrukturunun formalaşdırılması və inkişaf etdirilməsi xüsusi diqqət mərkəzindədir. 10 may 2022-ci ildə Füzuli şəhərində müasir texnologiyalar əsaslı Peşə Liseyinin təməli qoyulmuşdur və 3,2 hektar ərazidə yaradılacaq bu liseydə ixtisaslı fəhlə kadrların hazırlanması təmin olunacaqdır [25]. Sosial infrastrukturun, xüsusilə səhiyyəsinin maddi-texniki bazasının gücləndirilməsi məqsədilə 10 may 2022-ci ildə 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlqoyma mərasimi keçirilmişdir. Bu xəstəxanada 3 istiqamətdə, inzibati, stasionar və ambulator səhiyyə xidməti bölmələri yaradılacaqdır. Yaxın dövrlərdə Füzuli rayonunda digər səhiyyə müəssisələrinin yaradılması və infrastrukturunun formalaşdırılması prosesləri daha da intensivləşdiriləcəkdir [26]. Bütün bunlar onu deməyə əsas verir ki, Füzuli rayonu işğalsonrakı dövrdə yeni tarixi mərhələyə keçməkdədir və bu proseslərin sürətlənməsi diqqət çəkir [27].

## YEKUN

Ağdam və Füzulidə postkonflikt ərazilərin intensiv inkişaf etdirilməsi, hesab edirik ki, ümumilikdə Qarabağın sosial-iqtisadi inkişafında, dirçəliş tədbirlərinin sürətləndirilməsində strateji əhəmiyyət daşımaqdadır. Bunlarla bağlı, hazırda həyata keçirilən genişmiqyaslı tədbirlərlə yanaşı, Ağdam və Füzuli rayonlarının sosial-iqtisadi inkişafının daha səmərəli təşkili və postkonflikt ərazilərin ölkə iqtisadiyyatına reinteqrasiyasının təmin olunması məqsədilə, bir sıra məsələlər üzrə təklif və tövsiyələrimizi ümumiləşdirmişik:

- Ağdam rayonunda geniş çeşiddə kənd təsərrüfatı məhsullarının yetişdirilməsi, aqrar məhsulların istehsalı potensialının yaradılması imkanları vardır və bu amillərdən yanaşmaqla, ixtisaslaşdırılmış "Ağdam qida və tekstil" aqrar-sənaye klasterinin yaradılmasını vacib hesab edirik. Belə ki, bu klaster təkcə kənd təsərrüfatı məhsullarının emalı və ixracı ilə məşğul olmur, həm də "Ağdam", "Qarabağ" milli brendlərinin formalaşdırılması, festivalların, sərgilərin keçirilməsi məkanı kimi də ixtisaslaşa bilər, bu isə dünyanın hər yerindən investorların və turistlərin marağına səbəb olar;

- Postkonflikt ərazilərdə yaxın perspektivdə və uzunmüddətli dövr üçün tikinti və quruculuq işləri gedəcəkdir və bu proseslərdə yüksək keyfiyyətli, eyni zamanda iri həcmdə tikinti materiallarına zərurət olacaqdır. Buna görə də hesab edirik ki, "Ağdam tikinti materialları istehsalı klasteri"nin yaradılması, bu klasterin fəaliyyətinə potensial investorların, tikinti materialları üzrə tədqiqat təşkilatlarının, universitetlərin və peşə texniki məktəblərinin, sənaye müəssisələrinin, investisiya fondlarının, o cümlədən xarici partnyorların cəlb edilməsi faydalı ola bilər;

- Qarabağ atları amilindən və Ağdam atçılıq zavodunun tarixindən çıxış etməklə, burada müasir iri "Qarabağ-Ağdam atçılıq kompleksi"nin yaradılması, bu kompleksin tərkibində atçılıq zavodunun və beynəlxalq standartlara cavab verən "Qarabağ atçılıq idmanı mərkəzi"nin yaradılması məqsəduyğundur. Buradan gözlənilən nəticələr kimi, dünya səviyyəli atçılıq yarışlarının keçirilməsi, atçılıq biznesinin və idmanının inkişaf etdirilməsi, daha çox turistin, iş adamlarının və investorların gəlməsinin motivasiyalaşdırılmasını göstərmək olar;

- Regionda üzümçülüyün inkişafının güclü potensialından və ənənəvi sahə olmasından yanaşmaqla, "Ağdam beynəlxalq şərab şirkəti"nin yaradılmasını vacib sayırıq və burada istehsal zavodu ilə yanaşı, şərab muzeyi, dünya səviyyəli şərab festivalı üçün infrastrukturun təşkili təklif olunur və hər il beynəlxalq şərab festivalının keçirilməsi fayda verə bilər, daha çox turist və iş adamlarının axını təmin olunar;

- Ağdamın yeni iqtisadiyyat quruculuğunun mərkəzinə çevrilməsində "yaşıl" iqtisadiyyat mexanizmləri və elementləri əsas rol oynayacaqdır və buna görə də "Ağdam bərpa olunan enerji kompleksi"nin yaradılmasına ehtiyacın olduğunu vurğulayırıq;

- Geniş həcmli dirçəliş və bərpa işlərinin aparılması, innovasiya, yüksək texnologiyalar əsaslı layihələrin həyata keçirilməsi davamlı şəkildə, həm də iri məbləğdə maliyyə-kredit resursları və investisiyalar tələb edir, bunlar nəzərə alınmaqla, müstəqil balansa malik "Ağdam investisiya-tikinti bankı"nın yaradılması vacibdir. Bu, həm dövlət statusuna, yaxud özəl statusa, eyni zamanda xarici partnyorlarla birgə müştərək statusa malik maliyyə-kredit müəssisəsi ola

bilər. Əsas məqsəd maliyyə-kredit xidmətlərinin və investisiya resurslarına əlçatanlığın, operativliyin, bürokratiyadan uzaq bank və maliyyə xidmətləri paketinin təmin olunmasıdır;

- Füzuli Beynəlxalq Hava Limanının bazasında Şenon (İrlandiya) beynəlxalq aeroportunun təcrübəsinə uyğun "İnnovasiyalar və elmi-texniki" azad iqtisadi zonanın və yaxud "İxrac-istehsal və gömrük" AİZ-nin yaradılması perspektivi yüksək görünür;

- Horadiz şəhərindən hələ keçmiş SSRİ dövründə İranla mövcud olan sərhəd keçid məntəqəsinin yaxınlığında "Horadiz sərhədyanı ixrac-istehsal və gömrük" AİZ-nin yaradılması da məhsuldar səmərə verə bilər. Burada Arazın o tayında yaşayan soydaşlarımızın inteqrasiyası və Azərbaycanla ticarət-iqtisadi əlaqələrinin gücləndirilməsi amili də strateji məqam kimi nəzərə alınmalıdır;

- Füzuli rayonunda iri şəkər zavodunun tikilməsi ətraf rayonlar da daxil olmaqla, şəkər çuğunduru istehsalının artırılmasında və işsizliyin azaldılmasında, əhalinin keyfiyyətli şəkər məhsulu ilə təminatında önəmli rol oynaya bilər. Bundan əlavə, perspektivdə Zəngəzur Beynəlxalq Nəqliyyat dəhlizinin açılacağını da nəzərə alsaq, Horadiz şəhəri ətrafında ixracyönlü sənaye müəssisələri şəbəkəsinin yaradılması məqsədəuyğundur və s.

**Açar sözlər:** *Qarabağ, Qarabağ iqtisadi rayonu, Ağdam şəhəri, Füzuli şəhəri, Ağdam rayonu, Füzuli rayonu, postkonflikt ərazilər, Qarabağın dirçəldilməsi prosesləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 22 iyul 2022-ci il.*

*2. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.*

*3. "Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsin yaradılması və fəaliyyətinin təmin edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 21 iyul 2022. https://president.az/az/articles/view/56710.*

*4. Qarabağ İqtisadi Rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin Nizamnaməsi. 21 iyul 2022. https://president.az/az/articles/view/56711.*

*5. Fikrətzadə, F.F., Hacıyeva, S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfati sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması // Kənd təsərrüfatının iqtisadiyyatı – 2020. № 4 (34), –s.23-37.*

*6. Vəliyev, A.H. İşğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının inkişafının torpaq-iqlim amilləri. Kənd təsərrüfatının iqtisadiyyatı 2020, № 4 (34). – s. 38-44.*

*7. Ağdam iqtisadiyyatı: reallıqlar, perspektivlər. 27.11.2020. https://www.azerbaijan-news.az/view-205536/agdam-iqtisadiyyati-realliqlar-perspektivler.*

*8. Ağdamın azad edilməsi iqtisadi təşəbbüsləri canlandırır. Ağdamın azad edilməsi iqtisadi təşəbbüsləri canlandırır. https://ordu.az/az/news/177942/agdamin-azad-edilmesi-iqtisadi-tesebbusleri-canlandirir.*

*9. Ağdam iqtisadiyyatımıza böyük töhfə verəcək. 20 Noyabr 2020. https://aqreqator.az/az/iqtisadiyyat/1117658.*

*10. Prezident İlham Əliyev Ağdam şəhərinin bərpasının təməl daşının qoyulması mərasimində iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Azərtac. 28 may 2021. https://files.preslib.az/projects/regions/r4/c10.pdf.*

*11. Ağdam Sənaye Parkının yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 28 may 2021. https://president.az/articles/51773/print*

*12. İlham Əliyev Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyub. 14 fevral 2022. https://president.az/az/articles/view/55435.*

*13. Xəyalət şəhəri Ağdam Şərqi Avropanın ən gözəl və "ağıllı" şəhəri olacaq. https://bakuexo.az.*

*14. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdam Cümə məscidində bərpa işlərinin gedişi ilə tanış olublar. 14 fevral 2022. https://president.az/az/articles/view/55438.*

*15. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 210 çarpayılıq Ağdam Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər. 14 fevral 2022. https://president.az/az/articles/view/55439.*

*16. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva "Park Forest Otel Ağdam" mehmanxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər. 14 fevral 2022. https://president.az/az/articles/view/55436.*

*17. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Ağdamda yeni yaşayış kompleksinin təməlinin qoyulması mərasimində iştirak ediblər. 14 fevral 2022. https://president.az/az/articles/view/55437.*

*18. İlham Əliyev və birinci xanım Mehriban Əliye-*

*va Ağdamda Qarabağ xanlarının türbələri və yaşayış evi - İmarət kompleksində olublar. 14 fevral 2022. https://president.az/az/articles/view/55441.*

*19. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin qərargahında yaradılan şəraitlə tanış olublar. 14 fevral 2022. https://president.az/az/articles/view/55440.*

*20. Azərbaycanın bir qrup alimi Ağdamda bərpa işləri ilə tanış olub. 19 İyun, 2022. https://report.az/elm-ve-tehsil-xeberleri/azerbaycanin-bir-qrup-alimi-agdamda-berpa-isleri-ile-tanis-olub/.*

*21. Rayon haqqında. Füzuli rayon icra hakimiyyəti. http://www.fuzuli-ih.gov.az/az/page/10.html.*

*22. İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər. 26 oktyabr 2021. https://president.az/az/articles/view/53734.*

*23. Qarabağın hava qapısına çevrilən Füzuli şəhərənin strateji əhəmiyyəti artmaqdadır. 2021-Oktyabr-16. http://sumqayitxeber.com/qarabagin-hava-qapisina-cevrilen-fuzuli-seherenin-strateji-ehemiyyeti-artmaqdadir/.*

*24. İlham Əliyev Füzuli rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. 18 oktyabr 2021-ci il. https://president.az/az/articles/view/53513.*

*25. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Füzuli rayonuna səfər ediblər. 10 may 2022. https://president.az/az/articles/view/55977/print.*

*26. İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 180 çarpayılıq Füzuli Rayon Mərkəzi Xəstəxanasının təməlinin qoyulması mərasimində iştirak ediblər. 10 may 2022. https://president.az/az/articles/view/55983.*

*27. Füzuli rayonu yeni tarixi mərhələyə qədəm qoyur. 12.05.2022. https://www.yeniazerbaycan.com/xeberlenti_e69217_az.html.*

## РЕЗЮМЕ
## СТРАТЕГИЧЕСКАЯ ВАЖНОСТЬ ИНТЕНСИВНОГО РАЗВИТИЯ ПОСТКОНФЛИКТНЫХ ТЕРРИТОРИЙ АГДАМСКОГО И ФИЗУЛИНСКОГО РАЙОНОВ В ПРОЦЕССАХ ВОЗРОЖДЕНИЯ КАРАБАХА

В статье рассматривается стратегическая важность интенсивного развития постконфликтных территорий Агдамского и Физулинского районов в процессах возрождения Карабаха. Раскрываются концептуальные основы, сущность задач и приоритетов восстановления Карабаха. Анализируется ресурсный и экономический потенциал Агдамского и Физулинского районов в развитии экономики страны. Рассматривается потенциал постконфликтных территорий для скорейшей и эффективной реинтеграции в национальную экономику. Подготовлены рекомендации и предложения по интенсификации возродительных работ в Агдамском и Физулинском районах в контексте целей возрождения Карабаха.

**Ключевые слова:** *Карабах, Карабахский экономический район, город Агдам, город Физули, Агдамский район, Физулинский район, постконфликтные территории, процессы возрождения Карабаха.*

## SUMMARY
## STRATEGIC IMPORTANCE OF INTENSIVE DEVELOPMENT OF POST-CONFLICT TERRITORIES OF AGHDAM AND FIZULI REGIONS IN KARABAKH REVIVAL PROCESSES

The article considers the strategic importance of the intensive development of the post-conflict territories of the Agdam and Fizuli regions in the processes of the revival of Karabakh. The conceptual foundations, the essence of the tasks and priorities of the restoration of Karabakh are revealed. The resource and economic potential of the Agdam and Fizuli regions in the development of the country's economy is analyzed. The potential of post-conflict territories for early and effective reintegration into the national economy is considered. Recommendations and proposals are prepared to intensify revival work in the Agdam and Fizuli regions in the context of the purposes of the revival of Karabakh.

**Keywords:** *Karabakh, Karabakh economic region, Agdam city, Fizuli city, Agdam region, Fizuli region, post-conflict territories, Karabakh revival processes.*

UOT: 338.242; 338.33

# QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ ARTIRILMASINDA GÖMRÜK-TARİF TƏNZİMLƏNMƏSİNİN VƏ DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN ƏHƏMİYYƏTİ

**ZİBEYDƏ ŞƏKƏRƏLİYEVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin doktorantı, iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent*
*E-mail: arifshakaraliyev1949@mail.ru*

Müasir dövrdə milli iqtisadiyyatın inkişafının şaxələndirilməsi və bununla bağlı zəruri addımların atılması strateji əhəmiyyət kəsb edir. Bu istiqamətdə görülən tədbirlərin əsas məqsədi qeyri-neft sektorunun strukturunun genişləndirilməsi, istehsal olunan məhsulların həcminin artırılması və ümumilikdə ölkə iqtisadiyyatının neftdən asılılığının azaldılmasıdır.

Qeyd edək ki, ölkəmiz özünün ixrac və gömrük-tarif siyasətini müvafiq qanunvericilik aktları vasitəsi ilə tənzimləyir [1]. Ölkə Prezidentinin fərmanları, AR Nazirlər Kabinetinin qərarları və Dövlət Gömrük Komitəsinin normativ aktları gömrük münasibətlərini nizamlayan qanunaltı aktlardır. Prezidentin nizamlayıcı fəaliyyətinin aktivliyi əsasən Gömrük Məcəlləsi qəbul edilən zamana qədər təsadüf edir və bu vaxtlarda ölkə başçısının fərmanları gömrük münasibətlərinin əsas hüquqi tənzimləyicisi olaraq yerinə yetirilir [2]. AR Nazirlər Kabinetinin qərarlarıyla əsasən gömrük siyasətinin və gömrük hüququnun məsələləri nizamlanır. Misal üçün, AR Nazirlər Kabinetinin 13 iyul 2000-ci il tarixli 124 saylı "Azərbaycan Respublikası ərazisinə gətirilən, əlavə dəyər vergisindən azad olunan malların siyahısı haqqında" qərarı və yaxud 12 aprel 2001-ci il tarixli 80 saylı "Azərbaycan Respublikası idxal-ixrac əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri, gömrük rəsmiləşdirilməsinə görə alınan yığımların miqdarı haqqında" qərarı və s.

Bunlarla bərabər, Gömrük Məcəlləsinə uyğun olaraq, Dövlət Gömrük Komitəsi öz səlahiyyətləri daxilində AR-in bütün digər dövlət orqanları, tabeçiliyindən, habelə mülkiyyət baxımından asılı olmayaraq idarələr və qurumlar, həmçinin vəzifəli şəxslər və vətəndaşlar üçün icrası məcburi olan normativ aktlar qəbul edir, həmin normativ aktlar qanunvericiliyə uyğun olaraq tətbiq olunur. Müasir dövrdə milli standartların unifikasiyası beynəlxalq hüquq prinsipləri və hökumətlərarası müqavilələrin nəticəsində ortaya çıxan normalara əsaslanır və milli gömrük-hüquq sisteminin eyniləşdirilməsi beynəlxalq iqtisadi əməkdaşlığın genişləndirilməsi və inteqrasiya proseslərinin dərinləşməsi üçün münasib şərait yaradır. Beynəlxalq anlaşmaların və ixtisaslaşmış beynəlxalq təşkilatların tövsiyələri gömrük qaydalarının eyniləşdirilməsinin əsas vasitələridir.

Ölkəmizin gömrük sahəsində beynəlxalq hüquqi əməkdaşlığı əsasən Beynəlxalq qurumlarla əməkdaşlıq, İqtisadi Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlıq, Müstəqil Dövlətlər Birliyinin gömrük rəhbərləri şurası çərçivəsində əməkdaşlıq və digər dövlətlərin gömrük orqanları ilə qarşılıqlı münasibətlər əsasında əməkdaşlıq istiqamətlərində inkişaf edir. Gömrük-tarif sahəsində tətbiq olunan normativ aktlara ilkin nəzarət daxili qanunvericiliyin qüvvədə olan beynəlxalq razılaşmaların qaydalarına uyğunsuzluq hallarını istisna etmək üçün mühüm rol oynayır. İxrac və gömrük-tarif sahəsində nizamlama münasibətlərinin beynəlxalq təcrübədə bir sıra qaydalar qəbul edilib, onlara görə gömrük orqanı tərəfindən hər hansı sənədlərin qəbul edildiyi gün qüvvədə olan qanunvericilik aktları tətbiq edilir [3]. Gömrük sərhədindən hər hansı mal və nəqliyyat vasitəsinin qeyri-qanuni keçirilməsi halları müəyyən edildiyi zaman ortaya çıxan münasibətlərin nizamlanması üçün həmin mal və nəqliyyat vasitələrinin gömrük sərhədindən faktiki keçirildiyi gün qüvvədə olan qanunvericilik aktları tətbiq olunur [4].

Qeyd edək ki, AR-in 19 yanvar 2016-cı il tarixli 106-VQD və 107-VQD nömrəli Qanunları ilə Vergi Məcəlləsinə və "Gömrük tarifi haqqında" Qanununa müvafiq əlavələr və dəyişikliklər edildi. Bunun nəticəsində investisiya təşviqi sənədini almış sahibkarlar tərəfindən texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan, buğdanın idxalı 01.01.2016-cı ildən başlayaraq, 1 il müddətinə ƏDV-dən azad edilmiş, 2017-ci il yanvar ayının 1-dən etibarən buğdanın idxalı növbəti 3 il müddətinə əlavə dəyər vergisindən azad edilmişdir. AR-in 6 may 2016-cı il tarixli 225-VQD və 226-VQD nömrəli Qanunları ilə "Gömrük tarifi haqqında" Qanuna və Vergi Məcəlləsinə müəyyən dəyişikliklər edildi. Bu dəyişikliyə görə, yaradılan sənaye parkında müəyyən edilmiş fəaliyyətlə məşğul olan parkın rezidentləri tərəfindən əsas fə-

liyyətləri məqsədləri üçün malların idxalı 2016-cı il mayın 1-dən 5 il müddətinə əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilmişdir. Bununla yanaşı, AR-in 6 may 2016-cı il tarixli 227-VQD nömrəli Qanununu ilə tinglər və toxumlar, baytarlıq peraparatları, mineral gübrələr, suvarma qurğuları, bəzi laboratoriya avadanlıqları, xammal və materiallar və damazlıq heyvanların idxalı və satışı ƏDV-dən azad edilmişdir.

2016-cı ildə Dövlət Gömrük Komitəsi aidiyyəti üzrə bir sıra normativ-hüquqi aktlar hazırlamış və icrasına başlamışdır. AR Dövlət Gömrük Komitəsinin 11 mart 2016-cı il tarixli 100/049 saylı Sərəncamı ilə "Gömrük bəyannamələrinin doldurulması qaydalarının metodikalarının və metodiki tövsiyələrinin təsdiq edilməsi haqqında" 31 oktyabr 2014-cü il tarixli 100/143 nömrəli sərəncamı ilə təsdiq olunmuş "Gömrük bəyannamələrinin doldurulması qaydasının Metodikası"nın "Gömrük ödənişləri üzrə imtiyazların Təsnifatı" adlı 14 saylı əlavəsində əlavə və dəyişikliklərin edilməsi təsdiq edilmişdir. AR Dövlət Gömrük Komitəsinin 01.02.2016-cı il tarixli 100/018 nömrəli Sərəncamı ilə "Dəmir yolu nəqliyyatı ilə gömrük sərhədindən malların beynəlxalq tranzit xüsusi gömrük prosedurunda keçirilməsi üzrə tələblər" Azərbaycan Respublikasının gömrük ərazisindən dəmir yolu vasitəsi ilə keçirilən malların beynəlxalq tranzit gömrük proseduru altında yerləşdirilməsinə icazə verilməsi əməliyyatının daha da tezləşdirilməsi, gömrük sərhədindən keçirilən malların gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsi, gömrük nəzarəti üçün tələb olunan sənədlərin yoxlanılmasının daha səmərəli olması üçün təsdiq edilmişdir. Dövlət Gömrük Komitəsinin 21.11.2016. tarixli, 100/197 nömrəli sərəncamı ilə "Gömrük xidməti ilə biznes subyektlərinin nümayəndələrindən ibarət İctimai Şuralar haqqında" Əsasnamə qüvvəyə minmişdir. Dövlət Gömrük Komitəsinin 19.12.2016. tarixli, 100/221 nömrəli sərəncamı ilə "Gömrük sərhədindən keçirilən, hava gəmilərinin istismarı üçün zəruri olan ehtiyatlar hesab olunan malların bəyan edilməsinə dair Metodiki Tövsiyə" qüvvəyə minmişdir. Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin 2016-cı ilin 3 mart tarixli 100/050 saylı Sərəncamı ilə "Malların mənşəyinin elektron sertifikatlaşdırılması sisteminin yaradılması və tətbiqi barədə" qərar təsdiq edilmişdir.

Yaxın perspektivdə, gələcəkdə Azərbaycan Respublikası ərazisində, Ələt qəsəbəsində, Yeni Bakı Dəniz Limanı kompleksi yaxınlığında sərbəst zona fəaliyyətə başlayacaqdır. Bu zonaya gətirilən mallar, Azərbaycan Respublikasının Gömrük Məcəlləsinə uyğun olaraq, "Sərbəst zona" xüsusi gömrük proseduru altında yerləşdiriləcəklər. Bu prosedur üzrə rəsmiləşdirilən mallara xarici ticarət siyasəti tədbirləri və bu malların gətirilməsi zamanı gömrük vergi və rüsumları tətbiq olunmur [5]. Nəticədə, Azərbaycan sahibkarları öz istehsalı olan malların satılması və öz ehtiyaclarını ödəmək üçün lazım olan malların alınması üçün geniş imkanlara sahib olacaqlar [6]. Göstərilən faktlar bunu deməyə əsas verir ki, ölkədə xarici ticarət və gömrük-tarif siyasətinin normativ-hüquqi bazası mütəmadi olaraq, təkmilləşdirilir. Bu təkmilləşmə, əsasən, ticarət və gömrük siyasətinin liberallaşdırılması yolu ilə, ölkənin qeyri-neft istehsal sahələrinin inkişafına və ixrac potensialının artırılmasına yönəlmişdir.

Qeyd edək ki, qeyri-neft sektorunun ixrac potensialının tənzimlənməsi, qanunvericilik bazasının gücləndirilməsi, xarici ticarətin liberallaşdırılması və onun daha da dərinləşdirilməsi, ixrac nəzarətinin tənzimlənməsi və sairlər üzrə dövlət iqtisadi siyasəti gücləndirməklə yanaşı, bir sıra qanunlar qəbul olunmuş, Prezident Fərmanları verilmişdir [7]. Xarici ticarətin sərbəstləşdirilməsi haqqında Prezident Fərmanında qeyd olunmuşdur ki, məhsul ixracını stimullaşdırmaq üçün manatı digər valyutalara dəyişdirərkən respublikadan kənara məhsul satan istehsalçı müəssisələrə üstünlük verilsin. 1990-cı illərin ortalarından başlayaraq, tədricən ölkə iqtisadiyyatının sabitləşməsi proseslərinə başlanıldığı bir dövrdə ixrac əməliyyatlarının (həmçinin idxal) tənzimlənməsi təsdiq olunmuşdur. Bu sənədə əsasən, ixrac əməliyyatları, ölkədə istehsal, emal, təkrar olunan malların ixracı, kreditlə ixrac əməliyyatları, konsiqnasiya yolu ilə ixrac əməliyyatları və müvəqqəti ixrac əməliyyatlarının prosedur qaydaları müəyyənləşdirilmişdir [8]. Bundan əlavə, Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında AR Prezidentinin 14 may 2010-cu il Fərmanı vardır [9]. Son 15 il ərzində də ixracın tənzimlənməsi, ixrac əməliyyatlarının qaydalarının təkmilləşdirilməsi, ixrac nəzarətinin səmərəliliyinin artırılması üzrə Qanun və Prezident Fərmanları verilmişdir. "İxrac nəzarəti haqqında" Qanunun tətbiqi ixrac əməliyyatlarının sadələşdirilməsi, ixracın səmərəliliyinin artırılması proseslərini gücləndirmiş-

dir. Ölkə Prezidentinin Fərmanı ilə AR-da idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlərin müəyyənləşdirilməsi təmin olunmuşdur. İxrac əməliyyatlarının sadələşdirilməsi, ixracın effektivliyinin artırılması, ixracın stimullaşdırılması, xarici ticarət fəaliyyəti iştirakçılarının ixrac əməliyyatlarını genişləndirməyə həvəsləndirilməsi, bu sahədə yerli və xarici investorların fəallığının artırılması məqsədilə, "AR-da xarici ticarətin daha da liberallaşdırılması haqqında [10]. Fərmanı ilə təsdiq olunmuş" Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları"na bir sıra dəyişikliklər və əlavələr edilmişdir [11].

Son dövrlərdə aparılan uğurlu islahatlar nəticəsində artıq nəzərdə tutulan bir sıra mühüm tədbirlərin icrasına start verilmisdir. Belə ki, qeyri-neft ixracının stimullaşdırılması və təkmilləşdirilməsi prosesləri davam etdirilmiş, sahibkarlıq subyektlərinin fəaliyyətinin gücləndirilməsi məqsədilə qanunvericilik bazası yenilənmişdir. Hazırda bir neçə sənaye texnoparkları fəaliyyət göstərirlər, amma bu texnoparklar azad zona statusu elementlərinə malik olsalar da (məsələn, mənfəət vergisindən azad, digər göstərişlər və s.), tam mənada azad zona meyarlarına cavab vermirlər. İxracatçılara dövlət dəstəyinin gücləndirilməsi və onların beynəlxalq bazarlarda ixrac əməliyyatlarına stimullaşdırılması üçün "AZPROMO" tərəfindən "İxracatçılar üçün təlimat kitabı" hazırlanmışdır. Burada marketinq əməliyyatlarının düzgün planlaşdırılması, marketinqin əsas prinsipləri, beynəlxalq marketinqin mahiyyəti, regional imkanlar və perspektivlər, mövcud bazar və yeni bazar strategiyaları, marketinq strategiyası və SWOT təhlili, xarici amillər, xarici bazarlara giriş formaları və sairlər barədə mühüm tövsiyələr və təlimatlar verilmişdir [12].

Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında və logistika-ticarət sisteminin inkişafının intensivləşdirilməsində maliyyə sabitliyinin böyük rolu vardır və belə olduğu halda ölkəyə investisiyaların cəlbi üçün əlverişli şərait yaranır. Belə ki, Azərbaycanın iqtisadiyyatına investisiya axınına imkan verən ən vacib şərt respublikada var olan ictimai-siyasi sabitlik ilə yatırımlar üzrə bundan heç də az əhəmiyyət kəsb etməmiş maliyyə sabitliyidir. Qeyd etmək lazımdır ki, milli valyutanın məzənnəsi sahəsindəki bu çətinlikləri əmələ gətirən əsas səbəblər neftin qiymətlərində yaranmış kəskin azalmalar olmuşdu. İxracın azalmağı nəticəsində xarici valyuta axını da kəskin dərəcədə azaldı və buna görə də ölkənin maliyyə durumunda gərginlik yaşanmağa başlanmışdı. Bu istiqamətdə hökumətimiz son illərdə ölkə iqtisadiyyatının qeyri-neft sahəsinin dinamik inkişafını təmin edə biləcək lazımi qərarları qəbul etmiş, dövlət iqtisadiyyatının yaxın, orta və uzaq perspektivdə inkişafını hədəfləmiş yol xəritəsi işlənib hazırlanmışdır. Bu çox müsbət bir hal sayılır, ancaq unutmaq olmaz ki, həmin proqramların hər birinin həyata keçirilməsi həm daxili və həm də xarici investisiyaların normal axınının təmin olunacağı halda mümkündür. Azərbaycanda maliyyə sabitliyi olmadığı vəziyyətdə isə bütün səviyyədən olan investorlar tərəddüd edəcəklər. Eyni zamanda, maliyyə mənbələrinin genişləndirilməsi üçün sahibkarlıq fəaliyyətinin və biznes mühitinin sərbəstliyi, şəffaflığı təmin olunmalı, kənar müdaxilələr azaldılmalıdır. Bunlar nəzərə alınmaqla əvvəldə qeyd etdiyimiz kimi yoxlamalar dayandırılmışdır və yalnız xüsusi qurumlar bu cür səlahiyyətlərə malikdirlər.

Hal-hazırda ölkəmiz Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, KWF Bankı, Asiya İnkişaf Bankı, İslam İnkişaf Bankı, Qara Dəniz Ticarət və İnkişaf Bankı və başqa maliyyə institutları ilə əməkdaşlıq etməkdədir. Dünya Bankı indiyə qədər Azərbaycana 22 layihə üzrə 585 milyon ABŞ dolları həcmində kredit ayırıbdır. Bunun 392 milyon ABŞ dolları artıq layihələr çərçivəsində istifadə edilmiş, qalan 193 milyon ABŞ dolları isə indi icrada olan layihələr ətrafında istifadə edilir. Dünya Bankı 1995-ci ildən etibarən Azərbaycan Respublikası ilə əməkdaşlıq etməkdədir və həmin əməkdaşlıq aşağıdakı istiqamətləri əhatə edir: 1) Bazar İqtisadiyyatına keçidlə əlaqəli islahat proqramlarının həyata keçirilməsi; 2) Makroiqtisadi stabilləşdirmə ilə neft gəlirlərinin idarə edilməsi; 3) Qaçqınlar ilə məcburi köçkünlərin problemlərinə yardım edilməsi; 4) İnfrastruktur layihələrinin bərpa olunması; 5) Təhsil ilə səhiyyə; 6) Enerji sektoruna investisiyaların cəlb olunması; 7) Dövlətin idarəçilik sahəsində islahatların həyata keçirilməsi; 8) Kənd təsərrüfatında və bütövlükdə qeyri-neft sektorunda artımın təmin edilməsi və yeni iş yerlərinin yaradılması və s. Bundan başqa, Azərbaycan Respublikası Dünya Bankı Qrupuna daxil olan Beynəlxalq Maliyyə Korporasiyası (BMK) ilə də əməkdaşlıq edir. BMK-nın işi adətən özəl sektorda cəmləşmişdir. Korporasiya həmin sektora bütövlükdə 136,3 milyon ABŞ dolları kre-

dit ayırmışdır. Bununla bərabər bu korporasiya Bakı-Tbilisi-Ceyhan boru kəmərinin tikintisində Azərbaycanın payını maliyyələşdirmək üçün 300 milyon dollar kredit veribdir. Azərbaycan Respublikasında BVF-nin yaxından iştirakı ilə 6 fərqli proqram hazırlanmaqla həyata keçirilibdir və bu günə kimi Azərbaycan hökuməti ilə BVF arasındakı əməkdaşlıq adətən aşağıda göstərilən yönləri əhatə edibdir: 1) Hesablama Palatasının yaradılması; 2) Büdcə Sistemi haqqında Qanunun qəbul olunması; 3) Neft Fondunun yaradılması və onun şəffaflığının təmin olunması; 4) Vergi ilə gömrük idarəetmə sistemlərinin təkmilləşdirilməsi. Bundan əlavə, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının sürətləndirilməsində və beynəlxalq maliyyə institutları ilə əməkdaşlığın intensivləşdirilməsində Dünya Ticarət Təşkilatına (DTT) qəbul xüsusi rol oynaya bilər. Çünki bu təşkilat da beynəlxalq İqtisadi qurum olmaqla BMT institutudur və ona üzvlük ölkə ilə əməkdaşlıqda nəzərə alınan ən başlıca tituldur. DTT üzvü olma iqtisadiyyatın liberallaşdırılması, bazar münasibətlərinin inkişaf etdirilməsi göstəricisi kimi çıxış edir. Respublikamızın dünya iqtisadiyyatına inteqrasiyasının mühüm səviyyə göstəricilərindən biri də xarici ticarət dövriyyəsinin durumu və buradakı fəal dəyişikliklərdir. İndi artıq respublikamızın 181 ölkə ilə ticarət-iqtisadi əlaqəsi mövcuddur. Ölkəmizin ixrac potensialının artırılmasında beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıqdan səmərəli istifadə xüsusi rol oynaya bilər. Təsadüfi deyildir ki, beynəlxalq maliyyə institutlarının kreditlərinin verilməsində əsas prinsiplərdən biri də yerli istehsalın rəqabət-qabiliyyətinin və ixrac potensialının artırılmasıdır. Bu qurumların Azərbaycanda reallaşdırılmış bir sıra layihələri də məhz qeyri-neft sektorunda sahibkarlığın dəstəklənməsinə, onların ixrac qabiliyyətli məhsullar istehsal etmələrinə yönəldilmişdir. Hal-hazırda beynəlxalq maliyyə qurumları respublikamızda iqtisadiyyatın ayrı-ayrı sahələrində strateji layihələri, xüsusilə də iqtisadi və sosial infrastrukturun inkişaf etdirilməsi istiqamətində mövcud olan layihələri maliyyələşdirmişdir. Bu layihələrə əsasən növbətilər aiddirlər: 1) "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının işlənilməsi; 2) Bakı-Tbilisi-Ceyhan ixrac-boru kəmərinin tikintisi; 3) "Şahdəniz" qaz-kondensat yatağının istismara verilməsi; 4) Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi; 5) TANAP və TAP layihələrinin maliyyələşdirilməsi; 6) Ələt Beynəlxalq Dəniz Limanının tikintisinin aparılması və s. Bu kimi layihələrin reallaşdırılması ölkədə sahibkarlığın inkişafının sürətləndirilməsinə, neft-qaz sənayesi ilə yanaşı, qeyri-neft sektorunun inkişafının intensivləşdirilməsinə və qeyri-neft ixrac potensialının artırılmasına əlavə imkanlar yaranır. Ölkə Prezidenti tərəfindən dərin iqtisadi islahatlar paketi əsasında biznes mühitinin yaxşılaşdırılması, lisenziya tələb olunan fəaliyyət növlərinin sayının 59-dan 37-yə endirilməsi, sahibkarlıq fəaliyyəti növlərinə verilmiş icazələrin sayının təxminən 4 dəfə azaldılmaqla 330-dan 87-yə endirilməsi ilə əlaqəli vacib qərarlar qəbul edilib. Bundan əlavə, ölkə başçısının imzaladığı müəyyən fərmanlarla respublikada sahibkarların şikayətlərinə baxılması sahəsində şəffaflıq ilə obyektivliyin təmin olunması, həmin sahədə şəxslərin hüquqları və qanunla qorunmuş maraqlarının müdafiəsi üçün Azərbaycan Respublikasının Prezidenti yanında, mərkəzi və yerli icra hakimiyyəti orqanlarında Apelyasiya Şuraları yaradılıbdır. İxrac əməliyyatlarının şəffaflığı və sənədləşdirilməsi xeyli asanlaşdırılmışdır və artıq rəqəmsal mexanizmlər üstünlük təşkil edir. İxrac portalları vasitəsilə ixracın həcminin ildən-ilə artması da buna misal ola bilər.

## YEKUN

Qeyri-neft sektorunun ixrac potensialının artırılmasında gömrük-tarif tənzimlənməsi və dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi mühüm əhəmiyyət kəsb edir. Bunlarla bağlı, bir sıra məsələlərə xüsusi önəm verilməlidir:

- işğaldan azad olunmuş ərazilərimizin qeyri-neft ixrac potensialı nəzərə alınmaqla, ölkəmizdə gömrük-tarif siyasətinin qlobal çağırışlara uyğun şəkildə tənzimlənməsi təmin olunmalıdır;
- hazırda ölkəmizdə qeyri-neft sektorunun ixrac potensialı üzrə dövlət dəstəyi mexanizmlərinin müasir çağırışlara adekvat şəkildə yenilənməsinə ehtiyac vardır və s.

**Açar sözlər:** *ixrac potensialı, qeyri-neft sektoru, qeyri-neft ixrac potensialı, gömrük, tarif, gömrük-tarif tənzimlənməsi, dövlət dəstəyi mexanizmi.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Şəkərəliyev, A.Ş., Şəkərəliyeva Z.A. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı: "İqtisad Universiteti" Nəşriyyatı – 2015. – 168 s.*

*2. Şəkərəliyev, A.Ş. İxracın strukturunun qeyri-neft məhsulları hesabına genişləndirilməsi istiqamətləri.*

*// Elmi Xəbərlər. Qərb Universiteti. – Bakı: – 2017. № 1, – s. 5-14.*

*3. Aslanov, H.H. Xarici ticarət əməliyyatlarının rəsmiləşdirilməsi və bu sahədə "bir pəncərə" sisteminin tətbiqi // Audit, 2021, 1 (31), s.74-84.*

*4. Şəkərəliyev, A.Ş., Nuriyev, C.Q., Əliyev, A.Ə., Şəkərəliyeva, Z.A. Gömrük işinin təşkili və idarə edilməsi. Bakı, "İqtisad universiteti", – 2018, – 292 s.*

*5. Xarici ticarət iştirakçılarının "Yaşıl dəhliz" buraxılış sistemindən daimi istifadə hüququnu əldə etməsi, həmin hüququn dayandırılması, ləğvi və bərpası Qaydası. Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir.*

*6. Mikayıl Cabbarov: Güzəştlərin əsas məqsədi iqtisadi səmərəliliyin yüksəldilməsini təmin etməkdir: [Elektron resurs] / URL: www.yap.org.az.*

*7. Cəfərova, S.Z. Xarici iqtisadi əlaqələrin gücləmnəsi şəraitində Azərbaycan iqtisadiyyatının rəqabət qabiliyyətinin yüksəldilməsi yolları. İ.e.f.d-nın avt-tı. / – Bakı, 2016. – 28 s.*

*8. Azərbaycan Respublikası Prezidentinin qeyri-neft məhsullarının ixracının təşviqi ilə bağlı əlavə tədbirlər haqqında. / – 01 mart 2016-cı il tarixli Fərmanı.*

*9. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında AR Prezidentinin Fərmanı, – Bakı: 14 may 2010-cu il.*

*10. "Azərbaycan Respublikasında xarici ticarətin daha da liberallaşdırılması haqqında" AR Prezidentinin 24 iyun 1997-ci il tarixli 609 nömrəli Fərmanı.*

*11. Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi qaydalarının təkmilləşdirilməsi sahəsində əlavə tədbirlər haqqında. AR Prezidentinin Fərmanı, 14 may 2010-cu il, Bakı.*

*12. İlham Əliyev: "İxrac məhsulumuzla yeni bazarlara çıxmalıyıq". http://www.newspaper.az.*

**РЕЗЮМЕ**

**ТАМОЖЕННО-ТАРИФНОЕ РЕГУЛИРОВАНИЕ И РОЛЬ МЕХАНИЗМОВ ГОСУДАРСТВЕННОЙ ПОДДЕРЖКИ В ПОВЫШЕНИИ ЭКСПОРТНОГО ПОТЕНЦИАЛА НЕНЕФТЯНОГО СЕКТОРА**

В статье рассматривается таможенно-тарифное регулирование и роль механизмов государственной поддержки в повышении экспортного потенциала ненефтяного сектора. С этой целью анализированы основные механизмы и инструментарий таможенно-тарифного регулирования в контексте роста экспорта ненефтяной продукции. Исследована эффективность и роль механизмов государственной поддержки в повышении экспортного потенциала продукции ненефтяной сферы. Последовательно рассмотрена основная правовая база, в том числе, законы, государственные акты и принятые решения центральных органов страны в сфере таможенно-тарифного регулирования и повышения экспортного потенциала за счет совершенствования механизмов государственной поддержки. Подготовлены предложения по рассматриваемым проблемам.

**Ключевые слова:** *экспортный потенциал, ненефтяной сектор, потенциал ненефтяного сектора, таможня, тариф, таможенно-тарифное регулирование, механизмы государственной поддержки.*

**SUMMARY**

**CUSTOMS TARIFF REGULATION AND THE ROLE OF STATE SUPPORT MECHANISMS IN INCREASING THE EXPORT POTENTIAL OF THE NON-OIL SECTOR**

The customs tariff regulation and the role of state support mechanisms in increasing the export potential of the non-oil sector are investigated in the article. For this purpose the main mechanisms and tools of customs tariff regulation in the context of the growth of non-oil exports are analyzed. The effectiveness and role of government support mechanisms in increasing the export potential of non-oil products is considered. The main legal framework is consistently considered, including laws, state acts and decisions taken by the country's central bodies in the field of customs and tariff regulation and increasing export potential by improving state support mechanisms. Proposals for the issues under consideration are given in the end of the article.

**Key words:** *export potential, non-oil sector, non-oil sector potential, customs, tariff, customs tariff regulation, state support mechanisms.*

**UOT: 338.012:504.062.2**

# AZƏRBAYCANIN NEFT SAHƏSİNDƏ EKOLOJİ-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNDƏ DÜNYA TƏCRÜBƏSİNİN MÜTƏRƏQQİ ROLUNUN TƏDQİQİ

**ATA BABAYEV**
*Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti*
*E-mail: babayevata1964@gmail.com*

Azərbaycanda neft sənayesinin inkişafı qlobal iqtisadiyyatın vəziyyətindən asılıdır və onun davamlı inkişafı neftə qlobal tələbatın artması ilə bağlıdır. Azərbaycanın neft sənayesi ölkəmiz və bütövlükdə dünya üçün mühüm əhəmiyyət kəsb edir və neft sənayesi yanacaq-energetika kompleksinin tərkib hissəsidir. Neft sənayesi yanacağın hasilatı və istehsalını, enerji istehsalını, enerji və yanacağın bölüşdürülməsini və nəqlini özündə birləşdirən şaxələndirilmiş sistemdir. Azərbaycanın neft sənayesi ölkə büdcəsinin ən böyük maliyyə gəlirləri mənbəyidir. Bunları nəzərə alaraq Azərbaycanın neft sahəsində ekoloji-iqtisadi problemlərin həlli mühüm vəzifələrdən biridir. Bu baxımdan, Azərbaycanın neft sahəsində ekoloji-iqtisadi problemlərin həllində dünya təcrübəsinin mütərəqqi rolunun tədqiqinin böyük təcrübi əhəmiyyəti vardır.

Dünya dövlətləri və beynəlxalq təşkilatlar ekoloji problemlər və iqlim dəyişikliyi ilə bağlı çoxsaylı çağırışlar və razılaşmalar əldə etsələr də, bu problemlər o qədər mürəkkəbdir ki, asanlıqla həll olunması gözlənilmir. Ona görə də hər bir ölkədə, xüsusilə yeraltı təbii sərvətlərə malik bütün ölkələrdə ekoloji-iqtisadi problemlərin həlli və bu sahədə müvafiq konsepsiyanın olması vacibdir. Müasir tələblər nəzərə alınmaqla ekoloji-iqtisadi problemlərin həlli məqsədilə əsas iqtisadi mexanizmlərin istifadəsinin təkmilləşdirilməsi və yeniləşdirilməsi strategiyasına üstünlük verilməlidir [1, s.48]. Bu, neftin dünya ölkələri üçün əhəmiyyətli rolu ilə bağlıdır. Neftin dünya ölkələri üçün əhəmiyyəti aşağıdakılardan ibarətdir: 1) neft, neft-kimya istehsalı, o cümlədən sintetik kauçuk, polietilen, spirtlər, polipropilen, plastik məmulatlar, süni parçalar istehsalı üçün xammaldır və 2) neft motor yanacağı istehsalı mənbəyidir. Bunlar kerosin, benzin, reaktiv və dizel yanacağı, sürtkü materialları və yağlar, mazut (qazan və soba yanacağı) və digərləridir.

Neft bazarının qlobal iqtisadiyyata ciddi təsiri var. Neft hasil edən ölkələrin rifahı bundan asılıdır. Neft bütün dünyada ən çox tələb olunan və tez satılan əmtəədir. Neft məhsullarının tədarükü müqaviləsi ən çox yayılmış ticarət alətlərindən biridir. Lakin bu məhsulun satışında müvəffəqiyyətli olmaq üçün neft bazarının strukturunu və onun necə qurulduğunu tam başa düşmək, həmçinin qiymətə təsir edən amillər haqqında məlumata malik olmaq lazımdır. Neft hasilatı statistik tədqiqat obyekti kimi həm tənzimlənən, həm də tənzimlənməyən bütün bazar münasibətlərini özündə birləşdirən iqtisadi sistemdir. Tənzimlənməmiş dünya neft bazarı modeli neft hasilatı sahəsində bazarın özünütənzimləmə mexanizmlərinə əsaslanır. Onların təsiri tələb, təklif və neft qiymətlərindəki dəyişikliklərlə ifadə olunur. Bazar modelində dövlətlərin rolu bütün iştirakçılar üçün ümumi qayda və normaların müəyyən edilməsinə qədər azaldılır. Belə bir model böyük nəzəri və metodoloji əhəmiyyət kəsb edir. Çünki klassik formada dünya neft bazarı yalnız inkişaf etmiş iqtisadiyyatı olan ölkələrdə mövcud ola bilər. Tələb və təklif neft hasilatının həcmindən, qiymətlərdən xarici və daxili amillərdən asılı olaraq daim dəyişir. Bu səbəbdən özünütənzimləmə mexanizmləri davamlı olaraq fəaliyyət göstərməlidir [2, s.69].

Neft sənayesinin səmərəli inkişafı ölkə iqtisadiyyatının artımının hərəkətverici amili olmaqla, enerji ehtiyatlarının hasilatı, emalı və son istehlakçıya çatdırılması ilə məşğul olan əlaqəli sahələrin inkişafı üçün ilkin şərait yaradır. Bu sənayenin inkişafının sabitliyi büdcə sisteminin gəlir hissəsinin həm birbaşa (vergi ayırmaları hesabına), həm də dolayı yolla doldurulmasından, ölkəyə valyuta daxilolmalarının həcmi və ölkənin qızıl-valyuta ehtiyatlarının artmasından asılıdır. Beləliklə, neft-qaz sənayesinin davamlı inkişafı bütövlükdə ölkə iqtisadiyyatının inkişafı üçün zəruri ilkin şərait yaradır. Neft dünyanın 90-dan çox ölkəsində istehsal olunur. İstehsal olunan neftin 40%-dən çoxu OPEK ölkələrinin payına düşür, o cümlədən dünya neft ehtiyatlarının 2/3-i, hasil edilən neftin 1/3-i isə Fars körfəzi ölkələrinə məxsusdur. Dünyanın neft hasil edən ölkələri Səudiyyə Ərəbistanı, Birləşmiş Ərəb Əmirlikləri, İran, İraq və Rusiyadır. XX əsrin II yarısının sonunda Çin və Qazaxıstanda neft hasilatında artım müşahidə olundu. Qazaxıstan ərazisinin 62%-i neft və qazdır. Fars körfəzi ölkələri ilə yanaşı, Latın Amerikası, Şimali Amerika, Afrika, Qərbi Avropa, MDB ölkələri, Avstraliya və Sakit okean adalarında da neft hasil edilir. Dünyada hasil edilən neftin 40%-dən çoxu beynəlxalq bazarlara çıxarılır [3, s.112].

Neft sahəsinin ekoloji-iqtisadi problemlərinin həlli sahəsində xarici təcrübənin öyrənilməsi mühüm təcrübi əhəmiyyətə malikdir. Bu baxımdan sözügedən sahədə qabaqcıl ölkələrin təcrübəsinin öyrənilməsi böyük maraq doğurur. Amerikada neft sahəsinin əsas xarakterik xüsusiyyətlərinə neftin hasilatında xarici kapitalın istifadənin məhdudlaşdırılmasını, neftin kəşfiyyatı və hasilatının reallaşdırılması hüququnu təsdiq edən təkmil patent sisteminin

olmasını, neft sənayesinin effektiv fəaliyyətinin effektiv hüquqi təminat mexanizminin yaradılmasını, neft sənayesi müəssisələrinin bazara bərabər çıxışına imkan verən antiinhisar siyasətinin həyata keçirilməsini və s. aid etmək olar [4, s. 107]. ABŞ-da neft sənayesinin dövlət tənzimlənməsinin əsas aləti çevik vergi siyasətidir. Amerikanın neft şirkətlərinin vergitutma sisteminin mürəkkəbliyi vergilərin tərkibində deyil, bir çox amillərdən əhəmiyyətli dərəcədə dəyişən vergi yükünün müəyyən edilməsindədir ABŞ-da minlərlə özəl neft sənayesi üzrə müəssisələr fəaliyyət göstərir. Bir sıra hallarda faydalı qazıntıların istehsalına görə vergilərin tətbiq edilməməsi həmin müəssisələrin gəlirlərinin artmasına səbəb olur. ABŞ-da neft sənayesi müəssisələri bazarda baş verən dəyişikliklərə vaxtında və çevik reaksiya verə bilirlər. Məsələn, çoxlu sayda kiçik neft emalı müəssisələrinin olması həmin sahə məhsullarının satış problemini aradan qaldırılmasına imkan verir. Belə ki, ABŞ-da bu qəbildən olan 8 min neft emalı müəssisəsi vardır.

Rusiyada neft sənayesi ölkənin iqtisadi inkişaf tempinə əhəmiyyətli dərəcədə təsir göstərir. İnkişaf göstəriciləri, inflyasiyanın azalması, əhalinin artımı, neftin yüksək qiymətinin saxlanmasından asılıdır. Rusiya neft hasilatı sahəsində öz mövqeyini möhkəmləndirmək məqsədilə neft yataqlarının istismarını gücləndirmişdir. Burada yaxın 20-25 il ərzində artıq təsdiqini tapmış neft ehtiyatları vardır. Gələcək 50 il ərzində ölkənin milli maraqlarının qorunmasına münbit şərait yaradacaq neft ehtiyatları da mövcuddur. Rusiyada hər il neftdən 100-dən çox adda neft məhsulları müxtəlif neft emalı müəssisələrində istehsal olunur [5, s.155].

Kanada yerin təkindən səmərəli istifadənin təmin edilməsi, ehtiyatların tükənmə riskinin qarşısının alınması və ixracın səmərəliliyinin artırılması sahəsində çoxşaxəli tənzimlənməni həyata keçirir. Kanadada yerin təkindən səmərəli istifadənin vergitutmasının çevik sistemi mövcuddur. Belə ki, Kanadada neft sənayesi müəssisələri üçün vergi dərəcələri tənzimlənir, müxtəlif vergi tətilləri və güzəştlər sistemi tətbiq edilir. Royalti 1-30% arasında dəyişir və neftin qiymətindən, quyuların debitindən, neftin keyfiyyətindən, yataqların növündən, hasilat səviyyəsindən və daşınma məsrəflərindən, yataqların aşkar olunma vaxtından asılıdır. Belə mexanizm yeni yataqların və sahələrin axtarışına və kəşfiyyatına təkan verir, neft hasilatının səmərəliliyini sistemli şəkildə artırır. Neft hasilatı üzrə vergi yükü nisbətən yüksəkdir. Gəlir vergisi 40,8-45,8% təşkil edir. Kanadanın yer təkindən istifadə sistemi mineral ehtiyatlara dövlət mülkiyyətinin üstünlük təşkil etməsi, mineral ehtiyatların hasilatı ilə bağlı kommersiya layihələrində dövlətin birbaşa iştirakının olmaması ilə xarakterizə olunur. Yerin təkinin istifadəyə verilməsi icarə-lisenziya sisteminə əsaslanır.

İnvestisiyaların cəlb edilməsinin stimullaşdırılması neft sahəsinin ekoloji-iqtisadi sisteminin inkişafının tənzimlənməsinin əsas istiqamətlərindən biri kimi çıxış edir. Xarici investisiyalarla bağlı Kanadanın qanunvericiliyində onların cəlb edilməsi üçün bir sıra şərtlər müəyyənləşdirilmişdir. Bu şərtlərə resursların səmərəli istifadəsi, ətraf mühitin mühafizəsi, kommersiya maraqlarının qorunması, geoloji kəşfiyyata dəstək göstərilməsi, ixraca nəzarətlə bağlı fəaliyyət sahəsində maraqlara riayət olunması daxildir [6, s. 54]. Norveçin bu sahədə təcrübəsinin öyrənilməsi də böyük maraq doğurur və Norveçin neft sənayesinin ÜDM-in strukturunda payı yüksəkdir. Neft sənayesi əsasən innovativ və texnoloji həllər əsasında inkişaf etmişdir. Norveçdə neft sənayesindən əldə edilən gəlirlər Dövlət Pensiya Fonduna gedir, sonra isə xarici qiymətli kağızlara yatırılır. Fond, ölkənin büdcə sisteminin uzunmüddətli sabitliyini təmin edir [7, s. 61-62]. Dövlət ilkin olaraq neft sənayesinin inkişafı məqsədilə səmərəli proqram hazırlayır, qarşıya düzgün məqsədlər qoyur. Norveç xarici şirkətlərə texnoloji təcrübələrini ötürməyə və yerli kadrları öyrətməyə məcbur edir. Norveçdə iqtisadiyyatın, xüsusilə sosial sahənin yüksək inkişafı yerin təkindən istifadə, neft sənayesinin idarə edilməsi və onun hüquqi tənzimlənməsi sahəsində aparılan siyasətin səmərəliliyindən xəbər verir.

Təbii rentanın bölünməsində ölkənin və cəmiyyətin mənafeyinin qorunmasının əsasını dövlətin bilavasitə maliyyə iştirakı mexanizmi təşkil edir. Dövlət, bir qayda olaraq, şirkətlərin konsorsiumlarına lisenziyalar ayırır və onların layihələrdəki paylarını müəyyən edir. Lisenziya şərtlərinin yerinə yetirilməsinə cavabdeh olan operator şirkəti təyin edilir. Konsorsiumun üzvləri bir-biri ilə birgə əməliyyat müqaviləsi bağlayırlar. Bu müqavilə lisenziyalı ərazidə fəaliyyətin təşkili üçün əsas təşkil edir və gəlirlərin bölgüsünü müəyyən edir. Xarakterik məqam ondan ibarətdir ki, dövlət öz payından gəlir əldə etməklə yanaşı, layihələrdə iştirak faizinə uyğun olaraq investisiya fəaliyyətini həyata keçirir və əməliyyat xərclərini öz üzərinə götürür. Neft sənayesi müəssisələri, ilk növbədə, adi şirkətlər kimi (korporativ mənfəətdən) vergiyə cəlb olunur, vergi dərəcəsi isə 28% təşkil edir. Yataqların işlənməsi üçün lisenziyaların sahibləri kəşfiyyat müddətinin sonunda ərazidən istifadəyə görə haqq ödəyirlər. Ölkədə neft gəlirləri dövlət tərəfindən idarə olunur.

Böyük Britaniyada neft sənayesinə 30% korporativ gəlir vergisinə əlavə olaraq 10% neft və qaz gəlir vergisi tətbiq edir. Karbohidrogen hasilatından əldə edilən mənfəətdən ödənilən xüsusi vergi də tətbiq olunur. Xüsusi vergi hesablanarkən digər fəaliyyət növlərindən itkilər hesabına onun azaldılmasına yol verilmir, lakin kəşfiyyat xərcləri baxımından güzəşt əldə etmək mümkündür. İqtisadiyyatın neft-qaz sektorundan əldə edilən gəlirlər sosial məqsədlər üçün yenidən bölüşdürülür və praktiki olaraq neft-qaz sektorunun inkişafına yönəldilmir.

Neft ehtiyatlarına görə dünyada ilk onluqda Yaxın və Orta Şərq ölkələri yer tutur. Bu regiona daxil olan ölkələr dünyanın ən əsas neft hasilatçılarından biridir. Neft sənayesi tam milliləşdirilmişdir. Həmin sənaye müəssisələri dövlət tərəfindən və onun təsis etdiyi neft şirkətləri tərəfindən idarə olunur. Neftin və neft məhsullarının xaricə satışı məqsədilə infrastrukturun yaradılması Yaxın Şərq ölkələrinin neft sahəsinin ekoloji-iqtisadi sisteminin inkişafı sahəsində siyasətinin əsas istiqamətlərindən biri kimi çıxış edir. Səudiyyə Ərəbistanda neft sənayesinə qoyulan xarici investisiyaların dəyəri yüz milyard dollarla ölçülür və böyük pay ABŞ-a məxsusdur. Səudiyyə Ərəbistanında neft sənayesi ciddi dövlət nəzarəti altındadır. Ölkədə neft hasilatının monopoliyası dövlət şirkətinə məxsusdur. Xarici şirkətlər yalnız xidmət müqavilələrini yerinə yetirə bilərlər. Səudiyyə Ərəbistanınında neft və qaz sektorunun vergiyə cəlb edilməsi korporativ gəlir vergisi və konsessiya müqavilələri sisteminə əsaslanır. Neft şirkətləri üçün gəlir vergisi dərəcəsi 85%, digər şirkətlər üçün isə 20% təşkil edir. Royalti dərəcəsi hər bir xüsusi konsessiya müqaviləsində müəyyən edilir. Neft sektorundan əldə edilən gəlirlər əhalinin həyat səviyyəsinin və milli maraqların təmin edilməsinə sərf olunur. Küveytdə xarici kapitalın neft sənayesində iştirakı birdəfəlik müqavilələrə uyğun olaraq texniki obyektlərin tikintisi ilə məhdudlaşır. Konstitusiya xarici qurumlara təbii sərvətlərdən istifadəyə hüququ verən güzəştləri qadağan edir. Xarici investisiyalar, hasilatın pay bölgüsü sazişlərindən fərqli olaraq, hökumətə neft ehtiyatlarına sahiblik hüququnu saxlamağa və neft hasilatına nəzarət etməyə imkan verən əməliyyat xidməti müqavilələri vasitəsilə cəlb edilir. Xarici firmalara məsrəfləri kompensasiya etmək üçün hasil edilən neftin hər barelinə görə mükafat ödənilir. Neft gəlirləri sosial sahənin inkişafına və gələcək nəsillər üçün ehtiyat fondunun yaradılmasına yönəldilir. Küveyt bir çox ölkələrin o cümlədən, Yaponiyanın, ABŞ-ın, Kanadanın, Böyük Britaniyanın və s. ölkələrin onlarla neft şirkətlərinin ortaq sahibidir. Küveytin İtaliyada, Hollandiyada və Danimarkada özünə aid olan üç neft emalı müəssisəsi vardır. Bundan başqa Avropa ölkələrində minlərlə yanacaqdoldurma məntəqəsi vardır. Həmin yanacaqdoldurma məntəqələri əsas hava limanlarında da vardır. Xarici investisiyalardan əldə olunan mənfəət getdikcə əhəmiyyətli valyuta gəliri mənbəyinə çevrilir [8, s. 191]. İran iqtisadiyyatında da neft sahəsi üstünlük təşkil edir. Ölkənin üç əsas sənaye sahəsi vardır ki, bunlardan biri məhz neft sahəsidir. İran dünya neft ixracında sıralamada ilk beşlikdədir. Əsas ixrac marşrutları Fars körfəzində yerləşir. Əsas ixrac coğrafiyası Avropa ölkələri və Yaponiyadır [5, s.157]. İran konstitusiyası neft sənayesində yerin təkindən istifadə hüquqlarının konsessiya və ya birbaşa pay şəklində verilməsini qadağan edir. Qanuna görə, bütün investisiyalar podratçı tərəfindən maliyyələşdirilir. Dövlət podratçıya adətən 15-17% olan sabit gəlir dərəcəsini təqdim etməyi öhdəsinə götürür.

Misirdə kəşfiyyat mərhələsi üçün maliyyə təmin etməyi öhdəsinə götürən dövlət neft şirkəti ilə xarici neft podratçıları arasında hasilatın pay bölgüsü sazişləri mövcuddur. Gəlirli neft ehtiyatları aşkar edildikdə, dövlət podratçıya investisiya məbləğini kompensasiya edir və yatağı 20-30 il müddətinə icarəyə verir. Sonra, iki tərəfin bərabər paylara sahib olduğu bir investisiya şirkəti yaradılır. Müqavilənin müddəti 35 ildən çox ola bilməz. Hasil edilən neftin 10%-ə bərabər olan müəyyən bir hissəsi dövlət neft şirkəti tərəfindən öz payından natura və ya nağd şəkildə Misir hökumətinə verilir. Öz növbəsində podratçı 40-55% korporativ gəlir vergisi ödəyir [9, s.54]. Nigeriyada ölkə birgə əməliyyat sazişlərindən və hasilatın pay bölgüsü sazişlərindən istifadə edir. Birgə əməliyyat müqavilələrinə əsasən, tərəfdaşlar neft hasilatı xərclərini səhmdarların paylarına uyğun olaraq bölüşdürürlər. Ölkədə hasil edilən neftin 95%-i belə müqavilələr əsasında həyata keçirilir. Birgə layihələrdə milli şirkətlərin payı 55-60% təşkil edir. Nigeriyada yer təkindən istifadə münasibətləri müxtəlif formalara əsaslanır. Lisenziya müqavilələri neft gəlirləri və royaltilər üzrə verginin ödənilməsini nəzərdə tutur.

Neft Strategiyasının əsas məqsədlərindən biri də gəlirlərin Azərbaycan xalqının rifahının yaxşılaşdırılması məqsədilə düzgün və səmərəli istifadəsini təşkil etməkdir. İndiki dövrdə neft gəlirləri təkcə neft sənayesinin inkişafı üçün deyil, ümumən bütün iqtisadiyyatın inkişafı üçün əsas yaradır. Ümumiyyətlə, bu gəlirlərin ölkə iqtisadiyyatının həm kəmiyyət, həm də keyfiyyət parametrlərinə, hökumətin siyasətinə, eləcə də ölkə əhalisinin rifahına təsiri əhəmiyyətli dərəcədə hiss olunur. Neft ehtiyatları Azərbaycan iqtisadiyyatının, onun mədəni inkişafının, əhalinin sosial-mədəni rifahının yüksəldilməsinin əsas amillərindən biridir. Son illər neft ehtiyatlarının artması, onlardan səmərəli istifadəsi, bu sahədə digər ölkələrlə yeni müqavilələrin bağlanması ölkə iqtisadiyyatının inkişafına, əhalisinin rifah halının yaxşılaşmasına öz töhfəsini verib.

## NƏTİCƏ

Beləliklə, neft sahəsində xarici təcrübənin öyrənilməsi və tətbiqi Azərbaycanda bu sahənin ekoloji-iqtisadi problemlərinin həllinə kömək edə və fəaliyyətinin səmərəliliyini artıra bilər. Bunun üçün bir sıra tədbirlərin reallaşdırılmasına xüsusi önəm verilməlidir:

- Birinci növbədə neft hasilatı proseslərində ekoloji-iqtisadi problemlərin həlli ilə bağlı yanaşmalar maksimum prioritetlik səviyyəsinə qaldırılmalıdır;

- Sonra, neft sahəsində ekoloji-iqtisadi problemlərin ardıcıl və səmərəli şəkildə həll edilməsi üçün dünya təcrübəsinin mütərəqqi forma və metodlarına xüsusi diqqət yetirilməlidir;

- Ölkəmizdə iqtisadiyyatın lokomotivi olan neft sahəsində sosial-iqtisadi baxımdan tarazlığı qorumaq və ekoloji-iqtisadi problemlərin həllində dövlətlə cəmiyyət arasında konsessuma nail olmaq üçün daha təsirli tədbirlərin həyata keçrilməsinə zərurət vardır.

**Açar sözlər:** *neft sahəsi, ekologiya, ekoloji-iqtisadi sistem, ekoloji-iqtisadi problemlər, mütərəqqi dünya təcrübəsi, neft sənayesi, neft hasil edən ölkələr.*

## ƏDƏBİYYAT SİYAHISI:

1. Babayev, A.M. Qlobal çağırışlar baxımından neft sahəsində ekoloji-iqtisadi sistemin formalaşmasına və idarə edilməsinə strateji yanaşmalar. "Geostrategiya" jurnalı yanvar-fevral, 2019, №01 (49), s.46-49.

2. Мзедави, С.К. Методологические аспекты исследования мировых рынков нефтепродуктов / С.К.Мзедави, А.О.Лобовиков // Актуальные проблемы экономики и управления на предприятиях машиностроения, нефтяной и газовой промышленности в условиях инновационно-ориентированной экономики. – 2021. – Т. 1. – С. 67-75.

3. Тлесова, Э.Б. Сравнительный анализ развития нефтегазовой промышленности / Э.Б.Тлесова // Актуальные научные исследования в современном мире. – 2018. – № 5-2(37). – С. 112-116.

4. Databasesюк, И.С. Проблемы применения зарубежного опыта в государственном регулировании нефтегазового комплекса России / И.С. Databasesюк, С.Е. Трофимов // Известия Иркутской Государственной Экономической Академии. – 2015. – Т. 25. – № 1. – С.103-109.

5. Əliyev, Ş.T. Azərbaycanın xarici iqtisadi siyasəti. Sumqayıt: Sumqayıt Dövlət Universitetinin nəşriyyatı, 2015, 185 s.

6. Павленко, В.И. Регулирование сферы недропользования в приарктических странах (США, Канаде, Норвегии) / В.И. Павленко, Ю.Г. Селюков // Арктика: экология и экономика. – 2013. – № 3. – С.50-57.

7. Базалева, Р.В. Зарубежная и российская нормативная база освоения месторождений Арктики / Р.В.Базалева, Н.А.Пименова // Нефтепромысловое дело. – 2015. – № 4, с.60-64.

8. Азиева, Р.Х. Зарубежный опыт управления нефтяным комплексом / Р.Х.Азиева // Молодой ученый. – 2013. – № 3. – С. 189-195.

9. Павлинова, О.В. Анализ альтернативных механизмов изъятия природной ренты в нефтяной отрасли зарубежных стран // Налоги и налогообложение. 2014. № 20 (206), с.48-57

## РЕЗЮМЕ
## ИССЛЕДОВАНИЯ ПРОГРЕССИВНОЙ РОЛИ МИРОВОГО ОПЫТА В РЕШЕНИИ ЭКОЛОГО-ЭКОНОМИЧЕСКИХ ПРОБЛЕМ В НЕФТЯНОЙ СФЕРЕ АЗЕРБАЙДЖАНА

В статье рассмотрены прогрессивная роль мирового опыта в решении эколого-экономических проблем в нефтяной сфере Азербайджана. Раскрыта сущность и значимость мирового опыта по организации и совершенствованию эколого-экономической системы страны в контексте устойчивого развития. Рассмотрено влияние мирового нефтяного рынка и развитие нефтяной промышленности на эколого-экономической сбалансированности. Анализирован опыт отдельных стран, в том числе США, Норвегии и других нефтедобывающих стран по обеспечению экологической безопасности и развития эколого-экономической системы. Обоснована необходимость и важность глубокого изучения мирового опыта в решении эколого-экономических проблем в нефтяной сфере Азербайджана и даны соответствующие предложения.

**Ключевые слова:** *нефтяная сфера, экология, эколого-экономическая система, эколого-экономические проблемы, прогрессивный мировой опыт, нефтяная промышленность, нефтедобывающие страны.*

## SUMMARY
## STUDY OF THE PROGRESSIVE ROLE OF WORLD EXPERIENCE IN SOLVING ECOLOGICAL AND ECONOMIC PROBLEMS IN THE OIL SECTOR OF AZERBAIJAN

The article considers the progressive role of world experience in solving ecological and economic problems in the oil sector of Azerbaijan. The essence and significance of the world experience in organizing and improving the country's ecological and economic system in the context of sustainable development is investigated. The influence of the world oil market and the development of the oil industry on the ecological and economic balance is considered. The experience of various countries, including the United States, Norway, and other oil-producing countries, in ensuring environmental safety and developing the ecological and economic system is analyzed. The necessity and importance of a deep study of world experience in solving ecological and economic problems in the oil sector of Azerbaijan is substantiated and appropriate proposals are suggested.

**Key words:** *oil field, ecology, ecological-economic system, ecological-economic problems, advanced world experience, oil industry, oil-producing countries.*

UOT: 338.242:338.246

# AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ

**NİGAR HACIYEVA**
*Azərbaycan Dövlət İqtisad Universitetinin dissertantı*

*E-mail: hajiyeva2021@inbox.ru*

Son onilliklərdə Azərbaycan iqtisadiyyatının stukturunun şaxələndirilməsi problemləri kifayət qədər aktuallığı ilə ön plana çıxmışdır. Dünya səviyyəsində baş verən qlobal transformasiyalar milli iqtisadiyyatın strukturunun diversifikasiyalaşdırılmasını vacib etmişdir. Hələ 2008-ci illərin sonlarında başlayan dünya maliyyə böhranının mənfi nəticələri ortadan qalxmamış, dünya miqyasında digər problemlər qlobal səviyyədə özünü göstərmişdir. Dünya maliyyə böhranının bir çox mənfi elementləri qlobal enerji bazarının dinamik inkişafına və əsas enerji resurslarının qiymətlərinə mənfi təsir etmişdir. 2014-cü ilin sonunda bu Azərbaycan iqtisadiyyatında da qabarıq şəkildə ortaya çıxmışdır, belə ki, əsas ixrac məhsulumuz olan neftin qiymətinin dünya bazarlarında xeyli aşağı düşməsi nəticəsində valyuta gəlirlərimizin intensivliyi azalmış və milli valyutamız olan manata təzyiq artmışdır. Bunların nəticəsində 2015-ci il ərzində milli manat 2 dəfə devalvasiyaya uğramış və 2 dəfədən çox dəyərdən düşmüşdür.

Bütün bunlar milli iqtisadiyyatın strukturuna yeni baxışların formalaşdırılmasını, yeni yanaşmaların müəyyənləşdirilməsini vacib etmişdir. Ölkə Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə milli iqtisadiyyatın perspektiv sahələri üzrə strateji yol xəritələri təsdiq olunmuş və qeyri-neft sektorunun inkişafı maksimum prioritetlik səviyyəsinə qaldırılmışdır. Qeyri-neft sektorunun müxtəlif sahələrinin potensialından səmərəli və məhsuldar istifadə edilməsi üzrə tədbirlər genişləndirilmiş, daha çox stimullaşdırıcı mexanizmlər işlənilmiş və tətbiq edilmişdir.

Qeyd edək ki, milli iqtisadiyyatın institusional rəqabət qabiliyyətinin artırılması mövcud iqtisadi sistemin iş qabiliyyətindən, sistemin həyat qabiliyyətini şərtləndirən amillərdən asılıdır. Nəticədə institusional komponentə malik alətlərdən istifadə əsasında neqativ amilləri azaltmaq və ölkə iqtisadiyyatının inkişafı üçün əlverişli mövqeləri artırmaq mümkün olur. İnstitusional rəqabətqabiliyyətlilik milli iqtisadiyyatın inkişafının idarə edilməsinin əsas vasitələrindən birinə çevrilir, ölkənin və onun subyektlərinin iqtisadi sisteminin inkişafının, habelə bu inkişafın keyfiyyət və keyfiyyət parametrlərinə təsir göstərir. Bütövlükdə, milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyi sənayeyə, bazara və cəmiyyətin digər mühüm sahələrinə təsir edən hökumət və korporativ qərarların qəbulu ilə sıx bağlıdır. Rəqabətqabiliyyətlilik anlayışının tətbiqinin genişliyinə əsaslanaraq, ən çətin məsələlərdən biri onun qiymətləndirilməsidir. O, müxtəlif amillərə və göstəricilərə əsaslanır, belə ki, həm xarici, həm də daxili bazarlarda artan rəqabət fonunda ölkə iqtisadiyyatının davamlı inkişafı yalnız milli iqtisadiyyatın və onun subyektlərinin rəqabət qabiliyyətinin səviyyəsinin əsaslı şəkildə yüksəldilməsi ilə mümkündür. Bu, dövlət orqanlarının və sahibkarlıq subyektlərinin praktiki fəaliyyətinin əsas vektoruna çevrilməli olan ölkənin inkişafının strateji məqsədlərindən biridir. Məhz milli iqtisadiyyatın rəqabət qabiliyyətinin artırılması sosial inkişafın və davamlı iqtisadi artımın yüksək səviyyəsi olan əhalinin həyat səviyyəsinin yüksəldilməsi və ictimai rifahın yaxşılaşdırılmasının əsas problemlərindən biri və əsas alətidir [1, s.164]. Ölkəmizdə bir sıra makroiqtisadi səviyyələrdə sabit və davamlı inkişaf templərinə nail olunmuş, ölkədə keçid iqtisadiyyatı prosesi başa çatdırılmışdır. Belə olan halda iqtisadi inkişaf prosesləri fundamental elm sahələrinin sürətli inkişafını, innovasiyaların və yüksək keyfiyyətli texnologiyaların iqtisadiyyatın aparıcı sahələrinə tətbiqini şərtləndirir. Odur ki, Azərbaycanın iqtisadi inkişaf proseslərində innovasiyaların yayılması və tətbiqini qiymətləndirmək lazımdır. İnnovativ fəaliyyəti təşviq etmək və genişləndirməklə ölkədə bilik iqtisadiyyatı üçün əlverişli şərait yaratmaq mümkündür ki, bu da qeyri-neft sektorunun inkişafı baxımından əhəmiyyətlidir. Son məhsul istehsalında qeyri-neft sektorunun inkişafı üçün texnoloji zəncir yaradılması, hazır məhsulların rəqabətqabiliyyətliliyinin artırılması, bu sahədə ixracın həcminin və çeşidinin genişləndirilməsi lazımdır. Eyni zamanda, qeyri-neft sənayesini inkişaf

etdirmək üçün ölkənin təbii və iqtisadi ehtiyatlarını dövriyyəyə cəlb etmək və onlardan istifadənin səmərəliliyini artırmaq lazımdır. Bu məqsədlə strateji yol xəritələri çərçivəsində qeyri-neft sənayesi sahələrinə doğru şaxələndirilməsi, səmərəliliyinin və rəqabətqabiliyyətliliyinin artırılması və s. tədbirlər müəyyən edilmişdir. İstehsal sahəsi arasında ağır sənaye və maşınqayırma sahəsinə xüsusi diqqət yetirilir. Çünki, qeyri-neft sənayesi sahələrini əhatə edən texnoparkların və sənaye zonalarının yaradılması Azərbaycan üçün daha səmərəlidir. Bu sahələrin inkişafı digər sahələrin inkişafı üçün əsasdır. Bu səbəbdən sənayeləri sürətləndirəcək böyük layihələr texnoparklar və sənaye zonaları ilə əlaqələndirilməlidir. Azərbaycanın İpək yolunun "iqtisadi zolağında" yerləşdiyini nəzərə alsaq, bu xətt boyu sənaye zonalarının və texnoparkların yaradılması məqsədəuyğundur. Texnoparkların səmərəliliyini artırmaq üçün ölkədə Texnoparklar Assosiasiyasının inkişaf etdirilməsi lazımdır. Texnoparklar Assosiasiyasının işi Sahibkarlığın İnkişaf Fondunun işi ilə birbaşa əlaqələndirilməlidir. Azərbaycanın rəqabətqabiliyyətli qeyri-neft məhsulları istehsalına xarici sahibkarların cəlb edilməsi ixrac-idxal potensialından məqsədəuyğun istifadə sahəsində əsas vəzifələrdən biridir. Bununla bağlı Azərbaycan hökuməti artıq öz strategiyasını formalaşdırıb. Azərbaycanda İnvestisiya Şirkəti və İxracın və İnvestisiyaların Təşviqi Fondu yaradılmış ki, bunların qeyri-neft sektorunda ixracın stimullaşdırılmasında rolu artıb. Bu strukturlar qeyri-neft sektorunun və ümumilikdə sahibkarlığın inkişafında fəal iştirak edir [2, s. 127].

Son illərdə ölkəmizdə qeyri-neft təmayüllü istehsal güclərinin yaradılması intensiv xarakter almış və dövlət tərəfindən bu istiqamətdə fəaliyyətin stimullaşdırılması üçün əlavə tədbirlər görülmüş, təşviq mexanizmləri müəyyənləşdirilmişdir. Qeyri-neft ixracının mükafatlandırılması və bu sahədə prosedurların sahələşdirilməsi, elektron resurslar üzərindən xarici ticarət əməliyyatlarının aparılması platformaları hazırlanmış və xarici ticarət fəaliyyəti subyektlərin sərəncamına verilmişdir. Bu kimi tədbirlər ölkənin mərkəzi şəhərləri ilə bərabər, regionlarda qeyri-neft sektoru sahələrində sahibkarlığın inkişafına əlavə motivasiya yaratmış və investisiya mühitinin cəlbediciliyini artırmışdır.

Eyni zamanda, ölkə Prezidentinin 2018-ci il 19 sentyabr tarixli sərəncamı ilə qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər müəyyənləşdirilmiş və müvafiq tapşırıqlar verilmişdir [3]. Qeyri-neft sektorunun inkişafı istiqamətində məqsədli proqramların reallaşdırılmasında müasir texnologiyalardan istifadə olunmasına diqqət artmışdır.

Xüsusilə, rəqabətqabiliyyətli qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi üçün əlavə tədbirlər işlənilmiş və reallaşdırılmışdır. Göstərilən tədbirlər bu istiqamətdə müəyyən pozitiv dinamikanı təmin etmiş və milli iqtisadiyyatın strukturunun rəqabət qabiliyyətinin artmasına əsaslı zəmin yaratmışdır. Professor Ş.T.Əliyev qeyd edir ki, Azərbaycanda ənənəvi güclü potensialına və özünüinkişafetmə qabiliyyətinə malik qeyri-neft sektoru sahələrinin modernizasiyası hesabına milli iqtisadiyyatın diversifikasiyası probleminin əhəmiyyətli hissəsini həll etmək mümkündür [4, s. 179]. Digər tərəfdən, qeyri-neft sektoru sahələrinin inkişafı hesabına milli iqtisadiyyatın dayanıqlılığının yüksəldilməsi və onun əlavə dəyər yaradan yeni mənbələrinin formalaşdırılması imkanları artır.

Ölkəmizdə qeyri-neft sektorunun elə sahələri var ki, bu həm də milli iqtisadi təhlükəsizlik və ərzaq təhlükəsizliyi ilə bağlı xüsusi əhəmiyyət kəsb edir. Belə sahələrdən biri də aqrar sahədir və bu sahənin inkişaf etdirilməsi dövlətimizin başlıca iqtisadi hədəflərindəndir. COVID-19 pandemiyasının yaratdığı yeni şəraitdə qlobal təhdidlər bütün sahələrə mənfi təsir etməkdədir, amma bu məsələlər qlobal ərzaq problemini daha həssas bir sahəyə çevirmişdir və onlarla ölkə ərzaq qıtlığı ilə üzləşmişdir.

Bütün bunlar ölkəmizin aqrar sahə üzrə siyasətində nəzərə alınmaqdadır, belə ki, ölkə Prezidentinin 15 iyul 2021-ci il tarixli "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafına dair bir sıra tədbirlər haqqında" fərmanında bu istiqamətlərdə olan problemlərin həll edilməsi hədəfləri dayanmışdır [5].

Qlobal problemlərin ciddi şəkildə nəzərə alınması və dəyərləndirilməsi strateji əhəmiyyət kəsb edir və ölkənin dayanıqlı iqtisadi inkişaf konsepsiyaları ilə uzlaşdırılmalıdır. Burada başlıca məqsəd milli iqtisadiyyatın inkişaf potensialının obyektiv olaraq öyrənilməsi, antiböhran tədbirləri çərçivəsində onun manevrlik imkanlarının qiymətləndirilməsidir. Tədqiqatçı H.Məmmədov bu fikirdədir ki, ölkəmizdə milli iqtisadiyyatın rəqabət qabiliyyətini müəyyənləşdirərkən, mövcud potensial, iqtisadi artım tempi, sənaye istehsalının səmərəliliyi, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi, daxili bazarın həcmi

və dinamikliyi, maliyyə sisteminin elastikliyi və dövlət tənzimlənməsinin iqtisadiyyata müdaxiləsinin səmərəliliyinin dərəcəsi nəzərə alınmalıdır [6, s. 71]. Bu amillər isə öz növbəsində milli iqtisadiyyatın daha dayanıqlı və rəqabətqabiliyyətli olmasına əsaslı zəmin formalaşdırır.

COVİD-19 pandemiyasının mənfi təsirinin davam etdiyi indiki dövrdə daha bir ciddi qlobal problemin simptomları ortaya çıxmışdır. Qlobal səviyyədə iqtisadi resessiya təzahürləri özünü göstərməkdədir. Buna görə də, məhz Azərbaycan iqtisadiyyatının enerji resurslarından, ilk növbədə neft və qaz amillərindən asılılığının azaldılmasından ötrü ciddi tədbirlərin görülməsinə zərurət yaranmışdır. Milli iqtisadiyyatın inkişaf dinamikasina əsasən qeyd etmək olar ki, ölkədə sənayenin, xüsusilə də qeyri-neft sənayesinin inkişafına ölkə iqtisadiyyatının kompleks inkişaf strategiyasının tərkib hissəsi kimi baxılmalıdır.

Ölkədə iqtisadiyyatın struktur yenidən qurulmasının prioritet istiqamətinə uyğun şəkildə elmi-texniki potensialdan istifadənin səmərəliliyi yüksəldilməlidir. Eyni zamanda, son illərdə qeyri-neft sənayesində innovasiya fəallığının yüksəldilməsi məqsədilə qanunvericilik bazasının təkmilləşdirilməsi, daxili bazarın qorunması da qeyri-neft sənayesinin inkişafının stimullaşdırılmasına imkan verəcəkdir [7, s. 45].

Bunlar nəzərə alınmaqla, Azərbaycan dövləti tərəfindən qeyri-neft sektorunun inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər görülməkdədir və bunlar özünü ölkədə makroiqtisadi göstəricilərdə də əks etdirmişdir. Məsələn, 2021-ci ilin yekununda ÜDM-in həcm 2020-ci illə nisbətdə 5,6 % artmış və 92,9 mlrd. manat səviyyəsində qeydə alınmışdır. Qeyri-neft iqtisadiyyatı isə həmin dövr ərzində 7,2 % artımla qeydə alınmış və ölkə ÜDM-də 62,2 % paya malik olmuşdur. Bunlarla yanaşı, ayrı-ayrı göstəricilərə baxdıqda, görmək mümkündür ki, qeyri-neft sənayesi 17,8 % yüksəlmişdir. 2021-ci il ərzində qeyri-neft sektoruna yönəldilən investisiyalar ümumi ölkə üzrə investisiya qoyuluşunun 64,2 % -i təşkil etmişdir [8]. Qeyri-neft sektorunun ayrı-ayrı sahələrinin inkişaf potensialından bəhrələnmək üçün görülən tədbirlər öz bəhrəsini verməkdədir. Belə ki, demək olar ki, bütün qeyri-neft sektoru sahələri üzrə COVID-19 pandemiyasının mənfi təsiri kontekstində belə artım təmin olunmuşdur. 2021-ci ildə aqrar sahənin artım tempi 2020-ci illə müqayisədə 3,4 % təşkil etmişdir [9].

Bu isə təsadüfi deyildir, əvvəldə qeyd etdiyimiz kimi, ölkəmizdə aqrar sahənin inkişafı üçün davamlı və ardıcıl tədbirlər həyata keçirilməkdədir. Belə ki, torpaq sahələrinin idarə olunması, şoranlaşmış torpaqların təsərrüfat dövriyyəsinə qaytarılması, torpaqlardan qanunsuz istifadənin olunanmasının qarşısının alınması məsələləri maksimum tənzimlənmişdir. Bundan əlavə, aqrar sahənin strateji əhəmiyyəti nəzərə alınaraq, 30-a yaxın müxtəlif subsidiya növləri mexanizmi işlənilmiş və tətbiq olunmuşdur. Digər tərəfdən, kənd təsərrüfatı məhsulları istehsalçıları və aqrar sahə subyektləri üçün güzəştli kənd təsərrüfatı üzvi gübrələri və kənd təsərrüfatı texnikası ayrılır. Regionların resurslarından məhsuldar istifadə olunması və iqtisadi fəallığın artırılması üçün məqsədli dövlət proqramları icra olunur. Hazırda ölkədə regionların sosial-iqtisadi inkişafı üzrə 2019-2023-cü illəri əhatə edən 4-cü dövlət proqramı reallaşdırılmaqdadır. Bu kimi tədbirlərin nəticəsində aqrar sahənin inkişaf etdirilməsi və onun rəqabətqabiliyyətli aqrar emal sənayesinin formalaşdırılması imkanları artmaqdadır. Belə ki, rəqabət qabiliyyətinin təmin olunmasında kənd təsərrüfatı istehsalçıları və emalçıları arasında maraqların balanslaşdırılması vacib məsələlər kimi xarakterizə olunurlar. Rəqabətə davamlı aqrar-emal sənayesinin yaradılması proseslərində vacib məsələlərdən biri beynəlxalq standartlar səviyyəsində rəqabətqabiliyyətli məhsul istehsalının təmin edilməsidir və bunun üçün istehsal texnologiyalarının yenidən qurulması vacibdir. İqtisadi rayonların inkişafında tarazlıqların yaradılması, kiçik emal zavodlarının təşkil edilməsi, emal məhsullarının artırılması üçün sahibkarlıq fəaliyyətinin səmərəli stimullaşdırma mexanizmlərinin hazırlanması tələb olunur [10, s. 97].

Hesab edirik ki, bu məsələlərin kompleks şəkildə həll olunması yaxın illərdə qeyri-neft sektorunun mühüm sahəsi olan aqrar sektorun inkişafına yeni məhsuldar mexanizmlərin tətbqinə imkan verəcək və yüksək texnologiyaların transfer prosesləri intensivləşəcəkdir. Xüsusilə, işğaldan azad olunmuş ərazilərdə - yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında iqtisadiyyatın strukturunun formalaşdırılması 100% olaraq qeyri-neft sektoru sahələrinin hesabına başa gələcəkdir. Bu ərazilərdə kifayət qədər yeraltı və yerüstü sərvətlər mövcuddur. Qeyri-neft sektorunun əvvəldə qeyd etdiyimiz strateji sahəsi olan aqrar sahənin Qarabağ və Şərqi Zən-

gəzur iqtisadi rayonlarında inkişafı əsasən müxtəlif kənd təsərrüfatı məhsullarının istehsalı, turizmin kompleks şəkildə inkişaf etdirilməsi, tikinti materialları sənayesinin yaradılması, kənd təsərrüfatı və aqrar məhsullarının emalı üzə sənaye müəssisələr şəbəkəsinin formalaşdırılması və s. diqqət çəkir. İşğaldan azad olunmuş ərazilərdə ölkəmiz vacib olan çox mühüm bir məsələnin -ərzaq buğdası ilə təminatın həll edilməsi istiqamətində ciddi perspektivlər vardır. Belə ki, Ağdam, Füzuli, Cəbrayıl və Zəngilan rayonlarında ərzaq buğdasının yetişdirilməsi və istehsalı üçün yetərincə yararlı torpaqlar və resurslar vardır. Bundan əlavə, qeyd olunan rayonlarda üzümçülüyün, üzüm emalı müəssisələrinin, baramaçılığın, yüngül və yeyinti sənayesi müəssisələri şəbəkəsinin yaradılması potensialı yüksəkdir. Laçın və Kəlbəcər rayonlarında isə heyvandarlığın və arıçılığın inkişaf etdirilməsi üzrə güclü potensial mövcuddur. Ümumilikdə postkonflikt dövründə işğaldan azad edilmiş ərazilərin yenidən bərpa olunması və ölkə iqtisadiyyatına reinteqrasiya olunmasının yerinə yetirilməsi dövlətdən kifayət qədər çevik, sistemli, ardıcıl, elmi cəhədən əsaslandırılmış struktur siyasətinin işlənib hazırlanmasını və həyata keçirilməsini tələb edir [11, s. 18].

## YEKUN

Yaxın perspektivdə ölkəmizin qeyri-neft sektorunun inkişafının sürətləndirilməsi və bununla bağlı mövcud potensialın obyektiv qiymətləndirilməsi üçün bir sıra məsələlər daha çox önəm daşıyır:

- qeyri-neft sektorunun hazırda reallaşdırılan strateji hədəfləri üzrə tədbirlərin texnoloji əsaslarının gücləndirilməsinə ehtiyac vardır;
- rəqəmsal texnologiyalar əsaslı rəqabətqabiliyyətli qeyri-neft təmayüllü müəssisələr şəbəkəsinin yaradılması dövrün tələbi kimi qiymətləndirilməlidir;
- işğaldan azad olunmuş ərazilərdə daha çox əlavə dəyər və maliyyə mənbələri formalaşdıran, yeni iş yerləri yaratmaq potensialı olan qeyri-neft sektoru sahələrinin inkişaf etdirilməsi məqsədli dövlət investisiyaları ilə yanaşı, xarici investisiyaların cəlb edilməsi və investorların daha intensiv olarq bu ərazilərə gəlməsi səmərəli ola bilərdi və s.

**Açar sözlər:** *Azərbaycan, iqtisadiyyat, qeyri-neft sektoru, qeyri-neft sektorunun inkişafı, qeyri-neft sektorunun səmərəliliyinin qiymətləndirilməsi, qeyri-neft sektorunun inkişaf perspektivləri, postkonflikt ərazilər.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hacıyeva, N.R. Müasir dövrdə milli iqtisadiyyatın rəqabət qabiliyyətinin yüksəldilməsi məsələləri // "Kooperasiya" jurnalı, 2022 № 02. – s. 163-170.*

*2. Hacıyeva, N.R. Azərbaycanda qeyri-neft sektorunun inkişaf problemlərinin nəzəri-metodoloji tədqiqi //"AMEA-nın Xəbərləri" jurnalı. İqtisadiyyat seriyası, Bakı, 2021, № 04. – s. 123-132.*

*3. Qeyri-neft sektorunda rəqabətqabiliyyətli daxili istehsalın dəstəklənməsi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. Bakı şəhəri, 19 sentyabr 2018-ci il, № 497.*

*4. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı, Sumqayıt, 2018.- 276 s.*

*5. "Aqrar sahədə istehsalın və emal sənayesinin inkişafina dair bir sıra tədbirlər haqqında"Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 iyul tarixli Fərmanı.*

*6. Məmmədov, H. Dayanıqlı iqtisadi inkişafın nəzəri əsasları // Statistika xəbərləri, № 3/2019-cu il, № 5, Cild 3, s. 64-73.*

*7. Mehdiyeva, N. Azərbaycanda qeyri-neft iqtisadiyyatının inkisaf dinamikasının qiymətləndirilməsi // İpək yolu, No.1, 2019, s. 39-46.*

*8. Makroiqtisadi vəziyyət. AR İqtisadiyyat Nazirliyi https://economy.gov.az/storage/files/files/1590/DSFjmf3fv8oBwOC3wP4hSjqRvIxnUrUnFfzUMu8W.pdf.*

*9. Qeyri neft-qaz sektoru. AR İqtisadiyyat Nazirliyi https://economy.gov.az/storage/files/files/1628/bywi7gXBXoMdmJn9x0Tq7b187UT6aZgHqc5g6Ski.pdf.*

*10. Quliyev, Z.Q. Rəqabətədavamlı aqrar emal sənayesinin formalaşdırılması amilləri // Kənd təsərrüfatının iqtisadiyyatı - 2021, № 3 (37). – s. 93-99.*

*11. Əyyubov,V.S., Tağıyev,A.M. Azərbaycan iqtisadiyyatı postkonflikt dövründə: mövcud vəziyyət və strateji prioritetlər // Dayanıqlı inkişaf, cild 1, № 1, 2021. – s. 13-20.*

**РЕЗЮМЕ**

**ФАКТОРЫ, ВЛИЯЮЩИЕ НА РАЗВИТИЕ НЕНЕФТЯНОГО СЕКТОРА И ИХ ОЦЕНКА В АЗЕРБАЙДЖАНЕ**

В статье рассматриваются факторы, влияющие на развитие ненефтяного сектора и их оценка в Азербайджане. Раскрывается сущность проблем и факторов, замедляющие развитие экономики страны в глобальном масштабе и формирование иммунитета по противодействую ими. Анализированы негативные последствия коронавирусной пандемии COVID-19 и применяемые меры по минимизации их. Рассмотрена нынешняя ситуация, связанная со структурой и развитием ненефтяного сектора экономики страны. Анализирован потенциал развития персептивных ненефтяных секторов с учётом применения высоких технологий. Рассмотрены направления развития отдельных ненефтяных секторов экономики в освобождённых землях от армянских оккупаций. Подготовлены рекомендации и даны предложения по эффективному использованию развития перспективных ненефтяных секторов экономики страны с учётом обеспечения их объективных оценки в нынешних условиях.



**Ключевые слова:** *Азербайджан, экономика, ненефтяной сектор, развитие ненефтяного сектора, оценка эффективности ненефтяного сектора, перспективы развития ненефтяного сектора, постконфликтные территории.*



**SUMMARY**

**FACTORS INFLUENCING THE DEVELOPMENT OF THE NON-OIL SECTOR IN AZERBAIJAN AND THEIR EVALUATION**

The article discusses the factors influencing the development of the non-oil sector in Azerbaijan and their assessment. The essence of the problems and factors that hinder the development of the country's economy on a global scale and the formation of immunity against them are revealed. The negative consequences of the COVID-19 coronavirus pandemic and the measures taken to minimize them are analyzed. The current situation related to the structure and development of the non-oil sector of the country's economy is evaluated. Considering the use of high technologies, the development potential of promising non-oil fields is analyzed. The development directions of separate non-oil sectors of the economy in the liberated territories from Armenian occupations are considered. In the article, considering the objective assessment of promising non-oil sectors of the country's economy, recommendations and suggestions are presented on the effective use of their development.



**Keywords:** *Azerbaijan, economy, non-oil sector, development of the non-oil sector, assessment of the non-oil sector efficiency, development perspectives of the non-oil sector, post-conflict areas.*

UOT: 338.49:7:7.092

# REGİONLARDA FƏALİYYƏT GÖSTƏRƏN OLİMPİYA İDMAN KOMPLEKSLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASININ STRATEJİ ƏHƏMİYYƏTİ

**SEVİNC ƏLİYEVA**
*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının baş müəllimi*

*E-mail: sevinc-aliyeva-80@list.ru*

Hər bir ölkənin sosial-iqtisadi inkişafının modelləşdirilməsində, əhalinin məmnunluq səviyyəsinin artırılmasında, cəmiyyətin sağlamlaşdırılmasında və birbaşa olaraq sağlam həyat tərzinin təşviqində ciddi önəm kəsb edən məsələlərdən biri bədən tərbiyəsi və idmanın kompleks və sistemli şəkildə inkişafının təmin olunmasıdır. Dövlət tərəfindən bu məsələlərin davamlı şəkildə xüsusi diqqət mərkəzində saxlanılması, zəruri tədbirlərin görülməsi, bununla bağlı dövlət siyasətinin formalaşdırlması, onun həyata keçirilməsi üçün planlı şəkildə müvafiq infrastrukturun yaradılması, idman tədbirlərinin həyata keçirilməsi üçün maliyyə resurslarının yönəldilməsi, ölkənin mərkəzi şəhərləri ilə bərabər, regionlarda da bədən tərbiyəsi və idmanın inkişafına ciddi diqqətin göstərilməsi vacib şərtlərdəndir. Belə ki, ölkə regionlarında yaşayan əhalinin müvafiq infratstrukturla, yəni idman kompleksləri ilə təmin olunması, həmin ərazilərin sosial-iqtisadi inkişafına müsbət təsir göstərir, insanların əhvali-ruhiyyəsini yaxşılaşdırır, uşaqların, yeniyetmə və gənclərin müxtəlif idman növləri ilə məşğul olmasına imkan verir.

Regionların sosial-iqtisadi inkişafının planlı şəkildə təmin olunması, regional inkişafın maliyyələşdirilməsi və bu regionlarda sosial infrastruktur obyektlərinin tikilərək istismara verilməsi sistemli yanaşmanı tələb edir. Dünyanın bir çox ölkələrində, o cümlədən Azərbaycanda regional səviyyədə məqsədli dövlət proqramlarının reallaşdırılması hesabına region əhalisinin sosial-iqtisadi inkişafı üçün zəruri tədbirlər görülür, xüsusilə idmanla məşğul olmağın vacibliyi nəzərə alınaraq, müasir idman komplekslərinin tikintisinə üstünlük verilir. Ümumiyyətlə, biz bu fikirdəyik ki, Azərbaycan regionlarda müasir tələblərə cavab verən idman komplekslərinin tikintisində və fəaliyyət göstərməsində özünəməxsus dövlət siyasəti olan azsaylı ölkələrdən biridir. Bu siyasətin əsasında ölkə əhalisinin, xüsusilə gənclərin milli ruhda inkişaf etmələri, sağlam və iradəli olmaları, vətənpərvərlik hisslərinə yiyələnməsi dayanır. Digər mühüm bir amil isə gənclərimizin hərbi hazırlıqlı olmaları məqsədilə idman bölmələrində yetişməsi, idmanın müxtəlif növləri ilə məşğul olmaqla bərabər, həm də onların hərbi qulluğa daha hazırlıqlı olmasına əlavə stimulların verilməsidir.

Qeyd edək ki, regional səviyyədə iri idman kompleksinin planlaşdırılması, maliyyələşdirilməsi, tikilməsi və istismara verilməsi həmin region üçün əlamətdar hadisə hesab olunur. Belə ki, Azərbaycanda fəaliyyət göstərən rayonların əksəriyyəti mərkəzdən maliyyələşdirilir, yəni dotasiya hesabına yaşayırlar, bu halda isə iri sosial infrastrukturun, xüsusilə iri idman kompleksinin-Olimpiya Kompleksinin tikilməsi və istismara verilməsi yerli vəsait hesabına qeyri-mümkündür. Bu amil nəzərə alınmaqla ölkəmizdə bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin olunması, əvvəldə qeyd etdiyimiz kimi regionlarda yaşayan əhalinin sağlamlıq və məşğulluq imkanlarının artırılması, uşaq, yeniyetmə və gənclərin fiziki hazırlıqlarının və sağlamlıqlarının gücləndirilməsi məqsədilə dövlət tərəfindən, eyni zamanda fəal şəkildə Heydər Əliyev Fondunun təşəbbüsü və maliyyə dəstəyi ilə müasir və çoxfunksiyalı infrsatrukturа malik Olipmiya İdman Komplekslərinin tikintisi həyata keçirilir. Artıq bu cür idman komplekslərinin sayı kifayət qədərdir və ildən-ilə idmanın kütləviliyini təmin etmək üçün onların sayı artmaqdadır. Hər il ölkəmizdə yeni idman qurğularının tikilməsi və idman uğurlarına imza atılması ilə əlamətdar olur. Xüsusilə, 2020-ci il sentyabrın 27-dən başlayan və 44 gün ərzində davam edən Böyük Qarabağ Zəfərində rəşadətli Azərbaycan Ordusunun sıralarında son onilliklərdə ölkəmizdə, o cümlədən regionlarda istismara verilən Olimpiya İdman komplekslərində müxtəlif idman növləri üzrə hazırlıqlar keçən və idmanla məşğul olan əsgər və zabitlərimiz misli görünməmiş qəhrəmanlıqlar göstərmiş və düşməni məhv etmişdir. Dünya hərb tarixinin dərsliklərinə düşən və bir çox ölkələrdə diqqətlə öyrənilən Şuşanın azad edilməsi döyüşləri məhz idman hazırlıqlı gənclərimizin-igidlərimizin sayəsində mümkün olmuşdur. Hər il Böyük Qarabağ Zəfəri kontekstində daha məsuliyyətli və mühüm əhəmiyyət kəsb edən idman tədbirlərinin keçirilməsi, o cümlədən yeni id-

man infrastrukturunun yaradılması ilə əlamətdar olacağına şübhə yoxdur. Digər maraqlı və qürurverici məqam isə işğaldan azad olunmuş ərazilərdə idman infrastrukturunun yaradılmasının prioritetliyidir və dövlət səviyyəsində bu məsələyə xüsusi önəmin verilməsidir. Məsələn, ölkə Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2022-ci il "Şuşa İli" elan olunmuşdur və bununla bağlı daha əlamətdar hadisə məhz "Şuşa İli"ndə idmanın Qarabağa qayıdışı yolunda ilk addımların atılmasına başlanılmışdır. Belə ki, Qarabağın strateji rayonlarından biri olan Ağdamda- Ağdam şəhərində "İmarət" stadionunun müasir texnologiyalar əsasında yenidən inşası həyata keçiriləcəkdir və bununla bağlı artıq müvafiq qərarlar verilib [1]. İkinci Qarabağ müharibəsi kontekstində bir hadisəyə də münasibət bildirmək istərdik. Döyüş meydanından fərari kimi qaçan və siçan kimi gizlənməyə deşik axtaran erməni silahlı tör-töküntüləri acıqlarını dinc əhalini, şəhər və kəndləri, o cümlədən Olimpiya İdman komplekslərini raket zərbələri endirməklə çıxırdılar. Belə zərbələr Bərdə Olimpiya İdman Kompleksinə də dəymişdir [2]. Amma Bərdə Olimpiya İdman Kompleksində və digər idman qurğularımızda yüksək fiziki hazırlıq keçmiş igid gənclərimiz-əsgərlərimiz düşməni diz çökdürdü, məhv etdi və torpaqlarımızın işğalına son qoydu.

Regionlarda iri idman komplekslərinin istismara verilməsi həm də böyük məsuliyyət tələb edən inzibati və təşkilati tədbirlərin yüksək səviyyədə həyata keçirilməsini, xüsusilə bədən tərbiyəsi və idmanla bağlı məsələlərdə idarəetmə funksiyalarının səmərəliliyi mühüm əhəmiyyət kəsb edir. Təəssüf ki, bəzi hallarda müasir idman kompleksinin inşasına külli miqdarda dövlət vəsaitləri sərf olunur, müvafiq idman strukturları yaradılır, idarələr və klublar formalaşdırılır, dövlət tərəfindən bu qurumların fəaliyyəti maliyyələşdirilir, amma ortada faktiki bədən tərbiyəsi və idmanla əlaqəli məqsədli və səmərəli tədbirlər, həm də müvafiq nəticələr olmur. Belə hallar dövlətin bədən tərbiyəsi və idmanla bağlı siyasətinin ölkə regionlarında həyata keçirilməsini ləngidən amillər olmaqla yanaşı, həm də həmin regionda yaşayanların haqlı narazılığına səbəb olur. Belə ki, dövlət hesabına maliyyələşən, idarə olunan müasir idman komplekslərinin bir çox bölmələrinin qapılarında hətta qıfıl görmək belə mümkündür və yaxud təyinatı üzrə istifadə olunmur.

Bu məsələ son illərdə daha qabarıq olaraq müzakirə obyektinə çevrilmişdir. Ölkəmizin mərkəzi idman strukturunda rəhbər dəyişikliyindən sonra iri şəhərlərdə və regionlarda Olimpiya İdman Komplekslərinin fəaliyyəti araşdırılmış və bununla bağlı müvafiq komissiya yaradılmışdır və nəticədə məlum olmuşdur ki, 2022-ci il mayın əvvəlinə olan məlumata görə, ölkədə ümumilikdə 50 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və onlardan yalnız 39-u AR Gənclər və İdman Nazirliyinin tabeçiliyindədir. Bu komplekslərin bəziləri ümumiyyətlə, müasir tələblərə cavab vermir. Buna görə də, həmin komplekslərin fəaliyyətinin genişləndirilməsi və mövcud idman infrastrukturundan daha səmərəli istifadə olunması istiqamətində yeni tədbirlər görülməkdədir və bunlarla bağlı artıq praktiki addımlar atılmaqdadır [3]. İctimai xadimlər, Milli Məclisin deputatı Olimpiya İdman Komplekslərindən qeyri-səmərəli istifadə olunmasına dair tənqidi fikirlərini bildirmişlər. Məsələn, Qarabağ bölgəsindən Milli Məclisin deputatı olan Aqil Abbas bildirmişdir ki, rayonlarda 10-15 milyona Olimpiya İdman Kompleksləri tikilib, amma indiyə kimi nə bir güləşçi, nə boksçu, nə də bir futbolçu yetişib. Həmin komplekslərdə uşaq futbolu inkişaf etməli, akademiyalar açılmalıdır [4]. Artıq bu istiqamətdə qeyd etdiyimiz kimi müəyyən tədbirlərin görülməsi diqqət çəkir, regionlarda olan Olimpiya İdman komplekslərinin fəaliyyəti yoxlanılmaqla bərabər, həm də onların fəaliyyətinin canlandırılması, daha səmərəli təşkili üçün işlər görülür, struktur və kadr dəyişiklikləri aparılır, regionlarda daha çox kütləvi xarakter daşıyan idman növləri üzrə fəaliyyətin genişləndirilməsi, klubların yaradılması təmin olunur. Ölkədə idman siyasətinin formalaşmasına və reallaşdırılmasına birbaşa məsul olan Gənclər və İdman Nazirliyinin rəhbərliyi ilə Olimpiya İdman Komplekslərinin direktorlarının görüşü keçirilib, problemli məsələlər müzakirə olunaraq onların aradan qaldırılması yolları müəyyənləşdirilib. Ümumilikdə, Olimpiya İdman komplekslərinin fəaliyyətinin təkmilləşdirilməsi məsələləri ön plana çıxıb [5]. Bu sırada qeyd olunan iri idman komplesklərinin yerli icra strukturları ilə əlaqələrinin və qarşılıqlı fəaliyyətinin müasir dövrün tələblərinə uyğunlaşdırılması, uşaq-gənclər idman məktəbləri ilə əlaqələrin daha sıx təşkili, idmanın kütləviliyini artırmaq üçün əlavə tədbirlərin görülməsi və bununla bağlı idman növlərinin sayının artırılması məsələləri prioritet vəzifələr kimi qarşıya qoyulub. Bir sözlə, Olimpiya İdman komplekslərində ilin bütün fəsillərində fasiləsiz rejimdə idmanın müxtəlif növləri üzrə

məşqlərin aparılması, idman yarışlarının və turnirlərinin keçirilməsi təmin edilməlidir. Regional səviyyədə Olimpiya İdman komplekslərinin fəaliyyətinə yeni və daha səmərəli yanaşmalar formalaşdırılmalı və tətbiq edilməlidir.

Məlumdur ki, bölgələrdə fəaliyyət göstərən Olimpiya İdman Kompleksləri yerləşdiyi regionun sosial-iqtisadi inkişafına müəyyən töhfələr verməklə yanaşı, həm də həmin bölgədə idmanının kütləviliyinin təmin edilməsində, müxtəlif idman yarışlarının təşkilində və keçirilməsində, idman klublarının formalaşmasında və inkişafında, uşaqların müxtəlif idman növlərinə maraqlarının reallaşdırılmasında, həm də əvvəldə qeyd etdiyimiz kimi yeniyetmə və gənclərin fiziki və hərbi hazırlıqlarının gücləndirilməsində önəmli funksiyaları yerinə yetirirlər [6]. Ümumilikdə, ölkəmizin dünyada idman ölkəsi kimi tanınmasında son onilliklərdə regionlarda inşa olunan və istismara verilən müasir Olimpiya İdman komplesklərinin və idman qurğularının böyük əhəmiyyəti vardır. Belə ki, regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı çərçivəsində, AR Gənclər və İdman Nazirliyinin sifarişi ilə ərsəyə gələn Olimpiya İdman komplekslərinin bu ərazilərin sosial-iqtisadi inkişafında xüsusi rolu vardır.

Regionlarda istifadəyə verilən olimpiya mərkəzləri özlərinin xüsusiyyətləri ilə fərqlənirlər. Məsələn, 2008-ci il yanvarın 17-də istifadəyə verilmiş Ağdam Olimpiya İdman Kompleksi 3 hektar ərazidə yerləşmişdir. Burada çoxfunksiyalı idman kompleksi formalaşdırılmışdır. 2000 tamaşaçı tutumu olan futbol meydançası və 30 nəfərlik mehmanxana da fəaliyyət göstərir. 2010-cu il fevralın 12-də istismara qəbul olunmuş Ağdaş Olimpiya İdman Kompleksi isə 5,5 hektar sahəni əhatə edir. Bu kompleksdə müxtəlif idman növləri, həmçinin yardımçı idman infrastrukturu vardır. İki mərtəbəli binada isə üzgüçülük hovuzu yerləşdirilmişdir və mini-futbol meydançası da fəaliyyət göstərir.

Ölkənin demək oalr ki, bütün bölgələrində olimpiya kompleksləri şəbəkəsinin yaradılması üçün planlı və kompleks tədbirlər həyata keçirilmişdir. Məsələn, Balakən  Olimpiya İdman Kompleksi 2010-cu il 8 iyulda istismara verilmişdir və ümumən 5 hektar ərazidə yerləşir. Burada idmanın əksər populyar növləri üzrə infrastruktur formalaşdırılmış və qonaqlar da nəzərə alınmaqla 6 kottec tikilmişdir. Əvvəldə qeyd etdiyimiz kimi, Ermənistan tərəfindən atılmış raket zərbəsi ilə ciddi dağıntılara məruz qalmış Bərdə Olimpiya İdman Kompleksi 2003-cü ildə ərsəyə gətirilmişdir. Milli Qəhrəmanımız Mübariz İbrahimov kimi cəsur igid yetişdirmiş Biləsuvarda Olimpiya İdman Kompleksi 2008-ci ilin oktyabr ayının 7-də istismara verilmişdir və burada müasir idman salonu, üzgüçülük hovuzu, yeməkxana kompleksi, mehmanxana və s. fəaliyyət göstərir. Ölkəmizin ikinci böyük şəhəri olan Gəncədə Olimpiya İdman Kompleksinin 2002-ci ildə I korpusu, 2006-cı ildə isə II korpusu inşa edilmişdir. Burada idmanın 12 növü üzrə 28 bölmə çalışır və ortalama götürdükdə kompleksdə gündəlik məşğul olan idmançıların sayı 700 nəfərdir [7].

Ölkəmizin Şimal regionunda da idman infrastrukturunun inkişafına, bədən tərbiyəsi və idmanın kütləviliyinin təmin olunmasına ciddi önəm verilir. 2008-ci il sentyabr ayının 27-də 14 hektar ərazidə yerləşən Qusar Olimpiya İdman Kompleksi fəaliyyətə başlamışdır. Kompleksdə 2 idman salonu, üzgüçülük hovuzu, həmçinin digər vacib idman infrastruktur obyektləri fəaliyyət göstərir. Quba Olimpiya İdman Kompleksi isə 2003-cü ilin 11 oktyabrından istismara verilmişdir və 16 hektar ərazini tutur. Kompleksdə idmanın bir çox növləri üzrə beynəlxalq standartlara malik idman zalları vardır. 2013-cü ilin 19 iyulunda isə Şimal regionunun ən iri yaşayış kompleksi olan Xaçmazda Olimpiya İdman Kompleksinin açılışı olmuşdur. Burada 1000-dən çox tamaşaçı tutumu olan stadion və ümumilikdə 6 hektar sahədə müxtəlif idman növləri üzrə zallar və meydançalar istismara verilmişdir. Kompleksin açılışında iştirak edən Prezident İlham Əliyev qeyd etmişdir ki, Azərbaycanda idmanın inkişafı sürətlə gedir və belə komplekslərin yaradılması əslində idmanın kütləviliyini də təmin edir. Ancaq, eyni zamanda, adi vətəndaşlar da idmanla məşğul olmalıdırlar. Çünki idman sağlamlıq, sağlam həyat tərzi deməkdir. Belə komplekslərin tikilməsi bu imkanları da yaradır. Burada üzgüçülük hovuzları, açıq meydançalar, idman zalları, trenajor zalları vardır. Yəni, gənclər, uşaqlar, yeniyetmələr, yaşlı nəsil də istifadə etməlidir [8]. Buradan, bu fikri inkişaf etdirmək olar ki, məhz ölkəmizdə dövlətin bədən tərbiyəsi və idman sahəsində siyasətinin mərkəzində ölkə vətəndaşları, bütün təbəqədən olan insanlar və yaş qrupları üzrə vətəndaşlarımız yer almışdır. Bu cür yanaşma hesab edirəm ki, cəmiyyətin daha sağlam ruhda və istiqamətdə inkişafına, dövlət və cəmiyyət arasında harmoniyanın formalaşdırılmasına, dövlətlə insanlar arasında etimad

mühitinin gücləndirilməsinə əlavə imkanlar yaradır. Ölkənin bütün regionlarında olan Olimpiya İdman komplekslərinin fəaliyyətini tam olaraq əhatə etmək imkanına malik deyilik. Amma, qeyd edə bilərik ki, Cənub zonasında – Lənkəran, Masallı və Yardımlıda müasir Olimpiya İdman kompleksləri fəaliyyət göstərir [9; 10; 11]. Bundan əlavə, Aran zonasında yerləşən rayonların əksəriyyətində də Olimpiya İdman Kompleksləri mövcuddur. Ölkə regionlarında müasir infrastruktura malik idman komplekslərinin yaradılması prosesləri davam etməkdədir.

## YEKUN

Beləliklə, yaxın perspektivdə müasir qlobal problemlərin və təhdidlərin artmasına baxmayaraq, ölkəmizdə əhalinin sosial-iqtisadi tarazlığının modelləşdirilməsində və təmin olunmasında çoxfunksiyalı idman komplekslərinin, ilk növbədə Olimpiya İdman komplekslərinin rolunun artacağını proqnozlaşdırmaq olar. Bunlarla əlaqədar bir qrup məsələlərə daha çox önəm verilməsi faydalı ola bilər:

- regionlarda istismara qəbul olunmuş Olimpiya İdman komplekslərinin fəaliyyəti və idarə edilməsi mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri görülməlidir;
- Olimpiya İdman komplekslərinin fəaliyyət meyarları və prinsipləri hazırlanmalı, onların fəaliyyətinin hesabat ili ərzində qiymətləndirilməsi üçün göstəricilər sistemi işlənməli və bunun əsasında hər ilin yekunu üzrə qiymətləndirmələr, monitorinqlər aparılmalıdır;
- Olimpiya İdman komplekslərinin fəaliyyətinin şəffaflığının və səmərəliliyinin qiymətləndirilməsi üçün, bu qəbildən olan idman komplekslərinin illik fəaliyyəti üzrə hesabatlar hazırlanmalı, həmin hesabatlara alternativ və ixtisaslaşdırılmış idman ekspertləri və audit şirkətləri tərəfindən rəylər alınmalı və bütün bunların dərc olunması təmin edilməlidir və s.

**Açar sözlər:** *Azərbaycan, bədən tərbiyəsi və idman, Olimpiya İdman kompleksi, idman qurğuları, sağlam həyat tərzi, region, regional idman siyasəti.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. 2022-ci ilə yeni idman ümidləri ilə. https://www.mys.gov.az/en/press/eventsdetails/6474/2022-ci-il-yeni-idman-umidlri-il.*

*2. Ermənistan raket zərbələri Bərdə Olimpiya İdman Kompleksini yararsız hala salıb. 29 oktyabr 2020. https://www.olympic.az/news/ermenistan-raket-zerbeleri-berde-olimpiya-idman-kompleksini-yararsiz-hala-salib.*

*3. Nazir: "Bəzi Olimpiya İdman Kompleksləri müasir tələblərə cavab vermir". 12 may 2022. https://report.az/futbol-xeberleri/nazir-bezi-olimpiya-idman-kompleksleri-muasir-teleblere-cavab-vermir/.*

*4. "10-15 milyona Olimpiya İdman Kompleksləri tikilib, amma heç bir nəticə yoxdur". 6 May 2022. https://meclis.info/news/10-15-milyona-olimpiya-idman-komplekslri-tikilib-amma-hec-bir-ntic-yoxdur/.*

*5. Gənclər və idman naziri Olimpiya İdman komplekslərinin direktorları ilə görüşüb. 01.03.2022. https://azertag.az/xeber/Gencler_ve_idman_naziri_Olimpiya_Idman_komplekslerinin_direktorlari_ile_gorusub-2034677.*

*6. Bölgələrdə tikilən Olimpiya kompleksləri idmanın kütləviliyinin təmin edilməsində mühüm rol oynayır. 19.02.2020. https://www.yeniazerbaycan.com/SonXeber_e62237_az.html.*

*7. Olimpiya mərkəzləri. https://www.azerbaijans.com/content_712_az.html.*

*8. İlham Əliyev Xaçmaz Olimpiya İdman Kompleksinin açılış mərasimində iştirak etmişdir. 21 iyul 2013. http://www.xachmaz-ih.gov.az/az/news/25.html.*

*9. Yardımlı İdman Kompleksi. https://mys.gov.az/qurumlar/olimpiya-idman-komplekslri/47/yardimli-idman-kompleksi.*

*10. Masallı şəhərində Olimpiya İdman Kompleksinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitqi. https://www.azsport.az/print.php?id=863.*

*11. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Lənkəran Olimpiya İdman Kompleksinin açılışında iştirak ediblər. 15 oktyabr 2018. https://az.trend.az/azerbaijan/politics/2965504.html.*

## РЕЗЮМЕ

**Стратегическая важность эффективного использования олимпийских комплексов, функционирующие в регионах.**

В статье исследованы вопросы эффективности использования олимпийских спортивных комплексов, функционирующие в регионах Азербайджана. С этой целью анализированы процессы строительства и функционирования олимпий-

ских спортивных комплексов в регионах страны. Раскрыта основная значимость олимпийских спортивных комплексов в развитии регионов и в воспитании здорового образа жизни подростков и молодёжи. Обоснована важность эффективного использования имеющейся инфраструктуры и возможности олимпийских спортивных комплексов и тем самым развитие экономики спорта, создание новых рабочих мест и усиление экономической активности в регионах страны. Рассмотрены существующие возможности усиления активности по использованию назначения олимпийских спортивных комплексов в контексте новых требований и вызовов в контексте развития страны. Подготовлен ряд рекомендаций и предложений по повышению эффективности функционирующих олимпийских спортивных комплексов в регионах.

**Ключевые слова:** *олимпийские комплексы, роль олимпийских комплексов в регионах, значимость олимпийских спортивных комплексов в регионах, развитие и проблемы спорта, эффективность олимпийских спортивных комплексов, стратегическая важность олимпийских комплексов, перспективы развития олимпийских комплексов в регионах страны.*

## SUMMARY

### The strategic importance of efficient use of the Olympic Sports Complexes operating in the regions

The article examines the effectiveness issues of the use of Olympic Sports Complexes operating in the regions of Azerbaijan. Therefore, the processes of construction and operation of Olympic Sports Complexes in the regions of the country are analyzed. The main significance of Olympic Sports Complexes in the development of regions and in the providing a healthy lifestyle for teenagers and youth are investigated. The importance of the effective use of the existing infrastructure and resources of the Olympic Sports Complexes and, thereby, the development of the sports economy, the creation of new jobs and the strengthening of economic activity in the regions of the country are substantiated. The existing opportunities for increasing activity in using the designation of Olympic Sports Complexes considering the new requirements and challenges in the context of the country's development are analyzed. The article provides a number of recommendations and suggestions for increasing the efficiency of the Olympic Sports Complexes operating in the regions.

**Keywords:** *Olympic complexes, the role of Olympic complexes in the regions, the importance of Olympic sports complexes in the regions, the development and problems of sports, the effectiveness of Olympic sports complexes, the strategic importance of Olympic complexes, the perspectives for the development of Olympic complexes in the regions of the country.*

УДК: 338.242.46:332.012.32

# ВАЖНЕЙШИЕ АСПЕКТЫ ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИХ ПОДХОДОВ С УЧЁТОМ РИСКОВ В ПРОЕКТАХ ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА

**АСЛАН ИБРАГИМОВ**
*Докторант кафедры «Экономика» Азербайджанского Государственного Экономического Университета*
*E-mail: klamiya@hotmail.com*

В условиях рыночных отношений в национальном масштабе жизненно важными являются отношения между государственными и частными субъектами. Необходимо взаимодействие государства и частного бизнеса на выгодных условиях для решения вопросов обеспечения экономической безопасности страны и улучшения инвестиционной деятельности в условиях растущих запросов населения [1]. Из ряда различных форм взаимодействия государства и частного бизнеса особый интерес представляет форма государственно-частного сотрудничества.

Отметим, что ныне сотрудничество государственного и частного секторов является одной из наиболее эффективных форм сотрудничества между государственным и частным секторами. Эта форма сотрудничества зародилась в глубокой древности и успешно развивается по сей день. Во всем мире активно формируются и развиваются проекты, основанные на принципах сотрудничества государства и бизнеса. В результате накоплен достаточный опыт в области формирования и распространения государственно-частного сотрудничества в зарубежных странах.

В последние годы сотрудничество между государственным и частным секторами в развитых странах было сосредоточено на проектах, связанных с «зеленой» экономикой. Вкладывая значительные средства в возобновляемые источники энергии, эти страны повышают свою эффективность и защищают биоразнообразие [2, с. 5].

В современных условиях государственно-частное сотрудничество является эффективным инструментом экономического и социального развития как на региональном, так и на местном уровне. Основными преимуществами механизма государственно-частного сотрудничества являются, прежде всего, привлечение средств частного сектора для финансирования государственно важных объектов, снижение государственных затрат на эксплуатацию объектов инфраструктуры, распределение проектных риски между государством и частным сектором, а обеспечение эффективного управления проектами в результате передачи управленческих функций частному сектору – это привлечение инновационных технологий в инфраструктурные проекты. Механизм государственно-частного сотрудничества имеет ряд уникальных особенностей. Этот механизм характеризуется следующими особенностями: 1) сторонами договора являются компетентные государственные органы и частный бизнес. Их участие основано на легальной деятельности и приносит определенные выгоды обеим сторонам; 2) проекты в основном социально ориентированы; 3) финансирование создания объекта подряда полностью или частично обеспечивается частными лицами и 4) участие частного партнера в договоре может быть предусмотрено не только в создании объекта договора, но и в его последующей эксплуатации, что повышает ответственность частного партнера. Для этого, помимо принятия последовательных мер в направлении усиления активности инвестиций в страну, механизмы их использования в соответствии с глобальными финансово-экономическими вызовами, должны тщательно отслеживаться возникающие новые черты инвестиций и вноситься необходимые улучшения в инвестиционную политику государства. Помимо достижения эффективности государственных механизмов поддержки инвестиций, государство должно создать условия для расширения инвестиционной деятельности в рамках государственно-частного сотрудничества, применить максимально стимулирующие механизмы, организовать систему контроля таким образом, чтобы может обеспечить эффективное использование государственных и частных инвестиций [3, с.53].

Для развития и наиболее эффективного применения механизма государственно-частного сотрудничества необходимо преодолеть множество проблем. Можно выделить четыре категории важнейших проблем, препятствующих нормальному развитию механизма государственно-частного сотрудничества: 1) Отсутствие необходимой нормативно-правовой базы государственно-частного сотрудничества. 2) Отсутствие принципов практической реализации партнерства государства и бизнеса. 3) Отсутствие институционального подхода к организации системы обучения по внедрению и совершенствованию механизма государственно-частного сотрудничества. 4) Наличие общих сдерживающих факторов в развитии государственно-частного сотрудничества.

Хотели бы обратить внимание на основные ограничения и проблемы в разработке и реализации механизма государственно-частного сотрудничества. Во-первых, отсутствие актуальной информации, неточные прогнозы относительно возможного развития инфраструктуры серьезно ограничивают объем возможных управленческих решений, приводят к неправильному выбору государственных(муниципальных)-частных проектов, способов и последовательности их реализации. Во-вторых, при выборе инвестиционного проекта с участием компетентных органов важную роль играет анализ его финансовой, правовой и технической обеспеченности. Низкое качество реализации указанных процедур приводит к нерациональному выбору моделей «затраты-выгода» и «риск-доход». В-третьих, при выборе инвестиционного проекта с участием органов государственной власти влияние административных и политических сил также может привести к принятию неверных решений, снижающих эффективность инвестиций [4, с. 47].

Внедрение механизма государственно-частного сотрудничества следует начинать с инфраструктурных программ.

Наиболее сложным и проблемным вопросом реализации механизма государственно-частного сотрудничества является управление рисками. Так как при государственно-частном сотрудничестве возникают разного рода риски, которые могут оказать существенное влияние на партнеров. В самом общем виде риск представляет собой совокупность негативных воздействий, объективных и субъективных, чрезвычайных ситуаций природного и техногенного характера и т.п., вызывающих негативные последствия для реализации проекта, определяется как вероятность возникновения результирующего события. Соответственно под рисками в государственно-частном сотрудничестве можно понимать вероятные, потенциальные события, которые могут привести к финансовым потерям и дополнительным затратам участников, недополучению доходов по сравнению с прогнозируемым вариантом, а также затягиванию сроков реализации проекта [5, с. 101]. Они оценивают понятие риска как вероятность наступления событий, приводящих к негативным последствиям для всех партнеров или отдельных участников инвестиционного проекта. Риски – это неопределенные проявления будущего, которые могут повлиять на достижение стратегических, финансовых и операционных целей предприятия. Риск является неотъемлемой частью любого бизнеса.

Известно, что классификация рисков проектов государственно-частного сотрудничества может существенно отличаться от классификации рисков, применяемой к частным инвестиционным проектам, и этому уделяется особое внимание в методических рекомендациях различных международных организаций. Примером может служить классификация рисков Организации Объединенных Наций по промышленному развитию. Согласно этой классификации, риски делятся на эндогенные и экзогенные риски, то есть риски, которые не могут контролироваться участниками механизма государственно-частного сотрудничества. Очевидно, что в этом случае наибольшее внимание будет уделено эндогенным рискам. Потому что в отличие от экзогенных рисков они могут контролироваться хозяйствующим субъектом. В соответствии с разделением рисков на эндогенные и экзогенные риски в государственно-частном сотрудничестве можно разделить на две группы: коммерческие и политические риски. Соответственно, коммерческие риски более эффективно управляются частным партнером. Государство, в свою очередь, обладает большими ресурсами для управления политическими рисками.

В нынешних условиях существует множе-

ство классификаций рисков в проектах государственно-частного сотрудничества. По времени возникновения все риски можно разделить на: 1) риски на стадии тендера; 2) риски на этапах проектирования и строительства; 3) риски на этапе эксплуатации и 4) риски на этапе передачи объекта государству. Также есть две большие группы риска: классическая и особая. К первому относятся риски, возникающие при государственно-частном сотрудничестве (ценовые и производственные), ко второму – различные форс-мажорные события, риски изменения банковских процентных ставок, политические, операционные и управленческие риски. Альтернативная классификация рисков предполагает их объективное и субъективное разделение. Объективные риски связаны с изменением спроса или факторов, влияющих на стоимость строительства и эксплуатации, и возникают случайным образом. Субъективные факторы возникают в результате изменения поведения участников при государственно-частном сотрудничестве. Каждый конкретный сектор экономики характеризуется как общими, так и специфическими рисками. Например, секторы водоснабжения и энергетики подвержены рискам тарифного регулирования, загрязнения окружающей среды, а также особому контролю со стороны государства. В коммунальной инфраструктуре существуют риски неоплаты услуг, полученных потребителями, риски, связанные с управлением инфраструктурой и обеспечением ее реализации. Особое значение имеют правовые риски. Так как область права очень гибкая и подвержена постоянным изменениям в связи с динамично развивающимися общественными отношениями. Регулярно принимаются новые правовые акты, пересматриваются действующие законы. Последствия таких изменений ощущают на себе как государственные, так и частные стороны, а также все компании, связанные с проектом государственно-частного сотрудничества [6, с. 86].

Наиболее общепризнанными считаются следующие виды рисков, существующие в государственно-частном сотрудничестве: 1) риски, связанные с расположением земельного участка; 2) риски проектирования, строительства и ввода в эксплуатацию; 3) реализация и другие рыночные риски; 4) риски, связанные с эксплуатацией объекта; 5) политические, социальные, законодательные изменения; 6) экономические и финансовые риски; 7) случаи форс-мажора и 8) стратегические риски.

Государственно-частное сотрудничество связано с определенными рисками, характерными для государственных, муниципальных и бизнес-структур. Риски в государственно-частном сотрудничестве в первую очередь понимаются как возможные изменения в реализации проекта, связанные с затратами и доходами. Основной риск для государства – технические ошибки на этапе подготовки проекта закупки материальных ресурсов, выбора форм государственно-частного сотрудничества. Поэтому следует уделить внимание этому вопросу. Что касается частного партнера, то наиболее актуальными рисками являются риски, возникающие при участии государства в качестве партнера в проектах государственно-частного сотрудничества.

Поэтому более существенным риском для частного партнера является риск отсутствия реальной ответственности государственных структур за реализацию проекта. Так как это связано с участием государства в качестве партнера в государственно-частном сотрудничестве. На начальном этапе проекта государственно-частного партнерства, который включает в себя подготовку ТЭО, бизнес-плана и пакета проектных документов, риски достаточно четко распределяются между государством и его потенциальными частными партнерами. Когда возникают отказы, связанные с документами, предлагаемыми государством частному партнеру, в этом случае все без исключения риски несет само государство [7, с. 86].

Отметим, что за последние десятилетия в Азербайджане проводятся последовательная государственная политика по углублению сотрудничества государственно-частного партнёрства и особое внимание уделяется минимизации рисков по осуществляемым проектам в этих направлениях. Реформы, проведенные в Азербайджане сформировали серьезный залог для перехода к устойчивому развитию страны. Систематическая защита предпринимателей государством, реализация действенных мер для поддержки частного сектора и бизнес-среды обеспечили благоприятные условия по укре-

плению устойчивого развития экономики [8]. Взаимоотношения между государством и субъектами частного сектора улучшились благодаря эффективному государственному регулированию предпринимательской деятельности. «Был разработан и установлен эффективный механизм защиты предпринимателей, в результате чего, уменьшились случаи вмешательства в бизнес. Постоянно принимаются меры по расширению консультационных услуг, предоставлению информации предпринимателям и укреплению деловых отношений [9]. Был создан механизм государственной финансовой помощи предпринимателям, который рассматривается в качестве реального источника оказания финансовой помощи малым и средним предприятиям»

## ЗАКЛЮЧЕНИЕ

В ближайшей перспективе в Азербайджане предстоит решить множественные задачи по реализации Национальных Приоритетов до 2030 года в контексте возрождения освобождённых территорий от армянских оккупаций. Кроме того, во многих сферах экономики страны реализуется большой круг приоритетных задач и целевых мероприятий, где важнейшим аспектом является эффективная организация государственно-частного партнёрства с учётом возможных рисков. Считаем, что необходимо учесть ряд факторов в этих процессах:

- с учётом глобальных трансформаций требуется глубокое исследование теоретико-методологических подходов государственно-частного партнёрства в контексте уменьшения негативных последствий возможных рисков и угроз.

- требуется совершенствование действующих механизмов и инструментарий государственно-частного партнёрства с учётом разработки и реализации более эффективного механизма управления рисками в реализуемых проектах и т.д.

**Ключевые слова:** *Азербайджан, государственно-частное партнёрство, теоретико-методологические подходы, риски, управление рисками, механизмы уменьшения рисков, перспективы усиления государственной политики в сфере частного сектора.*

## СПИСОК ЛИТЕРАТУРЫ:

*1. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Ali məktəb tələbələri üçün dərslik. Sumqayıt SDU-nun Redaksiya və nəşr işləri şöbəsi, 2018.-376 s.*

*2. Azərbaycan Respublikasında Dövlət-Biznes Əməkdaşlığı İmkanları. İqtisadi Tədqiqatlar Mərkəzi, Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafina Yardım Fondu və "Azərbaycanda Kiçik Sahibkarlığın İnkişafina Dəstək" layihəsi. Bakı, 2014. – 36 s. http://edf.az/uploads/documents/dovlet-biznes_emekdashliq.pdf.*

*3. Məmmədova, E.B. Dünya ölkələrində investisiya mühitinin formalaşması təcrübəsinin Azərbaycana tətbiqi məsələləri. Audit № 2, cild 24, 2019, s.50-60.*

*4. Манько, Н.Н. Риски при реализации проектов государственно-частного партнерства / Н. Н. Манько // Проблемы анализа риска. – 2013. – Т. 10. – № 3. – С. 46-53.*

*5. Соколов, М.Ю. Управление рисками в проектах государственно-частного партнерства / М.Ю.Соколов, С.В.Маслова // Вестник Санкт-Петербургского Университета. Менеджмент. – 2013. – № 4. – С. 100-124.*

*6. Риски при реализации проектов государственно-частного партнерства / М. Ф. Валеева, А. Н. Вильданова, К. И. Гороховская, И. И. Талипов // Энигма. – 2020. – № 22-1. – С. 85-90.*

*7. Фалалеев, А.Н., Кузьмин,Д.И. Механизм управления государственно-частным партнерством в регионе. Вестник Сибирского государственного аэрокосмического университета имени академика М. Ф. Решетнева, 2012, с.218-221.*

*8. Гулиев, М. 39-е заседание комитета по экономическим, торговым, технологическим и экологическим вопросам доклад. Анкара, 17 сентября 2012 г., https://www.pabsec.org/depo/documents/reports-and-recommendations/ru-rep-xgl1zrdloq.pdf.*

*9. Ахмедова, Э.М. Оценка устойчивости экономики Азербайджана // Экономика. Управление. Инновации. – 2018 – №2 (4) 2018. – С.116-121.*

**XÜLASƏ**
**DÖVLƏT-ÖZƏL SEKTOR ƏMƏKDAŞLIĞI LAYİHƏLƏRİNİN RİSKLƏRİ NƏZƏRƏ ALINMAQLA, BU SAHƏDƏ NƏZƏRİ-METODOLOJİ YANAŞMALARIN MÜHÜM ASPEKTLƏRİ**

Məqalədə dövlət-özəl sektor əməkdaşlığı layihələrinin riskləri nəzərə alınmaqla, bu sahədə nəzəri-metodoloji yanaşmaların mühüm aspektləri araşdırılmışdır. Müasir dövrdə dövlət-özəl sektor əməkdaşlığının mövcud mexanizmlərinin təkmilləşdirilməsinin vacibliyi əsaslandırılmışdır. Dövlətin özəl sektorun potensialından istifadə edilməsində prioritet layihələrinin və bununla bağlı risklərin kompleks baxılmasının vacibliyi bildirilmişdir. İqtisadiyyatın bir sıra sahələrində dövlət-özəl sektor əməkdaşlığının dərinləşdirilməsi istiqamətində layihələrin reallaşdırılması perspektivləri verilmişdir. Yeni çağırışlar şəraitində və torpaqlarımızın işğaldan azad olunması kontekstində dövlət-özəl sektor əməkdaşlığı layihələrinin risklərinin azaldılması və bu sahədə yanaşmaların təkmilləşdirilməsi üzrə tövsiyələr hazırlanmış və təkliflər verilmişdir.

**Açar sözlər:** *Azərbaycan, dövlət-özəl sektor əməkdaşlığı, nəzəri-metodoloji əsaslar, risklər, risklərin idarə edilməsi, risklərin azaldılması mexanizmləri, özəl sektor sahəsində dövlət siyasətinin gücləndirilməsi perspektivləri.*

**SUMMARY**
**CONSIDERING THE RELATED RISKS, IMPORTANT ASPECTS OF THE ORETICAL-METHODOLOGICAL APPROACHES OF PUBLIC-PRIVATE SECTOR COOPERATION PROJECTS**

The article, analyzes the important aspects of theoretical and methodological approaches of public-private sector cooperation projects, considering the related risks. In contemporary times, the importance of improving existing mechanisms of public-private sector cooperation is substantiated. The importance of the state to take a comprehensive look at priority projects and related risks in using the potential of the private sector is stated. Perspectives for the implementation of projects in the direction of deepening public-private sector cooperation in several areas of the economy are presented. In the conditions of new challenges and in the context of liberation of our lands from occupation, recommendations and suggestions are given on reducing the risks of public-private sector cooperation projects and improving approaches in this field.

**Keywords:** *Azerbaijan, public-private sector cooperation, theoretical-methodological foundations, risks, risk management, risk reduction mechanisms, perspectives for strengthening state policy in the private sector.*

UOT: 332:332.13:338.012:631.1

# QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA AQRAR SAHƏNİN İNKİŞAFINA KONSEPTUAL YANAŞMALAR

**ELDƏNİZ MƏHƏRRƏMOV**
*Azərbaycan Kooperasiya Universitetinin dosenti, iqtisad üzrə fəlsəfə doktoru*

*E-mail: emeherremov79@mail.ru*

Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra bir çox sahələrdə məqsədli şəkildə islahatların aparılmasını təmin etmiş və reallaşdırmağa səy göstərmişdir. Müstəqil dövlət üçün kənd təsərrüfatının müxtəlif sahələrinin, ilk növbədə mühüm ərzaq məhsulları üzrə istehsal sahələrinin inkişaf etdirilməsi və ümumilikdə aqrar sahənin kompleks olaraq baxılması vacib məsələlərdəndir. Lakin, 1990-cı illərin əvvəllərində öz xarici havadarlarına arxalanan erməni silahlı birləşmələri keçmiş sovet imperiyasından qalan ağır silahların, o cümlədən tankların köməyi ilə 20 % torpaqlarımzı işğal etdilər, qırğınlar və soyqırımlar törətdilər. Sonrakı illərdə isə işğal altında qalan torpaqlarımız deqradasiyaya uğradı, bərəkətli torpaq sahələrimiz boz şoranlığa çevrildi, yeraltı və yerüstü sərvətlərimiz talan olundu, bir sözlə, bu ərazilər yararsız hala düşdü və ölkəmizə müxtəlif ekspert hesablamalarına görə 819 milyard dollara yaxın zərər dəyib [1].

Amma sonrakı illərdə iqtisadi cəhətdən inkişaf edən ölkəmiz, siyasi baxımdan dünyada nüfuz qazanan dövlətimiz ordu quruculuğunu gücləndirməklə, eyni zamanda beynəlxalq aləmdə ölkəmizin nüfuzunu artırmaqla torpaqlarımızın işğaldan azad olunması üçün tarixi işlər gördü. Nəticədə 27 sentyabr 2020-ci ildən başlayan və 44 gün ərzində davam edən Böyük Qarabağ Zəfəri baş verdi, torpaqlarımız düşməndən təmizləndi. Bu tarixi qələbədən dərhal sonra genişmiqyaslı quruculuq və abadlıq işlərinə başlanıldı. 2021-2022-ci illərdə dövlət büdcəsində işğaldan azad olunmuş ərazilərin bərpa edilməsi, infrastrukturun yaradılması, elektrik enerjisi, içməli su və təbii qaz təchizatları sisteminin bərpa edilməsi və ya yenidən qurulması məqsədilə hər il üçün 2,2 milyard manat vəsait ayrılmışdır [2; 3]. Artıq bu istiqamətlərdə genişmiqyaslı işlər görülməkdədir, bir tərəfdən, sosial infrastruktur şəbəkəsi yaradılırsa, digər tərəfdən, istehsal infrastrukturunun təşkili, region üçün ənənəvi olan iqtisadiyyat sahələrinin potensialının yenidən formalaşdırılması və inkişaf etdirilməsinə konseptual yanaşmalar müəyyənləşdirilməkdədir. Əslində dövlət başçısının dəfələrlə işğaldan azad olunmuş ərazilərə səfər etməsi, müxtəlif təməlqoyma mərasimlərində iştirakı, istismara verilmiş obyektlərin açılışında şəxsən iştirakı, ictimaiyyət qarşısında çıxışı zamanı bu ərazilərin dirçəldilməsi və inkişaf etdirilməsi üzrə konseptual yanaşmalar müəyyənləşdirilmişdir.

Qeyd edək ki, ölkəmizdə aqrar sahənin inkişafının özü də prinsipial və strateji xarakter daşıyır. Qlobal səviyyədə qida təhlükəsizliyinin gücləndirilməsi problemlərinin həlli baxımından aqrar sahənin kompleks və sistemli şəkildə inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb edir [4]. Son dövrlərdə ölkəmizdə aqrar sahədə aparılan struktur dəyişiklikləri, idarəetmə mexanizmlərinin təkmilləşdirilməsi tədbirləri diqqət çəkir. Azərbaycanda aqrar sahənin müasir qlobal çağırışlara uyğun şəkildə inkişaf etdirilməsi üçün, ilk növbədə onun strukturunun mütərəqqi dünya təcrübəsinə uyğunlaşdırılması və səmərəlilik problemlərinin həlli yollarının müəyyənləşdirilməsi tələb olunur [5]. Bu məsələlər işğaldan azad olunmuş ərazilərdə də prinsipial xarakter daşımaqdadır və qeyd olunan amillər baxımından postkonflikt ərazilərdə aqrar sahənin idarəetmə mexanizmləri müasir yüksək texnologiyalara əsaslanmaqdadır. Daha çox rəqəmsal və "ağıllı" texnologiyalardan istifadə edilməsi konseptual olaraq müəyyənləşdirilmişdir.

Qeyd edək ki, Azərbaycanda artıq yeni iqtisadi rayonlaşdırma bölgüsü aparılmış və ölkə Prezidentinin 7 iyul 2021-ci il Fərmanı ilə işğaldan azad olunmuş ərazilərdə iki yeni iqtisadi rayon – Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları təşkil edilmişdir [6]. Belə konseptual yanaşma nəticəsində bu ərazilərdə yerləşən rayonların sosial-iqtisadi inkişafının planlaşdırılması, rayon mərkəzləri olan şəhərlərin baş planlarının daha mütəşəkkil və səmərəli şəkildə hazırlanması, iqtisadiyyat quruculuğu tədbirlərinin görülməsi və iqtisadiyyatın strukturunun formalaşdırılması mümkünləşir [7]. İqtisadi rayonlaşmanın yeni bölgüsü işğaldan azad olunmuş ərazilərin dirçəldilməsinə konseptual yanaşmaların müəyyənləşdirilməsində və hər bir iqtisadi rayonun resurslarının obyektiv olaraq qiymətləndirilməsində, səmərəli is-

tifadə olunmasında müsbət rol oynayacaqdır [8].

Qarabağ iqtisadi rayonu özünün tarixi və coğrafi xüsusiyyətlərinə uyğun olaraq, Şuşa, Ağdam, Füzuli, Bərdə, Ağcabədi, Tərtər, Xocalı və Xocavənd rayonlarını birləşdirir. Bu rayonların hər birinin ənənəvi inkişaf xüsusiyyətləri və müasir iqtisadiyyat sahəsi yaratmaq perspektivləri mövcuddur. Şuşa şəhəri öz strateji əhəmiyyəti baxımından mədəniyyət mərkəzi və turizm – rekreasiya zonası kimi xarakterizə olunursa, digər rayonlar kənd təsərrüfatının əksər sahələrinin məhsuldar şəkildə inkişaf etdirilməsi və bütövlükdə aqrar sahənin fəaliyyətinin genişləndirilməsi, mühüm aqrar ərzaq məhsullarının istehsalının təmin olunması baxımından güclü imkanlara malikdirlər. Belə ki: 1) Ağdam və Füzuli rayonlarında mühüm ərzaq məhsulu olan buğda istehsalı ilə bərabər, üzümçülüyün və baramaçılığın, həmçinin heyvandarlığın əksər istiqamətlərinin intensiv inkişaf etdirilməsi üçün hər cür şərait vardır; 2) Bərdə, Ağcabədi və Tərtər rayonlarında kənd təsərrüfatının və ümumilikdə aqrar sahənin əksər fəaliyyət istiqamətləri üzrə potensialın olduğu məlumdur, xüsusilə pambıqçılığın, taxıl məhsullarının və heyvandarlığın inkişaf etdirilməsi bu yerlər üçün maksmimum prioritetlik təşkil edir; 3) Şuşa istisna olmaqla, Qarabağ iqtisadi rayonunun əksər rayonlarında emal müəssisələri şəbəkəsinin yaradılması konseptual baxımından səmərəli hesab olunur; 4) Hələ sovetlər birliyi dövründə Bərdə, Ağdam və Füzuli rayonlarında çoxlu sayda sənaye müəssisələri, o cümlədən cihazqayırma, tikinti materiallarının istehsalı, yüngül və yeyinti sənaye məhsullarının istehsalı üzrə müəssisələr, həmçinin pambıqtəmizləmə və şərabçılıq zavodları fəaliyyət göstərirdilər; 5) Artıq Ağdam şəhərində müasir texnologiyalar əsaslı sənaye parkının bünövrəsi qoyulmuş və 2 rezident qeydiyyata alınmışdır [9.]; 6) Füzuli Beynəlxalq Hava Limanı 2021-ci ilin sentyabrında istismara verilmiş və rəsmi açılışı isə həmin ilin oktyabr ayının 26-da Azərbaycan və Türkiyə respublikaları prezidentlərinin iştirakı ilə keçirilmişdir [10]; 7) Füzuli rayonunun Dövlətyarlı kəndində "ağıllı kənd" layihəsinin icrasına başlanılmışdır [11] və s.

Şərqi Zəngəzur iqtisadi rayonuna isə – Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər rayonları daxildirlər. Bu rayonların əksəriyyətində kənd təsərrüfatı məhsullarının yetişdirilməsi və aqrar emal müəssisələrinin yaradılması potensialı mövcuddur. Artıq Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası"nın yaradılmasına başlanılmışdır [12]. Artıq, bu iqtisadi zonada müvafiq infrastrukturun yaradılması tədbirləri həyata keçirilir və müxtəlif şirkətlər tərəfindən həmin zonada rezident statusunda qeydiyyata düşmək üçün müraciətlər vardır [13].

Daha qürurlu və tarixi, həm də əlamətdar hadisə isə Zəngilan rayonunun Ağalı kəndlərinin əsasında yaradılan "ağıllı kənd" layihəsinin reallaşdırılmasıdır və Böyük köç qayıdışının ilk köçü məhz bu ilin iyul ayında həmin layihə əsasında baş tutmuşdur və hazırda reallaşdırılmaqdadır [14]. Bundan əlavə, regionun təbii və mineral resurslarından səmərəli istifadə olunması üzrə tədbirlər görülməkdədir. 2022-ci il iyun ayının 27-də dövlət başçısının iştirakı ilə Kəlbəcər rayonunda İstisu qəsəbəsində "İstisu" sanatoriyasının təməlqoyma mərasimi keçirilmişdir [15]. Bundan əlavə, Zəngilan və Laçın rayonlarında isə strateji əhəmiyyət kəsb edən Beynəlxalq Hava Limanlarının tikintisi sürətlə aparılmaqdadır [16; 17]. Analoji beynəlxalq hava limanlarının tikintisi regionun resurslarından səmərəli istifadə etməyə, o cümlədən aqrar sahənin inkişafında beynəlxalq təcrübədən daha fəal şəkildə bəhrələnməyə əlavə stimullar yaradacaqdır. Belə ki, çoxşaxəli nəqliyyat-logistika imkanlarının formalaşdırılması dünya bazarlarına çıxmaqda və möhkəmlənməkdə ciddi önəm kəsb edir.

Bütün bu qeyd olunanlar Şərqi Zəngəzur və Qarabağ iqtisadi rayonlarının sosial-iqtisadi inkişaf proseslərinin maksimum intensiv fazaya keçməsini sürətləndirəcəkdir. Bu iqtisadi rayonların iqtisadiyyatının strukturunda yeni və perspektivli sahələrin formalaşmasına, güclü nəqliyyat-logistika sisteminin yaradılmasına, yüksək texnologiyalar əsaslı emal müəssisələrinin təşkilinin prioritetliyinə baxmayaraq, bizə görə həmin ərazilərdə ənənəvi iqtisadiyyat sahələrinin inkişafı prioritetlik səviyyəsində qalacaqdır və bu istiqamətdə aqrar sahənin rolunu, əhəmiyyətini xüsusilə qeyd etmək istərdik.

Aqrar sahə Azərbaycanın milli iqtisadiyyatının strukturunda dövlət tərəfindən daha çox dəstəklənən və diqqət göstərilən iqtisadiyyat sahələrindəndir. Məhz bu sektorda qlobal ərzaq təhlükəsizliyi kontekstində ölkəmizin ərzaq təhlükəsizliyi problemləri həll olunur və mühüm ərzaq məhsulları üzrə özünütəminatın taleyi burada baxılır. Buna görə də son illərdə dövlət tərəfindən kənd təsərrüfatı məhsullarının istehsalı və aqrar sahənin inkişafı ilə bağlı strateji qərarlar qəbul olunmuş, çoxsaylı güzəştlər verilmiş,

o cümlədən vergi güzəştləri müəyyənləşdirilmişdir. Eyni zamanda, müxtəlif kənd təsərrüfatı məhsullarının və ümumilikdə aqrar sahə məhsullarının subsidiyalaşdırılması mexanizmləri də hazırlanaraq tətbiq olunmuşdur. Ölkə Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanı ilə "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası" təsdiq olunmuşdur [18]. Bu qaydalar ildən-ilə təkmilləşdirilir və yenilənir. Ümumilikdə kənd təsərrüfatı və bütövlükdə aqrar sahədə 40-dan çox yaxın subsidiya növü vardır [19].

Eyni zamanda hazırkı dövrdə qlobal ərzaq təhlükəsizliyinin böhran xarakteri əsas götürülməklə ölkə Prezidentinin 19 iyul 2022-ci il tarixli Fərmanına əsasən ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər nəzərdə tutulmuşdur. Mühüm ərzaq məhsulu olan buğdanın yetişdirilməsi və tədarükü üzrə əlverişli şərtlərlə yeni subsidiya mexanizmi müəyyənləşdirilmişdir [20]. Digər tərəfdən, güzəştli şərtlərlə kənd təsərrüfatı texnikasının və kənd təsərrüfatı üzvi gübrələrin verilməsi mexanizmləri də işləkdir. Bütün bunlar aqrar sahənin davamlı şəkildə inkişafına və mütərəqqi texnologiyaların fəal olaraq tətbiqinə münbit şərait yaratmışdır. Amma, qeyd etmək lazımdır ki, qlobal ərzaq təhlükəsinin artdığı bir dövrdə aqrar sahənin qarşısında qoyulan hədəflərin yenilənməsinə ehtiyac yaranır və bu amil də işğaldan azad olunmuş ərazilərdə aqrar sahənin daha intensiv inkişafını şərtləndirir. Məsələn, əvvəldə qeyd etdiyimiz kimi Qarabağ iqtisadi rayonunun əksər rayonlarında mühüm ərzaq məhsulu olan ərzaq buğdasının məhsuldar çeşidlərinin yetişdirilməsi və elə bu ərazilərdə də emal olunması, emal müəssisələrinin yaradılması imkanları diqqət çəkir. Digər tərəfdən, çoxfunksiyalı aqrar parkların və aqro-sənaye parklarının yaradılması və fəaliyyət göstərməsi üçün yetərincə resurslar vardır.

Hesab edirik ki, Qarabağ iqtisadi rayonunda aqrar sahənin inkişafına konseptual yanaşmaların formalaşdırılması və reallaşdırılması zamanı növbətilərin nəzərə alınması faydalı ola bilər: 1) kənd təsərrüfatı məhsullarının geniş çeşiddə istehsal olunması imkanlarından yanaşmaqla (taxıl məhsulları, şəkər çuğunduru, üzüm, pambıq, qarğıdalı, yem bitkiləri, bostan bitkiləri, meyvə-tərəvəzlər və s.), müasir texnologiyalar əsaslı və rəqabət qabiliyyətli aqrar–emal müəssisələrinin yaradılması xüsusi diqqət mərkəzində saxlanılmalıdır və 2) bu iqtisadi rayonda texniki bitkilərin emal komplekslərinin təşkili, nəticədə tekstil sənayesinin inkişaf etdirilməsi, yeyinti sənayesinin iri komplekslərinin yaradılması məsələlərinə baxılmalıdır. Kənd təsərrüfatı və ümumilikdə aqrar sahə üzrə mütəxəssis-tədqiqatçılar F.F.Fikrətzadə və S.İ.Hacıyeva işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatı sahəsinin bərpa istiqamətlərini vermişlər: 1) torpaq və su resurslarının səmərəli istifadəsi üzrə planlamanın aparılması, bərpa tədbirlərinin görülməsi və torpaq islahatının aparılması; 2) heyvandarlıq fermalarının qurulması; 3) aqrotexniki xidmətlər, toxum, gübrə və pestisidlərlə təchizat bazasının yaradılması; 4) məhsulların tədarükü və ticarəti üzrə logistika infrastrukturunun yaradılması; 5) aqroemal müəssisələrinin yaradılması; 6) kənd təsərrüfatı mütəxəssislərinin hazırlanması və informasiya-məsləhət xidmətinin təşkili və 7) spesifik dövlət dəstəyi mexanizminin yaradılması [21, s. 27].

Bunlarla bərabər, bizə görə həm də Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar emal müəssisələri şəbəkəsinin yaradılması və regionda olan potensialdan məhsuldar istifadə etməklə bir çox aqrar məhsullar üzrə ölkəmizdə özünütəminat səviyyəsinin yüksəldilməsinə töhfələr verməklə bərabər, aqrar məhsullar üzrə ixrac potensialının formalaşdırılması da mümkündür.

## YEKUN

Beləliklə, hesab edirik ki, yaxın perspektivdə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında aqrar sahənin inkişafına konseptual yanaşmalar daha da təkmilləşəcək və realizasiya prosesləri maksimum intensiv fazaya keçəcəkdir. Bu istiqamətlərdə bir qrup amillərə daha çox diqqət yetirilməsi vacibdir:

- kənd təsərrüfatının inkişafında və bütövlükdə aqrar sahənin təşkilində ənənəvi fəaliyyət formalarının müasir dövrün tələbləri nəzərə alınmaqla, inkişaf etdirilməsi konseptual baxımdan yeni çağırışlara uyğun şəkildə təmin edilməlidir;
- kənd təsərrüfatının müxtəlif sahələrinin inkişafında mütərəqqi dünya təcrübəsinin dəyərləndirilməsi və yüksək texnologiyaların tətbiqi maksimum prioritetlik təşkil etməlidir;
- aqrar sahənin maddi-texniki bazasının yaradılmasında və inkişaf etdirilməsində ölkəmizin mühüm ərzaq məhsulları ilə təminatı hədəfləri əsas götürülməli və bu istiqamətlərdə ixtisaslaşmış rəqabət qabiliyyətli müəssisələr şəbəkəsi, klasterlər, aqro-sənaye parkların yaradılması ön plana çıxarılmalıdır və s.

**Açar sözlər:** *Qarabağ, Şərqi Zəngəzur, iqtisadi rayonlar, aqrar sahə, konseptual yanaşmalar, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının inkişaf perspektivləri.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. İşğal nəticəsində Azərbaycana dəymiş ziyan açıqlandı - 818 milyard 880 milyon dollar. https://aia.az/20666-shgal-neticesinde-azerbaycana-deymish-ziyan-achiqlandi-818-milyard-880-milyon-dollar.html.*

*2. Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsi haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 dekabr 2020-ci il. Bakı şəhəri, 29 dekabr 2020-ci il, №233-VIQ*

*3. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 29 iyun 2022-ci il, № 562-VIQD.*

*4. Quliyev, E.A. Qida təhlükəsizliyinin gücləndirilməsi problemləri və strateji istiqamətləri. Monoqrafiya.Bakı, "Kooperasiya", 2020, 464 s.*

*5. Ataşov, B.X. Aqrar sahədə struktur və səmərəlilik problemləri (nəzəriyyə və praktika). Monoqrafiya. Bakı, "Kooperasiya", 2017, 536 s.*

*6. Azərbaycan Respublikasında iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı şəhəri, 7 iyul 2021-ci il.*

*7. Əliyev, Ş.T. Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının yaradılmasının strateji aspektləri // Jurnal "Geostrategiya", Bakı, 2021, №4. – s. 67-72.*

*8. Алиев, Ш.Т. Стратегическая важность возрождения Карабахского и Восточно-Зангезурского экономических районов Азербайджана// «Вопросы Истории» (Москва), № 6, 2022. – с. 148-155.*

*9. İlham Əliyev Ağdam Sənaye Parkında iki müəssisənin təməlini qoyub. 14 fevral 2022. https://president.az/az/articles/view/55435.*

*10. İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Füzuli Beynəlxalq Hava Limanının açılış mərasimində iştirak ediblər. 26 oktyabr 2021. https://president.az/az/articles/view/53734.*

*11. İlham Əliyev Füzuli rayonunun Dövlətyarlı kəndində "Ağıllı kənd"in təməlini qoyub. 18 oktyabr 2021. https://president.az/az/articles/view/53507.*

*12. İlham Əliyev Şərqi Zəngəzur iqtisadi rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkının təməlini qoyub. 05 oktyabr 2021. https://president.az/az/articles/view/53331.*

*13. Daha 9 şirkət "Araz Vadisi İqtisadi Zonası"nın rezidenti olmaq istəyir. 6 İyul , 2022. https://report.az/senaye/daha-9-sirket-araz-vadisi-iqtisadi-zona-si-nin-rezidenti-olmaq-isteyir/.*

*14. Qarabağa Böyük Qayıdış: Ağalı kəndinin sakinləri doğma yurda qovuşmağın sevincini yaşayırlar. 19.07.2022. https://azertag.az/xeber/Qarabaga_Boyuk_Qayidis_Agali_kendinin_sakinleri_dogma_yurda_qovusmagin_sevincini_yasayirlar-2221082.*

*15. Prezident İlham Əliyev Kəlbəcərdə "İstisu" sanatoriyasının təməlqoyma mərasimində iştirak edib. 27.06.2022. https://azertag.az/xeber/Prezident_Ilham_Aliyev_Kelbecerde_Istisu_sanatoriyasinin_temelqoyma_merasiminde_istirak_edib-2194376.*

*16. İlham Əliyev Zəngilan Beynəlxalq Hava Limanında tikinti işlərinin gedişi ilə tanış olub. 21 oktyabr 2021. https://president.az/az/articles/view/53633.*

*17. İlham Əliyev Laçın Beynəlxalq Hava Limanında aparılan tikinti işləri ilə tanış olub. 27 iyun 2022.*

*18. "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası". Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli 759 nömrəli Fərmanına əsasən təsdiq edilmişdir.*

*19. Aqrar Subsidiya Şurası 2022-ci il üçün subsidiya əmsallarını açıqladı. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. https://www.agro.gov.az/az/news/aqrar-subsidiya-surasi-2022-ci-il-uecuen-subsidiya-emsallarini-aciqladi.*

*20. Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 19 iyul 2022. https://president.az/az/articles/view/56697.*

*21. Fikrətzadə, F.F., Hacıyeva, S.İ. İşğaldan azad olunan ərazilərimizdə kənd təsərrüfatı sahəsinin bərpası istiqamətləri və istehsal göstəricilərinin proqnozlaşdırılması // Kənd təsərrüfatının iqtisadiyyatı, 2020. № 4 (34),s.23-37.*

**РЕЗЮМЕ**

**Концептуальные подходы развития аграрной сферы в Карабахском и Восточно-Зангезурском экономических районах**

В статье исследованы концептуальные подходы развития аграрной сферы в Карабахском и Восточно-Зангезурском экономических районах. Анализированы историко-экономические аспекты и вопросы ущерба оккупированных земель. Рассмотрены концептуальные подходы по планированию и реализации важнейших работ по возрождению и восстановлению разрушенных территорий. Раскрыты потенциалы Карабахской и Восточно-Зангезурской экономических районов в развитии сельского хозяйства и в целом в аграрной сфере. Отмечены стратегические направления развития аграрной сферы путём создания конкурентоспособных перерабатывающих предприятий по производству важнейших видов продовольственной продукции. Обоснована необходимость активного применения новейших технологий и эффективной формы управления по концептуальному развитию аграрной сферы. Подготовлены предложения и рекомендации по рассматриваемым проблемам.



**Ключевые слова:** *Карабах, Восточный Зангезур, экономические районы, аграрная сфера, концептуальные подходы, перспективы развития Карабахской и Восточно-Зангезурской экономических районов.*



**SUMMARY**

**CONCEPTUAL APPROACHES THE DEVELOPMENT OF THE AGRICULTURAL SECTOR IN THE KARABAKH AND EASTERN ZANGEZUR ECONOMIC REGIONS**

The article investigates the conceptual approaches the development of the agricultural sector in the Karabakh and Eastern Zangezur economic regions. The article analyzes historical and economic aspects and issues of damage to the occupied lands. Conceptual approaches the planning and implementation of the most important measures for the revival and restoration of devastated areas are considered. The potential of Karabakh and Eastern Zangezur economic regions in the development of agriculture and the agricultural sector in general is revealed. The strategic directions of the development of the agrarian field through the creation of competitive processing enterprises for the production of the most important types of food products are noted. The necessity of active application of the latest technologies and an effective form of management for the conceptual development of the agrarian sector is substantiated. Suggestions and recommendations are presented regarding the issues discussed in the article.



**Keywords:** *Karabakh, Eastern Zangezur, economic regions, agrarian sector, conceptual approaches, perspectives for the development of the Karabakh and Eastern Zangezur economic regions.*

UOT 338.012:338.246

# NAĞDSIZ İQTİSADİYYATIN ÖLKƏNİN İNKİŞAFINDA ROLU

**ELNUR AĞAZADƏ**
*Bakı Dövlət Universiteti, doktorant*

*Elnuragazada@mail.ru*

## Giriş

Müasir dünya daim inkişafdadır. Digər sahələrdə olduğu kimi, ölkənin inkişafının əsasında duran iqtisadiyyatın müxtəlif istiqamətlərində baş verən dəyişikliklər birbaşa ölkə inkişafına mühüm dərəcədə təsirini göstərməkdədir. Rəqəmsallaşan dünyada demək olar ki, bütün sahələrdə süni intellektin tətbiq sürətinin artması öz təsirini iqtisadiyyata da göstərmiş və son illərdə aktual mövzulardan olan rəqəmsal iqtisadiyyat, yeni iqtisadiyyat, nağdsız iqtisadiyyat və.s kimi anlayışlar yaranmağa başlamışdır. İqtisadiyyatın nağdsızlaşması prosesinin ölkəmizdə tətbiq dairəsi müasir dövrdə daha da genişlənmiş və bu sahədə inkişaf etmiş ölkələrin təcrübəsindən effektli şəkildə istifadə olunur. Nağdsız iqtisadiyyatın tətbiqi saxta pullardan istifadənin qarşısının alınmasına, nağd pul ilə bağlı quldurluğun azaldılmasına, terrorizmlə mübarizəyə həmçinin ölkənin iqtisadi artımının yaxşılaşmasına köməklik göstərən vacib amildir. Lakin, ilk öncə nağdsız iqtisadiyyatın tətbiqinə çətinlik göstərən bəzi problemləri maksimum aradan qaldırmaq lazımdır. Bu problemlərə kiber fırıldaqçılıq, yüksək savadsızlıq səviyyəsi, insanların mənfi münasibəti, rəqəmsal ödəniş sistemində şəffaflıq və səmərəliliyin olmaması və s. göstərmək olar. Nağdsız iqtisadiyyatın tətbiqi ölkədə əsasən pul siyasətinin effektivliyinin artırılması, inflyasiyanın idarə olunması və sabit qiymət sisteminin saxlanılmasına yönələn bir siyasətdir.

## Nağdsız iqtisadiyyat nədir

Son illərdə nağd pulun dövriyyədən tamamilə çıxarılması və nağdsız ödəniş vasitələrinin payının artması qlobal maliyyə gündəmində ən çox müzakirə olunan mövzulardan birinə çevrilib. "Nağdsız iqtisadiyyata" doğru hərəkət rəsmi olaraq həm inkişaf etmiş, həm də inkişaf etməkdə olan bir sıra ölkələrdə maliyyə tənzimləyicilərinin prioritelərindən biri hesab olunur (1).

Nağdsız dövriyyə və ya nağdsız ödəniş dövriyyəsi pul vəsaitlərinin vasitəçi təşkilatlarındakı hesablara köçürülməsi və qarşılıqlı tələblərin əvəzləşdirilməsi şəklində hərəkətidir. Başqa sözlə ifadə etsək, nağdsız ödənişlər nağd puldan istifadə olunmadan həyata keçirilən ödənişlərdir. Bunlara, nağd pul istisna olmaqla bütün mümkün pul hesablaşmaları, bank olmayan hesablaşmalar, depozit və elektron pulla hesablaşmalar aiddir. Nağd pulun əsas xüsusiyyəti onun mövcudluğu, yəni, onu görmə qabiliyyətinin və maddi daşıyıcısının olmasıdır. Köçürmə vekselinin və çekin də maddi daşıyıcısı var, lakin çek və veksellə bağlı əməliyyat yalnız nağdsız pul ödəniş şəbəkəsi vasitəsilə hesaba mədaxil edildikdə, onlar nağd pula alındıqda və ya satıldıqda başa çatmış hesab olunur. Beləliklə, nağdsız pul dövriyyəsi malların dövriyyəsinə xidmət edən nağdsız pulların hərəkətidir (2).

Nağdsız ödənişlər iqtisadi artıma bir sıra kanallar vasitəsi ilə təsir edir (Visa İnternational and Global İnsight, 2003). İlk növbədə, nağdsız ödənişlərin həcmi artdıqca, ödəniş sistemləri daha effektiv şəkildə fəaliyyət göstərməyə başlayır (miqyas effekti) və xərclərin azaldılması imkanları yaranır. Digər tərəfdən, ödəniş sistemlərinin inkişafı əhalinin kreditə çıxış imkanlarını artırır və bu zaman kartlar asan ödəniş vasitəsi kimi çıxış edir. Nəticədə, ev təsərrüfatlarının istehlakı artır. Bu isə mal ehtiyatını azaldır və istehsal templərinin artırılması üçün siqnal rolunu oynayır (3).

Qədim dövrlərdən bəri nağdsız cəmiyyətlər var. İnsanlar ehtiyac duyduqlarını almaq üçün onları mal və xidmətlərlə barter edirdilər. Müasir dünya son bir neçə onillikdə debet kartları, birbaşa depozitlər və PayPal, Apple Pay, Venmo və s. kimi ödəniş sistemləri ilə nağdsız iqtisadiyyata qayıtmaq istiqamətində kiçik addımlar atır. Tamamilə nağdsız iqtisadiyyata keçid bir gecədə baş verəcək bir şey olmasa da, nağdsız əməliyyatlar həm istehsalçılar, həm də istehlakçılar üçün fayda təmin edə bilər.

**Nağdsız iqtisadiyyata keçidin müsbət tərəfi** - Nağdsız əməliyyatlar adətən daha sürətli olur. Bu, istehlakçıların vaxtına və puluna qənaət edir. Pulla işləməyi aradan qaldırmağın, mikroblar və bakteriyaların yayılmasını azaltmaqla yanaşı, başqa faydalı tərəfləri də vardır. Bu, həmçinin kassalarda pulun hesablanmasına sərf olunan vaxtı aradan qaldırır və

nəticədə, depozit qoymaq və konvertasiya əməliyyatları üçün banka səfərlər etmək, bununla yanaşı, zirehli avtomobil xidmətlərinə də ehtiyac qalmır. Nağdsız iqtisadiyyata keçid həmçinin, oğurluq riskini də azaldır. Nağdsız iqtisadiyyata keçidin mənfi tərəfi kimi, azaldılmış müştəri bazasını göstərmək olar. Nağdsız ödənişləri qəbul etmək bəzi müştəriləri özündən uzaqlaşdıra bilər. Bunun bir neçə fərqli səbəbi var. Bir çox aşağıgəlirli şəxslərin kredit və ya debet kartları yoxdur. Bu kartları əldə etmək müəyyən əlavə xərclərə səbəb ola bilər və nəticə etibarı ilə, məhdud vəsaiti olan əksər istehlakçılar, sadəcə olaraq, nağd pul qəbul edən rəqiblə iş görməli olacaqlar (4).

**Azərbaycanda nağdsız ödənişlərin iqtisadiyyata təsiri, son dövrlərdə bu istiqamətdə atılmış addımlar**

İnkişaf etməkdə olan dünyada digər sahələrdə olduğu kimi, ölkələrin iqtisadiyyatında da fasiləsiz inkişaf özünü göstərməkdədir. Ölkəmizdə də, xüsusilə də, müstəqillik əldə olunduqdan sonra bu istiqamətdə çox mühüm işlər görülmüş və qərarlar qəbul olunmuşdur.

2013-cü il sentyabr ayının 17-də Azərbaycan Mərkəzi Bankının İdarə Heyətinin qərarı ilə Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında təlimat təsdiq olunmuşdur. Təlimatın ümumi müddəaları aşağıdakılardır:

1.1 Bu Təlimat "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" Azərbaycan Respublikası Qanununun 44.3-cü, "Banklar haqqında" Azərbaycan Respublikası Qanununun 38.1-ci maddələrinə əsasən Azərbaycan Respublikasının Mülki Məcəlləsinə, Vergi Məcəlləsinə, "Sosial sığorta haqqında", "İşsizlikdən sığorta haqqında", "Tibbi sığorta haqqında", "Nağdsız hesablaşmalar haqqında", "İcra haqqında" Azərbaycan Respublikasının qanunlarına, habelə digər normativ hüquqi aktlarına uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Təlimat Azərbaycan Respublikasının ərazisində nağdsız hesablaşmaların aparılmasını, o cümlədən istifadə edilən ödəniş sənədlərinin forma və məzmununu, tərtibi və dövriyyə qaydalarını, habelə pul köçürmələrinin aparılmasının qayda və şərtlərini müəyyən edir.

1.3. Nağdsız hesablaşmalar və pul köçürmələri banklar, xarici bankların yerli filialları və poçt rabitəsinin milli operatoru (bundan sonra - banklar) vasitəsilə aparılır.

1.4. Nağdsız hesablaşmalar və pul köçürmələri zamanı ödəyicinin və vəsait alanın, habelə benefisiarların eyniləşdirilməsi və verifikasiyası və bununla bağlı digər məsələlər "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə əməl edilməklə həyata keçirilir.

1.5. Xarici valyutada nağdsız hesablaşmalar və pul köçürmələri bu Təlimata və valyuta qanunvericiliyinə müvafiq qaydada aparılır.

1.6. Qrant verilməsi və ya alınması ilə bağlı nağdsız hesablaşma və pul köçürməsi əməliyyatları yalnız qrant verilməsi və ya alınması haqqında hər bir müqavilənin (qərarın) qeydə alınmasını təsdiq edən sənəd təqdim olunduqda aparılır (7).

2016-cı ildə Azərbaycanda "Nağdsız hesablaşmalar haqqında" Qanun qəbul olunmuşdur. Bu Qanunun məqsədi Azərbaycan Respublikası ərazisində mülki dövriyyənin iştirakçıları arasında aparılan əməliyyatların və hesablaşmaların şəffaflığını, istehlakçıların hüquqlarının müdafiəsini təmin etmək, nağd pul hesablaşmalarının nağdsız hesablaşmalarla əvəzlənməsini stimullaşdırmaq, bank sisteminin inkişafını sürətləndirməkdir. Bu qanunda nağdsız qaydada həyata keçirilən hesablaşmaların mümkün formaları müəyyən olunmuşdur. Bu qanuna əsasən, aşağıdakı əməliyyatlar yalnız nağdsız qaydada həyata keçirilir.

1.vergilərin, gömrük rüsumları və yığımlarının, qanunla müəyyən edilmiş inzibati cərimələrin, maliyyə sanksiyalarının və faizlərin, lizinq əməliyyatları üzrə borcların ödənilməsi və kreditlərin verilməsi;

2. "Sığorta fəaliyyəti haqqında" və "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş ödənişlər.

3. dövlət orqanlarına, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə, büdcə təşkilatlarına və publik hüquqi şəxslərə ödənilən xidmət haqları və digər yığımlar;

4. əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) iki yüz min manatadək olan pərakəndə ticarət, iaşə və xidmət sahəsində fəaliyyət göstərən şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən ödənilən əməkhaqları (o cümlədən, işəgötürən tərəfindən ödənilən, qanunvericiliklə müəyyən edilmiş digər ödənişlər), pensiya, təqaüd, maddi yardım, müavinətlər (o cümlədən, birdəfəlik müavinətlər), kompensasiyalar və təzminatlar;

5. stasionar telefon xidmətlərinin və kommunal xərclərin ödənilməsi;

6. faizsiz pul vəsaitlərinin (vergi ödəyicisi olma-

yan şəxslər tərəfindən pul vəsaitlərinin verilməsi halları istisna olmaqla), digər ayırmaların ödənilməsi və qaytarılması;

7. dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi);

8. təhsil haqlarının ödənilməsi;

9. tur-agentlərə ödəmələr;

10. ixtisaslaşdırılmış qaydada, o cümlədən komisyon və ticarət təşkilatları vasitəsilə avtomobil satışı üzrə ödənişlər;

11. pərakəndə satış qaydasında təqdim edilən malların (avtomobillər istisna olmaqla) satışı üzrə bir əməliyyat çərçivəsində dörd min manatdan artıq olan ödənişlər;

12. tibb müəssisələri tərəfindən göstərilən tibbi xidmətlər üzrə bir əməliyyat çərçivəsində beş yüz manatdan artıq olan ödənişlər;

13. "Lotereyalar haqqında" və "Bədən tərbiyəsi və idman haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən münasibətlər üzrə müəyyən edilmiş ümumi məbləği üç min manatdan artıq olan uduşlar (mükafatlar) və oyunlarda iştirakla bağlı pul ödənişləri (pul qoyuluşları) (8).

2020-ci ilin noyabr ayı ərzində Azərbaycanda POS-terminallar ilə nağdsız ödənişlərin cəmi həcmi 226 milyon manat təşkil edib. Mərkəzi Bankın verdiyi məlumata əsasən, bu, indiyədək POS-terminallar ilə həyata keçirilmiş ən yüksək məbləğdə aylıq nağdız ödənişlərdir. Əvvəlki ən yüksək məbləğdə aylıq ödəniş 206 milyon manat olmaqla 2020-ci ilin sentyabr ayında qeydə alınmışdı.2020-ci ilin 11 ayı ərzində POS-terminallar ilə nağdsız ödənişlər 1 milyard 904 milyon manat təşkil edib. 2019-cu ilin eyni dövründə POS-terminallar ilə nağdsız ödənişlər 1 milyard 168 milyon manat təşkil etmişdi. Beləliklə, 2019-cu ilin 11 ayı ilə müqayisədə 2020-ci ilin 11 ayında POS-terminallar ilə nağdsız ödənişlər 736 milyon manat və ya 63% artıb.2020-ci il ərzində POS-terminallar ilə nağdsız ödənişlər illik olaraq da rekord qıracaq. 11 aydakı POS-terminallar ilə nağdsız ödənişlərin məbləği (1 milyard 904 milyon manat) indiyədək ən yüksək illik həcmlərdən belə yüksəkdir. POS-terminallar ilə nağdsız ödənişlər 2016-cı ildə 527 milyon manat, 2017-ci ildə 807 milyon manat, 2018-ci ildə 1 milyard 115 milyon manat, 2019-cu ildə isə 1 milyard 333 milyon manat təşkil etmişdi (13).

**Qrafik 1**




**Mənbə: http://cbar.az/prototypes/stats.html**

**Qrafik 2**




**Mənbə: http://cbar.az/prototypes/stats.html**

Rəqəmsal iqtisadiyyatın formalaşması və təkmilləşməsinə təsir göstərən amillər içərisində bu istiqamətdə infrastrukturun modernləşdirilməsi, müasir texnologiyaların tətbiqi, internet istifadəçilərinin sayının artması, elektron ticarətin genişlənməsi özünəməxsus yer tutur. Hal-hazırki inkişaf səviyyəsində respublikamız 3G şəbəkə göstəricisi üzrə dünyanın orta göstəricisindən öndədir və 4G şəbəkəsi isə getdikcə yayılaraq geniş vüsət alır. 2019-cu ildə Dünya İqtisadi Forumunun dərc etdiyi "Qlobal Rəqabətlilik Hesabatı"na əsasən, ölkəmiz hər 100 nəfərə düşən internet istifadəçilərinin sayına görə dünyanın 141 ölkəsi arasında 43-cü yerdə qərarlaşmış və bu göstərici üzrə region dövlətləri arasında 2-ci yeri tutmuşdur (14).

Müasir nağdsız iqtisadiyyatın formalaşma istiqamətlərindən biri kimi elektron ticarətin yaranmasını göstərə bilərik. E-ticarət, ənənəvi ticarət quruluşundan qurtulub, informasiya texnologiyasının hər aspektindən istifadə edərək ticarətlə bağlı bir çox problemi asan, rahat, sürətli, detallı və iqtisadi şəkildə həll etməyi hədəfləyən ticarət növüdür. Müstəqillik sonrası Azərbaycan öz iqtisadiyyatını sürətli şəkildə liberal dəyərlərə əsaslanan bir sistemi formalaşdırma yolunu rəhbər tutdu. Zəngin təbii resurslardan dolayı ölkəyə xarici sərmayə əsasən neft sektoruna axdı. Azərbaycanın ixracatının 90 faizinə yaxın neft məhsullarının təşkili xüsusi ilə 2014-cü ildən neft qiymətlərinin azalması fonunda iqtisadiyyatın diversifikasiyası, sahibkarlığın və qeyri-neft sektorunun inkişafı Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin prioritet istiqamətlərindəndir. Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ölkədə vergi ödəyicisi kimi qeydiyyatdan keçmiş şəxslərlə onların xarici biznes tərəfdaşları arasında sənədlərin, o cümlədən müqavilələrin elektron formada tərtibinə və imzalanmasına, habelə real vaxt rejimində transsərhəd elektron xidmətlərin həyata keçirilməsinə imkan verən “Azərbaycan Rəqəmsal Ticarət Qovşağı” yaradılıb. 2005-ci il may ayının 10-da "Elektron ticarət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib (15).

Bütün bunlardan başqa Azərbaycanda nağdsız iqtisadiyyata keçid ilə bağlı müxtəlif zamanlarda mühüm işlər görülmüş və bu addımların ölkəmizdə nağdsız iqtisadiyyata keçidi sürətləndirməkdə əvəzsiz rolu olmuşdur.

**Açar sözlər:** *iqtisadiyyat, ölkə, inkişaf, rol.*

## ƏDƏBİYYAT SİYAHISI:

*1. SKOLKOVO_IEMS_Research_2015-02-26_ru.pdf*

*2. dengi-beznalichnye-raschety-v-ekonomike.pdf*

*3. Nağdsız ödənişlərin inkişaf səviyyəsinin iqtisadi artıma təsiri, Azərbaycan Mərkəzi Bankı,işçi məqalələri silsiləsi, № 12/2014, L.Yusifzadə, A.Məmmədova*

*4. https://cfgmerchantsolutions.com/cash 1*

*5. İnformasiya İqtisadiyyatının Formalaşması Şəraitində İnternet-Bankinq Texnologiyalarinin Əhəmiyyəti və İnnovativ Xüsusiyyətləri, İnformasiya cəmiyyəti problemləri, №2(4), 2011, 41-49, Əliyev Ə.Q.*

*6. Simple Benefits Cashless Transactions Bring Small Businesses - Nayax*

*7. Azərbaycan Respublikasının Mərkəzi Bankı - Azərbaycan Respublikasında nağdsız hesablaşmalar və pul köçürmələri haqqında Təlimat (cbar.az)*

*8. 461-VQ - Nağdsız hesablaşmalar haqqında (e-qanun.az)*

*9. Azərbaycan Prezidentinin rəsmi internet səhifəsi (president.az)*

*10. Nağdsız ödənişlərin stimullaşdırılması və nağd əməliyyatların məhdudlaşdırılması (linkedin.com), məqalə, R.Mahmudov , T. Rüstəmov, 2016.*

*11. Nağdsız iqtisadiyyat: dayanıqlı bankçılığa doğru (vergiler.az)*

*12. Azərbaycan respublikasının Mərkəzi Bankı, 2021-ci ilin yanvar-dekabr ayları üzrə rəqəmsal ödənişlər icmalı*

*13. Azərbaycanda nağdsız ödənişlər rekord qırdı (marja.az)*

*14. Rəqəmsal iqtisadiyyat, müasir çağırışlar və real imkanlar mövzusunda müzakirələr aparılır YENİLƏNİB VİDEO - AZƏRTAC (azertag.az)*

*15. Elektron ticarətin Azərbaycanda inkişaf perspektivləri, E.Süleymanov, X. İsmayılova*

**Агазаде Эльнур Агшин**

**" РОЛЬ БЕЗНАЛИЧНОЙ ЭКОНОМИКИ В РАЗВИТИИ СТРАНЫ"**

**Резюме**

Цель статьи - разъяснить понятие безналичной экономики, которое считается одной из активных тем последнего времени, определить положительные и отрицательные последствия безналичных расчетов на малых предприятиях, последствия перехода на этот процесс в нашей стране. страны, и значение предпринятых в этом направлении шагов для экономики страны.

**Ключевые слова:** *экономика, страна, развитие, роль.*

**Aghazade Elnur Aghshin**

**"THE ROLE OF CASHLESS ECONOMY IN THE COUNTRY'S DEVELOPMENT"**

**Summary**

The purpose of the article is to explain the concept of cashless economy, which is considered one of the active topics of recent times, to determine the positive and negative effects of cashless settlements in small enterprises, the effects of the transition to this process in our country, and the importance of the steps taken in this direction to the country's economy.

**Key words:** *economy, country, development, role.*

Fəlsəfə və Sosiologiya

UOT 101.1::316

**MÜSLÜM NƏZƏROV**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin dosenti, fəlsəfə üzrə elmlər doktoru*

*E-mail: muslimnazarov@mail.ru*

# POSTQEYRİ-KLASSİK TƏHSİL İDEYASININ FƏLSƏFİ VƏ MƏDƏNİ MAHİYYƏTİ

Üçüncü minilliyin əvvəllərində dünya keyfiyyət dəyişiklikləri dövrünə, cəmiyyət, elm və mədəniyyət bütövlükdə qeyri-klassiklər dövrünə qədəm qoymuşdur. Qeyri-klassik reallıq insanın mədəni həyatının bütün sahələrində və təbii ki, təhsil kimi mədəni sferalarda özünü göstərir. Müasir dünyada təhsil sahəsi ilə bağlı məsələlər xüsusi əhəmiyyət kəsb edir. İqtisadiyyatda, siyasətdə və hüquqda köklü dəyişikliklər suallar doğurur.

Son illərdə, təhsil nəzəriyyəsinin metodoloji, konseptual və terminoloji aparatını daim inkişaf etdirmək üçün davamlı ehtiyaclarla yanaşı, indidən irəli sürülmüş təhsil və təlim problemlərinin həllinə artıq qurulmuş fəlsəfi və pedaqoji baxışların uyğunlaşdırılması vəzifələri əsas əhəmiyyət kəsb edir.

Bu sahələrdə elmi tədqiqat perspektivləri, əsasən, pedaqoji iş insanların ən vacib, hətta əsas növlərindən birinə çevrildikcə getdikcə daha çox prioritetli inkişaf əldə edən təhsil fəlsəfəsi sahəsindəki tədqiqatların inkişafı ilə əlaqələndirilir. Təhsil fəlsəfəsindəki məsələlərin inkişafına diqqətin davamlı konsentrasiyası, fəlsəfi və pedaqoji ədəbiyyatda mübahisələrin kəskin polemik mahiyyəti, elmi ictimaiyyətin bu yolda olma ehtimalı ümidinin ifadəsi kimi xidmət edir.

Bu baxımdan, müasir pedaqoji nəzəriyyənin inkişaf perspektivlərini nəzərə almaqla cəmiyyətin strategiya və taktikasını müəyyən etməli olan metodoloji müddəaları məsələsi çox aktualdır. Bu problemin həlli pedaqoji fəlsəfənin səlahiyyətindədir. Təhsilin cəmiyyətdə və dövlətdə yerini müəyyən edən əsasları, təhsil proqramlarının insan varlığının maraqlarına uyğunluğunu dərk etmədən təhsil sistemində islahatlar aparmaq mümkün deyil. Beləliklə, sovet təhsilinin hansı nailiyyətləri qorunub saxlanmalı və nədən imtina edilməlidir, nəyin qalıcı dəyəri var və nəyin inqilabdan əvvəlki pedaqogika irsində yoxdur, təhsil təcrübəsi nə dərəcədə məqbuldur kimi suallara cavab almaq mümkündür.

Son onilliklər təhsil fəlsəfəsi problemlərinə maraq uçqunu ilə yadda qaldı. Təhsil fəlsəfəsinin mahiyyəti, məqsəd və vəzifələri, pedaqogika ilə əlaqəsinin xarakteri haqqında geniş fikirlər formalaşmışdır.

Klassik fəlsəfə bütün müxtəlif məktəblərdə və istiqamətlərdə mühüm fəlsəfə idi, yəni o, dünyada mövcud olanlar haqqında təsəvvürlərə əsaslanırdı və onun konsepsiyaları bütövlükdə dünyanın vahid mənzərəsinin qurulması üçün başlanğıc nöqtəsi və bünövrəsi ola bilər. Təhsil Qərbi Avropa mədəniyyətinin tərkib hissəsi kimi öz məqsəd və prioritetlərini klassik fəlsəfənin substansionalizm, rasionalizm, elm haqqında elm, obyektivizm, determinizm, vahidlik, universalizm kimi əsas prinsiplərinə uyğun olaraq müəyyən edir. Bu, Qərb təhsili fəlsəfəsinə xas olan bəzi əsas şəxsiyyət xüsusiyyətlərini inkişaf etdirmək meyili, dünya və onun qanunları haqqında obyektiv bilik üçün ilkin şərt ola biləcək universal tədris metodlarının axtarışı ilə bağlıdır.

Klassik fəlsəfə və pedaqogikada insanın mahiyyətinin dərk edilməsinə uyğun olaraq iki əsas, nisbətən müstəqil hissədən - tədris və tərbiyədən ibarət təhsil strukturu ideyası inkişaf etmişdir. Təhsilin bu strukturu, o cümlədən prioritet məqsədlər və onlara nail olmaq vasitələri bir tərəfdən intellekt, digər tərəfdən isə hisslər bəxş edilmiş insanın mahiyyətini dərk etməklə müəyyən edilirdi. Təhsillə tərbiyə arasındakı fərq insanın əqli və əxlaqi prinsiplərinin xüsusiyyətlərini nəzərə almaq zərurətindən irəli gəlirdi. Klassik fəlsəfədə rasionallıq idealı elm olduğu üçün ağlın özü də məntiqin qayda və qanunlarına əməl edərək diskursiv şəkildə şərh olunurdu.

Təhsil fəlsəfəsinin inkişafı "yadlaşma təcrübəsi"-nin aradan qaldırılmasına və pedaqogika ilə fəlsəfə arasındakı münasibətdə səhv anlaşılma ehtimalına əsaslanan adekvat bir təhsil strategiyası qurmağın təcili ehtiyacını qarşılayır.

Təhsil problemlərinin öyrənilməsinin aktuallığı və eyni zamanda obyektiv mürəkkəbliyi bir çox fəlsəfi məktəblərin və cərəyanların mövcudluğu ilə bağlıdır. Buna görə də təhsil, onun nəzəriyyəsi və fəlsəfəsi haqqında nəinki fərqli, həm də əks fikirlər çox inkişaf etmişdir. Bununla belə, təhsilin fəlsəfəsi

və onun predmeti haqqında fikirlərin demək olar ki, sonsuz plüralizmi ilə səciyyələnən mövcud vəziyyətə baxmayaraq, müəyyən edilmiş paradiqmalara müraciət əsasında bəzi fikirlərin düzgünlüyünə nail olmaq tamamilə mümkündür. Söhbət XX əsrin 60-cı illərində elm fəlsəfəsinin ideyalarının təsiri altında yaranmış rasionallıq növləri anlayışından gedir. Ağılın mahiyyəti, onun formaları, sərhədləri, imkanları ilə bağlı problemlərin müzakirəsinin nəticəsi və s..

Tarixi rasionallıq növlərinə müraciət həqiqi bir nəzəri yenidənqurma və zehni əks və eyni zamanda təhsil təşəbbüslərinin əsaslı və praktik ifadəsi olan anlayış strategiyaları və praktik sosial fəaliyyətin obyektiv qiymətləndirilməsi perspektivlərini açır. Fəlsəfi və pedaqoji fikirlərin tarixinin və mövcud vəziyyətinin əsas tarixi rasionallıq növlərinin sosial-fəlsəfi təhlili kontekstində, habelə fərqli mədəniyyətlərdə fəlsəfi, təhsil fikir və konsepsiyalarının tipoloqlaşdırılması, ümumi təməl prinsiplərə əsaslanan vahid formasiyalar şəklində təqdimetmə imkanlarını açır.

Hazırda qeyri-klassik reallıq mövzusu təkcə müasir elm fəlsəfəsində deyil, fəlsəfə, antropologiya və mədəniyyətşünaslıqda da prioritetlərdən birinə çevrilmişdir. Təhsil kimi kompleks bir sosial-mədəni sahənin öyrənilməsində qeyri-klassik metodologiyaya üz tutmağın aktuallığı, tədqiqat metodologiyasına klassik və qeyri-klassik yanaşmaların məhdudiyyətlərini açmaq üçün müasir humanitar biliklərə ehtiyac duyur. Postneoklassikanın fərqli bir xüsusiyyəti, hər şeydən əvvəl, qanuni olaraq humanitar və geniş mənada humanist komponentləri özündə cəmləşdirməsidir. Klassik olmayan sonrakı paradiqmada, insan ölçüsünün qarşılıqlı asılılığı ifadəsini tapdı, bu da məhsulunda texnoloji parametrlər və insan ölçüsünün nəzərə alınmasını nəzərdə tutur və bu, öz növbəsində ümumən etibarlı dəyərlər miqyası və müəyyən bir mədəniyyətin universalları ilə əlaqəlidir.

Qeyri-klassik elm üçün xarakterizə olunan norma və ideallar birbaşa “düz ontologizmin rədd edilməsi və nəzəriyyələrin nisbi həqiqətinin dərk edilməsi” ilə əlaqəlidir. Bu baxımdan, “bu cür izah və təsvir növləri qəbul edilir, aydın şəkildə idrak fəaliyyətinin vasitələrinə və əməliyyatlarına istinadları ehtiva edən klassik modellərdən fərqli olaraq, nəzəriyyənin kvant-relyativistik fizikada əsaslandırılması, tətbiq olunan anlayışlar sisteminin əməliyyat əsasları nəzəriyyəsinin təqdimatında açıqlama nəzərdə tutulurdu” [6, s. 336].

Klassik olmayan təbiətşünaslığın digər bir xüsusiyyəti də təbiət hadisələri və obyektlərinə yuxarıda göstərilən ehtimal-statistik yanaşmanın üstünlük təşkil etməsidir ki, bu da faktiki olaraq determinizm anlayışının rədd edilməsi deməkdir. Klassik olmayan elm üçün klassik anlayış və kateqoriyaların ziddiyyətinin birləşməsi ilə xarakterizə olunur [7,s.157]. Müasir elmdə bu cür davamlı və ayrı-ayrı fikirlər bir-birini istisna etmir, eyni obyektə, xüsusən fiziki bir sahəyə və ya mikropartikula tətbiq edilə bilər [8, s.118].

Qeyri-klassik elmin bir xüsusiyyəti də riyazi fərziyyə metoduna açıq bir üstünlük vermək idi, riyazi simvolların fəsadlaşması getdikcə yeni nəzəri konstruksiyaların yaradılması vasitəsi kimi çıxış etməyə başladı və təcrübə ilə əlaqəsi birbaşa və qeyri-mənfi deyildi [9, s. 98].

Qeyri-klassik elm məsələsi, onun xüsusiyyətlərini nəzərdən keçirərək, qeyri-klassik elmin "sadəlövh obyektivizm"in məhdudiyyətlərini üzə çıxardığını, elmi biliklərin idrak subyektinin vasitə və metodlarından asılılığını göstərdiyi qənaətinə gələ bilərik. Fərqli metodlardan istifadə edərkən eyni həqiqəti fərqli tədqiqat mövqelərindən təsvir etməyin mümkünlüyünü və hətta, arzuolunanlığını da kəşf etdi.

Klassik olmayan sonrakı mədəniyyətin əsas təməlləri antropoloji ölçüsünün konkret tarixi vəziyyətlə əlaqəsi, mədəniyyətdə və elmdə "insan oriyentasiyalarının" gücləndirilməsi (istər tədqiqat metodlarında və vasitələrində, istərsə də ümumi mədəni və fəlsəfi anlayışda), tədqiqat obyektinə və ümumiyyətlə, idraka yönəldən vektorlar, elmi tədqiqatların fənlərarası təbiəti və müxtəlif "birləşmələr"dir.

Klassik olmayanların, o cümlədən kompleks inkişaf edən sistemlərin obyekti əsas etibarilə şəxsiyyətyönümlüdür. Təsadüfi deyil ki, postklassiklərin əsas xüsusiyyəti “insan ölçüsü” termini ilə ifadə olunur. Klassik olmayan sonrakı mədəniyyətdə, demək olar ki, bütün strukturlar açıq şəkildə dəyişdirilir. Bu, klassik kateqoriya konseptual şəbəkədəki dəyişiklikdə özünü göstərir: qavrayışın ekzistensial əsasları əvəzinə anlayışların yerini, "simulakra" və "rizomlar" kateqoriyalar və təsvirlər mövqeyini alır. Mədəniyyət mahiyyət etibarilə plüralist və hermenevtik olur.

Post qeyri-klassik mədəniyyətin hermenevtik mahiyyətinin və nəticədə təhsil sisteminin mənalarını anlamaq və qorumaq istəyinin ifadəsidir. İnformasiya axınının müqayisə olunmaz tərəzilərə (klassik və qeyri-klassik mədəniyyətdə bilinməyən) genişlən-

məsi insanın özünü polisemantik məkanda tapmasına gətirib çıxarır. İnformasiya bolluğu bəşəriyyətin təcrübəsini mənimsəyir və eyni zamanda bu məlumatların kütləsi üzərində başqa mənalar seçmək imkanı ilə müəyyən bir mədəni monolit güclənir və qurulur. Belə bir vəziyyətdə fərdi dəyərləri aşkarlamaq, gücünü yoxlamaq və həqiqi dəyərləri yalanlardan ayırmaq insan üçün davamlı bir problemə çevrilir. Nəticə etibarilə, təhsil sistemi bir növ "köməkçi" rolunu oynamalı, zəmanətsiz mənalar dünyasına bələdçi funksiyasını yerinə yetirməlidir, demokratik üsulu yenidən tətbiq etməli, insanın həyatı boyu öz mənalarının qurulmasında iştirak etməlidir. Çünki indiki zamanda davamlı fenomenoloji, ekzistensialist, hermenevtik təhsil praktikası yenilənməlidir. Bu vəziyyətdə təhsilin atributu, ilk növbədə, fərdi mənaları təşkil edən, eyni zamanda mədəniyyətin dəyər kateqoriyalarını ifadə edən hərəkətlər olmalıdır.

Bütün bunlar təhsil sistemini səviyyələrində ən çətin problem qarşısına qoyur və dəyərləri, mənaları necə, hansı prosedurlarla birləşdirmək, vacib olan problemin ümumilikdə təhsil fəaliyyətinin mənasını tapmaqdır. Müasir təhsil sisteminin məhz təhsil fəaliyyətinin məqsəd və mənaları prosesin bütün iştirakçıları müəllimlər, şagirdlər, valideynlər, cəmiyyət və bütövlükdə dövlət üçün qeyri-müəyyəndir. Buna görə də, müasir pedaqoji konsepsiyalar yaxın gələcək üçün təhsilin fəlsəfi və mədəni əsaslarını postqeyri-klassik mədəniyyət kontekstində müəyyənləşdirmək lazım gəlir. Burada mədəni əsaslar dedikdə, real pedaqoji təcrübənin niyyətləri ilə təhsilin inkişaf vektorları arasında üstünlük təşkil edən dəyər istiqamətləri ilə müasir mədəniyyətin rasionallığı tipi arasındakı əlaqə nəzərdə tutulur.

Beləliklə, təhsil fəlsəfəsi - "təhsil bilikləri ilə fəlsəfə arasındakı əlaqənin tarixi formalarını müəyyənləşdirmək" (Oqurtsov A.П, Platonov V.V) üçün hazırlanmış bir tədqiqat sahəsi çərçivəsində anti-pedaqogika və postmodernizmlə əlaqəli bütün klassik pedaqoji nəzəriyyələrin rasionalizmin yenidən qurulması və "dekonstruksiyası" barədə müzakirələrə çox diqqət yetirilir [10,s.4]. Təhsil əvvəllər "repressiv pedaqogika" və ya "loqosentrizm" olaraq təyin olunan fikirlərin əksinə, bu, müxtəlif "bilik şəbəkələri" ("antipedaqoji") və ya qrup dəyərləri, mif və estetik plüralizmi adına tarixin və elmin rasionallığının pozulmasıdır. Şüur (postmodern təhsil fəlsəfəsi) bütün bu fərqli tədris anlayışları həm mövzunu, həm də təhsil prosedurlarını, məzmunu və istiqamətini müəyyənləşdirir.

Postqeyri-klassik təhsil ideyasının fəlsəfi və mədəni bir fenomen kimi mahiyyəti aşağıdakı kimi əks olunur:

- təhsil ideyası, təhsil və pedaqoji fəaliyyət idealının dinamik, tarixən dəyişkən, ağılla başa düşülən bir fikri və eyni zamanda qeyd-şərtsiz humanitar və aksioloji mahiyyət daşıyan və dəyişməz savadlı insanın mükəmməl obrazıdır;
- təhsil ideyasının mahiyyəti başa düşüləndir, çünki bu, varlığın humanitar ölçüsü ilə və insan mədəniyyətinin təhsilə verdiyi xüsusi dəyər sayəsində ortaya çıxır. Dürüstlük təhsil ideyasında əsas tutulur. Bütünlük, birlik olmadıqda, təhsil fenomeni hissələrə bölünür, dağılır, ayrı-ayrı komponentlər arasındakı əlaqələr məhv olur və bütövlükdən kənar fərdi komponentlər mənasını itirir;
- təhsil ideyası mütləq olanı ehtiva edir və normativ funksiyanı yerinə yetirir. Mövzunun fenomenal, faydalı və praqmatik tərəfinin üstünə qalxır; bu (faktiki, fenomenal) kimi bir təhsil verildiyi sualının cavabı nə olmalıdır və ya bir ideal, modeldir. Mükəmməl bir görüntü, prototip, mütləq, fenomenin ən yüksək, tamamlanmış vəziyyəti olan fikir, dəyər sisteminin mərkəzindədir. İdeyanın müəyyənedici əsası, atributu budur. Təhsil ideyası mükəmməl, mütləqdir, qeyd-şərtsiz dəyər təbiətinə malikdir və çox xüsusi, müəyyən müddət üçün təhsil və tədris praktikasının idealını formalaşdırmaq üçün hazırlanmışdır. İdeal təmiz şəklində əlçatmazdır, ancaq üfüq, tənzimləyici fikir, meyar və ölçü kimi işləyir, buna görə təhsil sistemindəki işlərin vəziyyəti ilə bağlı qərar vermək yalnız kifayət qədər obyektivlik və etibarlılıq dərəcəsi ilə mümkündür;
- fikir mədəniyyətdəki rasional dizaynını alır, yalnız dünya ilə ideyaya münasibətdə varlıq keyfiyyətini qazanır. Təhsilin təcəssümünün bütövlüyü və tutumu (bir fenomen kimi), onun ilkin prinsip kimi xidmət edən ideyasının potensialı ilə təmin edilir. Müəyyən bir mədəniyyət növündə təhsil ideyasının həyata keçirilməsinin tamlığı, "dövrün pedaqoji proqramı" - pedaqoji təcrübənin bir sıra məcburiyyətlərini təmin edir. Bu imperativlər təhsil fikri, mədəniyyət növü, cəmiyyətin yetkinlik dərəcəsi ilə yaranır.

Mədəniyyət yönümlü təhsil anlayışları mədəni formalaşdırma potensialına, yaradıcı və evristik komponentlərinə diqqət yetirərək, hazırda olduqca fəal şəkildə inkişaf etdirilir. İnsanın tükənməz gizli potensialı və bu imkanları reallaşdırmaq üçün bir

vasitə kimi təhsil ideyasına əsaslanır. Elmi məktəb bir şəbəkəyə malikdir, təbiəti paylayır və bu cür təhsil növlərinin dizaynını və həyata keçirilməsini öz məqsədi kimi görür, evristik, məhsuldar, refleksiv fəaliyyət əsasında insanın fərdi mədəni və tarixi özünü dərk etməsini təmin edən məktəbin nailiyyətləri təhsilin fərdi istiqamətləndirilməsi kimi pedaqoji istiqamətlərdir, tələbələr üçün profil, fərdi təhsil proqramlarının tətbiqi, evristik təlimin inkişafı və genişləndirilməsidir[4,s.197].

Təhsilin inkişafının mədəniyyət yönümlü istiqamətləri arasında xüsusi bir yer, bu qrupa uyğun olaraq təhsil işinin məzmunu və formalarını yeniləmək, bu modelə uyğun işləyən digər məktəblərlə təcrübə mübadiləsi aparmaq üçün tədris qruplarına ehtiyac duyulduğu mədəni-yaradıcı model xüsusi məktəb növü deyil, təlim və tərbiyənin inkişafı ilə əlaqəli vahid proses olduğu standart bir proqramı effektiv şəkildə həyata keçirmək üçün yoldur. Belə bir məktəbin əsas ideyası uşağın dünyagörüşünün yaşla əlaqəli xüsusiyyətlərinə yönəlmiş bütöv bir təhsil prosesi qurmaqdır. Bu bütövlüyə fənlərarası inteqrasiya yollarında, təbiət fənləri, sosial-humanitar və bədii-estetik dövrlər ümumi problemi həll edir - dünyanın və içindəki insanın bütöv imicinin formalaşdırılmasıdır.

Mədəniyyət yönümlü konsepsiyalar müasir mədəni və təhsil vəziyyətinin problemlərinə cavabdır. Bu cür məktəblərin təcrübəsi, təhsilin modifikasiyasının əsas istiqaməti təhsil paradiqmasının yenidən istiqamətləndirilməsi olduğu pedaqogikanın humanitar sahəsinin: klassik paradiqmaya xas olan dəyişməz bilik və bacarıq sisteminin köçürülməsindən “insanın mədəniyyətin semantik kainatına şüurlu “girməsi” və onun mədəni formasının identifikasiyası yetkinləşməsindən xəbər verir.

Bu yanaşma ilə mədəniyyət yalnız “mədəni irs” kimi deyil, insanın həyatı, dünyanı, mədəniyyəti və özünü mədəniyyətin bir hissəsi kimi reallaşdıran insanın imicinin formalaşması şəklindəki bir anlayış və qurma forması olaraq anlamaq, mədəniyyət mərkəzli anlayışlar, ömürboyu təhsil konsepsiyasını reallaşdırmaq üçün misilsiz potensiala sahibdir. Məhz mədəni-yaradıcı modellər çərçivəsində insana subyekt kimi yönəlmiş bir məkan formalaşdırmaq, təhsili bütün həyatının yankeçilməz atributu, insanın tamamilə fərdi təhsil versiyasını seçdiyi məkan kimi şüurlu şəkildə reallaşdırmaq mümkündür.

Davamlı təhsil konsepsiyası (ömürboyu öyrənmə), 20-ci əsrin sonlarından etibarən fəal şəkildə inkişaf edən, müasir pedaqogikanın dominant nəzəriyyələrindən və təcrübələrindən birinə çevrilmişdir. Bu yanaşma, insanların daim mütəşəkkil təhsil prosesinə qayıtması üçün müəyyən bir sosial və fərdi ehtiyacın mövcudluğunu nəzərdə tutur. Davamlı təhsil müxtəlif modellər, formalar, təcrübələr ilə təmsil oluna bilər. Fərqli yaşda və sosial statusda olan dinləyicilərə yönəldilmişdir. Əslində, ömürboyu təhsil konsepsiyası qeyri-xətti, dəyişkənlik və təhsil trayektoriyasının seçiciliyinə dair qeyri-klassik niyyətləri ifadə edir [3,s.356].

Distant təhsil, ömürboyu təhsil anlayışının xarakterik və maraqlı bir sınması kimi görünür. Yeni multimedia texnologiyalarının inkişafı ilə ortaya çıxan distant təhsil müasir təhsil anlayışlarında "sərhədsiz" yer tutmuşdur. Distant təhsil, tərifə görə, zaman və məkan sərhədləri əslində düzəldildikdə, tələbə-müəllim münasibətlərinin xüsusi bir formatında baş verir. Dünyanın istənilən vaxtında və hər yerində "təhsil məzmunu"na giriş açıqdır. Əlbəttə ki, distant təhsil formaları əsasən müasir insanın tətbiqi biliklərdə dinamik olaraq dəyişən ehtiyaclarına cavab verir. Eyni zamanda, əhəmiyyətli bir çatışmazlıq müəllimin rolunun və əhəmiyyətinin məhdudluğu, mövcudluğun natamamlığı, eləcə də pedaqoji vəziyyətin özünü reallaşdırmağın mümkünsüzlüyüdür.

Davamlı təhsilin bir hissəsi olan əlavə təhsil konsepsiyası, fikrimizcə, qeyri-klassik mədəniyyətin bilik və dəyişkənlik, təhsil təcrübələrinin dəyişkənliyini artırmaq istəyini ifadə edir. Hər yaşdan və sosial statusdan olan insanlar üçün əlavə təhsil formalarının (həm institusional, həm də qeyri-rəsmi) fəal inkişafı geniş, plüralist təhsil məkanının formalaşmasında mədəniyyətin ehtiyaclarının ödənilməsindən xəbər verir.

## ƏDƏBİYYAT SİYAHISI:


*1. Abbasov Ə. F. Yeniləşən cəmiyyət. Müasir elmi paradiqma və idarəetmə. B., 1998,- 56 s.*

*2. Məmmədəliyev Z. Postindustrial erada mütəxəssis-peşəkar Yeni Dövrün hakimi-mütləq şəxsiyyətin varisidir. Bakı,29 avqust 2013-Newtimes/az*

*3. Nəzərov M.H., Quliyev N.Z., Nəzərova X.M. Pedaqoji texnologiyalar. (Dərs vəsaiti) Bakı. ADPU-2020. ADPU-nun nəşriyyatı. 496 s.*

*4. Nəzərov M.H. Müasir dövrdə təhsilin sosial-mədəni problemləri. Monoqrafiya. Bakı - Mütərcim – 2018, 296 s.*

*5. Nəzərov M.H. Təhsil fəlsəfəsi Bakı: ADPU, 2021, 496s.*

***Rus dilində***

*6. Болдин А.П. Основы научных исследований / А.П. Болдин, В.А. Максимов. М.: Академия, 2012. – 336 с.*

*7. Горелов А. А. Современные концепции естествознания. Москва: Центр, 2006. – 157 с.*

*8. Карпенков С.Х. Основные понятия современного естествознания. М: УНИТИ, 2007. - 118 с.*

*9. Спиркин А.Г. Философия. Учебник. М., 2009. – 98 с.*

*10. Огурцов А.П., Платонов В.В. Образовательные картинки. XX век. СПб .: РХГИ, 2004.520с.*

**M.H Nəzərov**

**Postqeyri-klassik təhsil ideyasının fəlsəfi və mədəni mahiyyəti**

**XÜLASƏ**

Məqalədə fəlsəfi və kulturoloji kontekstdə təhsil problemləri və ideyası nəzərdən keçirilir, müasir təhsilin əsas məsələləri təhlil edilir, inkişafın fəlsəfi və kulturoloji əsaslarını postqeyri-klassik kontekstdə əsaslandırılır, mövcud təhsil modellərinin mahiyyəti və spesifikliyi açıqlanır. Təhsil postqeyri-klassik mədəniyyətə və bütövlükdə dünyagörüşünə uyğunluğu baxımından yenidən qiymətləndirilir. Post-modern pedaqogika layihəsi, postmodern fikirlərin həyata keçirilməsini problemli edən uyğunsuzluğu ilə təhlil olunur.

**Açar sözlər:** *təhsil, mədəniyyət, klassik və qeyri-klassik mədəniyyət, təhsil modeli, təhsil ideyası*

**Назаров М. Г.**

**Философско-культурологическая сущность идеи постнеклассического образования**

**РЕЗЮМЕ**

В статье рассматриваются проблемы образования в философско-куль-турном контексте, анализируются основные проблемы современного образования, обосновываются философско-культурные основы развития в постнеклассическом контексте, раскрывается сущность и специфика существующих образовательных моделей. Образование переоценивается с точки зрения его соответствия постклассической культуре и мировоззрению в целом. Проект постмодернистской педагогики анализируется на предмет противоречивости, делающей проблематичной реализацию постмодернист-ских идей.

**Ключевые слова:** *образование, культура, классическая и некласси-ческая культура, образовательная модель, идея образования*

**M.H Nazarov**

**Philosophical and cultural essence of the idea of post-non-classical education**

**SUMMARY**

The article considers the problems of education in the philosophical and cultural context, analyzes the main issues of modern education, substantiates the philosophical and cultural foundations of development in a non-classical context, explains the nature and specificity of existing educational models. Education is re-evaluated in terms of its relevance to post-classical culture and worldview as a whole. The project of postmodern pedagogy is analyzed by the inconsistency that makes the implementation of postmodern ideas problematic.

**Keywords:** *education, culture, classical and non-classical culture, educational model, the idea of education.*

УДК 316

# ВЫБОР ПРАВИЛЬНОЙ СТРАТЕГИИ МОДЕРНИЗАЦИИ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ

**НАЗИЛЯ МАМЕДОВА**
*Азербайджанский Государственный Экономический Университет, д.ф.по философии*

*E-mail: n_mamedova@mail.ru*

Посредством проведения реформ и инноваций осуществляется модернизация в системе образования, способствующей прогрессивному развитию общества. Культурная модернизация предполагает формирование высокой культуры, основывающейся на комплексной парадигме прогресса и совершенствования всех сфер общественной жизни. Модернизация есть обновленный, современный, быстрый рост научных знаний. Тот, кто ныне владеет новейшими технологиями, получает максимальную прибыль.

Благоприятной стратегией развития современного Азербайджана может стать его цивилизованное вхождение в развитое информационное общество. Однако, это возможно лишь на основе эффективного соединения наших национальных интересов и ресурсов модернизируемого азербайджанского общества с ценностями постиндустриализма. Решение этих задач в основном будет, зависеть от эффективности использования интеллектуального потенциала азербайджанского общества и консолидации усилий имеющихся ресурсов (8).

Для этого необходимо прежде поднять уровень образования, всячески содействовать развитию научного исследованого, способствовать внедрению их результатов. Особо важную роль при этом играют квалификация и грамотность кадров, поэтому в современном мире особо возростает роль образования.

Одним из важных составляющих культурной модернизации являются: распространение грамотности и светского образования, растущая вера в науку и технологии, а также создание сложной, интеллектуальной и институционализированной системы для подготовки к осуществлению специализированных ролей.

Важной задачей, стоящей перед страной ныне, являются не только приостановление интеллектуальной деградации народа, но и формирование такой системы образования, которая воспроизводила культурный и интеллектуальный потенциал, способный придать обществу необходимый экономический и социальный динамизм в перспективе. Любое учебное заведение опираясь на эффективную систему образования и воспитания, будет видимо, способно подготовить хорошего, грамотного специалиста (8).

Государственная образовательная политика может быть эффективной лишь в качестве органичной составной части целостной экономической, научно-технической и социокультурной политики. При этом ведущей идеей в концепции образовательной политики должна быть стратегия опережающей качественной подготовки специалистов при демократизации всей системы образования.

Система образования будет продуктивной тогда, когда в обществе будет высок престиж труда и статус трудолюбивого, культурного, интеллектуального человека. Для этого необходима не только солидная материально-финансовая поддержка, но и социокультурная среда, стимулирующая активность человека в получении и эффективном использовании знаний в созидательной трудовой деятельности (1, с.95).

Большинство выпускников школ ориентируется на очень огра¬ни-ченный перечень наиболее престижных ныне профессий - экономист, программист, финансист, юрист, так как на выбор профессии большое влияние оказывает уровень благосостояния семьи. Однако, мало зависит от материального положения семьи привлекательность профессии военного, журналиста, художника, писателя, ученого, преподавателя, артиста, политика.

Видимо эти сферы занятий воспринимаются ими как более демократичные, или требующие таланта, который не зависит от достатка, или такого высокого призвания, которые обесценивают все земные блага (3, с.37).

Получив определенную профессию, зачастую

молодой человек не может по ней устроиться в силу её невостребовательности на рынке труда, и потому многие трудятся не по специальности.

В условиях деформированных трудовых отношений невозможно эффективное использование образовательного потенциала работников.

Современная экономика ориентирована на удовлетворение потребностей человека. Возникает необходимость в гибком динамичном производстве, где главным является инновационный подход в управлении, технологии, маркетинге. Отсюда с неизбежностью вытекает требование усиления инновационной деятельности во всей системе образования и обеспечение непрерывного её характера (3, с.38).

Вместе с тем, необходимо разумное сочетание традиционных и инновационных технологий обучения.

Образовательная система постоянно расширяет свое содержание и структуру. С появлением и развитием информационной индустрии возникает необходимость пересмотра традиционных форм и методов обучения. Нужно не просто больше и дольше учить ,а учить по другому. Учеными-педагогами разработаны различные критерии эффективного обучения и воспитания.

Уверенность в своих силах, самоуважение и общественный престиж учителя являются существенными условиями для качественного и эффективного развития системы образования (4, с.48).

Система образования не может быть продуктивной без опоры на фундаментальные ценности и прогрессивные традиции своего народа, так, как логика современного исторического движения ориентируется на межцивилизационное сближение при сохранении конституирующего ядра того или иного этноса, прогрессивных традиций, сложившихся в стране и в конкретном регионе.

При модернизации системы образования важно учитывать как собственный, так и западный опыт. Это приобретает особую актуальность в связи с вступлением нашей страны в Болонский процесс и созданием европейского образовательного пространства (5, с.39).

В условиях быстро меняющегося содержания знаний, а также изменений потребностей в конкретном виде знания остро встает вопрос о том, чему и как сегодня учить. Неудовлетворенность существующей системой образования ощутима во многих странах мира.

Кризис образования проявляется в углублении диспропорции между достижениями общества и культурой масс; усилении разрыва между достижениями, профессиональным мастерством и действиями в этой области массами и политиками. Сегодня во многих странах мира, даже в высокоразвитых, в силу возрастающей сложности государственных, социальных, глобальных проблем, наблюдается снижение компетентности правящей элиты. Все это в определенной мере увеличивает число бедствий, катастроф, усиливает опасность уничтожения жизни на планете. Одной из важных причин всего этого непрофессиональные действия людей и низкая их социальная ответственность.

В силу выше перечисленных и других причин интенсивно осуществляется реформирование системы образования. Основной целью чего является приведение системы образования в соответствие с новыми требованиями общественного развития. Естественно, каждая страна решает свои проблемы с учетом своих экономических возможностей и сложившихся национальных традиций в культуре (6, с.218).

Одной из важных тенденций реформирования образования является демократизация системы образования, которая охватывает и управление, и реализацию учебного процесса.

В реформах современного образования ярко выражено стремление повысить фундаментальность образования, что обеспечивает возможность самообразования любого человека, последующего приобретения им знаний из различных источников в многообразных формах. Хотя, наряду с этой тенденцией соседствует и противоположная, т.е. ориентация в образовании, да и в науке, на сугубо прикладной характер (3, с.39).

Гуманитаризация и гуманизация системы современного образования является одним из важных направлений ее реформирования. Мировоззренческая программа в определенной мере составляет основу образовательного процесса. Гуманитаризация общего образования должно восприниматься одним из приоритетных задач. В образовательном процессе необходимо уделять внимание проблеме разумного соотношения

гуманитарного и естественнонаучного знания, так как развитие интеллекта часто обедняет личность, а развитие эмоций способствует гуманным импульсам. Важно подчеркнуть, что на формирование системы образования в определенной форме влияет общество, культура и менталитет народа.

То, как нас учат думать, не менее важно, чем то, над чем нас учат думать. Методика, по которой обучают, формирует определенные философские взгляды, как на себя, так и на окружающий мир. Гуманизация образования требует развития такого специального направления, как философского образования (4, с.199).

Все большее внимание в системе образования уделяется развитию аналитических и информационных способностей людей. Для современного этапа развития нашей цивилизации, определяемого эволюцией научно-технического прогресса, характерен перенос центра тяжести экономического развития с материальных сфер производства на наукоемкие и высокотехнологические сферы, что можно однозначно охарактеризовать как бурный рост информационного сектора экономики. Этот сектор во многих экономически развитых странах Запада охватывает более половины трудоспособного населения (40-60%) и имеет тенденцию к неуклонному росту. Сегодня основным предметом труда в общественном производстве развитых стран является информация (6, с.134).

В нашей стране в настоящее время обозначился поворот государственной политики к процессам информатизации. Мы не можем стоять в стороне от процесса движения к информационному обществу, а наоборот, должны активно в нем участвовать. Нашей республике необходимо сконцентрировать усилия на активизации использования своего интеллектуально и культурного потенциала для того, чтобы занять достойное место в общемировом информационном пространстве (7, с.253).

Интеллектуальные ресурсы республики могут и должны стать главным фактором технологической модернизации страны, должны обеспечить её достойное участие в культурных процессах. В силу развития данной тенденции неизбежно возрастает роль компьютерных информационных технологий в образовании. Возрастают требования к учебному процессу. Эти требования невозможно выполнить без использования новых современных технологий обучения. И здесь на первом плане, несомненно, стоит компьютеризация всего образования. Они дают возможность универсального выхода к необходимой информации и представляют невиданные возможности оперирования ею.

В связи с ростом требований к интеллектуальному уровню будущих специалистов всё большее внимание уделяется индивидуализации их обучения, поиску наиболее эффективных механизмов их адаптации и на производстве, и в социокультурной, и бытовой сферах (1, с.153).

Через спутниковое или кабельное телевидение получает учебные и методические материалы студенты дистанционных программ. Дистанционное образование является наиболее адекватным ответам на тот вызов, который нам бросает жизнь. В последние полвека сделано много новых открытий (8).

Знакомство с последними концепциями и достижениями научной мысли становится для самых разных категорий профессионалов жизненно необходимо задачей. В развитых странах просто обязывают учителей, бухгалтеров, да и работников некоторых других специальностей непрерывно профессионально совершенствоваться. Обучение рассматривается как постоянный процесс, а не как завершившийся получением диплома.

В концепции модернизации образования достаточное внимание уделяется необходимости создания условий для того, чтобы система образования стала более открытой (2, с.86).

Открытость образовательных учреждения позволяет сделать образование более доступным, качественным, привлечь к решению проблем образования общественность. В результате модернизации образования достигается социальная эффективность, которая может быть представлена через создание и устойчивое развитие образовательного центра, реализующего широкий спектр образовательных услуг, востребованных социумом, на базе единого юридического лица, которое определяет приоритеты деятельности всего образовательного учреждения. С помощью качественного обновления содержания образования происходит и воспитание личности, способ-

ной к постоянному самообразованию, совершенствованию с целью нахождения своего места в демократическом обществе (1, с.36).

Модернизация- это приведение сферы образования к современным требованиям личности, граждан, общества и государства. Она достигается посредством создания современной электронной учебной среды, умелого сочетания прежних и новых технологичных форм, активизации самостоятельного изучения интересующихся учебных дисциплин в доступном для личности объеме. Модернизация образования- это политическая и общенациональная задача, она не должна и не может осуществляться как ведомственный проект. Интересы общества и государства в области образования, не всегда совпадают с отраслевыми интересами самой системы образования, а потому определение направлений модернизации и развития образования не может замыкаться в рамках образовательного сообщества и образовательного ведомства. Цель модернизации образования состоит в создании механизма устойчивого развития системы образования. Модернизация образования должна естественно, охватить и профессиональные образовательные учреждение. Предстоит существенная модернизация содержания и структуры профессионального образования в соответствии в требованиями основных отраслей промышленности, сферы, услуг, культуры, армии, государственной службы и др.(2, с.253)

В качестве основного фактора обновления профессионального образования выступают запросы развития экономики и социальной сферы, науки и техники, технологий, а также перспективные потребности их развития. Модернизация образования - это масштабная программа государства, осуществляемая при активном содействии общества. Модернизация образования разворачивается и происходит в контексте общего современного процесса реформирования различных сфер общественной жизни, в тесном взаимодействии с другими реформами, одновременно являясь для них источником обеспечения необходимого кадрового ресурса.

**Ключевые слова:** *образование, модернизация, наука, знание, гуманизм, реформа, инновации, стратегия, государство, общество.*

**ЛИТЕРАТУРА**

*1. Богданова Ю.З. Реализация инклюзивного подхода в образовательном процессе, прошлое и современность. М., 2020.*

*2. Егорова С.И. Модернизация системы образования: основные проблемы и перспективы. М., 2015.*

*3. Антипьев А.Г., Захаров Н.Н., Захарова Н.С. Проблемы модернизации системы образования в трансформирующемся российском обществе // Успехи современного естествознания. 2005, № 9, с. 37-40*

*4. Завалько Н.А. Стратегические аспекты эффективного функционирования высшей школы в условиях рыночной системы. Екатеринбург, 2010.*

*5. Косевич А.В., Матюнина О.Е. Особенности развития рынка образовательных услуг. Вестник Академии. М., 2015. №1.*

*6. Семенко И.Е. Инновации как фактор повышения качества образовательного процесса в техническом вузе. Московский экономический журнал. №12. М.,2020.*

*7. Mahmudov M. Dünyada təhsil sistemləri. Monoqrafiya.–Bakı, 2014*

*8. https://edu.gov.az*

**TƏHSİL SİSTEMİNİN MODERNLƏŞMƏSİNDƏ DÜZGÜN STRATEGİYA SEÇİMİ**

**Nazilə Məmmədova**

**XÜLASƏ**

Cəmiyyətin mütərəqqi inkişafı üçün bütün ictimai həyat sahələrində olduğu kimi, təhsil sistemində də beynəlxalq standartlara uyğun olan yeni islahatların və innovasiyaların tətbiq edilməsi zərurəti vardır. Məqalədə bildirilir ki, elmi biliklərin çevik, müasir və sürətli artımı da buradakı modernləşmə ilə bağlıdır. Azərbaycanda hazırda sivil informasiya cəmiyyətinin parametrlərinə uyğun islahatlar aparılır və intellektual potensialdan lazımi səviyyədə istifadə edilir. Yüksəkixtisaslı kadrların hazırlanması, elmin humanistləşməsi, yeni texnologiyalardan, interaktiv metodlardan və zərurət olduqca distant təhsildən istifadə, tədris zamanı mənəvi dəyərlərin qorunmasına üstünlük verilməsi də düzgün strategiyanın əsasını təşkil edir. İşgüzar, mədəni və intellektual insana dəyər verilməsi əsas prioritetlərdən biridir. Modernləşmə dövlətin, cəmiyyətin və vətəndaşın tələblərinə cavab verməlidir.

**Açar sözlər:** *təhsil, modernləşmə, elm, bilik, humanizm, islahat, innovasiya, strategiya, dövlət, cəmiyyət.*

**IN MODERNIZATION OF THE EDUCATION SYSTEM CHOOSING THE RIGHT STRATEGY**

**Nazila Mammadova**

**SUMMARY**

For the progressive development of society, as in all spheres of public life, there is a need to implement new reforms and innovations in the education system in accordance with international standards. The article says that the quickly, modern and rapid growth of scientific knowledge is also associated with modernization here. At present, reforms are being carried out in Azerbaijan in accordance with the parameters of the civilized information society and the intellectual potential is being used at the required level. The training of highly qualified personnel, the humanization of science, the use of new technologies, interactive methods and, if necessary, distance education, the preference for the protection of moral values in teaching are also the basis of the right strategy. Valuing selfless in his work, cultural and intellectual person is one of the main priorities. Modernization must meet the requirements of the state, society and citizens.

**Keywords:** *education, modernization, science, knowledge, humanism, reform, innovation, strategy, state, society.*

UOT 101.1::316

# AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR VƏ AİLƏ İNSTİTUTU

**TÜNZALƏ AĞAYEVA**
*AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun doktorantı*

*E-mail: t_agayeva@mail.ru*

Dövlət müstəqilliyi və siyasi azadlıq milli iqtisadiyyatın inkişafına şərait yaratdığı kimi, milli iqtisadiyyatın inkişafı və möhkəmlənməsi də dövlət müstəqilliyinin əsaslarını daha da möhkəmləndirir. Əgər Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilməsəydi, nə neft strategiyasını, nə də təşəbbüskarı olduğumuz digər strateji və transmilli layihələri həyata keçirə bilməzdik. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi iqtisadiyyatımızın milli maraqlara uyğun inkişafına şərait yaratmışdır.

Məlum olduğu kimi, Azərbaycan region ölkələri arasında ən yüksək iqtisadi potensiala malikdir. Milli iqtisadiyyat müəyyən dərəcədə özünü təmin edir: əhəmiyyətli mineral ehtiyatları, o cümlədən neft və qaz, inteqrasiya olunmuş kənd təsərrüfatı, sənaye, inkişaf etmiş nəqliyyat şəbəkəsi, yüksək tədqiqat potensialı və s. Ölkə müstəqillik əldə edəndə işçi qüvvəsinin demək olar ki, 90%-nin orta və ali təhsili var idi. Azərbaycan iqtisadiyyatı 1991-ci ildə dövlət müstəqilliyini əldə etdikdən sonra SSRİ-nin dağılması və ənənəvi ticarət əlaqələrinin pozulması nəticəsində görünməmiş miqyasda sarsıntılar yaşadı. Dağlıq Qarabağdakı silahlı münaqişə, bir milyon qaçqın və məcburi köçkün ölkənin bazar idarəetmə üsullarına keçidinin çətin prosesini daha da ağırlaşdırdı.

Bu şəraitdə iqtisadi sabitləşmənin və islahatların yaxşı əlaqələndirilmiş proqramını hazırlamaq və həyata keçirmək lazım idi ki, ümummilli lider Heydər Əliyevin rəhbərlik etdiyi hakimiyyət bu işin öhdəsindən uğurla gələ bildi.

Hər bir dövlətin uzunmüddətli inkişafı onun sağlam və etibarlı əsasda qurulmasından asılıdır. Bu gün ölkəmizin regionun əsas iqtisadi güc mərkəzinə çevrilməsi müasir Azərbaycanın yaradıcısı, ümummilli lider Heydər Əliyevin fəaliyyəti, xüsusən də dövlət quruculuğu sahəsində atdığı strateji addımlar və iqtisadi islahatlar nəticəsində mümkün olmuşdur.

Ümumiyyətlə, məqsəd və vəzifələri, orta və uzunmüddətli perspektivdə inkişaf istiqamətləri dəqiq müəyyən edilmədən, müxtəlif sektorlar üzrə fəaliyyət proqramları hazırlanmadan ölkənin sosial-iqtisadi həyatında köklü dəyişikliklərə nail olmaq mümkün deyil. Bu baxımdan, konkret vəzifələrə yönəlmiş dövlət başçısı İlham Əliyevin məqsədyönlü fəaliyyəti ölkənin siyasi və sosial-iqtisadi həyatı ilə bağlı problemlərin həllinə sistemli və kompleks yanaşmanı təmin etmiş, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsi üçün ən səmərəli üsul və vasitələrin seçilməsinə imkan vermişdir. Cənab Prezident çıxışlarında dəfələrlə bu məsələyə münasibət bildirmişdir: "İnsanların həyat şəraitinin yaxşılaşdırılması qarşımızda duran ən mühüm vəzifədir. Bunun üçün bizim bütün imkanlarımız və kifayət qədər güclü iradəmiz var. Əminəm ki, Azərbaycan iqtisadi cəhətdən güclü ölkəyə çevriləcək və digər ölkələrə nümunə olacaq. Mən Azərbaycanı belə görmək istəyirəm" [1, 44].

İstənilən cəmiyyətin iqtisadi vəziyyəti tam şəkildə ailənin vəziyyətində əks olunur. Məhz "ailə iqtisadiyyatı" və ya "ev təsərrüfatı" ölkənin bütün sosial-iqtisadi sistemində ilkin və əsas həlqə rolunu oynayır. Məlumdur ki, ailə həyatı xüsusi, daha çox əxlaqi prinsiplər üzərində qurulduğundan onun bütövlükdə iqtisadiyyata xas olan əmtəə-pul münasibətləri yoxdur. Lakin bu, o demək deyil ki, ailə institutu iqtisadi, xüsusi hallarda isə sosial qanunlara tabe deyil. Ölkənin iqtisadi və sosial həyatında baş verən əsaslı dəyişikliklər ailə həyatına birbaşa təsir göstərir.

Bütün sivilizasiyalarda ailə qlobal inkişafın ən mühüm elementi olmuşdur. Ailənin prioritetliyi, onun insan və cəmiyyətin həyatı və inkişafı üçün davamlı dəyəri ideologiyası bir çox beynəlxalq qaydalarda təsbit edilmişdir. Bu sənədlərdə ailə institutunun cəmiyyət tərəfindən möhkəmləndirilməsinə və qorunmasına, dövlətin milli ailə siyasətinin işlənib hazırlanmasına fundamental əhəmiyyət verilir.

Ailə hazırda dünya birliyinin hamılıqla tanınan dəyərlərindən biridir. Birləşmiş Millətlər Təşkilatının sənədlərində də qeyd edildiyi kimi, "ailə cəmiyyətin əsas vahididir və ona görə də gücləndirilməlidir. Onun hərtərəfli müdafiə və dəstək hüququ var" [3, 31]. Ailə siyasəti ailə dəyərlərinin və ailə həyat tərzinin aktuallaşması əsasında cəmiyyəti birləşdirən, sosial gərginliyi azaldan ən mühüm sosial

alətdir. Məhz ailə siyasəti cəmiyyətlə ailənin sosial birlik kimi qarşılıqlı əlaqəsinin xüsusiyyətlərini müəyyən etməyə və dərk etməyə, onun fəaliyyətinin bütün sahələrində sosial institutların fəaliyyətinin ailənin maraqlarına uyğun əlaqələndirilməsini təmin etməyə imkan verir.

Ailənin sosial institut kimi spesifikliyi ondadır ki, birincisi, o, qan qohumluğu və nikah vasitəsilə iki və daha çox adamı bir qrupda birləşdirmək qabiliyyətinə malikdir, ikincisi, o, özünü tənzimləyən sistem kimi çıxış edir, üçüncüsü, onun cəmiyyətlə sanksiyalaşdırılmış əlaqəsi vardır. T.Parsons ailəni cəmiyyətin alt-sistemi kimi təhlil etmiş və göstərmişdir ki, o, cəmiyyətin digər alt-sistemləri və struktur ünsürləri ilə əlaqəsi nəticəsində sosiumun stabilliyini təmin edir. Ailənin sosial institut kimi stabilliyi onun digər institutlarla - ən əvvəl dövlət, hüquq, ictimai rəy, din, təhsil və s. ilə qarşılıqlı əlaqəsindən asılıdır. Cəmiyyətin struktur-funksional inkişafına və normalar sisteminə qoşulan ailə öz üzvlərinin fəaliyyətini onların rol və statuslarını müəyyən etməklə tənzimləyir. Qanunvericilik bir institut kimi ailənin fəaliyyətində mühüm rol oynayır. Ailə hüququ mövcuddur ki, burada qanun ailənin mahiyyətini, ailədə kişinin, qadının, valideynlərin, uşaqların hüquq və vəzifələrini müəyyənləşdirir [4, 91].

Azərbaycan Respublikasında ailə dövlətin himayəsindədir. Analıq, atalıq, uşaqlıq qanunla mühafizə edilir. Azərbaycanda ailə qanunvericiliyi ailənin möhkəmləndirilməsi zəruriyyətindən, ailə münasibətlərinin qarşılıqlı məhəbbət və hörmət hissləri əsasında qurulmasından, ailənin işinə hər kəsin qarışmasının yolverilməzliyindən, ailə üzvlərinin ailə qarşısında qarşılıqlı yardım və məsuliyyətindən, onların hüquqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasından və bu hüquqların məhkəmədə müdafiəsi imkanlarından irəli gəlir [2, 13].

İnsanların sosial münasibətlərində ailə ən mühüm yer tutur. Cəmiyyətin inkişaf tarixi ailənin cəmiyyətlə bərabər təkamül edən və əhəmiyyətli dəyişikliklərə məruz qalan sosial institut kimi inkişaf tarixidir. Bu gün ailə multikultural cəmiyyətdə cəmiyyətin humanistləşdirilməsi və konsolidasiyası, şəxsiyyətin sosiallaşması, millətlərarası münaqişələrin aradan qaldırılması, vətəndaş harmoniyasının və tolerant qarşılıqlı fəaliyyətin səmərəli aləti olmaq üçün nəzərdə tutulmuş aparıcı sosial-mədəni institutdur.

Ailənin mövcudluğu digər sosial institutlar kimi sosial ehtiyaclarla müəyyən edilir. Bütün sosial institutlar kimi ailə də cəmiyyətin mövcudluğu və inkişafı üçün zəruri olan hərəkət və münasibətlər sistemidir. Ailə üzvlərini nikah və ya qohumluq, ümumi həyat, qarşılıqlı yardım, qarşılıqlı və mənəvi məsuliyyətlə birləşdirən kiçik sosial qrupdur [7, 129]. Ailə vasitəsilə insanda sosial və təbii vəhdət, sosial və bioloji irsiyyət ən dolğun şəkildə ifadə olunur. Ailə öz mahiyyətinə görə təbiətlə cəmiyyəti, insanların həyatının maddi və mənəvi tərəflərini birləşdirən ilkin həlqədir.

Ailə müxtəlif sosial və humanitar fənlərin tədqiqat obyektidir və onlardan hər biri öz mövzusunu ayıraraq sosial institut və cəmiyyətin elementar hüceyrəsi kimi ailənin müxtəlif aspektlərini təhlil edir. Ailənin bütün sosial münasibətlərin qurulduğu və bütövlükdə sosial quruluşun formalaşdığı bir sosial mikromodel kimi ideyası qədim sivilizasiyalarda formalaşmışdır. Qədim Çində Konfutsi vətəndaşların təhsilini dövlətin ən mühüm vəzifəsi hesab edirdi və onun həyata keçirilməsinin yalnız şəxsi nümunə və öyüd-nəsihətlərin gücü ilə zəruri olduğunu vurğulayırdı: “Əgər sən qanuni müddəalarla insanlara göstəriş versən, cəza və edamla onları məhdudlaşdırsan, cilovlasan, onlar cinayət törətməsələr də, pis işlərə görə qəlblərində ikrah hissi keçirməzlər. Halbuki, əxlaqi tələblərin köməyi ilə insanlara nəsihət etsələr və ona uyğun davranış qaydası qursalar, insanlar pis işlərdən nəinki utanar, əksinə, səmimi olaraq haqq yola dönərlər” [6].

Müasir Azərbaycanda ailə institutunun vəziyyəti əsasən müstəqillik illərindən sonra baş verən siyasi və sosial-iqtisadi proseslərlə müəyyən edilir. Azərbaycanın müasir tarixində dövlətçiliyin qorunması ənənəsinin formalaşması ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Şübhəsiz ki, dövlət müstəqilliyini qoruyub saxlamaq onu əldə etməkdən qat-qat çətindir. Müstəqil Azərbaycanın keçdiyi inkişaf yolu bunu bir daha təsdiq edir. Bu dövrdə dövlətimizə, onun müstəqilliyinə qəsdlər olub, lakin onların qarşısı qətiyyətlə alınıb.

Azərbaycanın milli-mənəvi dəyərlər sistemində ailə institutu sarsılmaz mövqe tutur. Ailə dəyərlərinin qorunub saxlanması təkcə Azərbaycanda deyil, bütün Şərq dünyasında ənənədir. Hökumət ailənin qorunmasını və onlara dövlət qayğısını təmin edir. Əsasən mentalitetimizdən qaynaqlanan Azərbaycan ailəsinin gücü ilə həmişə fəxr etmişik. Ailələrimizdə ailə üzvləri arasında səmimiyyət və mədəni münasibətlər, böyüklərlə və kiçiklərlə davranmaq bacarığı,

valideyn-övlad münasibətlərinin düzgün qurulması ilə seçilir. Analarımız doğulandan övladlarına milli-mənəvi dəyərləri aşılayır. Böyüklərə hörmət, milli dəyərlərə bağlılıq tərbiyənin əsasını təşkil edir. Mədəniyyət, qarşılıqlı hörmət və davranış qaydaları ailə mənəviyyatının əsasını təşkil edir. Ailədə əlverişli mənəvi-psixoloji mühit sosial mühitə də təsir edir.

Tarixən formalaşmış ailə münasibətlərinin qorunub saxlanılması və ailə institutunun dünyanın qabaqcıl ölkələrinin təcrübəsinə əsaslanaraq inkişafı bu sahədə həyata keçirilən siyasətin mərkəzi vektorunu təşkil edir. Aparılan sabit və məqsədyönlü siyasət ailə institutunun inkişafına müsbət təsir göstərir. Azərbaycan ailəsi milli adət-ənənələrə və mənəvi dəyərlərə söykənərək, ailə modelinin əsası kimi cəmiyyətdə öz mövqeyini qoruyub saxlayır. Sağlam güclü ailə hər bir firavan cəmiyyətin təminatçısıdır. Ailə münasibətləri insan həyatının mühüm aspektlərindən biridir.

Ailənin mənəvi mədəniyyəti fitri keyfiyyətlər, təhsil, tərbiyə və yaradıcı əmək, bilik və əxlaq, bir-birinə və başqalarına məhəbbət, iman hesabına formalaşır. Azərbaycan ailəsi milli adət-ənənələri qoruyub saxlamalı, övladlarımız milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmalıdır. Cəmiyyətin inkişafı bilavasitə ailənin rifahından, cəmiyyətdə sağlam mühitdən, yüksək mənəvi və ailə dəyərlərindən asılıdır. Ailə bütövlüyünün qorunması cəmiyyətin və dövlətin tərəqqisində xüsusi rol oynayır.

Azərbaycan cəmiyyətində ictimai, sosial, iqtisadi həyatda dinamik dəyişikliklər baş verir ki, bu da ailə institutunun - yeni nəsillərin sosiallaşması, əhalinin hərtərəfli inkişafı üçün spesifik funksiyaları uğurla həll etməyə qadir olan dövlətin unikal alt-sisteminin transformasiyasını tələb edir. Sosial institut kimi ailə də cəmiyyətlə bərabər transformasiya olunur. Məhz buna görə də, cəmiyyətimizdə baş verən ciddi dəyişikliklər dövründə ailənin sosial sistem kimi öyrənilməsinin vacibliyi, ailə ilə dövlət arasındakı münasibətlər, çoxşaxəli şəraitdə dövlət ailə siyasətinin konseptual və maddi əsaslarının öyrənilməsi daha çox əhəmiyyət kəsb edir.

Ölkədə iqtisadi vəziyyətin ailə institutuna təsiri kifayət qədər çoxşaxəlidir. Bu sahədə ictimai rəy sorğuları əsasında aparılan araşdırmalar iqtisadi vəziyyətin ailə institutuna təsirini aşağıdakı şəkildə göstərir.

1. Ölkədə maddi rifahın yüksəlməsi nikah faizinin artmasına səbəb olur. Belə ki, iqtisadi böhran dövründə gənclərin nikah yaratmaq istəyi qənaətbəxş deyil. Aparılan araşdırmalar və statistik məlumatlar göstərir ki, müstəqilliyin ilk illərində Azərbaycanda iqtisadi problemlərin olması nikahların sayına ciddi təsir göstərmişdir.

2. İqtisadi yüksəliş və maddi rifah ailənin reproduktiv funksiyasına birbaşa təsir göstərir. Belə ki, ailədə uşaqların çoxluğu ailə üçün bir sıra sosial və maddi problemlər yaradır ki, bu problemlərin dövlətin müəyyən qayğısı olmadan həlli çətinləşir. Aydındır ki, dövlətin ailəyə qayğısı, bu sahədə sosial tədbirlərin həyata keçirilməsi dövlətin iqtisadi inkişafı ilə birbaşa bağlıdır.

3. İqtisadi gerilik, əhalinin gəlirlərinin azalması ailədaxili gərginliyin artmasına və münaqişələrin intensivləşməsinə təkan verir. Ailə başçılarından biri işləmədikdə problem xüsusilə kəskinləşir. Qarşılıqlı hörmət və müəyyən əxlaqi prinsiplərə əsaslanmayan ailələrdə bu problem özünü daha qabarıq göstərir.

4. Əvvəlki üç bəndin müddəaları son nəticədə boşanma riskini artırır. Amma burada vəziyyət kifayət qədər mürəkkəbdir. Yəni ailənin maddi rifahı ilə nikahın pozulması arasında aydın funksional əlaqə yoxdur. Maddi rifahın artması həm evliliyin yaranmasına, həm də onun dağılmasına səbəb ola bilər. Ona görə də bu faktorun daha ətraflı təhlilə ehtiyacı var [5, 40].

Yüksək iqtisadi inkişaf tempinə malik ölkə olan Azərbaycan yeni səviyyəyə yüksəlmişdir. Son illər ərzində ölkədə həyata keçirilən iqtisadi siyasət iqtisadiyyatın əhəmiyyətli dərəcədə genişlənməsinə, əhalinin sosial rifahının yüksəlməsinə və bütün sosial-iqtisadi infrastrukturun müasirləşməsinə şərait yaratmışdır.

## ƏDƏBİYAT SİYAHISI:

*1. Əliyev İ. İnkişaf – məqsədimizdir. Birinci kitab. B., Azərnəşr, 2008, 424 səh.*

*2. Azərbaycan Respublikasının Ailə Məcəlləsi. Bakı. 2001.*

*3. BMT Baş Assambleyasının 10 may 2002-ci il tarixli xüsusi sessiyasının S-27/2 qətnaməsi ilə qəbul edilmiş "Uşaqlar üçün uyğun dünya" Bəyannaməsi və Fəaliyyət Planı. Сулимов В., Сайфуллина Н. Международное законодательство о защите половой неприкосновенности несовершеннолетних в начале XXI века // Закон и право. 2019. №7, 31*

*4. Cavadova H. Ailə sosial institut kimi. Bakı Universiteti Xəbərləri, Sosial-siyasi elmlər seriyası №4,*

*2006, səh. 90-97*

*5. Агаева Н. Влияние социально-экономических реформ на формирование современной семьи (на примере Азербайджанской Республики). Актуальні проблеми політики. 2021. Вип. 67. стр.40-46.*

*6. Конфуций. Лунь Юй // Древнекитайская философия: собр. текстов в 2 т. М.: Мысль, 1972. Т. 1. С. 158.*

*7. Прокопова М. В. Основы социологии: Учебное пособие / Под общ. ред. проф. М. В. Прокопова. – М., 2001. С. 192*

**РЕЗЮМЕ**

В статье показана роль семьи как уникальной подсистемы государства, способной успешно решать специфические функции по воспроизводству населения и социализации новых поколений. Охарактеризованы факторы, способствующие ослаблению влияния семьи на подрастающее поколение, установлены особенности и тенденции, характеризующие трансформацию института семьи.

**Ключевые слова:** *семья; семейная политика; функции семьи; укрепление семьи; политика.*

**SUMMARY**

The article shows the role of the family as a unique subsystem of the state, capable of successfully solving specific functions for the reproduction of the population and the socialization of new generations. The factors contributing to the weakening of the influence of the family on the younger generation are characterized, the features and trends characterizing the transformation of the family institution are established.

**Keywords:** *family; family policy; family functions; family strengthening; politics.*

# MÜNDƏRİCAT

## SİYASİ ELMLƏR

İMDAD BAYRAMOV: ADLARI TARİXƏ DÜŞMÜŞ AZƏRBAYCAN QADINLARININ UĞURLU DAVAMÇISI MEHRİBAN XANIM ƏLİYEVA.......................................... 5

ƏLİMUSA İBRAHİMOV: İRAN-RUSİYA MÜNASİBƏTLƏRİNƏ İRANIN NÜVƏ PROQRAMI ƏTRAFINDA BÖHRANIN TƏSİRİ................................................. 9

ELDAR ƏMİROV: ƏLİ ŞƏRİƏTİ (1933-1977) 1979-CU İL İRAN İSLAM İNQİLABININ İDEOLOQLARINDAN BİRİ KİMİ........................................................................... 14

ÜLVI ƏHMƏDLİ: UKRAYNA MÜHARİBƏSİNDƏN SONRA AVROPA İTTIFAQININ AZƏRBAYCAN-ERMƏNİSTAN DANIŞIQLAR PROSESİNDƏ ARTAN AKTİVLİYİ....................... 22

AYSEL BAGHIROVA: MILITARY-POLITICAL RESOLUTION OF THE ARMENIA-AZERBAIJAN CONFLICT AND THE INTERESTS OF THE U.S.A......................... 27

RASİM RZAXANOV: ERMƏNİSTAN RESPUBLİKASINDA MİQRASİYA PROSESLƏRİNİN MÖVCUD VƏZİYYƏTİ VƏ İSTİQAMƏTLƏRİ.............................................. 32

SƏRXAN HÜSEYNLİ: ŞƏRQİ ARALIQ DƏNİZİNDƏ İSİNƏN SULAR. TÜRKİYƏNİN STRATEGİYASI........................................................................................................ 37

## TARİX

ASƏF HACIYEV, ULDUZ PAŞAYEVA: ŞUŞA ŞƏHƏRİNİN ƏHALİSİ: SAY DİNAMİKASI, ETNİK VƏ SOSİAL TƏRKİBİ.................... 42

YƏHYA BABANLI: AZƏRBAYCAN RESPUBLİKASINDAN YÜKSƏK İXTİSASLI MÜTƏXƏSSİSLƏRİN (BEYİN AXININDA) MİQRASİYASINDA DİASPOR AMİLİ................ 49

AYŞƏ NƏRİMANOVA: İNGİLTƏRƏ VƏ FRANSANIN RƏQABƏTİ KONTEKSTİNDƏ "ERMƏNİ MƏSƏLƏSİ". PAUL TƏRZİYANIN LAYİHƏSİ............................................................ 56

NƏRGİZ ƏLİYEVA: BİRİNCİ DÜNYA MÜHARİBƏSİ İLLƏRİNDƏ NEFT REGİONLARI UĞRUNDA HƏRBİ – SİYASİ MÜBARİZƏ................................................ 62

SAİDƏ İSMAYILZADƏ: HUN DÖVLƏTİNİN PARÇALANMASINDAN SONRA CƏNUB ŞƏRQİ AVROPADA MƏSKUNLAŞMIŞ TÜRK XALQLARININ SONRAKI İNKİŞAFINA DAİR.................................................................................................... 66

NƏRGİZ HACIYEVA: XIX ƏSRİN SONU-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ BAKI NEFT SƏNAYESİNİN ÜMUMİ DURUMU HAQQINDA.................................................... 70

NƏRMİN İSMAYILOVA: OSMANLI XARİCİ İŞLƏR NAZİRLİYİNDƏ QABRİEL NORADUNKYANIN FƏALİYYƏTİ...................................................................... 76

ШАБАНОВА ХАЯЛЯ: ИЗУЧЕНИЕ ПРОБЛЕМЫ ДЕЯТЕЛЬНОСТИ КАВКАЗСКИХ ЛЕГИОНОВ НА СТОРОНЕ ТРЕТЬЕГО РЕЙХА В СОВРЕМЕННОЙ ИСТОРИОГРАФИИ........ 80

ƏLVİDA RƏHİMOV: AXISQA (MESXETİ) TÜRKLƏRİNİN DEPORTASİYASI VƏ ONUN NƏTİCƏLƏRİ........ 85

## İQTİSADİYYAT

ŞƏFA ƏLİYEV: AĞDAM VƏ FÜZULİ RAYONLARINDA POSTKONFLİKT ƏRAZİLƏRİNİN İNTENSİV İNKİŞAFININ QARABAĞIN DİRÇƏLDİLMƏSİNDƏ STRATEJİ ƏHƏMİYYƏTİ........ 89

ZİBEYDƏ ŞƏKƏRƏLİYEVA: QEYRİ-NEFT SEKTORUNUN İXRAC POTENSİALININ ARTIRILMASINDA GÖMRÜK-TARİF TƏNZİMLƏNMƏSİNİN VƏ DÖVLƏT DƏSTƏYİ MEXANİZMLƏRİNİN ƏHƏMİYYƏTİ........ 95

ATA BABAYEV: AZƏRBAYCANIN NEFT SAHƏSİNDƏ EKOLOJİ-İQTİSADİ PROBLEMLƏRİN HƏLLİNDƏ DÜNYA TƏCRÜBƏSİNİN MÜTƏRƏQQİ ROLUNUN TƏDQİQİ........ 100

NİGAR HACIYEVA: AZƏRBAYCANDA QEYRİ-NEFT SEKTORUNUN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR VƏ ONLARIN QİYMƏTLƏNDİRİLMƏSİ........ 104

SEVİNC ƏLİYEVA: REGİONLARDA FƏALİYYƏT GÖSTƏRƏN OLİMPİYA İDMAN KOMPLEKSLƏRİNDƏN SƏMƏRƏLİ İSTİFADƏ OLUNMASININ STRATEJİ ƏHƏMİYYƏTİ........ 109

АСЛАН ИБРАГИМОВ: ВАЖНЕЙШИЕ АСПЕКТЫ ТЕОРЕТИКО-МЕТОДОЛОГИЧЕСКИХ ПОДХОДОВ С УЧЁТОМ РИСКОВ В ПРОЕКТАХ ГОСУДАРСТВЕННО-ЧАСТНОГО ПАРТНЕРСТВА........ 114

ELDƏNİZ MƏHƏRRƏMOV: QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZUR İQTİSADİ RAYONLARINDA AQRAR SAHƏNİN İNKİŞAFINA KONSEPTUAL YANAŞMALAR........ 119

ELNUR AĞAZADƏ: NAĞDSIZ İQTİSADİYYATIN ÖLKƏNİN İNKİŞAFINDA ROLU........ 124

## FƏLSƏFƏ VƏ SOSİOLOGİYA

MÜSLÜM NƏZƏROV: POSTQEYRİ-KLASSİK TƏHSİL İDEYASININ FƏLSƏFİ VƏ MƏDƏNİ MAHİYYƏTİ........ 128

НАЗИЛЯ МАМЕДОВА: ВЫБОР ПРАВИЛЬНОЙ СТРАТЕГИИ МОДЕРНИЗАЦИИ В СИСТЕМЕ ОБРАЗОВАНИЯ........ 133

TÜNZALƏ AĞAYEVA: AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR VƏ AİLƏ İNSTİTUTU........ 138

**Təsisçi:**
**"Kaspi" Geosiyasi Araşdırmalar Mərkəzi**

**Korrektor:**
**Leyla Binyatova**

**Dizayner:**
**Tural Hüseynov**

**Redaksiyanın ünvanı:**
**Bakı şəhəri, Fikrət Əmirov küçəsi 1**
**Tel.: (+994 12) 493 04 15**
**Faks: (+994 12) 493 04 15**
**E-poçt: strategiya.az@mail.ru**

**Tiraj: 300**
**Sifariş №91**

**"PrintMe" nəşriyyatının**
**mətbəəsində çap olunub**

**Founder:**
**"Kaspi" Geopolitical Research Center**

**Corrector:**
**Leyla Binyatova**

**Designer:**
**Tural Huseynov**

**Address of the editorial office:**
**Fikret Amirov Street 1, Baku, Azerbaijan**
**Tel: (+994 12) 493 04 15**
**Fax: (+994 12) 493 04 15**
**E-mail: strategiya.az@mail.ru**

**Number of copies printed: 300**
**Order №91**

**Published by**
**"PrintMe" publishing house**